# Azərbaycan dili

Dövlət dili

Metodik vəsait

*Dilinizin zənginliyi – oxuduğunuzdan, oxuduğunuz – seçiminizdən, seçim isə daxilinizdən asılıdır!*




8

SAMİRƏ BEKTAŞİ
YEGANƏ ABDULLAYEVA

*Ümumi təhsil müəssisələrinin* **8**-*ci sinifləri üçün*

# Azərbaycan dili

(DÖVLƏT DİLİ)

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


Giriş ........ 4
Dərsliyin komponentləri və strukturu ........ 6
Məzmun standartları və onların şərhi ........ 9
Ümumtəhsil məktəblərinin VII sinfi üçün Azərbaycan dili fənni üzrə
məzmun standartları ........ 18
İllik planlaşdırma nümunəsi ........ 19
Qiymətləndirmə ........ 23

**I BÖLMƏ. MƏN AZƏRBAYCAN VƏTƏNDAŞIYAM**

1. Layihə: "Mən Azərbaycan vətəndaşıyam". Məktub ........ 36
2. Arayış ........ 38
3. Vətəndaş ........ 41
4. Vətəndaş ........ 43
5. Sadə, xeyirxah insan ........ 45
6. Sadə, xeyirxah insan ........ 48
7. KSQ ........ 49
8. Zivərin uğur hekayəsi ........ 52
9. Zivərin uğur hekayəsi ........ 55
10. Laçınla Şuşanın söhbəti ........ 56
11. Laçınla Şuşanın söhbəti ........ 58
12. Ani qərar ........ 59
13. Ani qərar ........ 61
14-15. Komiks əsasında mətnin tərtib edilməsi ........ 63
16. KSQ ........ 66
17. Bölmənin yekunu ........ 67

**II BÖLMƏ. BİLİK VƏ TEXNOLOGİYA**

1. Layihə. "Bilik və texnologiya" ........ 70
2. Səkkiz hərf ........ 71
3. Səkkiz hərf ........ 74
4. Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir ........ 75
5. Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir ........ 78
6. Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir ........ 79
7. KSQ ........ 83
8. Xəyal və reallıq ........ 86
9. Xəyal və reallıq ........ 88
10. Nəsihət ........ 90
11. Nəsihət ........ 91
12. Texnologiya çağının bəlası: tənbəllik ........ 94

13. Texnologiya çağının bəlası: tənbəllik ........ 97
14. Texnologiya çağının bəlası: tənbəllik ........ 99
15. Şəhidlər unudulmur ........ 101
16. KSQ ........ 102
17. Bölmənin yekunu ........ 106

## III BÖLMƏ. MİLLİ-MƏNƏVİ DÜNYAMIZ

1. Layihə – “Multikultural dəyərlər” ........ 109
2. Multikulturalizm və tolerantlıq ........ 110
3. Tolerantlığın ünvanı Azərbaycan ........ 111
4. Tolerantlığın ünvanı Azərbaycan ........ 112
5. Tolerantlığın ünvanı Azərbaycan ........ 114
6. İsgəndərin şimal səfəri ........ 116
7. İsgəndərin şimal səfəri ........ 117
8. İsgəndərin şimal səfəri ........ 118
9. KSQ ........ 120
10. Bayatı-İsfahan ........ 122
11. Bayatı-İsfahan ........ 124
12. Bayatı-İsfahan ........ 125
13. Qardaşlar ........ 126
14. Qardaşlar ........ 129
15. Bayram axşamı ........ 130

## IV BÖLMƏ. MƏKTƏB EKOLOGİYA UĞRUNDA

1. Layihə: “Kainat və təbiət” ........ 133
2. Kibrit çöpü ........ 136
3. Kibrit çöpü ........ 140
4. Təmiz hava – sağlam insan ........ 141
5. Təmiz hava – sağlam insan ........ 143
6. Təmiz hava – sağlam insan ........ 145
7. KSQ ........ 147
8. Çörək ........ 150
9. Çörək ........ 151
10. Dayanıqlı inkişaf ........ 153
11. Dayanıqlı inkişaf ........ 155
12. Dayanıqlı inkişaf ........ 157
13. Təbiət ilhama çağırır məni ........ 158
14. Təbiət ilhama çağırır məni ........ 160

# Giriş

Ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan dili (dövlət dili kimi) fənninin milli təfəkkürün formalaşmasında böyük rolu olmaqla yanaşı, həm də təlim digər dillərdə aparılan məktəblərdə şagirdlərin ünsiyyət qurmaq və nitq vərdişlərinə yiyələnmək, müxtəlif mövzularla bağlı öz fikirlərini bildirmək üçün dil bacarıqlarına yiyələnməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Azərbaycan dilini öyrənmək bu dildə olan mətbuat orqanlarını – ədəbiyyatı, qəzet və jurnalları oxuması, bədii və digər ədəbiyyat nümunələrini oxuması, televiziya verilişlərinə baxması, radio verilişlərini dinləməsi, müxtəlif informasiya mənbələri vasitəsilə əldə etdikləri məlumatı anlamaları üçün şagirdə imkan yaradır. Ümumtəhsil məktəblərində şagirdlər Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətləri üzrə müvafiq nitq və yazı vərdişlərinə, oxuyub-anlama, dinləyib-anlama bacarıqalrına yiyələnir, fikirlərini şifahi və yazılı şəkildə ifadə etməyi öyrənirlər.

Azərbaycan dili fənni şagirdlərdə müzakirə, diskussiya və debatlarda, oxunan və dinlənilən mətnin müzakirəsində məntiqi, tənqidi və yaradıcı təfəkkürünün formalaşmasında böyük əhəmiyyətə malikdir. Hər hansı bir fikir, anlayış və problemli situasiya ətrafında araşdırma aparıb, sinifdə mövzu ilə bağlı müzakirə edən, yoldaşlarının fikirlərinə münasibət bildirən, müxtəlif üslublarda olan mətnləri oxuyan şagirdlərdə fikir yürütmə, izahetmə, şərhetmə, müqayisə etmə, fərqləndirmə, analiz etmə, yenisini yaratma, dəyərləndirmə və digər bu kimi bacarıqlar formalaşır. Ümumtəhsil məktəblərinin təlim digər dillərdə olan bölmələrinin 8-ci sinifləri üçün hazırlanmış Azərbaycan dili dərsliyi müvafiq fənn üzrə məzmun standartları əsasında tərtib edilmişdir.

Dərsliyin dörd bölməsində qruplaşdırılmış mətnlərin müxtəlif üslublarda (bədii, publisistik, rəsmi-işgüzar, qismən elmi) olması diqqət mərkəzində saxlanmışdır. Mətnlər məzmun baxımından qruplaşdırılmış və məzmuna uyğun olaraq adlandırılmış, müvafiq bölmədə yerləşdirilmişdir. Məzmun standartlarının reallaşdırılması məqsədilə bölmədə mətnlərə uyğun olaraq müxtəlif oxu, lüğət üzərində iş aparmaq üçün qrammatik tapşırıqlar qoyulmuşdur. Bu tapşırıqlar təkcə məzmunu mənimsəməyə xidmət etmir, eyni zamanda, şagirdlərdə yalnız oxu deyil, həm də şüurlu, düzgün və ifadəli oxu bacarıqlarının formalaşmasına, zəruri dil qaydalarının öyrənilməsinə, onlarda lüğət ehtiyatının zənginləşdirilməsinə, öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə etməyə istiqamətləndirmiş olur.

Mətn üzərində iş aparmaq üçün dərslikdə aşağıdakı ardıcıllıq gözlənilmişdir:

- Mətnin orfoqrafiya və orfoepiyası üzərində iş aparılır;
- Mətnin oxusu (müxtəlif üsullarla) təşkil edilir (Oxu orfoqrafiya və orfoepiya tapşırıqlarından əvvəl və ya sonra da icra edilə bilər. Bu, müəllimin qurduğu dərsdən asılıdır.);
- Mətnin məzmun və ideyası üzərində iş aparılır;
- Mətnin lüğət tərkibi üzərində iş aparılır;
- Mətnlə bağlı qrammatik tapşırıqlar, qrammatik qaydaların tətbiqi üçün çalışmalar verilir.
- Yazı məzmun xəttinin tələblərini icra etmək üçün mövzu, mətnin ideyası, toplanılmış məlumat və s. ilə bağlı şagirdlərə inşa, esse, hekayə yazmaq, təqdimat hazırlamaq, rəsm işi çəkmək və s. təqdim olunur.

Qeyd. Rabitəli mətnlər, komiks, təqdimatlar hazırlamaq, inşa və esse yazmaq üçün dərslikdə şagirdlərə müxtəlif planlar təqdim olunmuş, təlimat və istiqamətlər verilmişdir. Qeyd etmək lazımdır ki, verilən planlar nümunədir. Müəllim mövzu əsasında plan tərtib etməkdə, yaxud planın tərtib edilməsini şagirdlərə tapşırmaqda sərbəstdir. Müxtəlif mövzularla bağlı araşdırma və tədqiqat aparılması, sorğunun keçirilməsi, müsahibənin təşkili 5-7-ci sinif dərsliklərində olduğu kimi, 8-ci sinifdə də diqqətdə saxlanılmışdır.

Araşdırma, tədqiqatın aparılması, sorğu və müsahibələrin keçirilməsi şagirdlərdə əvvəlki illərdə məlumatın toplanılması, sual tərtibetmə, təqdimetmə, toplanılan məlumatın ümumiləşdirilməsi, nəticələrin müxtəlif formalarda təqdimi və s. kimi formalaşdırılan bacarıqları daha da dərinləşdirir, onlara problemlərin həllində daha çevik qərar verməyə fikir yürütməyə, yoldaşlarının fikirlərini dinləməklə öz yanaşmaları ilə birlikdə ümumiləşdirməyə imkan verir. Qloballaşan dünyada sürətli inkişaf, elm və texnikanın daim yeniləşməsi müasir şagirdlərdə bu bacarıqların formalaşdırılmasını zəruri edir. Əv-

əvəlki siniflərdə şagirdlərlə bu istiqamətdə fəaliyyət təşkil edilmişsə, mövzu ilə bağlı sorğuların, müsahibələrin keçirilməsi onlar üçün çətinlik törətməyəcəkdir.

Savadlı şəxslərin – mühəndis, inşaatçı, ədəbiyyatçı, jurnalist, müxbir və digər peşə sahiblərinin yetişdirilməsi cəmiyyət üçün ən böyük qazancdır. Bu savadın və bacarığın əsası ailə ilə yanaşı, məktəbdə qoyulur. Tədris posesinə valideynlərin, müvafiq ixtisas sahiblərinin, mövzu ilə bağlı cəmiyyətin inkişafında öz sözünü demiş şəxslərin, məktəb psixoloqlarının və pedaqoji heyətin digər müvafiq əməkdaşlarının cəlb edilməsi gözlənilən səmərəli nəticəni verməklə yanaşı, həm də məktəb–şagird–valideyn üçbucağının qurulmasında, şagirdin cəmiyyətə adaptasiyasında və gələcəkdə öz yerini tapmasında böyük praktik əhəmiyyətə malikdir.

Araşdırmaların təşkili üçün müəllimin sinfə müxtəlif resurslar gətirməsi məqsədəmüvafiqdir. Kompüterlə təmin edilmiş siniflərdə şagirdlərin müəllimin nəzarəti altında internetdən müvafiq materialların axtarışına yönəldilməsi mümkündür. Texniki vasitələrin olmadığı siniflərdə məktəb kitabxanasından, müəllimin, hətta şagirdlərin hazırladığı əlavə resurslardan istifadə etmək olar.

Şagirdlərin özlərini qiymətləndirməsi, öz davranış və baxışları ilə yanaşı, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarının fikirlərinə, düşüncə tərzinə münasibət bildirməsi, onların və özünün fikirlərini təhlil etməsi, arqument gətirməsi, situasiyanı təhlil etməsi üçün də tapşırıqlar verilmişdir. Fərdi qaydada icrası daha məqsədəmüvafiq hesab edilən bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm də yaşıdlarını, ətraf mühiti təhlil və tədqiq etməyə imkan verir. Dərslikdə müxtəlif illüstrasiya, rəsm işi və fotolardan istifadə olunmuşdur. Şagirdlərə şəkillər üzərində iş aparmaq əvvəlki sinifdə də təklif olunmuşdu. Bu, 8-ci sinifdə də davam etdirilir. Şəkillərin təhlili, mətnin məzmununa uyğunluğu, rəsm və ya foto olması, rəng çalarları, şəkillər vasitəsilə çatdırılan fikrin müəyyən edilməsi, şagirdin özünə mövzu ilə bağlı rəsm və ya fotonun çəkilməsinin tapşırılması onlarda təsviretmə, əlaqələndirmə, müqayisəetmə, yenisini yaratma kimi bacarıqların formalaşdırılmasına imkan yaradır. Dərslik boyu bələdçi obrazlar (*onlar real fotolardır və dərsliyə daxil edilməsi üçün valideynlərlə razılaşdırılmışdır*) şagirdlərlə müzakirə aparacaq, onlara suallar verməklə mövzunun (mətnin) mahiyyətini anlamağa, tapşırıqları icra etməyə istiqamətləndirəcəkdir. Dərslikdə şagirdlərə icra etmək üçün 4 layihə verilmişdir. Bu sinifdə təqdim edilmiş layihə maraqlı süjet üzərində qurulmuşdur: şagirdlər Türkiyə Respublikasında "Mən vətəndaşam" devizi altında keçiriləcək mədəniyyət və incəsənət günlərinə dəvət olunur, onlara təmsil etdikləri ölkənin zəngin tarixi, mədəniyyəti, incəsənət sahələri ilə çıxış etmək təklif olunur. Şagirdlər təqdim olunan mövzular ətrafında müzakirələr təşkil edir, araşdırma aparır, müvafiq təqdimatlar hazırlayırlar. Layihələr "Mən vətəndaşam", "Bilik və texnologiya", "Mənəvi dəyərlər", "Kainat və təbiət" adlanır.

Layihələrdə Azərbaycan Respublikasına hörmət və məhəbbət hissi, azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik hissi, kitab və mütaliənin əhəmiyyəti, ailədə və məktəbdə oxunun düzgün təşkili və səmərəsi, texnoloji vasitələrdən istifadənin fayda və zərərləri, ətraf mühitə münasibət, Azərbaycanın flora və faunasının qorunması, sağlam və təhlükəsiz həyat, 44 günlük Vətən müharibəsi və qazanılan parlaq qələbə, ailə-məktəb münasibətlərinin düzgün qurulması və s. bu kimi məsələlər diqqətdə saxlanılmışdır. Bu layihələr şagirdlərə təkcə öz ölkələrinə deyil, digər ölkələrin də adət və ənənələrinə, həyat tərzinə, dünyagörüşünə hörmətlə yanaşmağı təbliğ edir. III bölmədə şagirdlərə multikulturalizmin dəyərləri öyrədilir, Azərbaycan tolerant ölkə kimi təqdim edilir. Layihələr şagirdlərdə başladığı işi sona çatdırmaq, hədəfləri düzgün müəyyən etmək, hədəfə çatmaq üçün atılacaq addımları, görüləcək işləri düzgün müəyyənləşdirməkdə yardımçı olur.

8-ci sinifdə də, əvvəlki illərdə olduğu kimi, QR kodlardan istifadə edilmişdir. Bəzi dərslərdə şagirdləri əlavə tədqiqatlara, mövzu ilə bağlı əlavə məlumat almaqdan ötrü internet resurslarına yönəltmək üçün QR kod (küar kod) vasitəsilə təqdim edilən animasiya və səsləndirmələrdən istifadə edilmişdir. Şagirdlər müəllimin tapşırığı əsasında və qurulan dərsdən asılı olaraq təlim prosesində və ya dərsdən sonra telefon vasitəsilə QR kodları skan etməklə müvafiq materiallarla tanış ola biləcəklər.

Bu sinifdə, ilk dəfə olaraq, komiksin və onun əsasında mətnin tərtib edilməsi ilə bağlı şagirdlərə məlumat və plan verilmişdir.

Dərsliyin sonunda lüğət verilmişdir. Bu lüğətdən istifadə etməklə şagirdlər oxuyacaqları mətnlərdə rast gəldikləri və mənası onlara tanış olmayan sözlərin ifadə etdiyi leksik mənanı müəyyən edə biləcəklər.

# Dərsliyin komponentləri və strukturu

Azərbaycan dili dərslik komplektinə daxildir:

*1. Dərslik; 2. Müəllim üçün metodik vəsait*

Dərslik 4 bölmədən ibarətdir:

I bölmə – **"Mən Azərbaycan vətəndaşıyam"**
II bölmə – **"Bilik və texnologiya"**
III bölmə – **"Milli-mənəvi dünyamız"**
IV bölmə – **"Məktəb ekologiya uğrunda"**
I və II bölmələrin tədrisi I yarımildə, III və IV bölmələrin tədrisi II yarımildə nəzərdə tutulmuşdur.

Əvvəlki illərdə olduğu kimi, 8-ci sinifdə də hər bölmənin əvvəlində onu adı, şagirdlərin bölmədə tanış olacaqları mətnlər; növbəti səhifədə layihənin adı və mövzuya uyğun şeir, yaxud görkəmli şəxslərin mövzu ilə bağlı sitatları, bələdçi obrazın özünü təqdim etməsi və araşdırılacaq mövzularla bağlı ümumi təsəvvür yaratmaq üçün onun verdiyi müəyyən sual və tapşırıqlar vardır. Bu suallar tədris prosesində müzakirə nəticəsində şagirdlər tərəfindən cavablandırılır.

Bölmədəki mətnlər öyrənildikcə şagirdlərin mövzu ilə bağlı hansı məlumata malik olduqları öyrənilir, onların həmin mövzu ilə bağlı bilikləri dərinləşdirilir. Bölmənin sonunda şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir və yekunlaşdırılır. Şagirdlərin bölmə tədris edilməmişdən əvvəl söylədikləri fikirlərlə sonrakı fikirlərinin müqayisəsinin aparılması onların dünyagörüşündə, fikirlərində əmələ gələn dəyişikliyin və inkişafın müşahidə edilməsi baxımından əhəmiyyətlidir. Hər bölmənin sonunda şagird mövzu ilə bağlı bildiklərini yekunlaşdırır və fikirlərini ümumiləşdirir. Bölmələr layıhələr şəklində öyrənilir. Bu qısamüddətli layihələrin icrası şagirdlərdə öyrənilən məlumatın emal edilməsi, sistemləşdirilməsi, şərh və izah etməsi, yekunlaşdırılması və təqdim edilməsi kimi bacarıqlar formalaşdırmaqla yanaşı, onları həm də dərinləşdirir.

**I bölmədəki** ideyanın və məzmunun öyrənilməsi üçün, ilk növbədə, "Mən vətəndaşam!" ifadəsinin mahiyyəti üzərində iş aparılır. Bu ifadə ilə bağlı şagirdlərin fikirləri öyrənilir, yeri gəldikcə müəllimin fikir və mülahizələri, düşüncə və istqamətləri şagirdlərin fikirlərinə əlavə edilir və fikirlərin müqayisəli təhlili aparılır. Şagirdlərə "Vətəndaşlıq nədir?", "Milli mənsubiyyət dedikdə nə nəzərdə tutulur?" və s. suallarla müraciət edilir. Bu suallara cavab vermək üçün şagirdlərin ilkin fikirləri dinlənilir, sonra bölmədəki materiallarla tanış olmaq, mətnləri öyrəndikcə hər mətndən açar cümləni müəyyən etmək, bölmənin sonuna doğru fikir, mülahizə və düşüncələrini ümumiləşdirib vahid nəticəyə gəlmək tövsiyə edilir.

"Məktub" mətni əvvəlki illərdə məktub və onun yazılması qaydalarını şagirdlərə xatırlatmaqla yanaşı, layihənin məqsədi və icrası üçün ilkin addımdır. Bu məktub şagirdlərdə dostluq və qardaşlıq, səmimi münasibətlər, qonşu ölkələrdə yaşayan həmyaşıdları ilə ünsiyyəti formalaşdırmaqla yanaşı, həm də layihənin məqsədini açıqlayır. Şagirdlər mətnləri öyrəndikcə vətəndaşlıq və vətəndaşlıq hissinin nə olduğunu analyır, araşdırmalar aparır, təqdimatlar hazırlayırlar. Bu layihə şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılması baxımından əhmiyyətlidir. Şagirdlərin mövzu ilə bağlı fikirlərini dərinləşdirmək üçün "Vətəndaş" mətni təqdim edilir. Mətn və mətn əsasında hazırlanmış suallar şagirdlərdə mövzu ilə bağlı şagirdlərdə müvafiq fikirlər formalaşdıracaqdır.

Mövzunun davamı və orada ifadə edilən fikirlərin təsdiqi və davamı olaraq "Sadə, xeyirxah insan" mətni təqdim edilir. Mətn xatirə ədəbiyyatı nümunəsidir və Üzeyir Hacıbəylini əsil vətəndaş kimi təqdim edir. Ü.Hacıbəyli xalqının istedadlı balalarına arxa durur, onların formalaşması və fəaliyyət göstərməsi üçün əlindən gələni əsirgəmir. Onların şagirdlərinə qayğısı, öyüd və nəsihətləri Vətən və vətənpərvərlik tərbiyəsinin, vətəndaşlığın bariz nümunəsidir.

"Zivərin uğur hekayəsi" mətni də vətənpərvər ailələr, onların yetişdirdiyi övladalrın vətənə verdiyi töhfədən danışılır. Həm "Zivərin uğur hekayəsi, həm də "Sadə, xeyirxah insan" mətni şagird-müəllim, ailə-məktəb münasibətlərinin düzgün qurulması baxımından əhəmiyyətlidir.

“Laçınla Şuşanın söhbəti” mətni ilə 44 günlük Vətən müharibəsinin başlanma səbəblərinə işarə edilir, mövzu əsasında müxtəlif sual və tapşırıqlar təqdim edilir. “Ani qərar” mətni vasitəsilə prezidentin qəti addımları, onun komandanlığı altında ordumuzun qələbə çalması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı şagirdlərin fikirləri və bildiyi məlumatlar soruşulur və onların fikirləri mətndə təsvir edilən hadisələrlə əlaqələndirilir.

Bu mətnlər şagirdlərdə müzakirə edilən məsələlərlə bağlı fikir söyləmə, şərhetmə, mühakimə yürütmə, münasibət bildirmə bacarığının formalaşdırılması baxımından əhəmiyyətlidir. Sonuncu mövzu komiks əsasında mətnin tərtib edilməsi mövzusudur. Bu dərsdə komiksin nə olduğu və hazırlanma qaydaları şagirdlərə öyrədilir, şəkillər təqdim olunur. Şəklə, oradakı təsvirlərə və şəklin üzərindəki yazılara əsasən şagirdlər mətn tərtib edirlər. Komiks müharibə mövzusuna həsr olunmuşdur. Mətn vasitəsilə təqdim olunan əsas fikir təkcə böyüklərin deyil, kiçiklərin də Vətəni qorumaq üçün öz bacarığını əsirgəməməsi, mübarizə aparması fikrinin təbliğidir.

Əvvəlki ildə şagird hər mətndən açar cümlələr əldə etməklə sonda fikirlərini yekunlaşdırır və layihənin ideyasını müəyyən edirdi. Bunun üçün dərslikdə xüsusi istiqamətləndirici lövhəciklər də təqdim olunmuşdu. Şagirdin yaş səviyyəsi nəzərə alınaraq bu il dərslikdə həmin lövhəciklərin verilməsi məqsədəmüvafiq hesab edilmədi. Lakin əvvəlki ildə olduğu kimi, 8-ci sinifdə də şagirdlər hər mətnin ifadə etdiyi əsas fikri müəyyən etməli, vahid fikir formalaşdırmaq üçün açar cümlələri tapmalıdırlar. Layihənin yekununda şagird həmin fikirləri birləşdirir və bölmə ilə bağlı vahid fikir formalaşdırır. Bu, şagirdlərdə baş vermiş hadisələrə yekun münasibət bildirmə, əlaqələndirmə və ümumiləşdirib təqdim etmə bacarıqları formalaşdıracaqdır.

Bölmədə dinləmə mətnləri üzərində iş aparmaq üçün suallar verilmiş, dinləmə mətnləri isə MV-də cari planlaşdırma nümunələrinin tərkibində yer almışdır.

Mətnlərdən sonra 4 məzmun xətti – “Dinləyib-anlama”, “Oxu”, “Danışma” və “Yazı” üzrə standartların reallaşdırılmasını təmin edən tapşırıqlar verilmişdir. Bölmədəki mətnlərə əsasən tərtib edilmiş sual və tapşırıqlar şagirdlərin yaş və qavrama səviyyələri nəzərə alınmaqla tərtib edilmişdir. Layihənin yekunlaşdırılması bölmənin əvvəlində qarşıya qoyulan məqsədlərin sonlandırılması üçündür. Əvvəlki illərdən fərqli olaraq layihənin sonlandırılması üçün sual və tapşırıqlar dərslikdə deyil, MMV-də verilmişdir.

“Yazı” məzmun xəttini reallaşdırmaq üçün şagirdlərə bu bölmədə əməli yazı nümunəsi – arayış haqqında məlumat və ona nümunə verilmişdir. Şagirdlər arayışa verilmiş nümunə ilə tanış olur, müəyyən mövzuda arayış hazırlamağa cəlb edilirlər.

I bölmədə şagirdlərə məntiqi vurğu və cümlə üzvləri barədə məlumat verilmiş, müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunmuşdur. Bölmənin sonunda şagirdlər mövzuya uyğun olaraq “sərgidə nümayiş etdirmək” üçün hansı təqdimatların hazırlanmasını müəyyən edir. Bu, hər bölmənin sonunda icra edilir.

**II bölmə** “Bilik və texnologiya” adlandırılmışdır. Bölmə məntiqi baxımından I bölmənin davamıdır. I bölmədə şagird “Mən Azərbaycan vətəndaşıyam” sərgisində təqdim etmək üçün kim və nə haqqında danışmaq və təqdimat hazırlamaq üçün araşdırmalar aparır, müzakirələr təşkil edir və çıxışa hazırlaşır. II bölmədə şagird məlumatı necə, haradan, hansı vasitələrlə əldə etmək üçün yollar arayır. Texnologiyanın biliyin əldə edilməsindəki rolunu dəyərləndirir, texnoloji vasitələrdən səmərəli istifadə etməyin yollarını, faydalı və zərərli tərəflərini öyrənir.

I bölmədə olduğu kimi, bu bölmədə də mətnlərin məntiqi ardıcıllığı, birinin digərinə başlanğıc verməsi diqqətdə saxlanılmışdır. İlk mətn “Səkkiz hərf” adlanır. Çox kiçik olsa da, bu mətn şagirdlərdə özünəinam hissi formalaşdırır, onlarda bacaracağına inam formalaşdırır.

“Kİtab cəmiyyəti yönləndirən tərbiyəçidir”, “Xəyal və reallıq”, “Nəsihət”, “Texnologiya çağının bəlası: tənbəllik” mətnləri şagirdlərdə mövzu haqqında əhəmiyyətli fikir formalaşdırır. Bu bölmədə şagirdlərə kitab oxumağın faydaları, mobil telefon və kompüterdən həddindən çox istifadə etməyin zərərləri, asılılıq kimi ziyanlı xüsusiyyətlər və vərdişlər haqqında məlumat verilir və müzakirələr təşkil edilir.

Eyni prinsip və yanaşmanın gözləndiyi bu bölmədə şagird mövzu ilə tədqiqat və araşdırma aparır, təkliflər verir, müzakirə olunan mövzularla bağlı mülahizələrini bildirir. Bu prosesə valideynlərin cəlb

edilməsi, şagirdlərin bacarıqları üzrə istiqamətləndirilməsində birgəfəaliyyət səmərəli nəticələr verə bilər.

Müəllim hər iki bölmə arasında əlaqə yaratmaq üçün müvafiq suallar verə bilər.

I bölmədə olduğu kimi, burada da zəruri dil qaydaları, dil qaydalarını tətbiq etmək üçün çalışmalar, yazı tapşırıqları verilmişdir.

Rabitəli yazı vərdişlərinin formalaşdırılması üçün I bölmədə olduğu kimi,

II bölmədə də mövzuya uyğun müxtəlif yazı nümunələrinin işlənib-hazırlanması, sorğular və müsahibələr, diaqramlar əsasında mətnlərin yazılması üçün müxtəlif tapşırıqlar verilmişdir. Yazılan hekayə, inşa və esselərin çox sadə, yığcam olması üçün şagirdə istiqamət və lazımi göstərişlər öz əksini tapmışdır. Bu bölmədə, həmçinin şagirdlərə ikinci dərəcəli cümlə üzvləri, təyin, tamamlıq, zərflik haqqında zəruri informasiyalar verilmiş, qaydaların tətbiqi üçün çalışmalar təqdim olunmuşdur.

II bölmədə müəllimlərə iki Kiçik Summativ Qiymətləndirmə nümunəsi təqdim olunmuşdur.

**III bölmə** "Milli-mənəvi dünyamız" adlanır. Hər üç bölmə arasında sıx əlaqə vardır. Azərbaycan vətəndaşı savad və biliklə yanaşı, həm də milli-mənəvi dəyərlərə sahib olmalıdır. Bu bölmədə daha çox multikultural dəyərlərə toxunulmuş, tolerantlıq ön plana çəkilmiş, Azərbaycan tolerant ölkə kimi təqdim olunmuşdur. Bölməni müşayiət edəcək obrazlar Azərbaycanda yaşayan azlıqda olan xalqların nümayəndələridir. Azərbaycan Respublikasının Konstitusiyasından bərabərlik hüququ (maddə 25) və milli mənsubiyyət hüququ (maddə 44) ilə bağlı maddələr təqdim olunmuş və müvafiq suallar verilmişdir.

"Multikulturalizm və tolerantlıq" başlıqlı dərsdə şagirdlər araşdırmaya cəlb edilir, hər iki anlayışın fərqini və oxşar cəhətlərini müəyyən edirlər. Araşdırma aparmaq üçün şagirdlərə plan, həm də suallar təklif edilmişdir.

"Tolerantlığın ünvanı Azərbaycan" mətnində multikulturalizmin mahiyyəti açılır, Azərbaycan həm də azlıqda qalan xalqların vətəni və polietnik dövlət kimi təqdim olunur. Nizami Gəncəvinin "İsgəndərnamə" poemasından götürülmüş "İsgəndərin şimal səfəri" hissəsində şair dünya fatehini şimal ölkəsinin ağsaqqalları ilə qarşılaşdırır və onlara hörmət göstərir, onlardan öyrənir. Bu, Nizaminin yaradıcılığına xas xüsusiyyətdir. O bütün əsərlərində digər xalqların nümayəndələrinə və onların adət-ənənələrinə hörmətlə yanaşır.

"Bayatı-İsfahan" mətni ilə də eyni məsələlər, müxtəlif xalqların musiqisinə olan hörmət və diqqət ön plana çəkilir, "Qardaşlar" və "Bayram axşamı" mətnləri vasitəsilə multikultural dəyərləri özündə ehtiva edən xalqımızın milli bayramı Novruz, onun adət-ənənələri haqqında danışılır.

Bölmədə verilmiş mətnlər şagirdlərdə dürüstlük və düzgünlük, dözümlülük, mərhəmət, xeyirxahlıq, öz xalqının və digər xalqların nümayəndələrinə hörmətlə yanaşmaq, səbir, təmkin etdiyi yaxşılıqlardan insanların bəhrələnməsi, hamının faydalana biləcəyi işlər görmək, əldə ediləndən düzgün və faydalı istifadə etmək, dostluq və qardaşlıq şəraitində dinc yanaşı yaşamaq kimi xüsusiyyətləri formalaşdırmaq baxımından əhəmiyyətlidir. Mətnlərdən sonra verilmiş tapşırıqlar ideya və məzmunun açılmasına xidmət edir. Əvvəlki bölmələrdə olduğu kimi, burada da dinləmə, oxu, danışma və yazı məzmun xətlərini əlaqələndirmək üçün müvafiq tapşırıqlar işlənib-hazırlanmışdır.

Bölmədə iki KSQ nümunəsi verilmişdir.

**IV bölmə** "Məktəb ekologiya uğrunda" adlanır. Əvvəlki sinifdə şagirdlərə öyrədilmişdi ki, vətən tərbiyəsi, peşə seçimi tərbiyəsi kimi ekologiya tərbiyəsinin də əsası ailədə qoyulur. Bu il artıq şagirdlər məktəblə bilikdə ekologiyanın qorunmasında fəal iştirak edir, müxtəlif çağırışlarla həmyaşıdlarına müraciət edirlər. Belə ki Vətənini düşünən, onun layiqli vətəndaşı, mütəxəssisi olmaq istəyən şəxs sağlam və təhlükəsiz həyatı yaşamaq üçün planetin gələcəyini düşünməli, onun ekoloji təmiz saxlanmasının qayğısına qalmalıdır. Bölmədə verilmiş "Kibrit çöpü", "Təmiz hava – sağlam insan", "Çörək", "Təbiət ilhama çağırır məni" mətnləri şagirdlərdə təbiətə sevgi, qayğı oyadır, veriləcək düzgün istiqamət onları ekologiyanı və təbiəti tullantılarla çirkləndirməməyə, təbiətin nizamını pozmamağa çağırır.

Bilirsiniz ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təs-

diqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Bu ilki dərslikdə dayanıqlı inkişafın nə olduğunu şagirdlərə öyrətmək məqsədilə mətn salınmış, şagirdləri araşdırmaya cəlb etmişlər.

Əvvəlki bölmələrdə olduğu kimi, bu bölmədə də 4 məzmun xəttinin tələblərini nəzərə alınmaqla tapşırıqlar hazırlanmış və şagirdlərə təqdim olunmuşdur. 3 və 4-cü bölmələrdə şagirdlər xitab, həmcins üzvlü cümlələr, ara sözlər haqqında yığcam məlumat alır, onlarda durğu işarələrinin işlənməsi qaydaları ilə tanış olurlar. Bu dərslikdə də əməli yazı nümunələrinin öyrədilməsi diqqətdə saxlanılmış, 4.1.4. standartının tələbinə uyğun olaraq arayış və protokol haqqında şagirdlərə məlumat verilir.

Bu bölmədə də müəllimlər üçün iki KSQ nümunəsi təqdim edilmişdir.

Qeyd. KSQ-də tapşırıqların sayını artırmaq, onların formasını dəyişmək və analoqlarını hazırlamaqda müəllim sərbəstdir.

# Məzmun standartları və onların şərhi

## DİNLƏMƏ

Dinləmə şifahi nitqin eşidilməsi və qavranılmasıdır. Şagird mövzu ilə bağlı müxtəlif mənbələrdən məlumatı dinləyir, lazım olan informasiyanı seçir, qeydlər aparır. Dinlədiyi mətndə əsas fikri, lazım olan faktları seçməyi bacarır, həmin fikir və faktlar ətrafında mülahizələr yürüdür.

Müəllim dərslikdə dinləmə mətnləri üzrə təqdim olunmuş sualların cavablandırılması üçün şagirdə mətni dinləyərkən diqqətli olmağı tövsiyə etməlidir.

***Dinləmə mətnləri üzərində işləyərkən şagirdlər aşağıdakıları bacarmalıdır:***

- dinlədiyi mətnin giriş hissəsini müəyyən edir;
- dinlədiyi mətnin əsas hissəsini müəyyən edir;
- dinlədiyi mətnin nəticə hissəsini müəyyən edir;
- dinlədiyi mətnin məzmununu izah edir;
- mətnin məzmununa münasibət bildirir;
- mətndəki əsas fikri müəyyən edir;
- mətndəki hadisələrə münasibət bildirir;
- mətndəki obrazlara münasibət bildirir;
- sözlərin düzgün tələffüzünə diqqət yetirir;
- mətnlə bağlı suallara cavab verir;
- dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir;
- mətndən lazım olan faktları seçir;
- mətndəki fakt və hadisələri fərqləndirir;
- mətndəki fakt və hadisələri ümumiləşdirir;
- mətndən açar sözləri seçir;
- mətndəki söz, ifadə və cümlələrin mənasını izah edir;
- mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyən edir.

## DANIŞMA

Danışma nitq fəaliyyətidir. Şagirdlər müzakirə olunan mövzu ilə bağlı fikirlərini bildirir, müxtəlif fikirlərə münasibət bildirir, müzakirələrə qoşulur, nitqini qurur. Danışma həm dinləmə, həm də oxu mətnlərindən sonra həyata keçirilir.

Danışma bacarığı sinifdə müzakirələr zamanı formalaşır. Şagirdin fikir bildirməsi, fikirlərini ifadə etməsi üçün ona müəllim lazımi dəstəkləyici mühit yaratmalıdır.

Dərslikdə şagirdin müzakirə olunan mövzu ilə bağlı danışması, problemi müəyyənləşdirməsi və münasibət bildirməsi, müqayisələr aparması, təkliflər verməsi üçün kifayət qədər tapşırıq modelləri vardır.

Danışmanı reallaşdırmaq üçün dərslikdə şəkillər və onlar üzərində işləmək üçün suallar verilmişdir. Müəllim uyğun bildiyi digər şəkillərdən də istifadə edə bilər.

***Danışma zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:***

• sait və samitləri düzgün tələffüz edir;
• sözləri düzgün vurğu ilə tələffüz edir;
• jest və mimikalardan nitqinə uyğun istifadə edir;
• nitqində temp və ritmdən istifadə edir;
• nitqində fasilədən istifadə edir;
• fakt və hadisələri seçə bilir;
• fakt və hadisələri fərqləndirə bilir;
• fikrini əsaslandırarkən faktlardan yerində istifadə edir;
• şəkilləri təsvir edir;
• şəkillər əsasında dialoq və mətn qurur;
• mövzu ilə bağlı fikirlərini bildirir;
• fikirlərini bildirmək üçün zəruri söz və ifadələrdən istifadə edir;
• mövzu ilə bağlı cümlə (cümlələr) qurur;
• müşahidə etdiyi əşya və hadisələri şifahi təsvir edir;
• cümlələr əsasında rabitəli mətn tərtib edir;
• çatdırmaq istədiyi əsas fikri müəyyən edir;
• əsas fikrə münasibət bildirir;
• obrazlara münasibət bildirir;
• hadisələrin sonluğunu fərqli təqdim etmək üçün təkliflər verir;
• dinlədiyi və ya oxuduğu mətnin məzmununu danışır;
• məntiqi vurğudan istifadə edir;
• söz birləşmələrini və sadə cümləri düzgün tələffüz edir;
• mətnin hissələrini əlaqəli şəkildə danışır;
• müxtəlif mövqeli fikirləri ümumiləşdirir.

## OXU

Oxu müxtəlif üslubda olan mətnlərin şüurlu, düzgün və ifadəli oxusunun təşkil edilməsidir.

Oxu söz ehtiyatını artırmaqla yanaşı, şagirdlərin nitqini, özünüifadə bacarıqlarını (şifahi və yazılı şəkildə) inkişaf etdirir. Oxu düzgün, sürətli və ifadəli oxu vərdişləri formalaşdırır, fakt və hadisələri müəyyən etmək, onları qruplaşdırmaq, müqayisə etmək və s. üçün şərait yaradır. Oxu mətnləri üzərində tapşırıqlar oxudan əvvəl, oxu zamanı və oxudan sonra icra edilir.

Oxudan əvvəl şagird mətnin adına münasibət bildirir, onu adlandırır, mətndə nədən və ya kimdən danışılacağı barədə fikir yürüdür, mülahizələrini bildirir, mətnlə bağlı orfoqrafik və orfoepik tapşırıqları icra edir. Hadisələri proqnozlaşdırır, onların necə davam edəcəyi barədə öz mülahizələrini bildirir və s.

Oxu zamanı mətni düzgün, şüurlu, sürətli və ifadəli oxumağı bacarır, mətnə uyğun şəkillər əsasında danışır, şəklin məzmuna uyğunluğunu müəyyən edir, mətnlə bağlı sualları cavablandırır.

Oxudan sonra mətnin məzmununun hansı səviyyədə mənimsənildiyini (obrazlar, əsas fikir və s.) öyrənmək üçün sual və tapşırıqlar üzərində iş aparılır, mətnin sonuna yaradıcı yanaşılır.

***Oxu zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:***

• mətni intonasiya ilə oxuyur;

- oxu zamanı intonasiyanın tələblərinə əməl edir;
- oxu zamanı fasilə və tempi gözləyir;
- oxu zamanı şəkilçilərin, sözlərin və cümlələrin tələffüzünə diqqət yetirir;
- əsas nitq hissələrinin qrammatik mənasını izah edir;
- əsas nitq hissələrinin nitqdə rolunu müəyyən edir;
- mətnin tərkib hissələrini müəyyən edir;
- mətnin tərkib hissələrinin əlaqələndirilməsinə diqqət yetirir;
- mətnin tərkib hissələrinə müvafiq hadisələrə münasibət bildirir;
- oxu zamanı cümlələrarası əlaqəni müəyyən edir;
- oxu zamanı abzaslararası əlaqəni müəyyən edir.

Dərslikdə oxu üçün müxtəlif mətnlər verilmşdir. Mətnin oxusunu düzgün təşkil etmək vacibdir.

Oxu eşitmə, görmə, tələffüz, təhlil və sözün mənasına əsaslanan bir prosesdir. Oxu şagirdlərin nitqini inkişaf etdirməklə yanaşı, onlarda hadisə və anlayışlar haqqında təsəvvür yaradır, onların lüğət ehtiyatını zənginləşdirir, fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək bacarığını artırır.

Şüurlu, düzgün, sürətli və ifadəli oxu şagirdlərdə oxunmuş mətnin məzmununu müxtəlif formalarda – yığcam və geniş nəqletmə bacarığı formalaşdırır. Oxu zamanı məntiqi və tənqidi təfəkkürün inkişaf etdirilməsi üçün mətndə məntiqi əlaqələrin tapılması, əşya və hadisələrin müqayisəsi, obrazların xarakteristikası, ümumiləşdirmə və nəticələr üzərində iş aparılır.

***Mətni oxuyarkən aşağıdakıları diqqətdə saxlamaq tövsiyə edilir:***

- mətnin adı və ona münasibət bildirilməsi;
- mətnə yeni adın verilməsi və əsaslandırılması;
- mətndəki problemin müəyyənləşdirilməsi;
- mətndəki faktların seçilməsi;
- mətndə ifadə olunan fikirlərə tənqidi yanaşma;
- mətn əsasında suallar tərtib etmək;
- müəllifin fikirlərinə və mövqeyinə münasibət bildirmək.

Diqqətli oxu məzmunun mənimsənilməsi üçün vacib faktordur. Oxunun müxtəlif modelləri vardır: səsli, səssiz, sürətli oxu, qeydlər götürməklə oxu, proqnozlaşdırılmış oxu, fasiləli oxu və s.

### Səsli oxu

Səsli oxuda oxunan mətndəki sözlərin düzgün tələffüzü, sözlərin ifadə etdiyi mənanın şagirdlərə öyrədilməsi diqqətdə saxlanılır. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə yanaşı, onların nitq bacarıqlarını da inkişaf etdirir. Səsli oxunun ən əsas şərti sözlərin düzgün tələffüz edilməsinə diqqət yetirmək, şagirddə oxumağa həvəs yaratmaq və normal tempdə oxumasını təmin etməkdir. Səsli oxuda sürətli oxu deyil, intonasiya ilə oxu daha vacibdir.

Səsli oxunu müxtəlif üsullarla təşkil etmək olar:

**1-ci üsul.** Əvvəlcə müəllim səlis və aydın, hamının eşidəcəyi səs tonu ilə mətni oxuyur. Daha sonra məzmunun qavranma səviyyəsini öyrənmək üçün şagirdlərə sual və tapşırıqlar verir.

**2-ci üsul.** Müəllim şagirdləri qruplara ayırır və hər qrupdan bir şagirdə mətnin müəyyən hissəsini səsli oxumağı tapşırır və suallarla şagirdlərə müraciət edir.

**3-cü üsul.** Şagirdlər növbə ilə mətni oxuyur və müəllimin suallarını cavablandırırlar.

Dərslikdə verilmiş mətnlərin hər biri səsli oxudan istifadə edilməklə oxuna bilər.

### Qeydlər götürməklə oxu

Belə oxu şagirdlərdə fəallığı artırır, vacib məlumat, fikir və hadisələri yadda saxlamağa imkan verir. Səsli və səssiz oxu zamanı şagirdlərə oxunun məzmunu ilə bağlı qeydlər aparmaq təklif edilir. Şagirdlər iş vərəqlərinə oxuduqları mətndə əhəmiyyətli hesab etdikləri məqamları qeyd edirlər. Oxu bitdikdən sonra şagirdlərin qeydləri müzakirə edilir.

Bu oxu fərdi və ya cütlər şəklində icra edilə bilər.

Qeydlər götürməklə oxunu təşkil etmək üçün şagirdlərə aşağıdakı iş vərəqi təqdim edilə bilər:

| Mətnin adı | Mətnin tipi *(nəzm və ya nəsr şəklində olması)* | Mətndə əhəmiyyətli hesab etdiyim | | | |
|---|---|---|---|---|---|
| | | söz | söz birləşməsi | cümlə | abzas |

“Ailə və Vətən tərbiyəsi”, “İnamın qələbəsi”, “Qayıdışın mübarək!”, “Bizim planet”, “Diplomsuz mühəndis”, “Təbiət özü özünü tənzimləyir” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

### Proqnozlaşdırılmış oxu

Bu oxu modelindən şagirdləri daha da fəallaşdırmaq, müxtəlif yollarla onlarda mətnə qarşı maraq yaratmaq üçün istifadə edilir. Proqnozlaşdırılmış oxunu həyata keçirmək üçün bir neçə üsuldan istifadə etmək olar:

**1-ci üsul.** Şagirdlər mətnin müəyyən hissəsini oxuduqdan sonra müəllim şagirdlərə aşağıdakı formada iş vərəqi təqdim edir, mətndə baş verən və baş verə biləcək hadisələri yazmağı tapşırır. Şagirdlər I və II sütunu tamamlayırlar.

| Mətndə baş verən hadisələr | Mətndə baş verəcək hadisələr | Hadisələrin nəticələnməsi |
|---|---|---|
| 1. | 1. | |
| 2. | 2. | |
| 3. | 3. | |

• Müəllim mətnin davamını *(bir hissəsini)* oxuyur və şagirdlər mətndəki hadisələrin necə nəticələnəcəyini üçüncü sütunda yazırlar.

**2-ci üsul.** Müəllim tərəfindən mətnin bir hissəsi səsli oxunur və şagirdlər mətndəki hadisələrin necə davam edəcəyi və nə ilə nəticələnəcəyi ilə bağlı suallar yazırlar. Sonra isə mətnin oxusu davam etdirilir və sualların cavabı mətndə tapıldıqca onların üstündən xətt çəkilir. Bütün suallara cavab tapılması şagirdin diqqətli dinləmə, hadisələri təxminetmə və ümumiləşdirmə bacarıqlarının olması deməkdir. Bu üsulla proqnozlaşdırılmış oxunu icra etmək üçün şagirdə aşağıdakı iş vərəqini təqdim etmək olar:

| Hadisələrin necə davam edəcəyi ilə bağlı suallar | Hadisələrin nə ilə nəticələnəcəyi ilə bağlı suallar | Mətndə suallarıma cavab tapıldı. | Mətndə suallarıma cavab tapılmadı |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

**3-cü üsul.** Müəllim mətni oxumazdan əvvəl mətnin adı, mətnə uyğun illüstrasiyalar, rəsmlər, fotolar və s. istifadə edərək şagirdlərə məzmunla bağlı fərziyyələr irəli sürməyi tapşırır. Müəyyən hissədən sonra oxunu dayandırır, *“Sizcə, hadisələrin ardı necə ola bilər?”, “Mətnin davamında hadisələrin düşündüyünüz kimi baş verməsinin səbəbi nədir?”* kimi suallar verərək şagirdləri mətn üzərində düşünməyə istiqamətləndirir.

“Bir qarış torpaq”, “Ananın öyüdü”, ”Köhnə araba”, “Sərhədə gedən yol”, “Təbiət özü özünü tənzimləyir”, “İnamın qələbəsi”, “Dan ulduzu görünəndə” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

### Sual verməklə oxu

Müəllim şagirdlərə mətnin adına əsasən onun məzmunu, mətndə nədən danışılması ilə bağlı suallar hazırlamağı tapşırır. Bu, oxudan əvvəl, oxu zamanı və ya oxudan sonra icra edilə bilər. Bu, şagirdləri mətn üzərində düşünməyə təşviq edir. Sual verməklə oxu metodu iki formada hayata keçirilir:

1. Şagirdlər mətni oxuyarkən onlarda yaranan sualları yazır, sonra isə qruplara bölünərək həmin suallara cavab axtarırlar.

2. Şagirdlər oxuya başlamazdan əvvəl mətnin adına əsasən, oxu zamanı isə onlarda yaranan sualları lövhəyə yazırlar. Mətnə əsasən suallara cavab tapıldıqca onların üstündən xətt çəkirlər.

3. “Peşələr necə yaranıb?”, “Planlaşdırma”, “Sürücü”, “Müəllim”, “Sınmış budaq”, “Haqqın səsi” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

### Dərinləşdirilmiş oxu

Bu oxu zamanı bütün təfərrüatlara diqqət yetirilir və onlar təhlil edilir. Dərinləşdirilmiş oxu zamanı şagird mətni oxuyur və başa düşmədiyi yerləri aydınlaşdırmaqla yanaşı, mətndəki problem, hadisə və faktlara tənqidi münasibət bildirir, güclü və zəif məqamları tapır, fikir və qənaətləri müstəqil şərh edir.

“Seyranın göyərçinləri”, “Ailə və Vətən tərbiyəsi”, “Azərbaycan”, “Salam, əsgər!”, “Haqqın səsi” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

### İşarələyərək oxu

Bu oxuda əsas məqsəd şagirdlərə mövzunu anlamağa kömək edən açar sözləri müəyyənləşdirməyi və əsas hissələri seçməyi öyrətməkdir. Şagirdlər əsas hissələri mətn üzərində işarələyərək seçdikləri həmin hissələri öz cümlələri ilə ifadə edərək yeni mətn yaradırlar.

“Yalan”, “Yol”, “İki kənd”, “Bizim planet” və s. mətnlərin oxusunu bu üsuldan istifadə etməklə təşkil etmək olar.

### Müzakirəli oxu

Bu oxu modeli şagirdlərə mətnin mövzusu ilə bağlı biliklərini, fikir, hiss və düşüncələrini yoldaşları ilə paylaşmağa, qarşılıqlı fikir mübadiləsi aparmağa, müzakirə edilənlərə müxtəlif tərəflərindən baxmağa şərait yaradır. Mətn hissə-hissə və ya bütöv şəkildə oxunur, müzakirə bütün siniflə, yaxud qruplarla keçirilir. Müzakirənin sonunda isə ümumi fikirlərdən ibarət mətn tərtib olunur.

Müzakirədə bütün şagirdlərin iştirakı və bir-birlərinin fikrinə hörmətlə yanaşmanı təmin etmək lazımdır.

II bölmədə verilmiş mətnlərin oxusunda bu üsuldan istifadə etmək olar.

### Rollu oxu

Bu oxu şagirdlərə mətnin quruluşunu, dilini, obraz və personajların xarakterini anlamağa kömək edir. Şagirdlər mətnin məzmununda heç bir dəyişiklik etmədən, yaxud mətni oxuduqdan sonra onu dialoq şəklində tərtib edərək rollar vasitəsilə təqdim edirlər.

“Ananın öyüdü”, “Bir qarış torpaq”, “İnamın qələbəsi”, “Sərhədə gedən yol”, “Yalan”, “Yaşıl planet”, “Sınmış budaq”, “Seyranın göyərçinləri” mətnlərinin oxusunda bu üsuldan istifadə etmək olar.

### Əzbərləmə

Əzbər şagirdlərin yaddaşını gücləndirir, lüğət tərkibini, Azərbaycan dilindən düzgün, səlis və gözəl istifadə etməyi öyrədir. Şagirdlər yaş səviyyələrinə, ehtiyac və maraq dairələrinə uyğun mətnləri (şeirləri, yaxud şeirin müəyyən bir hissəsini, bir bəndini; kəlamları və s.) müəyyən müddət ərzində əzbərləyir və növbəti dərsdə təqdim edirlər.

QEYD. Əzbərləməkdə çətinlik çəkən şagirdi hər hansı bir materialı əzbərləməyə məcbur etmək olmaz.

### Müqayisəli oxu

Müqayisə aparmaq şagirdlərin təfəkkür və bacarıqlarını inkişaf etdirir. Oxudan sonra müəllim şagirdlərdən əvvəl oxuduqları və ya öyrəndikləri mətnlərlə hazırkı mətnin oxşar cəhətlərini soruşur, onlara mətnləri məkan, zaman, obraz, mövzu, ideya, hadisə və personajlara görə müqayisə etməyi və onlar arasında əlaqə yaratmağı tapşırır. Şagirdlərə “Bu əsərin mövzusu ilə əvvəllər oxuduğunuz əsərin mövzusu arasında nə əlaqə var?”, “Bu iki əsərin obrazları arasında hansı oxşarlıqlar (və ya fərq) var?” kimi suallarla müraciət edilir.

Əsərlərin müqayisəsini apararkən aşağıdakı iş vərəqindən istifadə etmək olar: *(2 və ya 3 əsərin müqayisəsinin aparılması müəllim tərəfindən müəyyənləşdirilir)*

| | **Müqayisə edilən mətnlər** | | |
|---|---|---|---|
| | Zivərin uğur hekayəsi | Laçınla Şuşanın söhbəti | Ani qərar |
| **Oxşar cəhətləri** | 1.<br>2.<br>3. | | |
| **Fərqli cəhətləri** | 1.<br>2.<br>3. | | |

Müqayisə aparmaq üçün **Venn diaqramı**ndan da istifadə etmək olar.

### Bilirəm, İstəyirəm bilim, Öyrəndim (BİBÖ)

BİBÖ informativ mətnlərlə işləmək üçündür. Şagirdlər mətni oxumamışdan əvvəl cədvəlin I və II sütunlarını cavablandırırlar. Şagirdin aydınlaşdırmaq istədiyi suallar onun oxu məqsədini təşkil edir. Mətnlə tanış olduqdan sonra isə III sütuna fikirlər yazılır. II sütunda açıq qalmış suallara cavab tapmaq üçün müvafiq mənbə axtarmaq lazımdır.

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| ... | | |

“Dinamit”, “Təbiət özü özünü tənzimləyir”, “Peşələr necə yaranıb?”, “Planlaşdırma” mətnlərinin oxusunda bu üsuldan istifadə etmək olar. Şifahi müzakirələr zamanı şagirdlərin nitqinə, nitqin düzgün qurulmasına diqqət yetirmək lazımdır.

Müəllim qurduğu dərs üçün üsul (*klaster, anlayışın çıxarılması, BİBÖ, İNSERT* və s.) seçərkən onun şagirdlərdə hansı bacarıqları (*fikirlərini ümumiləşdirmək, yığcam ifadə etmək, münasibət bildirmək, dəqiqiləşdirmək, sözləri qrammatik mənalarına görə fərqləndirmək, təhlil etmək, müqayisə etmək* və s.) formalaşdıracağını nəzərdə tutmalı və seçimi düzgün etməlidir.

Nitq mədəniyyəti nitqin müxtəlif şəraitində məzmun və məqsədə uyğun olaraq ədəbi dilin yazılı və şifahi formalarından, ifadəlilik vasitələrindən istifadə edə bilmə bacarığıdır. Aydınlıq, düzgünlük, sadəlik, dəqiqlik, yığcamlıq, zənginlik, təmizlik, ifadəlilik, orijinallıq və s. düzgün və mədəni nitqi şərtləndirən tələblərdir. Nitqinin aydın olması üçün şagirdlər mövzu ilə bağlı əlavə məlumata malik olmalıdırlar. Dərslikdə şagirdlərə bu məqsədlə mövzu ilə bağlı araşdırmalar aparmaq, məlumat toplamaq və sistemləşdirmək kimi tapşırıqlar verilmişdir. Ətraflı məlumata malik şagirdlər fikirlərini uyğun ifadə vasitələri seçməklə aydın, sadə, geniş, lazım gəldikdə isə yığcam, lakonik şəkildə təqdim etməyi bacarmalıdırlar. Sözləri düzgün tələffüz etmək, zəngin söz ehtiyatına malik olmaq, intonasiya, səs tonu, temp, ahəng də gözəl nitqin vacib tələblərindən hesab edilir.

Şagirdlərin nitqini formalaşdırmaq üçün daim diqqətdə saxlanmalı və onlara aşılanmalı məsələlər:
- mövzu ətrafında əvvəlcə düşünmək, lazımi material və faktlar toplamaq;
- toplanılan materialları sistemləşdirmək və ümumiləşdirmək;
- söz və qrammatik formaları düzgün və aydın tələffüz etmək;
- sözün mənasına bələd olmaq, ondan yerində və düzgün istifadə etmək;
- cümlələri düzgün qurmaq;
- məntiqi vurğulu sözlərə diqqət yetirmək;
- məzmuna uyğun intonasiya seçmək;
- mənası aydın olmayan sözləri izah etmək;
- fikirlərini, gəldiyi nəticəni faktlar, nümunələr, arqumentlərlə əsaslandırmaq;
- danışarkən məntiqi ardıcıllığa, cümlə və abzaslararası rabitəyə diqqət yetirmək;
- istifadə etdiyi mənbəni (əsər, məqalə, radio və televiziya verilişləri və s.) göstərmək;
- yoldaşları ilə əks-əlaqə yaratmaq, müzakirələrdə dözümlü və səmimi olmaq, lazım gələrsə, əlavə şərhlər vermək.

Göstərilənlərlə yanaşı, orfoqrafiya və durğu işarələrinə əməl edilməsi düzgün yazılı nitq mədəniyyətinin formalaşmasına yardımçı olacaqdır.

Əlbəttə, şifahi və yazılı nitqin formalaşması üçün yuxarıda göstərilənlər birdən-birə deyil, il ərzində şagirdlərlə mütəmadi aparılan düzgün işin nəticəsində tədricən meydana çıxacaqdır.

## YAZI

Yazı vasitəsilə şagirdlər digər standartlar reallaşarkən əldə etdiyi, öyrəndiyi məlumatları müxtəlif mətn formaları şəklində təqdim edir, araşdırmaları, sorğuları və tədqiqatları əsasında təqdimatlar hazırlayır.

***Yazı zamanı şagirdlər aşağıdakıları bacarmalıdır:***
- sözləri düzgün yazır;
- sözlərin mənasına bələd olaraq onlardan düzgün istifadə edir;
- cümlələri qurur;
- cümlələr əsasında kiçik mətnlər tərtib edir;
- durğu işarələrindən düzgün istifadə edir;
- zəruri dil qaydalarını bilir;
- əsas və köməkçi nitq hissələrini fərqləndirir;
- əsas və köməkçi nitq hissələrinin yazılış qaydasını bilir;
- əsas və köməkçi nitq hissələrindən yerinə görə düzgün istifadə edir;
- ərizə və tərcümeyi-hal yazır;
- mətn formalarını fərqləndirir;
- müxtəlif formalarda mətn hazırlayır;
- yazacağı fikirlər üçün forma müəyyən edir;
- mətn hazırlamaq üçün plan tərtib edir.

Bu bacarıqlara yiyələnən şagird sadə, yaş səviyyəsinə uyğun şəkildə müxtəlif formada mətn hazırlamağı, hadisələrə münasibət bildirməyi, obyekt, anlayış və hadisələri təsvir etməyi və s. bacarır. Dərslikdə müxtəlif mətn formalarının, təqdimatların hazırlanması üçün plan və istiqamətlər verilmişdir.

Müəllim KSQ keçirərkən, ümumiləşdirici dərs zamanı, qurduğu dərsdən asılı olaraq ayda 2 dəfə imla yazdıra bilər. İmlanın müxtəlif növləri vardır. Bütün dərsi imlaya həsr etmək doğru olmazdı. Məsələn, lüğət üzrə imlaya 10 dəqiqə kifayətdir. Söz sayını müəyyənləşdirməkdə müəllim sərbəstdir. Tədris ilinin əvvəlindən sonuna qədər söz sayı 15–30 aralığında dəyişə bilər. İmlaların yoxlanması üçün meyarlar əvvəlcədən müəyyənləşdirilməlidir.

**Öyrədici imlalar.** Bu imlaların mətnləri, əsasən, rabitəsiz və rabitəli mətnlərdən təşkil olunur. Öyrədici imlaların aşağıdakı növləri var:

**Xəbərdarlıqlı imla.** Xəbərdarlıqlı imlada səhvlərin qarşısını almaq üçün çətin sözlərin yazılışı haqqında şagirdlərə əvvəlcədən izahat verilir. Bu imla üçün ayrı-ayrı cümlələrdən ibarət olan və ya rabitəli mətn seçilir. Mətn əvvəlcədən təhlil olunur və cümlələrdə, yaxud bütün mətndə çətin sözlər izah edilir.

Xəbərdarlıqlı imla təxminən aşağıdakı qaydada aparılmalıdır:

✓ Müəllim cümləni oxuyaraq, çətin sözləri göstərir və onların düzgün yazılışını izah edir. Məs.: Kar və cingiltili samitlərin yazılışını öyrətmək üçün müəllim izah edir ki, bir çox sözlərin sonunda cingiltili samitlərin yazılmasına baxmayaraq, müəyyən hallarda onlar karlaşmış şəkildə tələffüz edilir: *kənd, qanad* bu kimi və s. sözlərdə “d” samiti [t] kimi; *ağac, pələng* sözlərinin sonunda “c”, “g” samitləri isə [ç], [k] kimi tələffüz edilir.

✓ İmlanın mətni əvvəlcədən şagirdlərə verilir, onlar həmin mətnlə tanış olur, çətin qaydaları öyrənir, sonra sinifdə müəllimin diktəsi ilə *(mətnə baxmadan)* yazırlar.

✓ Xəbərdarlıqlı imlanı dərslikdəki çalışmalar üzərində də aparmaq olar. Belə halda yazıları müəllimin oxuyub təhlil etməsinə ehtiyac qalmır, çünki şagirdlər müəllimin diktəsi ilə yazıb qurtardıqdan sonra dərsliyi açıb yazdıqlarını yoxlayır, səhvlərini özləri tapıb düzəldirlər.

**Komentarili imla.** Bu imlada çətin orfoqramların təhlili yazı prosesində aparılır. Müəllim mətni diktə edir, müəyyən söz haqqında qaydanın izahını verir, yaxud şagirdlərdən biri izah edir.

**Yaradıcı imla.** Yaradıcı imlada yeni sözləri mənimsətmək və ya yazı qaydalarını möhkəmləndirmək üçün şagirdlərə sözlər verilir *(yaxud yazı lövhəsində yazılır)*, onlar həmin sözlərdən cümlələr düzəldib yazırlar.

Burada verilmiş sözlərə şagirdlər tərəfindən müstəqil olaraq əlavə sözlər artırılır. İmlanın “yaradıcı” tərəfi də buradan ortaya çıxır. Şagirdlərin səhv buraxmalarına yol verməmək üçün yaradıcı imlanı təxminən aşağıdakı qaydada aparmaq tövsiyə edilir. Yaradıcı imla üçün lazım olan sözlər yazı taxtasında yazılır. Məsələn, müəllim taxtada orfoqramı eyni tipli olan bu sözləri yazır: ömür, əsil, əsir, sinif və s. Cümlələrə əlavə ediləcək sözlər qabaqca söylənilir, sonra isə onların yazı qaydası izah edilir. Bu hazırlıqdan sonra şagirdlərə müstəqil olaraq cümlə yazmağa icazə verilir. Yaradıcı imladan ev tapşırıqları üçün də istifadə edilməlidir.

**İzahlı imla.** İzahlı imlanın mətni bütövlükdə yazdırılır, sonra şagirdlərə cümlə-cümlə oxutdurulur və qaydalara aid izahat tələb edilir. Bəzən mətnin hər bir cümləsi yazıldıqdan sonra da izahat tələb etmək olar.

**Sərbəst imla.** Müəllim sərbəst imlanı aparmaq üçün əvvəlcədən oxunmuş hekayə və ya təsviri əsərlərdən bitmiş bir parçanı ayırmalıdır. Bu mətnin həcmi təxminən 17–20 çap sətri qədər olmalıdır: müəllim həmin mətni 5–6 yerə ayıra bilər. Müəllim mətni bir dəfə bütöv, sonra isə qabaqcadan ayırmış olduğu kiçik parçalar üzrə bir-bir aramla oxuyur. Hər kiçik parçanın oxusu bitdikdə, müəllim fasilə edir və şagirdlərə həmin parçanı yazmalarını tapşırır. Bu qayda üzrə mətnin bütün qalan parçaları yazdırılır.

Şagirdlər həmin parçanı məzmuna xələl gətirməmək şərti ilə, öz sözləri, öz cümlələri ilə yazmağa çalışmalıdırlar.

Yazı bitdikdən sonra iki-üç dəqiqə ərzində şagirdlər öz yazılarını yoxlayır, səhvlərini düzəldir və yoxlamaq üçün dəftərlərini (iş vərəqlərini) müəllimə verirlər.

Sərbəst imlanın orta məktəbin V–VIII siniflərində aparılması tövsiyə edilir. Bu yazı növünü səmərəli təşkil etdikdə:

1) şagirdlərin orfoqrafiya və durğu işarələrinə aid bilikləri möhkəmlənir;
2) onların şüurunda plan düzəltmək vərdişləri dərinləşir;
3) onlara başqasının fikrini düzgün ifadə etmək üçün istiqamət və bacarıq verilir;

4) şagirdlərdə cümlənin üslubu üzərində çalışmaq vərdişləri möhkəmlənir.

Bu yazı növü daha çox nitqin inkişafı üçün əhəmiyyətli olub, şagirdləri ifadə yazıya hazırlayır.

**Seçmə imla.** Bu imla diktə edilən mətndən yalnız müəyyən sözləri yazmaq məqsədilə aparılır. Müəllim mətni cümlə-cümlə deyir, şagirdlər isə müvafiq orfoqramlı sözləri seçib yazırlar.

**"Özümü yoxlayıram" imlası.** Bu imla növündə şagird yazı zamanı hansı sözdə hansı hərfin yazılışını yaxşı bilmirsə, onun altından işarə qoyur. İmlanı yazıb qurtardıqdan sonra həmin işarələrə baxıb, müvafiq sözləri ya lüğətdən, ya dərslikdən istifadə etməklə, ya da yoldaşlarından soruşmaqla yoxlayır. Səhvə yol veribsə, düzəliş aparır.

"Özümü yoxlayıram" prosesi ilə əlaqədar əməliyyatı təkcə imlada yox, ifadə, inşa yazılarda da aparmaq olar.

## YOXLAMA İMLA

Bu imlanın keçirilməsi müəllimdən xüsusi hazırlıq tələb edir. İmla mətni müəllimin özü tərəfindən seçilir. Mətn lazımi tələblərə cavab verməli, elmi, bədii, kütləvi əsərlərdən, qəzet, jurnal məqalələrindən seçilə bilər. Mövzunun aktuallığı, yaş səviyyəsinə uyğunluğu diqqətdə saxlanmalıdır. İlk növbədə, məzmun tam anlaşıqlı olmalı, proqram materialı üzrə öyrənilmiş 5-6 söz yazılışı çətin olan söz işlənməlidir. Əgər mətndə lazımi sözlər yoxdursa, müəllim əlavə edə, yaxud qarşılığı ilə əvəz edə bilər.

Yoxlama imla şagirdlərin imla yazacağı dövrəqədərki öyrəndikləri zəruri dil və durğu işarələri qaydalarını əhatə etməlidir. İmla yazdırarkən müəllim şagirdləri mətnin məzmunu ilə tanış etmək üçün əvvəlcə onu bütöv şəkildə ifadəli oxumalıdır. Sonra mətn cümlə-cümlə diktə olunur. Əvvəlcə tələffüz qaydalarına ciddi şəkildə riayət etməklə hər cümlə bütöv şəkildə, sonra isə hissələrə bölünərək diktə edilir. Sözləri hecalarla demək olmaz. Mətnin tələffüz qaydalarına uyğun oxunması şagirdlərin fikrən fəallığına səbəb olur. Belə ki onların qaydaları yada salmaqla yazdıqları yazı şagirdləri daha diqqətli olmağa, şüurlu şəkildə öyrənməyə vadar edir.

Yoxlama imla mətnlərinin diktəsində şagirdlərin bilik və vərdişləri ciddi şəkildə nəzərə alınmalıdır.

## DİL QAYDALARI

Dərslikdə zəruri dil qaydaları 4 bölmədə təqdim olunmuşdur.

Dil qaydaları 4.1.3. standartı əsas götürülərək verilmiş və bölmələr üzrə paylanmışdır. Dil qaydaları təqdim edilərkən sözlərin orfoepiyası, orfoqrafiyası, əsas və köməkçi nitq hissələrinin mahiyyəti və yazılış qaydaları, cümlələrin sonunda və dialoqlarda, həmçinin *o, bu* əvəzliklərindən sonra durğu işarələrinin işlənməsi nəzərə alınmışdır.

Orfoepik tapşırıqlar dərslikdə mətnlərdən əvvəl verilmişdir. Mətnin oxusundan əvvəl müəllim həmin sözlərin tələffüzü üzərində iş aparır, tələffüz qaydalarını izah edir. Oxu zamanı həmin səslərin şagirdlər tərəfindən düzgün tələffüzü diqqətdə saxlanılır.

Orfoqrafik tapşırıqlar da orfoepik tapşırıqlar kimi, yerinə görə oxudan əvvəl və ya sonra, yaxud da oxu zamanı icra edilir. Müəllim qurduğu dərsdən asılı olaraq tapşırıqları müxtəlif üsullardan istifadə etməklə həyata keçirə bilər.

1. Mətnin oxusuna başlamazdan əvvəl təklif olunan sözlərin düzgün yazılışı üzərində iş aparır. 2-3 dəqiqə müddətində tapşırıqların icrası mümkündür.

2. Müəllim həmin sözləri lövhəyə yazır və düzgün yazılış şagirdlər tərəfindən müəyyənləşdirilir.

Dərslikdə fonetik hadisə kimi ahəng qanunu, ahəng qanununa tabe olan və tabe olmayan sözlər, sözə şəkilçi artırılarkən ahəng qanununun rolu haqqında məlumat verilmişdir.

Morfologiya bölməsindən ikihecalı sözlərdə saitin düşməsi, əvəzlik, *o, bu* əvəzliklərindən sonra vergülün işlədilməsi, feil və zərf; köməkçi nitq hissələri və onun növləri: qoşma, ədat, bağlayıcı və modal sözlər haqqında zəruri məlumat, həm də onların yazılış qaydaları verilmişdir. Sintaksis bölməsindən isə cümlələrdə durğu işarələrindən düzgün istifadə qaydaları və müvafiq tapşırıqlar təqdim olunur.

4.1.4. standartında reallaşdırılması nəzərdə tutulan tərcümeyi-halın yazılma qaydası I bölmədə; ərizənin yazılma qaydası II bölmədə verilmişdir.

# Ümumtəhsil məktəblərinin VIII sinfi üçün Azərbaycan dili (dövlət dili) fənni üzrə məzmun standartları

VIII sinfin sonunda şagird:

- dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir;
- söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir, nitqində məntiqi vurğudan düzgün istifadə edir;
- müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir, mətnin hissələri arasında əlaqələri gözləməklə danışır;
- mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir;
- oxuduğu mətndəki əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir;
- seçdiyi nümunələrlə yazısını zənginləşdirir;
- həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

*1. Dinləyib-anlama*

Şagird:

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.

*2. Danışma*

Şagird:

*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*

2.1.1. Söz birləşməsi və sadə cümlələri qrammatik normalara uyğun tələffüz edir.

2.1.2. Nitqində məntiqi vurğudan düzgün istifadə edir.

2.1.3. Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.

2.1.4. Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.

*3. Oxu*

Şagird:

*3.1. Mətni mənimsədiyini nümayiş etdirir.*

3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.

3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.
3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.

*4. Yazı*

Şagird:

*4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*

4.1.1. Topladığı fakt və məlumatlara münasibətini bildirir.
4.1.2. Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.
4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.
4.1.4. Müxtəlif əməli yazılar (arayış, protokol) yazır.

## MÖVZULARIN SAATLAR ÜZRƏ BÖLGÜSÜ

Dərslikdə verilmiş tədris materialları 34 həftə 68 saat üçün nəzərdə tutulmuşdur. Azərbaycan dili həftədə 2 saat tədris olunur.

# İllik planlaşdırma nümunəsi

## I BÖLMƏ. MƏN AZƏRBAYCAN VƏTƏNDAŞIYAM

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.3., 3.1.3. | Layihə: "Mən Azərbaycan vətəndaşıyam". Məktub | 1 | |
| 2 | 1.1.2., 2.1.3., 4.1.4. | Arayış | 1 | |
| 3 | 1.1.1., 2.1.3, 2.1.4, 3.1.1., 3.1.3. | Vətəndaş | 1 | |
| 4 | 2.1.2., 3.1.2., 3.1.3. | Vətəndaş | 1 | |
| 5 | 1.1.2., 2.1.2., 3.1.3., 4.1.1. | Sadə, xeyirxah insan | 1 | |
| 6 | 2.1.4., 3.1.1., 4.1.2., 4.1.3. | Sadə, xeyirxah insan | 1 | |
| 7 | | KSQ | 1 | |
| 8 | 2.1.3., 3.1.1., 3.1.3., 4.1.1. | Zivərin uğur hekayəsi | 1 | |
| 9 | 2.1.4., 3.1.1., 3.1.2., 4.1.2. | Zivərin uğur hekayəsi | 1 | |
| 10 | 2.1.3., 3.1.2., 3.1.3., 4.1.4. | Laçınla Şuşanın söhbəti | 1 | |
| 11 | 2.1.2., 3.1.3., 4.1.2. | Laçınla Şuşanın söhbəti | 1 | |
| 12 | 2.1.1., 2.1.3., 3.1.2., 3.1.3. | Ani qərar | 1 | |

| | | | | |
|---|---|---|---|---|
| 13 | 1.1.1., 1.1.2., 3.1.1., 3.1.3. | Ani qərar | 1 | |
| 14-15 | 2.1.3., 2.1.4., 4.1.2. | Komiks əsasında mətnin tərtib edilməsi | 1 | |
| 16 | | KSQ | 1 | |
| 17 | 2.1.3., 4.1.2. | Bölmənin yekunu | | |

## II BÖLMƏ. BİLİK VƏ TEXNOLOGİYA

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.3., 3.1.3. | Layihə. "Bilik və texnologiya" | 1 | |
| 2 | 1.1.1., 2.1.3., 3.1.2., 3.1.3. | Səkkiz hərf | 1 | |
| 3 | 2.1.2., 2.1.3., 2.1.4., 3.1.1., 4.1.2. | Səkkiz hərf | 1 | |
| 4 | 2.1.3., 3.1.1., 3.1.2., 3.1.3. | Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir. | 1 | |
| 5 | 2.1.3., 2.1.4., 3.1.3. | Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir. | 1 | |
| 6 | 2.1.1., 2.1.3., 3.1.1., 4.1.1. | Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir. | 1 | |
| 7 | | KSQ | 1 | |
| 8 | 2.1.3., 3.1.2., 3.1.3., 4.1.2. | Xəyal və reallıq | 1 | |
| 9 | 1.1.2., 2.1.1., 2.1.4., 3.1.1., 3.1.3. | Xəyal və reallıq | 1 | |
| 10 | 2.1.2., 2.1.3., 3.1.3. | Nəsihət | 1 | |
| 11 | 1.1.2., 2.1.2., 2.1.4., 4.1.1. | Nəsihət | 1 | |
| 12 | 2.1.1., 2.1.3., 3.1.1.,3.1.3., 4.1.2. | Texnologiya çağının bəlası: tənbəllik | 1 | |
| 13 | 2.1.2., 2.1.3., 2.1.4., 3.1.3. | Texnologiya çağının bəlası: tənbəllik | 1 | |
| 14 | 2.1.3., 3.1.1., 4.1.1. | Texnologiya çağının bəlası: tənbəllik | 1 | |
| 15 | 1.1.2., 2.1.3., 3.1.3. | Şəhidlər unudulmur | 1 | |
| 16 | | KSQ | 1 | |
| 17 | 2.1.3., 4.1.1., 4.1.2. | Bölmənin yekunu | 1 | |

# III BÖLMƏ. MİLLİ-MƏNƏVİ DÜNYAMIZ

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.3., 3.1.3. | Layihə – "Multikultural dəyərlər" | 1 | |
| 2 | 2.1.3., 3.1.3., 4.1.1. | Araşdırma | 1 | |
| 3 | 2.1.4., 3.1.3., 4.1.1. | Tolerantlığın ünvanı Azərbaycan | 1 | |
| 4 | 1.1.1., 3.1.1., 3.1.3. | Tolerantlığın ünvanı Azərbaycan | 1 | |
| 5 | 1.1.2., 2.1.3., 4.1.2. | Tolerantlığın ünvanı Azərbaycan | 1 | |
| 6 | 2.1.3., 2.1.4., 3.1.3. | Nizami Gəncəvi "İsgəndərin şimal səfəri" | 1 | |
| 7 | 2.1.3., 3.1.2., 4.1.1. | Nizami Gəncəvi "İsgəndərin şimal səfəri" | 1 | |
| 8 | 2.1.3., 2.1.1., 4.1.3. | Nizami Gəncəvi "İsgəndərin şimal səfəri" | 1 | |
| 9 | | KSQ | 1 | |
| 10 | 1.1.1., 2.1.3., 3.1.3., 4.1.1. | Bayatı-İsfahan | 1 | |
| 11 | 2.1.1., 2.1.4, 4.1.3. | Bayatı-İsfahan | 1 | |
| 12 | 3.1.3. 4.1.3., 4.1.4. | Bayatı-İsfahan | 1 | |
| 13 | 1.1.2., 2.1.1., 3.1.3. | Qardaşlar | 1 | |
| 14 | 2.1.1., 2.1.3., 4.1.3. | Qardaşlar | 1 | |
| 15 | 2.1.3., 3.1.2., 3.1.3. | Bayram axşamı | 1 | |
| 16 | | Bayram axşamı | 1 | |
| 17 | | KSQ | 1 | |

# IV BÖLMƏ. MƏKTƏB EKOLOGİYA UĞRUNDA

| | Standartlar | Mövzular | Saat | Tarix |
|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.3., 3.1.3. | Layihə: “Kainat və təbiət” | 1 | |
| 2 | 1.1.1.,1.1.2., 2.1.2., 2.1.3. | Kibrit çöpü | 1 | |
| 3 | 2.1.1., 2.1.4., 4.1.1. | Kibrit çöpü | 1 | |
| 4 | 2.1.3., 3.1.3., 4.1.2. | Təmiz hava – sağlam insan | 1 | |
| 5 | 1.1.1., 1.1.2., 2.1.4., 4.1.1. | Təmiz hava – sağlam insan | 1 | |
| 6 | 2.1.3., 4.1.3. | Təmiz hava – sağlam insan | 1 | |
| 7 | | KSQ | 1 | |
| 8 | 3.1.3., 4.1.2. | Çörək | 1 | |
| 9 | 2.1.1., 2.1.4., 3.1.1. | Çörək | 1 | |
| 10 | 1.1.2., 2.1.1., 2.1.3., 3.1.3. | Dayanıqlı inkişaf | 1 | |
| 11 | 2.1.3., 2.1.4., 4.1.1. | Dayanıqlı inkişaf | 1 | |
| 12 | 3.1.3.,4.1.3., 4.1.4. | Dayanıqlı inkişaf | 1 | |
| 13 | 1.1.2., 2.1.1., 3.1.2., 3.1.3. | Təbiət ilhama çağırır məni | 1 | |
| 14 | 2.1.2., 2.1.3., 2.1.4., 4.1.1. | Təbiət ilhama çağırır məni | 1 | |
| 15 | | Təbiət ilhama çağırır məni | 1 | |
| 16 | | KSQ | 1 | |
| 17 | | Bölmənin yekunu | 1 | |

# Qiymətləndirmə

Bildiyiniz kimi, məktəbdaxili qiymətləndirmənin 3 növü (diaqnostik, formativ, summativ) vardır. Məzmun standartlarına əsaslanan məktəbdaxili qiymətləndirmə şagirdin fəaliyyət və nailiyyətini izləyir, inkişafını təmin etməklə yanaşı, inkişaf dinamikasını izləməyə imkan verir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi tədrisin keyfiyyətinin artırılması üçün məqsədlər müəyyən edir, irəliləyişləri qiymətləndirir, nəticələr əsasında müqayisələr aparır.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsində məqsəd:**

- Təlim nəticələrinin, standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdlərin güclü və zəif cəhətlərini müəyyən etmək;
- Şagirdlərin nailiyyətini dəyərləndirmək;
- Şagirdlərin nəyə isə nail olduğuna əmin olmaq;
- Şagirdlərin gələcək uğurlarının maksimallaşdırılması.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

## DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ

Şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda, şagird bir ümumi təhsil müəssisəsindən digərinə köçürüldükdə, yəni sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Müəllim qiymətləndirməyə diaqnostikadan başlamalıdır. Diaqnostik qiymətləndirmə tədris prosesini daha səmərəli və keyfiyyətli etmək, strategiyasını qurmaq üçün müəllimə imkan verir. Diaqnostik qiymətləndirmə keçirmək üçün müəllim seçdiyi standartlar əsasında təlim nəticələri, təlim nəticələri əsasında qiymətləndirmə meyarları müəyyənləşdirir, daha sonra qiymətləndirmə materialı hazırlayır.

Nümunə:

**Standartlar:** 1.1.2., 4.1.2.

Dinlədiyi mətndəki əsas fakt və hadisələri qruplaşdırır.

Cümlələr və abzaslar arasındakı əlaqələri gözləməklə mətn yazır.

**Təlim nəticələri:**

Dinlədiyi mətndən faktları (hadisələri) seçərək qruplaşdırır.

Giriş, əsas hissə və nəticə hissəni əlaqələndirməklə mətn yazır. (Mövzudan asılı olaraq, giriş və əsas hissə, əsas hissə və nəticənin, giriş və nəticə hissənin əlaqələnməsini müəyyən edərək mətn yazır.)

**Qiymətləndirmə meyarları:**

Əsas faktları (hadisəni) qruplaşdırma;

Əlaqələri müəyyən etməklə mətn yazma.

Dərslikdə bölmələrin əvvəlində verilən sual və tapşırıqlar diaqnostik xarakterlidir. Müəllim həmin tapşırıqlardan istifadə etməklə fərqli tapşırıqlar (analoqunu) hazırlaya bilər.

Diaqnostik qiymətləndirmənin nəticələri yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır. O, formativ və summativ qiymətləndirmələr üçün zəmin rolunu oynayır.

Diaqnostik qiymətləndirmənin nəticələri təhlil olunur, şagird portfoliosunda saxlanılır.

**Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul və vasitələrə nümunə**

| Üsul | Vasitə |
|---|---|
| Tapşırıqvermə | çalışma, sual, tapşırıq, şəkil üzərində iş və s. |
| Müşahidə | Müəllimin qeydiyyat vərəqi (yeni mövzu haqqında siniflə aparılan yoxlama zamanı müəyyən edilmiş meyarlarla bağlı müəllimin öyrənmək istədiklərinin qeydlər şəklində yazılması) |

# FORMATİV QİYMƏTLƏNDİRMƏ

Formativ qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarındakı irəliləməni, geriləməni müşahidə etməyə, çatışmazlığı aradan qaldırmağa imkan verir. Müəllim formativ qiymətləndirməni həyata keçirmək üçün təlim məqsədlərini, daha sonra məqsədlər əsasında rubrikləri düzgün müəyyənləşdirməlidir. Rubriklər şagird fəaliyyətinin sözlü qiymətləndirməsidir.

Qiymətləndirmə apararkən aşağıdakılar diqqət mərkəzində saxlanmalıdır:

*Nəyi qiymətləndiririk?* (şagirdin bilik və bacarıqlarını);
*Necə qiymətləndiririk?* (müxtəlif üsul və vasitələrlə);
*Kimi qiymətləndiririk?* (şagirdi);

*Qiymətləndirmənin nəticələri necə təhlil olunur?* (cavablar yoxlanılır, təlim nəticələrinin şagirdlər tərəfindən reallaşma səviyyəsi təhlil edilir (düzgün cavabların sayı, çatışmazlıq, müəllimin üzərində işləməli olduğu problem, daha çox diqqət yetirilməli məqamlar və s.), nəticələr diaqramlar vasitəsilə göstərilir;

*Qiymətləndirmənin nəticələri necə emal olunur?* (xarakterik səhvlər qruplaşdırılır, şagirdlərlə müzakirə olunur, müvafiq izahlar verilir);

*Qiymətləndirmənin nəticələri barədə kimə məlumat verilir?* (sinif rəhbərinə, valideynlərə, şagirdlərə)

Bilik və bacarıqların qiymətləndirilməsində bütün şagirdlərin diqqətdə saxlanması vacibdir.

Formativ qiymətləndirmənin keçirilməsi üçün qiymətləndirmənin üsul və vasitələri düzgün seçilməlidir. Hazırlanan tapşırıqlar ölçülə bilən olmalıdır. Dərslikdə şagird bacarıqlarını ölçən müxtəlif tapşırıq modelləri vardır.

Tapşırıqlar şagirdlərdə dinlədiyi və oxuduğu mətnlərdə əsas fikri müəyyənləşdirmək, müxtəlif fikirlərlə bağlı mülahizələrini bildirmək, yeni sözlərin mənasını öyrənmək, sözləri cümlələrdə işlətmək, ad və əlamət bildirən sözləri müəyyən etmək, onları uyğunlaşdırmaq, fakt və hadisələri seçmək, sözləri düzgün tələffüz etmək, düzgün yazmaq, durğu işarələrindən düzgün və yerində istifadə etmək, məzmunu yaradıcı nəql etmək, mətnin sonluğuna yaradıcı yanaşmaq və s. bu kimi bacarıqları ölçməyə xidmət edir. Bu tip tapşırıqlar standartların ölçülməsini təmin edir.

Standartlardan irəli gələn tələblərə yiyələnmə prosesində müəllim şagirdlərdə müxtəlif fəaliyyətləri müşahidə edə bilər. Məsələn:

- Mühakimə yürütməkdə çətinlik çəkir.
- Mühakimələri mətndəki əsas fikri qismən (tam) əhatə edir.
- Əsas fikirlə bağlı sərbəst mühakimə yürüdür.
- Fikirlərini müəllimin və yoldaşlarının verdiyi sualların köməyi ilə ifadə edir.
- Faktları dəqiq olmasa da, sərbəst fikir söyləyir.
- Fikirlərini dəqiq fakt və nümunələrlə əsaslandırır.

Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.
- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini zəif, orta, yüksək olmaqla qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır.

Formativ qiymətləndirmə aparmaq üçün müəllim müxtəlif üsul və vasitələrdən istifadə edə bilər.

**Müşahidə vərəqinə nümunələr**

| Meyarlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Şagirdlərin soyadı və adı | Cümlələr arasında rabitə yaradır. | Mətn qurur. | Mətndəki əsas fikri müəyyənləşdirir. | Düzgün oxuyur. | Lüğətlə işləyə bilir. | Sözləri düzgün tələffüz edir. | Sözləri düzgün yazır. |
| Əliyeva Nərgiz | + | + | + | + | + | + | + |
| Əliyev Əli | + | + | – | – | + | – | – |
| Həsənov Ramil | – | – | – | – | + | – | – |
| Məmmədli Nigar | – | – | + | – | – | – | + |

Seçilən standartlardan asılı olaraq qiymətləndirmə meyarları dəyişə bilər.

Formativ qiymətləndirmə gündəlik aparılır, nəticələr yarımilin sonunda ümumiləşdirilir və şagird portfoliosunda saxlanılır.

Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.

## SUMMATİV QİYMƏTLƏNDİRMƏ

Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

1. Hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;
2. Hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmələr hazırlanarkən müəllim bölmə ərzində, yaxud summativ keçiriləne qədər reallaşdırdığı standartlar əsasında sual və tapşırıqla hazırlamalı, 4 məzmun xəttinin tələbləri nəzərə alınmalıdır. KSQ-yə keçilməyən mövzuların, dərslikdə olmayan dil qaydalarına aid sual və tapşırıqların salınması yolverilməzdir.

**Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr**

- Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏSİ

Qeyd edək ki, qiymətləndirməni təkcə müəllimlər aparmır. Şagirdlərin özləri tərəfindən də qrupun, cütün qiymətləndirməsi diqqətdə saxlanmalı vacib məsələlərdən biridir.

Şagirdlərin özlərini qiymətləndirməsi, təkcə öz davranış və baxışlarına deyil, doğulub böyüdüyü ailəyə, ətrafa, dostlarına, yaşıdlarına, münasibət bildirməsi, təhlil etməsi onlarda həm özünə, həm ətraf mühitə münasibətdə vacib bacarıqlar formalaşdırır. Dərslikdə bununla bağlı müxtəlif tapşırıqlar verilmişdir.

Fərdi qaydada icrası daha məqsədəmüvafiq olan bu tapşırıqlar şagirdə sadə şəkildə həm özünü, həm də yaşıdlarını, ətraf mühiti təhlil və tədqiq etməyə imkan verir.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Nümunə – 1**

Şagirdin adı və soyadı: ______________ Tarix:_______________
Sinif: _________

| Qabiliyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Başqalarının izahlarını və məsləhətlərini dinləyirəm. | | | |
| 2. Təlimata əməl edirəm. | | | |
| 3. Müzakirələrdə iştirak edirəm. | | | |
| 4. Çalışmalarımı düzgün yerinə yetirirəm. | | | |
| 5. Anlamadığım bölmələrə aid sual verirəm. | | | |
| 6. Qrup yoldaşlarıma tapşırığın həllində kömək edirəm. | | | |
| 7. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə edirəm. | | | |
| 8. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə edirəm. | | | |

**Qeyd.** Meyarlar mövzuya və standartlardan çıxan təlim nəticələrinə görə dəyişə bilər.

**Nümunə – 2**

Şagirdin adı və soyadı: ____________ Tarix:______________ Sinif: _________

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| DİNLƏMƏ | Diqqətlə dinləyirəm. | | | |
| | Dinlədiklərimlə bağlı həyatdan nümunələr verirəm. | | | |
| | Dinlədiklərimi təxəyyülümdə canlandırıram. | | | |
| | Dinlədiklərimlə bağlı suallar verirəm və yönəldilən suallara cavab verirəm. | | | |
| DANIŞMA | Dinləyicilərə dəyər verdiyimi onlara hiss etdirirəm. | | | |
| | Bədən dilindən istifadə edirəm. | | | |
| | Etika qaydalarına və dəyərlərə uyğun danışıram. | | | |
| | Duyğu, düşüncə və xəyallarımı şifahi olaraq ifadə edirəm. | | | |
| | Rəvan danışıram. | | | |
| OXU | Oxu məqsədimi müəyyənləşdirirəm. | | | |
| | Açıq və anlaşılan bir şəkildə oxuyuram. | | | |
| | Oxuduğum mətnin əsas ideyasını müəyyənləşdirirəm. | | | |
| | Oxuduqlarımda nə, harada, nə zaman, necə, nə üçün və kim suallarına cavab axtarıram. | | | |
| | Başlıqdan çıxış edərək mətnin məzmununu təxmin edirəm. | | | |
| | Bilmədiyim sözlərin mənasını araşdırıram. | | | |
| | Mətnin növünü nəzərə alaraq oxuyuram. | | | |
| | Sərbəst oxuya diqqət verirəm. | | | |
| YAZI | Sözləri düzgün yazıram. | | | |
| | Cümlələri düzgün qururam. | | | |
| | Hadisələri başvermə ardıcıllığına görə yazıram. | | | |
| | Durğu işarələrindən yerinə görə düzgün istifadə edirəm. | | | |
| | Müşahidə etdiyim hadisələrdən yazımda istifadə edirəm. | | | |
| | **CƏMİ** | | | |

**Qeyd.** Müəllim bu qiymətləndirmə cədvəlindən istifadə etdiyi məzmun xətlərinə uyğun olaraq müvafiq hissəni şagirdlərə təqdim edir.

# QRUPLARDA İŞİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıda cədvəllər şəklində göstərilib: Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər.

**Qrupun qiymətləndirmə vərəqi**

**Nümunə – 1**

Qrupun adı: ______________ Tarix:_____________ Sinif: ____________

| Meyarlar | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqların icrasında iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edirlər. | | | | | |
| Qrupda qarşılıqlı şəkildə müzakirələr aparılır. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birlərinə bildirirlər. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini istiqamətləndirirlər. | | | | | |
| Qrup üzvləri tərəfindən nəticələrin növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edilir. | | | | | |
| Qrupda ziddiyyətli fikirlər müzakirə edilir. | | | | | |
| Qrup üzvləri üzərində işlədikləri mövzu ilə bağlı ortaq fikrə gəlirlər. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

Şərhlər: ________________________________________________________________

**Nümunə – 2**

**Təlimat:** Qrupdakı hər bir şagirdin qiymətləndirilməsi

**Qeyd:** cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edə bilərsiniz.

| Şagirdin adı, soyadı | Tapşırığı icra edir. | Başqalarını dinləyir. | Məsuliyyəti bölüşür. | Qrup yoldaşlarına kömək edir. | Müzakirələrə qoşulur. | Fikirlərini əsaslandırır. | Fərqli fikirlərə hörmətlə yanaşır. | Qrupdakı vəzifəsini icra edir. | Vaxtdan səmərəli istifadə edir. | Tapşırıqları yerinə yetirir. | Təqdimat hazırlayır. | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

Şərhlər:____________________________________________________________

## ŞAGİRDLƏRİN QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Nümunə**

Qiymətləndirilən şagirdin adı, soyadı: ________________

Qiymətləndirən şagirdin adı, soyadı: ________________ Sinif: ________________

| Qrupumuzdakı şagirdlər | Həmişə | | | Layihənin əvvəlində | | | Layihənin sonunda | | | Heç vaxt | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum | Mən | 1. Dostum | 2. Dostum |
| Müzakirələrdə fəal iştirak edir. | | | | | | | | | | | | |
| Vəzifəsini vaxtında yerinə yetirir. | | | | | | | | | | | | |
| Fərqli mənbələrdən məlumatlar toplayıb təqdim edir. | | | | | | | | | | | | |
| Qrup yoldaşlarının fikrinə hörmət edir. | | | | | | | | | | | | |
| Dostları ilə danışarkən etik qaydalara əməl edir. | | | | | | | | | | | | |
| Resurslardan səmərəli istifadə edir. | | | | | | | | | | | | |
| Materialları emal etməyi bacarır. | | | | | | | | | | | | |
| Nəticələri müzakirə edərkən aydın danışır, danışılanları başa düşür. | | | | | | | | | | | | |

## QRUP TƏQDİMATININ QİYMƏTLƏNDİRİLMƏSİ

Təqdimatlar qiymətləndirilərkən səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

✓ **biliklər:** faktlar, problemlər, anlayışlar, ideyalar;
✓ **əqli vərdişlər:** təhlil, qiymət, göstəricilərin sintezi, yeni məntiqlə düşünmək qabiliyyəti;
✓ **kommunikativ vərdişlər:** informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

*A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi*

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya bunlara əlavələr edilə bilər.

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

**4-cü** və **3-cü** səviyyələr: şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər *(müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.)*. Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

**2-ci** və **1-ci səviyyələr:** şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onlara diqqət yetirmirlər. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

| Meyarlar | 4-cü səviyyə | 3-cü səviyyə | 2-ci səviyyə | 1-ci səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar | Mükəmməl surətdə seçilir, dəqiq tərif və təsvirlər verilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Seçilmir. |
| Faktlar, informasiya | Mükəmməl seçilir. | Kiçik yanlışlıqlar var. | Səhvlər var. | Yoxdur və ya qeyri-dəqiqdir. |
| Problemə aid göstəricilərin toplanması | Məntiqlə seçir və hər şeyi təşkil edir. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Problem üzrə az göstərici tapır. | Mühüm göstəriciləri tapa bilmir. |
| Nəticə çıxarmaq bacarığı | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan məlumatlı nəticələr əldə edir. | Nəticələr yarımçıqdır. | Nəticələr yoxdur və ya dəqiq deyil. |
| Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı | Əla bilik və məntiq nümayiş etdirir. | Yaxşı bilik və məntiq nümayiş etdirir. | Müəyyən bilik və məntiq nümayiş etdirir. | Qeyri-dəqiq bilgilər nümayiş etdirir. |
| Təqdimatın təşkili | Əla | Yaxşı | Kafi | Qeyri-kafi |

# ESSENİN QİYMƏTLƏNDİRİLMƏSİ

Esseni qiymətləndirərkən müəllim aşağıdakı meyarlardan istifadə edə bilər:

- esse mövzusunun mahiyyətinin dərki və tam açılması;
- faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- terminlərdən, faktlardan düzgün istifadə olunması;
- mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması; fikrin ardıcıllığı.

**ESSENİN QİYMƏTLƏNDİRİLMƏ MEYARLARI**

| | |
|---|---|
| Giriş | 1. Esse giriş, əsas, nəticə hissələrindən ibarətdir.<br>2. Giriş essenin əsas məzmununu özündə əks etdirir. |
| Əsas hissə | 1. Hər bir abzasda məzmunu əks etdirən cümlə var.<br>2. Bu hissədə giriş hissədəki ideya və fikirlər inkişaf etdirilir.<br>3. Nümunələr və təsvirlər qısa və məqsədyönlüdür.<br>4. Müəllif kifayət qədər dəstəkləyici nitq ünsürlərindən istifadə edir (ifadə etdiyi ideyalar üçün).<br>5. Bir mövqedən digərinə əlaqəli keçidlər edir. Bu keçidlərdə "mən", "sən" əvəzliyi əvəzinə "biz" əvəzliyindən, "əlavə olaraq", "baxmayaraq ki", "bununla belə" və s. bu tipli sözlərdən istifadə edir.<br>6. Cümlələrin və ideyaların məntiqi ardıcıllığı vardır. |
| Nəticə | 1. Fikirlərini əsaslandıra bilir.<br>2. Arqument və ideyalar bir daha vurğulanır. |
| | 1. Sadə cümlələrdən istifadə edir.<br>2. Lüğət ehtiyatı zəngindir.<br>3. İsim və sifətlərdən yerində istifadə edir.<br>4. Hərf səhvləri yoxdur.<br>5. Esse verilmiş həcmə uyğundur. |

# DİSKUSSİYANIN QİYMƏTLƏNDİRİLMƏSİ

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz baxışlarını təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadəetmə bacarığı;
- mülahizələrin məntiqliliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı: sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəifldən əks dəlillər tapmaq məharəti.

Mənfi ballar (1-dən 5-dək) aşağıdakı parametrlərlə ölçülə bilər:

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- qrup üzvlərinə maneə törədilməməsi;
- qrup üzvlərinin fikirlərinə hörmətlə yanaşma.

**DİSKUSSİYA İŞTİRAKÇISININ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ**

**Nümunə**

Adı, soyadı: ________________ Tarix: ________________

| | heç vaxt 1 | demək olar heç vaxt 2 | bəzən 3 | tez-tez 4 | həmişə 5 |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | | |
| Öz ideyalarımı dəqiq izah edirdim. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | | |

Mən bugünkü diskussiyaya hazır gəlmişəm: ☐ HƏ ☐ YOX

Sinifdə tədris zamanı interaktiv öyrənmənin böyük əhəmiyyəti vardır. İnteraktiv öyrənmənin müxtəlf üsulları vardır.




**Bir-birini öyrətmək**

Unutmayın ki, dərsə maraq göstərən şagirdlərin bir-birlərini öyrətmələrini istəmək önəmli nailiyyətlər əldə etməyin yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bunun üçün şagirdlərə tədqiqat xarakterli tapşırıqlar vermək, tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrətmək lazımdır. Əgər şagirdlər bunu digərlərinə öyrədərlərsə, onda, həqiqətən, mövzunu mənimsəmişlər. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istəmək və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə etmək mümkündür.

**Filmlər çəkmək**

Smartfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə filmləri çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirmişdir. Şagirdlər mövzu ilə bağlı hər hansı bir hadisəni, əhvalatı, səhnələşməni, müzakirəni və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da onlara sonradan bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

**İdraki xəritələrin yaradılması**

İdraki xəritə fərqli amillər arasında əlaqələri əyani şəkildə göstərən bir diaqramdır. Şagirdlər səhifənin ortasında əsas sualı, ideyanı və ya konsepsiyanı yazmaqla işə başlayırlar. Məsələn, *“Azərbaycan Respublikasının Vətən müharibəsində qələbəsinin səbəbləri”, “Səyahət mənə nə qazandırdı?”* və s. Daha sonra şagirdlər bu sualla bağlı bir sıra başqa səbəbləri və dəlilləri qeyd edirlər.

**Afişaların yaradılması**

Şagirdlər mətnin vizual görüntüsünü hazırlayırlar. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagirdlər afişa yaratmağın şəxsi versiyasını təklif edirlərsə, deməli, belə dərs daha yaxşıdır. Məsələn: quşları qorumağın faydası, ekologiyanı qorumaq üçün təklif olunan yollar, yaşıllığın qorunması ilə bağlı plakat və s. hazırlamaq.

**Diaqramların, qrafiklərin hazırlanması**

Əsas hadisələrin xronoloji ardıcıllıqla yerləşdirilməsi, bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaqda çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artması və ya azalması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə bir dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramlara əlavələr kimi qrafiklərin yaradılması məqsədəmüvafiqdir. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

**Sinifdənxaric öyrənmə**

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu tədbirin özündə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda, öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraq göstərir və bağlanırlar.

*I bölmə*

# MƏN AZƏRBAYCAN *vətəndaşıyam*

1. LAYİHƏ: "MƏN AZƏRBAYCAN VƏTƏNDAŞIYAM"

2. MƏKTUB

3. ARAYIŞ

4. VƏTƏNDAŞ!

5. SADƏ, XEYİRXAH İNSAN

6. ZİVƏRİN UĞUR HEKAYƏSİ

7. LAÇINLA ŞUŞANIN SÖHBƏTİ

8. ANİ QƏRAR

9. KOMİKS ƏSASINDA MƏTNİN TƏRTİB EDİLMƏSİ

# 1 LAYİHƏ: “Mən Azərbaycan vətəndaşıyam”

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi fikirlərə münasibət bildirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Oxuduqlarına münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, sual-cavab

**■ 1-ci addım.** İlk dərs Bilik Gününə *(əgər ilk dərs senytabr ayının 15-nə təsadüf edirsə)* həsr olunmuş yığcam, şifahi və ya yazılı təqdimatla *(vəziyyətdən asılı olaraq)* başlaya bilər. Müəllim Azərbaycanda elmə verilən qiymətdən, savad və bilik almağın əhəmiyyətindən və vacibliyindən, bilikli insanın dünyaya çıxışının daha asan olmasından və s. danışmaqla şagirdləri pozitiv notlarla yeni dərs ilinə həvəsləndirə bilər.

Daha sonra şagirdlərin diqqəti dərsliyə yönəldilir. Müəllim şagirdləri yeni dərsliklə tanış edir, diqqəti onun üz qabığına yönəldir və onunla bağlı şagrdlərin fikirləri öyrənilir. Şagirdlərə *“Dərsliyin üz qabığında nə təsvir olunmuşdur?”, “Bu şəkil vasitəsilə hansı fikir çatdırılır?”, “Nə üçün belə hesab edirsiniz”, “Üz qabığını bəyəndinizmi?”, “Nə üçün?”* və s. suallarla şagirdlərə müraciət edir. Şagirdlərin ilkin cavabları yazılı şəkildə də ola bilər, şagird portfoliosunda saxlanıla bilər. İlin sonunda üz qabığı ilə bağlı şagirdlərə təkrar sual verməklə, onun dərsliyin bölmələri ilə necə əlaqələnməsi barədə fikirlərini öyrənə bilər. Aşağıdakı cədvəldən istifadə etmək olar:

| Dərsliyin üz qabığı ilə bağlı fikirlərim | |
|---|---|
| Dərs ilinin əvvəlində | Dərs ilinin sonunda |
| | |

Cavabları ümumiləşdirdikdən sonra şagirdləri dərsliyin quruluşu, şərti işarələri və s. ilə tanış edir. Bu tədris ilində qarşıda duran vəzifələr, maraqlı layihələrin hazırlanacağı barədə məlumat verilir.

Müəllim şagirdlərin diqqətinə çatdırır ki, bölmə boyunca onlara bələdçilik edən obrazlar olacaq. Şagirdlər əvvəlki illərdən artıq onlarla tanışdırlar. Bu obrazlar, onların verdiyi suallar vasitəsilə şagirdlər bölmənin mahiyyəti, əhəmiyyəti və s. haqqında məlumat alacaqlar.

**■ 2-ci addım.** Daha sonra müəllim diqqəti şagirdlərin üzərində işləyəcəkləri layihəyə (“Mən Azərbaycan vətəndaşıyam”) yönəldir. *“Sizcə, layihə nə üçün belə adlandırılmışdır?”* sualı ilə şagirdlərə müarciət edilir. Cavablar ümumiləşdirilir. https://www.youtube.com/watch?v=ZDvg4aPl_28 linkindən *(Heydər Əliyev – Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!)* istifadə etmək

və ulu öndərin fikri əsasında müzakirə təşkil edə bilər. Müəllim 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi və bununla bağlı il ərzində keçirilən tədbirlərdən danışmalıdır.

**■ 3-cü addım.** Dərsliyin 10-cu səhifəsində verilmiş şeir və Ulu öndərin kəlamı oxunur, üzərində iş aparılır. *"Milli mənsubiyyət dedikdə nə başa düşürsünüz?", "Ulu öndər nə üçün milli mənsubiyyəti qürur mənbəyi hesab edir?"* sualları ilə şagirdlərə müraciət edilir və şagirdlərin fikirləri öyrənilir. Azərbaycan Respublikasının Konstitusiyasının 1, 5 və 12-ci maddələri oxunur və təhlil edilir.

**■ 4-cü addım.** *"Vətəndaş hesab edilmək yalnız mənsub olduğun torpaqda yaşamaqdırmı?"* sualı ilə şagirdlərə müraciət edilir və müzakirə təşkil edilir. Şagirdin "Bəli" və "Xeyr" cavabının hər biri əsaslandırılmalıdır. Müəllim şagirdlərin nümunə gətirməklə, yaxud bildikləri faktlardan, hadisələrdən istifadə etməklə onların fikirlərini əsaslandırmasına nail olmalıdır. Yəni şagird bu nəticəyə gəlməlidir ki, vətəndaşlıq təkcə mənsub olduğun torpaqda yaşamaq deyil, həm də onu qorumaq, yeri gələndə canından keçmək, hər yerdə onu layiqincə təmsil etməkdir və s.

**■ 5-ci addım.** Şagirdlərin bu fikirlərinin davamı olaraq dərsliyin 12-ci səhifəsindəki məktub oxunur. Müəllim zəruri hesab edərsə, əvvəlki illərdə şagirdlərin məktubun xüsusiyyətləri ilə bağlı öyrəndiklərini xatırlatmaq məqsədilə sual verə bilər: *"Məktub nədir?", "Məktuba verilən tələblər hansılardır?", "Məktub hansı hissələrdən ibarət olur?"*

Müəllim şagirdlərə növbəti sualı ünvanlayır: *"Sizcə, cavabı hansı vasitələrdən istifadə etməklə çatdırmaq olar?"* Yəqin ki, şagirdlər mümkün vasitələri sadalayacaqlar *(votsap, teleqram vasitəsilə, Facebook və s.)* Müəllim bu məktubun rəsmi olduğunu izah etməli və rəsmi şəkildə də cavab məktubu hazırlanmalı olduğunu bildirməlidir.

**■ 6-cı addım.** Dərsliyin 13-cü səhifəsində verilmiş QR-dan istifadə etməklə animasiya dinlənir və həmin səhifədə verilmiş suallar üzərində iş təşkil edilir. Şagirdlər tədbirin planı, təqdimat hazırlamaq üçün plan, təlimat və digər nümunələrlə tanış edilir və izahat verilir. Şagirdlər əvvəlki illərdən təqdimat hazırlamaqla bağlı kifayət qədər izahat verildiyi üçün onu hazırlamaq çətinlik törətməyəcəkdir. Bununla belə, dərslikdə təqdimata nümunə (səh.14-15) verilmişdir. Şagirdlərə izah olunur ki, onlar təqdimat hazırlayarkən mövzunu diqqətlə seçməli, mövzu ilə bağlı ətraflı məlumat toplamalı, məlumatlar içərisində ən zəruri olanlardan istifadə etməklə təqdimat, yaxud məlumata uyğun təqdimetmə forması müəyyən etməlidirlər.

> QEYD. *"Təqdimat hazırlamaq üçün hansı mövzulara müraciət edərdiniz?"* sualına şagirdlərin müxtəlif cavabları ola bilər. Ağıllı təklifləri nəzərə almaq lazımdır. Müəllim şagirdlərə xatırladır ki, bölmələrdəki mətnləri öyrəndikcə onların əsasında da təqdimatlar, videoçarxlar, bukletlər, bülletenlər və s. hazırlanacaqdır.

**■ 7-ci addım.** Evə aşağıdakı tapşırıqlar şagirdlərin bacarıqları nəzərə alınmaqla verilir:

- cavab məktubunun hazırlanması;
- 14-cü səhifədə təqdimata nümunə kimi verilmiş "Mədəniyyət paytaxtı Şuşa" mətni ilə tanış olmaq və həmin təqdimatın mətni əsasında plan hazırlanması;
- Ulu öndərin həyat və fəaliyyəti ilə bağlı inşa (və ya esse) yazmaq, təqdimat, yaxud videoçarx hazırlamaq.

> QEYD. Təqdimat, yaxud videoçarx hazırlanacaqsa, müəllim bu işi fərdlərə deyil, kiçik, yaxud böyük qruplara da tapşıra bilər. Bu, müəllimin seçimindən, sinfin və şagirdlərin səviyyəsindən asılıdır.

**■ 8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 2 Arayış

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Dinlədikləri ilə bağlı fikirlərini ümumiləşdirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Arayış yazır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, sual-cavab, klaster

■ 1-ci addım. Seçmə yolla ev tapşırığı yoxlanılır, şagirdlər qiymətləndirilir.

Müəllim şagirdlərin yazılarını qiymətləndirərkən bir neçə üsuldan istifadə edə bilər:

**1-ci üsul.** Yazıları (inşa, təqdimat və s.) dinləyir, müsbət və mənfi cəhətləri bildirir, daha mükəmməl yazı üçün şagirdləri istiqamətləndirir.

**2-ci üsul.** Şagirdlərdən bir nəfər yazını oxuyur, dinləyənlər müəllimin təqdim etdiyi meyarlar əsasında yoldaşının işini qiymətləndirir. Müəllim qiymətləndirmənin düzgün aparılmasına nəzarət edir.

*Nümunə:*

**MEYARLAR**

| | Məzmun dolğundur. | İnşanın *(essenin, təqdimatın)* tərkib hissələri əlaqəlidir, əlaqəli deyil. | Abzaslararası əlaqə gözlənilmişdir. | Nitq aydın və səlisdir. | Jest və mimikalar nitqə və məzmuna uyğundur. |
|---|---|---|---|---|---|
| Dinlədiyim yazı | | | | | |
| “Müasir Azərbaycanın qurucusu” | | | | | |

QEYD. Bu cədvəl bir nümunədir, müəllim fərqli cədvəl və müxtəlif meyarlar hazırlamaqda sərbəstdir.

**3-cü üsul.** Şagirdlər biri digərinin yazısını oxuyur, müəllimin təqdim etdiyi meyarlar əsasında yoldaşının fəaliyyətini qiymətləndirir. Bu prosesin tənzimlənməsində əsas məqsəd şagirdlərdə düzgün yazı vərdişləri formalaşdırmaqdır.

■ 2-ci addım. 2-ci üsuldan istifadə etməklə dərsin bu hissəsini təşkil etmək olar.

**1-ci üsul.** Şagirdlərə *“Siz kimsiniz?” (yaxud hər hansı bir şagirdə adı ilə müraciət etməklə)* sualı ilə müraciət edilir. Şagirdlər, yəqin ki, “şagird” cavabını verəcəklər. Fərqli cavablar da ola bilər. Müəllim onlara növbəti – *“Şagird olmağınızı necə sübut etmək olar?”* sualını ünvanlayır. Əgər lazımi cavab olmazsa, müəllim arayış haqqında məlumat verir.

**2-ci üsul.** Müəllim klaster üsulundan istifadə etməklə lövhədə *arayış* sözünü yazır və şagirdlərə sual verir: *"Arayış nədir?", "Arayışla bağlı hansı məlumata maliksiniz?"*




**3-cü addım.** Müəllim arayışla bağlı izahat verir, sonra dərsliyin 16-cı səhifəsində arayışla bağlı məlumatlar şagirdlərə oxudulur. Oxu zamanı intonasiya və düzgün tələffüz diqqətdə saxlanmalıdır. Yeri gəldikcə, sual vermək olar.



■ **4-cü addım.** Şagirdlər dərsliyin 17-ci səhifəsində verilmiş arayışın yazılması nümunəsi ilə tanış olurlar. Müəllim şagirdlərin mövzunu hansı səviyyədə mənimsəmələrini yoxlamaq üçün suallar verə bilər: *"Tərcümeyi-halla arayışın oxşarlığı varmı?", "Əgər oxşar olduğunu hesab edirsinizsə, bu hansı xüsusiyyətində özünü göstərir?","Fərqli cəhətləri hansılardır?"* Müəllim Venn diaqramından istifadə edə bilər.

| | Tərcümeyi-hal | Arayış |
|---|---|---|
| **Oxşar cəhətləri** | 1. Hər ikisi əməli-yazı növüdür.<br>2. Hər ikisi konkret bir şəxslə bağlıdır.<br>3. Hər ikisində şəxs haqqında məlumatlar öz əksini tapır.<br>4. Hər ikisində göstərilən məlumatlar dəqiq olmalıdır.<br>5. Hər ikisi imzalanır.<br>6. Hər ikisində yazılma tarixi qeyd olunur. | |
| **Fərqli cəhətləri** | Məzmun genişdir. | Məzmun yığcamdır. |
| | Şəxs haqqında ətraflı məlumat verilir. | Şəxsin adı, soyadı, iş yeri və vəzifəsi göstərilir. |
| | Şəxsin özü tərəfindən yazılır. | Oxuduğu və ya işlədiyi təşkilat tərəfindən verilir. |
| | Şəxsin özü tərəfindən imzalanır. | Verildiyi təşkilatın rəhbəri tərəfindən imzalanır və möhürlənir. |
| | Ştamp və möhür yoxdur. | Ştamp vurulur və nömrələnir. |

■ **5-ci addım.** Dərsliyin 17-ci səhifəsindəki 1-ci tapşırıq üzərində iş aparılır. Tapşırıq müəllimin seçimi əsasında qruplar və ya cütlər iş forması seçilməklə yerinə yetirilə bilər. Arayışın yazılması üçün dərslikdə mövzular verilmişdir. Qruplar püşkatma, yaxud müəllimin təklifi əsasında mövzulardan birini seçir və arayış hazırlayırlar.

■ **6-cı addım.** Qrupların hazırladığı arayışlar oxunur və yoxlanır, qiymətləndirməsi aparılır. Qiymətləndirmə aparmaq üçün müxtəlif üsullardan istifadə oluna bilər: qruplar biri digərini qiymətləndirə bilər, yaxud müəllim hər bir qrupu özü qiymətləndirə bilər.

■ **7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 3 Vətəndaş!

**Standartlar:** 1.1.1., 2.1.3, 2.1.4, 3.1.1., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədikləri ilə bağlı fikirlərini ümumiləşdirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Mətnin məzmununu danışır.
Tanış olmayan sözlərin mənasını izah edir.
Şeirdə çatdırılan fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi, cütlərlə

**İş üsulu:** beyin həmləsi, müzakirə, strategiyalı oxu

■ 1-ci addım. Dərsə şagirdlərə aşağıdakı cədvəllər olan iş vərəqlərini təqdim etməklə başlamaq olar:

**Cədvəl 1**

| | Bəli | Yox | Əsaslandırma |
|---|---|---|---|
| *Mən vətəndaşammı?* | | | |

**Cədvəl 2**

| Vətəndaş olmaq nə deməkdir? | |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

Şagirdlərə bu tapşırığın icrası üçün 5-7 dəq. vaxt verilir. Belə olduğu halda, şagirdlərdə verilən tapşırığı çevik icra etmək bacarığı formalaşır və bu, tədricən vərdişə çevrilir.

Tapşırığın (cədvəl 1) fərdi qaydada icrası məqsədəmüvafiqdir. İkinci cədvəldə verilən sualın vaxta qənaət baxımından tapşırığın cütlərlə icrası da mümkündür. İş formasını müəllim qurduğu dərsə uyğun seçə bilər.

Müəllim şagirdlərin cavablarını yoxlamır, növbəti tapşırıq üzərində iş aparılır.

■ 2-ci addım. Diqqət dərsliyin 18-ci səhifəsindəki tapşırığa yönəldilir, dərslikdəki sxem üzərində iş aparılır. Sualların yerinə yəqin ki, şagirdlərin uyğun cavabları olacaqdır.

**Müəllimin nəzərinə:** (sinfin və şagirdlərinin səviyyəsi imkan verdiyi halda fikirləri səsləndirə və müqayisəsini apara bilər.)

Müəllim Əsəd Aslanoğlunun ***("Füyuzat" N°1 (51), 2010)*** aşağıdakı fikirlərindən istifadə edə bilər:

***Vətəndaş olmaq...***

Vətəni varlığı bilib, hər şeyini onun uğruna qurban etməyə hazır olan

*Saxlaram gözlərim üstündə onu,*
*Ölərəm əldən əgər getsə Vətən.*
*Vətənin neməti nisyan olmaz,*
*Naxələflər ona qurban olmaz.*

– deyən vətəndaşın səsini qəlbində yanğılamaq...

***Vətəndaş olmaq...***

Vətənin əzəmətli qayalarında onun əzəmətini, ətirli çiçəklərində gözəlliyini görüb:

*Azərbaycan, qayalarda bitən bir çiçək,*
*Azərbaycan, çiçəklərin içində qaya* deyə bilmək...

***Vətəndaş olmaq...***

Yediyi hər tikədə qabarlı əllərin halal zəhmətini görməyin, içdiyi hər damla suda Vətənin dadını, nəfəs aldığı havada Vətənin ətrini duymağın və bu nemətlərin haqqını ödəməyin yollarını aramaq...

***Vətəndaş olmaq...***

Ağır, amma şərəfli bir yük...

Bu yükü daşımaq "Vətən" deyən hər bir azərbaycanlının müqəddəs borcudur. Vətəndaş olmağın verdiyi məsuliyyəti dərk edən, azərbaycanlı olması ilə həmişə fəxr edən babalarımızın bizlərə qoyduğu əmanət...

***Vətəndaş olmaq...***

"Daş ol, torpaq ol, amma vətənin ol, yadın olma!" deyən böyüklərimizin yolu...

Onlar – o böyüklərimiz, nəsillərdən nəsillərə ötürülən bir səslə, bir hayqırışla mənə, sənə, ona – bizlərə – bütün Vətən övladlarına belə səslənirlər:

"Harada olursan ol, bir şeyi unutma ki, sən bu Vətənin vətəndaşısan, sən bu Vətəndən bir parçasan. Bu ada layiq ol, onu şərəflə daşı! Sən Azərbaycan vətəndaşısan!.."

Şagirdlərə *"Əsəd Aslanoğlunun fikirlərinə münasibət bildirin. O hansı fikirləri təbliğ edir? Həmin fikirləri sadələşdirib 1-2 cümlə ilə təqdim edin"* sualı verilə bilər.

Tapşırıq kollektivlə iş formasından istifadə edilməklə yerinə yetirilir. Şagirdlərə *"Sizin cavablarınızla sxemdə verilənlər üst-üstə düşürmü? Fərqli cavab varmı?"* sualları ünvanlanır. Bu, müəllimə, demək olar ki, bütün şagirdlərin iş vərəqində nə yazdıqlarını bilməyə imkan verəcəkdir. Amma iş vərəqlərini toplayıb qiymətləndirmək və şagirdlərə rəy bildirmək mütləqdir.

Daha sonra *"Sizcə, "vətəndaş olmaq" ifadəsi nə üçün ağ rəngli lampanın içərisində verilmişdir?"* sualı ilə şagirdlərə müraciət edilir. Cavablar müxtəlif ola bilər: "ağ rəng – dincliyin, asayişin, sülhün rəmzi; lampa günəşin, işığın rəmzidir" və s.

**■ 3-cü addım.** Dərsliyin 19-cu səhifəsindəki "Vətəndaş" şeiri şagrdlərə dinlədilir. Şagirdlərə şeiri dinləmək, intonasiya, səs tonu, fasilələrə diqqət yetirmək tövsiyə edilir.

**■ 4-cü addım.** Sonra şeir şagirdlərə oxudulur. Müəllim qurduğu dərsdən asılı olaraq oxunun müxtəlif növlərindən istifadə edə bilər. Bu şeirin oxusu üçün strategiyalı oxu tövsiyə edilir. Bu zaman şagird şeiri düşünərək oxuyur. Bu, tədricən şagirdlərdə çevik düşünmək, sual vermək, əvvəlki biliklər əsasında yeni biliklər əldə etmək, fikir mübadiləsi aparmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və ondan həyati problemlərin həllində istifadə etmək bacarıqları formalaşdırır.

Oxu zamanı şeirin hər misrası təhlil edilir, əsas fikir müəyyən edilir. Orfoqrafiya, orfoepiya tapşırıqları müəllimin qurduğu dərsdən asılı olaraq, oxudan əvvəl və ya sonra icra edilə bilər. Bir neçə şagird tərəfindən mətnin yığcam məzmunu nəql edilir.

**5-ci addım.** "Vətəndaş" şeirinin məzmunu üzərində iş aparmaq üçün 5-11-ci tapşırıqlar üzərində iş aparılır. 5-9-cu tapşırıqların kollektiv; 10-11-ci tapşırıqların isə cütlərlə iş formasından istifadə etməklə icrası məqsədəmüvafiqdir. Tapşırıqlar müzakirə edilir, cavablar ümumiləşdirilir. Mətnin məzmunu üzərində iş aparmaq üçün müəllim sinfin səviyyəsini nəzərə almaqla əlavə suallar tərtib edə bilər.

**6-cı addım.** "Vətəndaş" şeirinin lüğət tərkibi üzərində iş aparmaq üçün 12, 14, 15-ci tapşırıqlar üzərində iş aparılır. Müəllim əlavə suallar tərtib edə bilər. Tapşırıqların cütlərlə iş formasından istifadə edilməklə aparılması məqsədəmüvafiqdir.

15-ci tapşırıq: diqqət *(etmək, yetirmək, göstərmək)*
sevgi (*hissi, bəsləmək, sözü)*
məsuliyyətli (*insan, şagird, şəxs)*

**7-ci addım.** Evə şagirdlərin imkan və bacarıqları nəzərə alınmaqla müxtəlif tapşırıqlar verilə bilər:

- 13-cü tapşırıq (tapşırıq sinifdə icra olunmayıbsa);
- 25-ci tapşırıq ("Mən Azərbaycan vətəndaşıyam" mövzusunda inşa və ya esse yazmaq);
- "Vətəni vətən edən vətəndaşlar" mövzusunda təqdimat hazırlamaq;
- "Vətəni vətən edən vətəndaşlar" mövzusunda divar qəzeti, buklet hazırlamaq;
- "Vətəndaş" şeirinə münasibətim" mövzusunda inşa yazmaq;
- "Vətəndaş" şeiri əsasında 3 sual tərtib etmək və cavablandırmaq;
- "Vətəndaş" şeirinin hər hansı bir hissəsini (şagirdin özünün bəyəndiyi hissə) əzbər öyrənmək.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 4 Vətəndaş!

**Standartlar:** 2.1.2., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Məntiqi vurğunun nə olduğunu bilir.
Şifahi nitqində məntiqi vurğudan düzgün istifadə edir.
Mətnlə bağlı fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi, cütlərlə

**İş üsulu:** beyin həmləsi, sual-cavab, söz assosiasiyası

**■ 1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlanır. Müəllim planlaşdırdığı dərsdən asılı olaraq ev tapşırıqlarının ya hamısını, ya da yeni dərsə keçid etmək üçün seçmə yolla bir neçə şagirdin tapşırığını yoxlayıb münasibət bildirə bilər. Şagirdlərin bir-birini qiymətləndirməsi də məqsədəmüvafiqdir. Şeirin bir hissəsi əzbər də dinlənilə bilər.

**■ 2-ci addım.** Müəllim *“Müraciət bildirən sözlər nədir?”, “Onlardan nə zaman istifadə olunur?”* və s. suallarla şagirdlərə müraciət edir. 5-6-cı siniflərdən şagirdlər xitabla bağlı məlumat aldıqları üçün sualları cavablandırmaq onlar üçün çətinlik törətməyəcəkdir.

**■ 3-cü addım.** 16-cı tapşırığı yerinə yetirmək üçün şeir hissələrə bölünərək şagirdlərə təqdim edilir və onlar müraciət bildirən sözü seçirlər. Müəllim şagirdərə “Nə üçün *Azərbaycan vətəndaşı* söz birləşməsini müraciət bildirən söz hesab edirsiniz?” sualı ilə müraciət edə bilər.

Əgər sinifdə üstün səviyyəyə malik olan şagirdlər varsa, onlara daha çətin tapşırıq vermək olar. Bunun üçün aşağıdakı tapşırıq modelindən istifadə etmək olar.

<table>
<tr><th colspan="3">Şeirdən misralar</th><th>Hökm düzgündür.</th><th>Hökm səhvdir.</th><th>Əsaslandırma</th></tr>
<tr><td>Diqqətli ol!</td><td colspan="2" rowspan="3">Fərqləndirilmiş ifadələr müraciət bildirən sözlərdir.</td><td></td><td></td><td></td></tr>
<tr><td>Unutma! Bu Vətən sənə əmanət!</td><td></td><td></td><td></td></tr>
<tr><td>Gör necə səslənir bu gözəl söz: Vətəndaş!</td><td></td><td></td><td></td></tr>
<tr><td>Çalış, sevdir bu Vətəni hər kəsə!</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

Daha sonra 17-ci tapşırıq kollektiv iş formasından istifadə edilməklə icra edilir. Şagirdlərin söylədikləri sözlərdən asılı olaraq onların ad olduqları nitq hissələri müəyyən edilir. Adətən, isimlər, isimləşmiş sifətlər, feili sifət və feili sifət təkibləri, bəzən nidalar və nidalarla işlənən sözlər müraciət məqsədilə işlədilir.

**4-cü addım.** Vurğu ilə bağlı söz assosiasiyasından istifadə etməklə şagirdlərin öyrəndikləri biliklər yoxlanır. Müəllim lövhəyə “Vurğu” sözünü yazır, bu sözlə bağlı şagirdlərə bildiklərini söyləməyi təklif edir. 18-ci tapşırıq icra edilir. 19-cu tapşırıq heca vurğusu ilə məntiqi vurğunun fərqləndirilməsi üçün mövzuya ilk addım hesab edilə bilər. “Vətəndaş” sözünün müəyyən edilməsi üçün müəllim yönəldici suallar verə bilər: *“Seir kimə müraciətlə yazılmışdır?”, “Şeirdə hansı söz daha çox diqqətinizi cəlb etdi?”* və s.

Müəllim şeirdən ixtiyari bir misranı lövhəyə yazır və şagrdlərə misradakı sözləri hecaya ayırmağı və hər bir sözün vurğusunu tapmasını və hansı hecaya düşdüyünü müəyyən etməyi tapşırır. Müəllim bu tapşırığı fərdi qaydada da icra etdirə bilər.

**Və-tən-daş-lı’q haq-qı-n’ı ö-də-mə’k ü-çü’n**

Daha sonra bu misrada artıq hecanın deyil, hansı sözün fərqli və daha qüvvətli *(ödəmək)* deyildiyi ilə bağlı yığcam müzakirə təşkil edir.

**5-ci addım.**

20-ci tapşırıq məntiqi vurğunun öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırıq icra edilir, müəllim qaydanı izah edir, fikrini nümunələrlə əsaslandırır.

21 və 22-ci tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə icra edilir.

6-cı addım 23 və 24-cü tapşırıqlar cütlərlə iş formasından istifadə edilməklə icra edilir. Şagirdlərin tapşırıqları müzakirə edilir, mövzu ümumiləşdirilir, məntiqi vurğunun nitqdə rolu izah edilməklə dərs yekunlaşır.

6-cı addım. Evə 26-cı tapşırıq verilir. Tapşırığın hazırlanması üçün dərslikdə plan və istiqamət verilmişdir. Tapşırığın iş forması şagird və müəllimlərlə birgə müəyyən edilir.

QEYD. Müəllim evə mövzu ilə bağlı sorğu keçirməyi də təklif edə bilər.

Sorğunun keçirilməsi və ümumiləşdirilməsi qaydaları ilə şagirdlər əvvəlki illərdən tanışdırlar. Müəllim şagrdlərinə sorğunun oxuduqları məktəbdə, yaşadıqları yerdə müxtəlif sosial qruplar arasında keçirilməsini tövsiyə edir.

- Sorğunu keçirmək üçün *“Vətəndaş olmaq nə deməkdir?”, “Konstitusiyada vətəndaşlarla bağlı hansı məlumatlar vardır?”* və s. suallardan istifadə etmək, alınan cavabları qruplaşdırmaq və nəticəni diaqramın müxtəlif növlərindən istifadə etməklə təqdim etmək olar.

7-ci addım. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 5 Sadə, xeyirxah insan

**Standartlar:** 1.1.2., 2.1.2., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə hadisələrə münasibət bildirir.
Məntiqi vurğudan düzgün istifadə edir.
Mətnlə bağlı fikirlərə münasibət bildirir.
Mətndəki hadisələrə münasibət bildirir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** müzakirə, səsli oxu, klaster, Venn diaqramı

■ 1-ci addım. Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

- Ev tapşırıqlarının yoxlanması, ev tapşırığından keçid alaraq yeni dərs üzərində işin təşkili;
- Yeni mətnin oxusunu təşkil etməklə;
- https://www.youtube.com/watch?v=IOHyidjYWgE (Üzeyir Hacıbəyli haqqında) linkindəki məlumatın müvafiq hissələrindən istifadə etməklə;
- “Uzun ömrün akkordları” filmindən müvafiq hissəni nümayiş etdirməklə;
- Klaster, yaxud auiksion üsulundan istifadə etməklə “Azərbaycanın böyük vətəndaşları kimdir?” sualı üzərində işlətməklə;




◆ Dinləmə mətni üzərində iş aparıb “Sadə, xeyirxah insan” mətninin oxusunu təşkil etməklə.

**Dinləmə mətni**

... Üzeyir bəy konservatoriyada çalışarkən bir qız əla qiymətlərlə imtahan verərək həmin ali musiqi ocağına qəbul olunur. Direktor onu təbrik edərkən qız həyəcandan ağlayır.

– Qızım, niyə ağlayırsan?

– Möhtərəm professor, məni qəbul etdiyiniz üçün çox sağ olun. Amma təhsilimi davam etdirə bilməyəcəyəm.

Üzeyir bəy təəccüblənir:

– Niyə?

– Evdə pianom yoxdur...

Onlar ayrıldılar. Direktor qəbul komissiyasından həmin qızın şəxsi işini gətizdirib ünvanını yazır. Qız axşam sevinc qarışıq kədər hissi ilə yorğun-ağrın evlərinə çatanda anası onu gülə-gülə qarşılayır:

– Qızım, evimizə piano gətiriblər. Sənin adını xəbər aldılar, cavab verdim. Aləti qoyub “Mübarəkdir!” söylədilər və çıxıb getdilər...

Dinləmə mətni müəllim tərəfindən oxunur. Suallara cavab verə bilmək üçün şagirdlərə mətni diqqətlə dinləmələri tövsiyə olunur. Mətni dinlədikdən sonra dərsliyin 24-25-ci səhifələrində verilmiş tapşırıqlar icra olunur. Tapşırığın icrası üçün 10-12 dəq. yetərlidir. Verilmiş müddət bitdikdən sonra tapşırıqlar müəllim tərəfindən yoxlanır:

**1**-B, **3**-B, **4**-2, 3, **8**-B, **9**-b.

**2.**

| Giriş hissə | Əsas hissə | Nəticə hissə |
|---|---|---|
| 1. Üzeyir bəyin konservatoriyada çalışması<br>2. Qızın əla qiymətlərlə konservatoriyaya daxil olması | 1. Direktorun qızı təbrik etməsi<br>2. Qızın ali məktəbə qəbul olma sevinci, oxuya bilməyəcəyi üçün yaşadığı gərgnlik | 1. Ananın qızına şad xəbəri |

**5. *Əsas fikir:***

*1. İnsan insanın ən böyük dostudur.*
*2. Müəllim gələcəyin vətəndaşını formalaşdıran bir şəxsdir.*
*3. İnsana edilən ən böyük yaxşılıq onu sevindirməkdir.*

Bu və buna yaxın fikirlər yazan şagirdin cavabları müsbət qəbul edilir.

7. Mətn üçün açar söz: *xeyirxahlıq, yaxşılıq*

**2-ci addım.** “Sadə, xeyirxah insan” mətninin oxusu üzərində iş təşkil edilir. Şagirdlərə “Sizcə, mətndə nədən danışılacaq?” sualı ilə müraciət edilir: Şagirdlərin cavabları lövhədə qeyd olunur. Mətnin oxusundan əvvəl orfoepiya, orfoqrafiya və vurğu tapşırıqları üzərində iş aparılır.

**3-cü addım.** Mətnin oxusu fasiləli, səsli oxudan istifadə edilməklə təşkil edilə bilər. Səsli oxunu bir neçə üsuldan istifadə etməklə həyata keçirmək olar.

***Birinci üsul.*** Əvvəlcə müəllim səlis və aydın, hamının eşidəcəyi səs tonu ilə mətni oxuyur. Daha sonra məzmunun qavrama səviyyəsini öyrənmək üçün şagirdlərə sual və tapşırıqlar verir: *“Mətndə hansı Üzeyirdən danışılır?”,“Şagirdinin onu məhəbbətlə xatırlamasının səbəbi nədir?”, “Üzeyirin Şəfiqəyə yardım etməsinin səbəbi nə idi?”, “Üzeyir müəllimin xarakterik xüsusiyyətləri hansılardır?” və s.*

***İkinci üsul.*** Müəllim şagirdləri qruplara ayırır və hər qrupdan bir şagirdə mətnin müəyyən hissəsini səsli oxumağı tapşırır. Sonra qruplar mətn əsasında sual hazırlayır və suallarını verəcəkləri qrupu müəyyən edirlər. Məsələn, 1-ci qrup hazırladığı sualları 3-cü qrupa verəcəyini bildirir.

***Üçüncü üsul.*** Sinifdəki bütün şagirdlər mətni növbə ilə səsli oxuyur və suallara cavab verirlər. Suallar şagirdlər tərəfindən də verilə bilər.

> QEYD. Sinfin və şagirdlərinin səviyyəsi, imkan və bacarıqları nəzərə alınmaqla müəllim **qeyri-ardıcıl** *(ordan-burdan)* **oxudan** istifadə edə bilər. Bu oxu fərdi iş formasından istifadə edilməklə təşkil edilir. Bu oxuda mətn ardıcıl deyil, müxtəlif hissələrdən pərakəndə oxunur. Sonra müəllim şagirdlərin məzmunu qavrama səviyyəsini öyrənmək üçün şagirdlərə sual və tapşırıqlar verir.

**4-cü addım.** Müəllim şagirdlərə növbəti tapşırığı təqdim edir. Qruplara aşağıdakı cədvəl olan iş vərəqi təqdim edilir və tapşırığın icrası üçün 10 dəq. vaxt verilir.

| | Dinlədiyim mətndə | Oxuduğum mətndə |
|---|---|---|
| **Oxşar cəhətlər** | | |
| **Fərqli cəhətlər** | | |

Tapşırıqlar yoxlanır və növbəti mərhələyə keçid edilir.

**5-ci addım.** Mətnin məzmunu üzərində iş aparmaq üçün 1-5-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların tez və sürətli yerinə yetirilməsi üçün hər tapşırıq 1-ci qrupa təqdim edilir. 5-6 dəq. kifayətdir.

**6-cı addım.** 6-7-ci tapşırıqlar icra edilir, şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir və yekunlaşdırılır.

**7-ci addım.** 8-ci tapşırıq evə verilir. Şagird öz seçimi əsasında inşa və ya esse yaza, yaxud da təqdimat hazırlaya bilər.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 6 Sadə, xeyirxah insan

**Standartlar:** 2.1.4., 3.1.1., 4.1.2.,4.1.3.

**Təlim nəticələri:**

Mətnin yığcam məzmununu danışır.
Mətndəki sözlərin mənasını izah edir.
Cümlələrarası əlaqə yaratmaq üçün müvafiq cümlələrdən istifadə edir.
Cümlə üzvlərini tanıyır.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, sual-cavab

**1-ci addım.** Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Seçmə yolla inşa oxunur və ya təqdimatlar nümayiş etdirilir. Dinləyən şagirdlərin çıxış edən şagirdlərin yazılarına münasibət bildirmələri təşkil edilir.

**2-ci addım.** 9-cu tapşırıq üzərində iş icra edilir. Sual işarəsinin yerinə "böyük vətəndaş" sözü yazılmalıdır. Yaxşı olar ki, şagirdlər mətndən istifadə etməklə Üzeyir Hacıbəylinin həm müəllim, həm də bəstəkar kimi xüsusiyyətlərini sadalasınlar. Sonra 10-cu tapşırıq yerinə yetirilir. Tapşırıqların kollektivlə icrası məqsədəmüvafiqdir.

Şagirdlər tapşrıqları icra etməkdə çətinlik çəkərlərsə, müəllim yönəldici suallardan istifadə edə bilər.

**3-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 11-14-cü tapşırıqlar cütlər vasitəsilə icra edilir. 11-ci tapşırıqda *borcluyam* sözünü *minnətdaram* sözü ilə əvəz etmək olar. *Borcluyam* sözü fərqli mənada *(Mən ona pul borclyam)* cümlədə işlədilir.

14-cü tapşırığı icra etmək üçün dərslikdəki nümunəni şagirdlərə izah etmək lazımdır.

*Kiçik* sözü çoxmənalı sözdür, cümlədə müxtəlif sözlərin yerində işlənə bilir. Dərslikdəki cümlələr əsasında şagirdə izahat verilir.

Mətndəki cümlələrdə "Böyük otaqda qoyulmuş fortepianoda öz mahnımı çalıb-oxudum" cümləsində *böyük* sözünü *geniş;* "... sonra isə Üzeyir müəllimin – bu böyük insanın konservatoriyada açdığı hazırlıq kursunda oxumağa başladım" cümləsində *böyük* sözünü *dahi* sözü ilə əvəz etmək olar.

**4-cü addım.** 15-ci tapşırıq cümlə üzvlərinin öyrədilməsi üçün motivasiya xarakterlidir.

Mətndə tünd şriftlə "Mən Üzeyir müəllimə müraciət etdim" cümləsi verilmişdir. Müəllim bu sözlərin məna və qrammatik cəhətdən bir-brinə bağlanmasını iki yolla izah edə bilər:

1. Sözləri şəkilçisiz lövhəyə yazır və onlardan cümlə düzəltməyi təklif edir. Bu zaman şagirdlər şəkilçilərdən istifadə etməlidir. Müəllim şagirdlərə izah edir ki, sözlər cümlədə əlaqələnərkən biri digərinin tələbi ilə müvafiq şəkilçilər qəbul edir.

2. Cümləni lövhəyə yazır və sözlərə sual verməyi təklif edir.

Mən Üzeyir müəllimə müraciət etdim.

Mən **– nə etdim? –** müraciət etdim. (Xəbər mübtədaya uyğun şəxs sonluğu qəbul edir. )

Müraciət etdim **– kimə? –** Üzeyir müəllimə (Üzeyir müəllim birləşməsi müraciət etdim sözünün tələbi ilə şəkilçi qəbul edir.)

Şagirdin daha yaxşı başa düşməsi üçün müəllim mətndən daha bir neçə cümlə seçib şagirdə izah edə, yaxud şagirdin izahat verməsini istəyə bilər.

**5-ci addım.** Müəllim qaydanı izah edir, izahını nümunələrlə əsaslandırır, 16-cı tapşırıq kollektivlə iş formasından istifadə edilməklə icra edilir.

**6-cı addım.** 17-ci tapşırıq üzərində iş aparılır. Şagirdlərə izah edilir ki, bu tapşırıq Üzeyir bəyin uşaqlıq illəri, onun Qori müəllimlər Seminariyasına daxil olmaq üçün Firudin bəy Köçərlidən dərs alması haqqındadır. Tapşırığın şərtindən sonra verilmiş suallar cütlər, yaxud qruplar arasında bölünməklə icra edilə bilər. Müvafiq iş formasının seçilməsi müəllimin planlaşdırdığı dərsdən asılıdır. İcra üçün 10 dəq. yetərlidir.

**7-ci addım.** Şagirdlərin cavabları yoxlanılır, 18-ci tapşırıq icra edilir. 18-ci tapşırığın icrası fərdi qaydada daha uyğun hesab edilir. Aşağıdakı cümlələr və məna baxımından onlara yaxın cavablar düzgün hesab edilir. İcra müddəti 5 dəqiqə verilir.

- *Üzeyir müəllim mənim ifamı bəyəndi, məni konservatoriyaya qəbul etdi. Sevincimin həddi-hüdudu yox idi.*
- *Üzeyir müəllim mənim mahnı oxumağımı bəyəndi, məni konservatoriyanın tar şöbəsinə qəbul etdi.*
- *Üzeyir bəy fortepianoda çalmağımı bəyəndi və mənim konsevatoriyada oxuya biləcəyimi dedi.*

**8-ci addım.** Cavablar dinlənilir, mövzu yekunlaşır və şagirdlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 7 Kiçik Summativ Qiymətləndirmə

## BÜLBÜL

1911-inci ilin xoş ətirli apreli idi. Onda Tiflis gül-çiçəyə qərq olmuşdu. Bülbül məclisi “Rast” muğamı ilə açıb el mahnıları ilə bitirdi.

Onun sehirkar səsi bütün məclisdəkiləri ovsunlamışdı. Hər yerdən ünvanına xoş sözlər yağdırıb onu alqışlayırdılar. Bülbülün məlahətli səsinə valeh olan məşhur gürcü müğənnisi Vano Saraçişvili özünü saxlaya bilməyib yerindən qalxdı, Bülbülə yaxınlaşıb ona əl uzatdı:

– Sizinlə ilk tanışlığıma çox şadam, cavan oğlan. Siz füsunkar səsinizlə, gözəl oxumağınızla muğamatı mənə sevdirdiniz. Siz bu səslə Azərbaycan mahnılarını təkcə mənə yox, bütün dünyaya sevdirə bilərsiniz. Bunun üçün yeni oxuma texnikasına yiyələnməlisiniz. **Dünyanın məşhur musiqi beşiyi İtaliyaya getməlisiniz.** Xüsusi musiqi məktəblərində oxuyub öyrənməlisiniz, görüb götürməlisiniz.

Bülbül ömründə birinci dəfə idi ki, İtalya adı eşidirdi. İlk dəfə idi ki, xanəndə olmaq üçün xüsusi məktəbdə oxumaq lazım gəldiyinə qulaq asırdı. Ona görə də görkəmli müğənninin dedikləri ona birtəhər gəldi:

– **Bəyəm, İtaliyaya getmədən xanəndəlik etmək olmaz?** Guya Cabbar Qaryağdıoğlu İtaliyaya gedib, xüsusi xanəndəlik məktəbi qurtarıb?

Vano Saraçişvili ürəkdən qəhqəhə çəkib əlini Bülbülün çiyninə qoydu:

– Cavan oğlan, sizin fikirinizlə az da olsa, şərikəm. Atalar demiş: "Gərək quyunun özündə su olsun". Bunu deməkdə məqsədim odur ki, sizdə həm gözəl səs, həm də böyük istedad var. Lakin bu mahnıları milli çərçivə daxilində məhdudlaşdırmaq olmaz. Onu yalnız bir xalqın malı etmək düzgün deyil. Bilirsinizmi, sənət bəşəri olmalıdır. Hamıya zövq verməlidir. Yalnız onda sənət böyük ola bilər.

**1. Mətnlə bağlı fikirlərdən düz olanları seçin.**

a. Bülbül istedadlı xanəndə olmuşdur.
b. Bülbül oxumaq üçün İtaliyaya getmək təklifini qəbul edir.
c. Hadisə yaz fəslində baş vermişdi.
d. Vano Bülbülün səhv oxuduğunu gördüyü üçün ona biliyini artırmağı tövsiyə edir.
e. Bülbül Vanonun təklifi ilə dərhal razılaşır.
f. Sənət hamı üçün əlçatan olmalıdır.

**2. Mətnin tərkib hissələri ilə bağlı uyğunluğu müəyyən edin.**

1 *XIX əsrin əvvəllərində Bülbülün Tiflisdə çıxış etməsi*

2 *Vano Saraçişvilinin Bülbülə İtaliyaya getməsini tövsiyə etməsi*

3 *Vano Saraçişvilinin həqiqi sənət haqqında fikirləri*

4 *Dinləyicilərin azərbaaycanlı xanəndəni ürəkdən alqışlaması*

5 *Bülbülün etirazı*

a) **Giriş hissə**

b) **Əsas hissə**

c) **Nəticə hissə**

**3. Hansı sualı mətnə əsasən cavablandırmaq olmaz?**

A) Vano Saraçişvili kim idi?
B) Bülbül nə üçün Vanonun sözlərinə etiraz edir?
C) Bülbül nə üçün Vanonun təklifini qəbul edir?
D) Sənət nə üçün bəşəri olmalıdır?
E) "Rast" muğamını kim oxuyur?

**4. Mətnə əsasən məlum olur:**

1. Cabbar Qaryağdıoğlunun Azərbaycan xanəndəsi olması
2. Hadisələrin ilin əvvəlində baş verməsi

3. Hadisələrin yazın ortalarında baş verməsi
4. Bülbülün Azərbaycan xanəndələrinə hörmət və məhəbbəti
5. Vano Saraçişvilinin Bülbüllə yaşıd olması
6. Vano Saraçişvilinin Bülbülün ifasına hörmətlə yanaşması

A) 1, 2, 3, 6 B) 2, 4, 5, 6 C) 1, 3, 4, 6 D) 2, 3, 5,6 E) 1, 2, 4 ,5

**5. Mətnə əsasən səbəb-nəticə əlaqələrini tamamlayın.**

| Səbəb | Nəticə |
|---|---|
| 1. ... | 1. Bülbülü xeyli alqışlayırlar. |
| 2. ... | 2. İtaliya musiqinin beşyidir. |
| 3. | |
| 4. | |

**6. Mətnə əsasən sxemi tamamlayın.**

Əsas fikir → Əsas fikri sübuta yetirən açar cümlə → Əsas fikrə münasibətim

**7. Müdrik fikirlərdən hansı mətnin məzmununa uyğundur?**

A) Sənətin vəzifəsi təbiətin surətini çıxarmaq deyil, onu ifadə etməkdir.

B) Sənət görüntünü təkrarlamır, təkrarolunmaz edir.

C) Həqiqi sənətkar sənəti üzə çıxarmağı bacarandır.

D) Yüksək sivilizasiyanın pilləkəni sənətdir.

E) Sənət düşünə bilən, həqiqəti görə bilən və cəmiyyəti anlaya bilən insanların işidir.

◆ *Seçiminizi əsaslandırın.*

*Mən ... variantını düzgün cavab hesab edirəm, çünki ...*

______________________________________________

**8. Cümləni tamamlayın.**

*Vano Saraçişvilinin təklifini* → *müsbət dəyərləndirirəm,* / *düzgün hesab etmirəm,* → *çünki ...*

**9. Hansı söz səhv yazılmışdır?**

A) Birinci abzasın 1-ci cümləsində ______________

B) İkinci abzasın 1-ci cümləsində _____________

C) Üçüncü abzasın 2-ci cümləsində ________________

D) Dördüncü abzasın 1-ci cümləsində ______________

E) Yeddinci abzasın 1-ci cümləsində _______________

**10.** ***1911-ci ilin xoş ətirli apreli idi*** **cümləsində hansı sözün yazılışı ilə deyilişi fərqlənir. Həmin sözün tələffüzünü yazın.**

**11.** ***İlk dəfə idi ki, xanəndə olmaq üçün xüsusi məktəbdə oxumaq lazım gəldiyinə qulaq asırdı*** **cümləsində hansı sözü dəyişsəniz, fikir daha dəqiq olar? Həmin ifadəni seçib yazın.**

| Verilmişdir | Olmalıdır |
|---|---|
| .... | .... |
| .... | .... |

**12. Altından xətt çəkilmiş cümlələrdə hansı sözlər bir-birinin sinonimi ola bilər?**

**13.Tünd şriftlə verilmiş cümlələrdə məntiqi vurğulu sözləri müəyyən edin.**

**14. Mətnə 4-5 cümlədən ibarət sonluq yazın.**

**15. Təsəvvür edin ki, Bülbül İtaliyaya getmək təklifini qəbul etmişdir. Sizcə, ona arayış lazım olacaqmı? Əgər lazım olacağını hesab edirsinizsə, həmin arayışı tərtib edin.**

QEYD. Şagirdlər işlərini vaxtından əvvəl bitirərlərsə, müəllimin Bülbül haqqında məlumat verməsi arzuolunandır.

# 8 Zivərin uğur hekayəsi

**Standartlar:** 2.1.3., 3.1.1., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Eşitdiklərini ümumiləşdirir.
Tanış olmayan sözlərin mənasını izah edir.
Oxuduğu mətnə münasibət bildirir.
Mətndəki fakt və məlumatlara münasibət bildirir.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** səsli oxu, müzakirə, beyin həmləsi, klaster

1-ci addım. Dərs müəlimin planlaşdırdığı dərsdən asılı olaraq müxtəlif üsullarla başlaya bilər.

- Müəllim KSQ-nin nəticələrini elan edir, xarakterik səhvləri ümumiləşdirir və izahını verir.
- Əvvəlki mövzuları suallar (*“Biz hansı mövzuları öyrənmişdik?”, “Bu mətnlərdə hansı fikirlər təbliğ olunurdu?”, “Vətəndaşlıq nədir?”, “Vətəndaşlıq mövqeyi dedikdə nə başa düşürsü-*

*nüz?”,“Nə üçün Ümummilli lider, Üzeyir Hacıbəyli, Bülbül, Əzim Əzimzadə və digərləri həqiqi vətəndaş hesab edilir?”, “Müasir dövrdə xalqın rifahı üçün yoruldum demədən çalışan hansı insanların adlarını çəkə bilərsiniz?”, “Onların fəaliyyəti barədə nə bilirsiniz?” və s.)* vasitəsilə xatırladır və ümumiləşdirib yeni dərsə keçid edir.

- Klaster üsulundan (*söz assosiasiyası, auksion*) istifadə etməklə *“Uğur hekayələri nədir?”* sualı üzərində iş təşkil edir.
- *“Xalqın mədəniyyətinin və incəsənətinin formalaşmasında rolu olan qadınlar haqqında nə bilirsiniz?”, “Kimlərin adını çəkə bilərsiniz?”* sualları əsasında müzakirə aparıb yeni dərsə keçid edir.
- *“Zivər Məmmədova haqqında hansısa bir məlumata maliksinizmi?”* sualından istifadə etməklə yeni dərsə keçid edir.

Müəllim özünün bildiyi fərqli yanaşmalardan da istifadə edə bilər.

**2-ci addım.** Mətnin səsli oxu üsulundan istfadə edilməklə oxusu təşkil edilir. Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları mətnin oxusundan əvvəl və ya mətnin oxusu zamanı icra edilir. Məzmunu mənimsədiklərini yoxlamaq üçün müəllim şagirdlərə müxtəlif suallar verə bilər: *“Zivər haqqında nə öyrəndiniz?”, “Onun uğur hekayəsi nə idi?”, “Zivərin uğur qazanmasının səbəbi nə idi?”, “Zivərin uğur yolunda kimlərin əməyi olmuşdur?”* və s.

“Görkəmli bəstəkarın tələbəsi olmaq ....” (dərslik, 31-ci səhifə, 2-ci abzas) cümləsi ilə başlayan abzasın oxusu bitdikdən sonra müəllim şagirdlərə “Sizcə, söhbət hansı bəstəkardan gedir?”sualını verir. Şagrdlərin cavabları lövhəyə yazılır. Sonra aşağıda verilmiş mətn şagirdlərə oxunur:

*Zivər Məmmədova dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin obrazını böyük məhəbbətlə, heyrətamiz zövqlə yaratmışdır. Sənətkar dəfələrlə Üzeyir Hacıbəylinin obrazına müraciət etmiş, böyük ustadın bir neçə variantda büst və heykəlini yaratmışdır. Zivər xanım Üzeyir bəyə dərin ehtiram və sevgi ilə yanaşırdı. O, görkəmli pedaqoqun mühazirələrinin dinləyicisi olmuş, dahi bəstəkarın 1922-ci ildə yaratdığı və rəhbərlik etdiyi Dövlət Simfonik Orkestrində skripkaçı olmuş, 1923-cü ildə “Arşın mal alan” operettasının ilk tamaşasında ifa etmişdir. Sonralar musiqi ilə deyil, heykəltaraşlıqla məşğul olsa da, müəlliminin, bu böyük şəxsiyyətin təsiri onun düşüncəsində dərin iz buraxmışdır. Azərbaycanın ilk qadın heykəltaraşı bəstəkarın obrazını canlı naturadan yaratmışdır.*

Mətnin oxusundan sonra şagirdlərin cavabına diqqət yetirilir. Mətnin oxusu bitdikdən sonra müəllim şagirdlərə *“Müqəddəs Nina məktəbi haqqında hansı məlumata maliksiniz?”* sualı ilə müraciət edir.

**3-cü addım.** Dərsliyin 31-ci səhifəsində verilmiş QR vasitəsilə süjet nümayiş etdirilir, süjetin məzmununun mətnin məzmunu ilə əlaqələndirilməsi üzərində iş aparılır. Mətnin oxusu bitdikdən sonra müəllim şagirdlərə *“Müqəddəs Nina məktəbi haqqında hansı məlumata maliksiniz?”* sualı ilə müraciət edir. Cavablar dinlənilir, aşağıdakı mətn (*şagirdlərə mətn oxunarkən diqqətli olmaq tövsiyə edilir*) oxunur:

*“Müqəddəs Nina” xeyriyyə cəmiyyəti 1874-cü ildə Müqəddəs Nina qız məktəbini açır. Əvvəlcə hərbi səhra hospitalı olmuş bu bina 1888-ci ildə Bakının Bayıl qəsəbəsindəki yeni binaya köçərkən qızlar müəssisəsinə verilib. 1895-ci ildə müəssisə gimnaziya statusunu almışdır. 1886-cı ildə İçərişəhərin qala divarlarına yaxın yerdə ikimərtəbəli məktəb binası üçün tikintinin əsası qoyuldu. Bu məktəb binasının tikintisinin başa çatması üçün Hacı Zeynalabdin Tağıyev və bir neçə Bakı milyonçusu böyük vəsait sərf etmişlər. 2010-cu ilə qədər burada məşhur 132 (Azərbaycan) və 134 (rus) saylı orta məktəblər fəaliyyət göstərmişdir. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi tapşırığı ilə bina əsaslı şəkildə yenidən qurulmuşdur. Bu məktəb hazırda 132–134 nömrəli Təhsil Kompleksi adı ilə fəaliyyətini uğurla davam etdirir.*

**4-cü addım.** 1-6-cı tapşırıqlar üzərində iş aparılır. 1-4-cü tapşırıqların kollektivlə iş formasından, 5 və 6-cı tapşırıqların cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

5-ci tapşırıq (*səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi)* fərqli formada tərtib olunmuşdur. Burada bir nəticə verilmiş, nəticənin səbəblərinin sayı çoxdur. Səbəblər mətnə əsasən müəyyən edilir.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Rəsm və musiqini mükəmməl öyrənmiş, peşəkar skripka ifaçısı olmuşdur. | Zivər xanım ilk qadın heykəltaraş kimi Azərbaycan mədəniyyəti tarixində iz qoymuşdur. |
| 2. Xalqını rəssam, şair, musiqiçi və bəstkarlarının mükəmməl portretini hazırlamışdır. | |
| 3. Hazırladığı əsərlərdə insanlarının daxili aləmini simalarında incəliklərinə qədər göstərə bilmişdir. | |

**5-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 7-10-cu tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların vaxta qənaət baxımından cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

QEYD. Cütlər işləyərkən müəllim şagirdləri diqqətdə saxlamalı, hansı şagirdin daha fəal olduğunu, sualı daha tez cavabalandırdığını, yoldaşına kömək etdiyini, fikir mübadiləsi etdiyini bilməlidir. Bu, fəal şagirdləri daha düzgün qiymətləndirmək, qeyri-fəal şagirdləri isə prosesə cəlb etmək baxımından əhəmiyyətlidir.

7-ci tapşırıq forma baxımından yenidir. Belə ki izahlar verilmiş, şagirdlər izahlara əsasən sözü müəyyən etməlidirlər. Nöqtələrin yerinə ardıcıl olaraq yazılacaq sözlər: *heykəltaraş, rəssam, bəstəkar.*

8-ci tapşırıqda nöqtələrin yerinə “qalereya” yazılmalıdır.

9-cu tapşırıq həm söz birləşmələri aratmaq baxımından, həm də fikrin ifadəsi üçün lazım olan ifadələrin düzgün uyğunlaşdırılması baxımından faydalıdır. Şagirdlər sözləri mətndən seçməlidirlər.

Məsələn:

**bacarıqlı –** *heykəltaraş, xanım, rəssam*
**maraqlı –** *portret, üz cizgiləri, büst və s.*

**6-cı addım.** 18-ci tapşırıq üzərində iş aparılır. Oxunmuş mətnə münasibət bildirmə əvvəlki illərdə də təcrübədən keçmiş yazı üsulu idi. Dərslikdə tapşırığı icra etmək üçün plan verilmişdir. Tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiq hesab edilir. 10-15 cümlə yetərlidir.

**P.S.** Bacarığı olan şagird (şagirdlər) varsa, mətn əsasında təsvir də çəkə bilər. Eyni mövzu üzərində müxtəlif bacarıqların formalaşması vacib və zəruridir.

**7-ci addım.** Şagirdlərin yazıları seçmə yolla oxudulur və qiymətləndirilir. Şagirdlər arasında narazılıq yaranmasın deyə onların yazılarını yığıb yoxlamalı və növbəti dərsdə nəticələri bildirməli, əgər varsa, xarakterik səhvlər barədə müvafiq izahatlar verməlidir.

Evə tapşırıq şagirdlərin səviyyələri, imkan və bacarıqları nəzərə alınmaqla verilir:

- 19-cu tapşırıq – “Dünyanın ən maraqlı heykəlləri” mövzusunda təqdimat hazırlamaq

QEYD. Şagirdlər üçün çətinliyin yaranmaması, həm də resursları axtararkən lazım olmayan informasiyalarla qarşılaşmasını nəzərə alaraq özü həmin heykəllərin adını verə bilər. Məs; Bakıda Hüseyn Cavidin abidə kompleksi, Gəncədə Nizami mavzoleyi, ABŞ-nin Texas ştatındakı "Mustanq atları", Nyu-York şəhərindəki "Düyünlənmiş silah", İngiltərənin Oksford şəhərindəki "Düşən köpək balığı" (*İkinci Dünya müharibəsi zamanı Naqasakiyə nüvə bombasının düşməsinin 41-ci ildönümü xatirəsinə həsr olunub.),* İngiltərə, ABŞ, Monako və Sinqapurdakı "Təbiətin gücü", Macarıstanda "Danub sahilindəki ayaqqabılar" (*1944-cü ilin dekabrı, 1945-ci ilin yanvarında alman faşistləri bu məkanda yəhudi qətliamı həyata keçirmişdilər. Yəhudilərə ayaqqabılarını soyunaraq, üzü çaya dayanmaları əmr olunur, sonra isə arxadan onlara atəş açılırdı ki, cəsədləri suya düşsün və axın onları aparsın... Bu dəhşətli hadisə macar rejissor Kan Toqayın təşəbbüsü ilə 2005-ci ildə əbədiləşdirilib.)* və s. heykəlləri nümunə göstərmək olar.

- Zivər Məmmədova haqqında təqdimat, yaxud buklet hazırlamaq;
- "Azərbaycanın tanınmış xanımları" mövzusunda divar qəzeti hazırlamaq;
- "Azərbaycan qadını" mövzusunda inşa yazmaq və s.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə əsasən aparılır.

# 9 Zivərin uğur hekayəsi

**Standartlar:** 2.1.4., 3.1.1., 3.1.2., 4.1.2.

**Təlim nəticələri:**

Tərkib hissələr arasında əlaqəni gözləməklə mətni danışır.
Mübtədaları müəyyənləşdirir.
Fikrini ifadə etmək üçün məntiqi vurğudan yerində istifadə edir.
Mətnin sonluğunu yazır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə, əqli hücum

**1-ci addım.** Müəllim dərsə ev tapşırığının yoxlanması ilə başlayır. Seçmə yolla şagirdlərin yazıları yoxlanır və qiymətləndirilir. Şagirdlərin oxutdurulan yazılara münasibəti və fikir bildirməsi diqqətdə saxlanmalıdır.

**2-ci addım.** Şagirdlərdən "Zivərin uğur hekayəsi" mətninin məzmunu soruşulur. Yaxşı olar ki, hər tərkib hissəni bir şagird danışsın. Danışarkən şagirdin intonasiyası, məntiqi vurğulu sözləri düzgün tələffüz etməsi diqqətdə saxlanır.

**3-cü addım.** 11-ci tapşırıq şagirdin əvvəlki illərdə öyrəndiklərini təkrarlamaq; 12-ci tapşırıq isə motivasiya xarakterli olub, baş üzvləri öyrənmək baxımından əhəmiyyətidir. Tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə icra edilir.

**4-cü addım.** Müəllim cümlə üzvləri ilə bağlı şagirdlərə sual verir, əvvəlki biliklər xatırladılır, cümlənin baş üzvləri – mübtəda və xəbər haqqında zəruri məlumat verilir. Müəllim fikirlərini nümunələrlə izah edir. Bu nümunələr həm şagirdlərin öyrəndikləri mətnlərdən, həm də müxtəlif ədəbiyyatlardan ola bilər. Sonra 12-ci tapşırıq icra olnur. Şagirdlər aşağı siniflərdən əvəzliklə və şəxs sonluqları ilə tanışdırlar. Bu tapşırığı yerinə yetirmək çətinlik yaratmayacaqdır. Şagirlər tapşırıq vasitəsilə xəbərin mübtədaya uyğun şəxs sonluqları qəbul etməsini və xəbərin, adətən, mübtədadan asılı olduğunu öyrənirlər. Tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiqdir.

**5-ci addım.** 14-15-ci tapşırıqların da fərdi qaydada icrası tövsiyə olunur. Bu, müəllimə şagirdlərin mövzunu mənimsəmə səviyyəsini müəyyən etməyə imkan verəcəkdir.

**6-cı addım.** 17-ci tapşırıq fərdi qaydada icra olunur. Bu tapşırıq mətnə yaradıcı münasibət bildirmək baxımından əhəmiyyətlidir. Şagirdlərə mətni bir daha səssiz oxumaq, hadisələrin ardıcıllığına və sonluğuna diqqət yetirmək tövsiyə olunur. Lazım gələrsə, müəllim: *"Sizcə, mətni necə bitirmək olar?", "Zivər xanım sağdırmı?" (O, 1980-ci ildə vəfat etmişdir)* və s. suallardan istifadə etmək olar.

Müəllim şagirdə ipucu cümlə də təqdim edə bilər: *Bu gün Zivər xanım həyatda deyildir. ...*

Tapşırığın icrası üçün 10 dəq. kifayətdir. Müəllim sinfinin səviyyəsini nəzərə almaqla tapşırığın icrası üçün vaxtı azalda, yaxud artıra bilər.

**7-ci addım.** Şagirdlərin yazıları yoxlanır. Evə tapşırıq verilir.

- 16-cı tapşırıq. Tapşırığı yerinə yetirmək üçün müəllim izahat verir. Dərsliyin 34-cü səhifəsində nümunə də verilmişdir.
- 20-ci tapşırıq. Tapşırığın icra edilməsi üçün dərslikdə qaydalar verilmişdir. Ehtiyac yaranarsa, şagirdlərlə birlikdə plan da hazırlamaq olar.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə əsasən aparılır.

# 10 | Laçınla Şuşanın söhbəti

**Standartlar:** 2.1.3., 3.1.2., 3.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Fikrini ifadə etmək üçün məntiqi vurğudan yerində istifadə edir.
Mövzu ilə bağlı fikirlərə münasibət bildirir.
Fakt və hadisələri ümumiləşdirir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, əqli hücum, klaster

**1-ci addım.** Müəllim dərsə müxtəlif yanaşmalardan istifadə etməklə başlaya bilər. Seçilən yanaşmadan asılı olaraq dərsin planlaşdırılması aparılır.

- Ev tapırıqlarınıı seçmə yolla yoxlayıb, yeni dərsə keçid etməklə;

https://www.youtube.com/watch?v=WAAOyQLWa-0 (*Şuşada kövrək anlar*) linkindəki materialdan istifadə edib mövzuya keçid etmək üçün video əsasında müvafiq suallar verməklə;

Mövzuya uyğun giriş sözü ilə başlamaqla: *"Bilirsiniz ki, torpaqlarımızın bir hissəsi uzun müddət düşmən işğalına məruz qalmış, həmin bölgələrdə təkcə evlər, yaşayış yerləri deyil, muzeylər, kitabxanalar talan edilmiş, meşələrimiz yandırılmış, insanlar yaşadıqları yeri məcburi tərk etməli olmuş, bir qismi işgəncələrə məruz qalmış, xalqımız yüzlərcə şəhid vermişdir. Bu, tariximizin ən ağrılı səhifələri idi. 90-cı illər. 20 Yanvarda baş verən qırğın xalqımızın əsarətə etirazı, milli azadlıq hərəkatının oyanışı idi. Xocalı faciəsi, Meşəli faciəsi. Lakin elə bir dövr gəldi ki, ...."* və s.

Dərslikdə verilmiş *"Şuşa Şərqin konservatoriyası, Laçın məğrurluq rəmzidir"* kəlamı əsasında müzakirə, yaxud diskussiya təşkil etməklə.

Müəllim karusel üsulundan da istifadə edə bilər. Hər qrupa mövzu ilə bağlı sual yazılmış vərəq paylaya bilər.

**2-ci addım.** Klaster üsulundan istifadə etməklə *"Laçınla Şuşa nə barədə söhbət edə bilər?"* sualı ilə şagirdlərə müraciət edir. Sualın yazılı şəkildə də cavablandırılması mümkündür. Yazılı şəkildə olarsa, müəllim aşağıdakı cədvəldən istifadə edə bilər.

| Şeirin adı haqqında düşüncələrim | |
|---|---|
| **Oxudan əvvəl** | **Oxudan sonra** |
| ... | ... |

Şeirin tam oxusundan sonra cədvəlin ikinci xanası doldurulur.

**3-cü addım.** Dərslikdəki şeirin oxusu üzərində iş təşkil edilir. Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları üzərində iş oxudan əvvəl icra edilir. Şeirin birinci bəndi oxunur, məzmun üzərində iş aparılır. Sonra şagirdlərə: *"Sizcə şeirin bu bəndi hansı dövrün hadisələrini əks etdirir?"* sualı ilə müraciət edilir. Şagirdlərin cavabları müxtəlif ola bilər.

Müəllim "Xoca", yaxud "Dolu" filmindən müvafiq səhnələri *(düşmənin hücum səhnələri)* nümayiş etdirir, şagirdlərə süjetlər əsasında suallar verir. Sonra şagirdlərə *"Sizə aydın oldumu, şeirin bu bəndi hansı dövrün hadisələrini əks etdirir?", "Laçının narahatçılığı nə ilə bağlı idi?, O, problemin həllini nədə görürdü?", "Laçın nə üçün məhz Şuşaya müraciət edir?" sualları verilir. Onların* cavabları dinlənilir və müzakirə edilir.

**4-cü addım.** Sonra şeirin 2-ci bəndi intonasiya ilə oxunur. Məntiqi vurğulu sözlərin tələffüzü diqqətdə saxlanır. Şeirin təhlili də diqqət mərkəzində saxlanmalıdır. *"Şuşa nə üçün Laçını səbirli olmağa çağırırdı?", "Onun bu inamı nə ilə bağlı idi?", "Yağı dedikdə kim nəzərdə tutulur?", Şuşa "yağıların köməyi çoxdur" dedikdə nəyi nəzərdə tuturdu?", "Nə üçün o, "dava bizim üstümüzdədir"deyirdi?", "Şuşa hansı insanların təmsilçisi hesab oluna bilər?", "Onun təmkinli və səbirli cavablarının səbəbi nə idi?" və s. suallardan istifadə etmək olar.* Bəndin oxusundan və müzakirəsindən sonra müəllim şagirdlərə Ulu öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün qorunması, ölkəmizin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması, diplomatik əlaqələrin qorunması istiqamətində onların gərgin fəaliyyəti, əldə etdiyi nailiyyətlər, uğurlar haqqında məlumat verir. Şagirdlərə bunlarla bağlı suallar da vermək olar.

**5-ci addım.** Şeirin 3-cü bəndi üzərində iş təşkil edilir. Əvvəlcə şeir intonasiya ilə oxunur, sonra bəndin təhlili aparılır. *"Sizcə, Şuşa Laçına nə deyəcək?"* sualı ilə şagirdlərə müraciət edilir. Cədvəlin ikinci xanası doldurulur.

7-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın cütlərlə və ya kiçik qruplarla icrası müəllimin planlaşdırdığı dərsdən asılıdır. Yaxşı olar ki, müəllim şagirdlərə planda göstərilmiş hadisələr barədə material təqdim etsin.

**6-cı addım.** Şagirdlər tapşırığın üzərində işləyirlər. 15-20 dəq. yetərlidir. Hazırlanmış cavablar yoxlanır, müzakirələr aparılır və ümumiləşdirilir. Evə mövzu ilə bağlı tapşırıq verilir.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 11 Laçınla Şuşanın söhbəti

**Standartlar:** 2.1.2., 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Məntiqi vurğulu sözləri düzgün tələffüz edir.
Müzakirələrdə deyilmiş fikirlərə münasibət bildirir.
Mövzu ilə bağlı yazı yazır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə, yazı

**1-ci addım.** Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər:

- Əgər evə tapşırıq verilmişsə, dərs tapşırığın yoxlanması ilə başlaya bilər.
- https://www.youtube.com/watch?v=WAAOyQLWa-0 (*Şuşada kövrək anlar*) linkindəki materialdan keçən dərs istifadə olunmayıbsa, bu dərsi onunla başlamaq olar.
- Şeirin məzmununu soruşmaqla
- Dərsliyin 37-ci səhifəsində verilmiş mətnlərin oxusu və üzərində iş aparmaqla.

QEYD. Seçilmiş üsuldan asılı olaraq müvafiq suallar verilir və növbəti addıma keçid edilir.

**2-ci addım.** Ali Baş Komandan İlham Əliyevin Şuşanın azad edilməsi ilə bağlı çıxışı dinlənilir, müzakirə aparılır. Şagirdlərə *"Prezidentin nitqində hansı intonasiyanı müşayiət etdiniz?", "Onun nitqindəki həyəcan nə ilə bağlı idi?", "Hansı cümlələr xüsusi vurğu ilə deyildi?"* və s. suallarla şagirdlərə müraciət edilir. 7-ci tapşırıq üzərində iş aparılır. Ola bilər ki, bəzi şagirdlər fikirlərini şifahi şəkildə ifadə etməkdə çətinlik çəksinlər. Fikirlərin yazılı şəkildə ifadəsi də ola bilər. 5-7 dəq. yetərlidir.

https://www.youtube.com/watch?v=RgllESnJ08M https://www.youtube.com/watch?v=6lPWunVzlTM linklərindən istifadə etməklə Şuşaya virtual səyahət etmək, şagirdlərin təəssüratlarını öyrənmək məqsədəmüvafiqdir.

**3-cü addım.** https://www.youtube.com/watch?v=VzQjbZnk-FM linkindəki (*Laçın şəhəri belə qurulur.)* materialından istifadə edilir. Videosüjet əsasında müzakirə təşkil edilir və "Laçınla Şuşanın söhbəti" şeirinin məzmunu ilə əlaqələndirilir.

**4-cü addım.** "Laçınla Şuşanın söhbəti" şeirinin lüğət tərkibi üzərində iş aparmaq üçün 8-11-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların cütlərlə, yaxud kollektiv iş formalarından uyğun olanını seçmək müəllimin planlaşdırdığı dərsdən asılıdır.

**5-ci addım.** 12-ci tapşırıq üzərində iş təşkil edilir. Müzakirələrin düzgün təşkili tapşırığın yerinə yetirilməsində şagirdlər üçün çətinlik törətməyəcəkdir. Tapşırığın fərdi qaydada, 15-20 dəqiqə müddətində icrası məqsədəmüvafiqdir.

**6-cı addım.** Tapşırıqlar yoxlanır və şagirdlərin fəaliyyəti qiymətləndirilir.

**7-ci addım.** 13-cü tapşırıq evə verilir. Müəllim şagirdlərinin səviyyəsini nəzərə almaqla onlara fərqli tapşırıqlar da verə bilər.

# 12 Ani qərar

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Söz birləşmələri və cümlələri düzgün tələffüzlə oxuyur.
Müzakirələrdə deyilmiş fikirləri ümumiləşdirir.
Əsas fikri müəyyən edir.
Mətndəki hadisələrə münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplar, fərdi

**İş üsulu:** müzakirə, səssiz oxu, proqnozlaşdırılmış oxu, karusel

**1-ci addım.** Müəllim seçmə yolla ev tapşırıqlarını yoxlayıb dəyərləndirdikdən sonra "Ani qərar" mətninin oxusu üzərində iş təşkil edir. Şagirdlərə mətnin adını elan edir və *"Ani qərar" dedikdə nə başa düşürsünüz?"* sualı ilə müraciət edir. Şagirdlərin cavabları dinlənilir və onlara növbə ilə növbəti suallar verilir: *"Sizcə, ani qərar nə zaman verilə bilər?", "Ani qərarın nəticəsi nə ola bilər?", "Ani qərar vermək üçün insan hansı bacarıqlara sahib olmalıdır?"*

Müəllim bu sualların cavablandırılmasını təmin etmək üçün karusel üsulundan istifadə edə bilər. Hər sual bir vatman kağızına yazılır, qruplara paylanır. Şagirdlərə hər sualı cavablandırmaq üçün 3 dəq. vaxt verilir. Cavbalandırılmış kağızlar qruplar arasında dəyişdirilir. Beləliklə, hər suala 3 cavab verilmiş olur. Cavablar müzakirə edilir. Yaxşı olar ki, cavabların düz, yaxud səhv olmasına münasibət bildirilməsin. Şagirdlərin özlərinin bunu müəyyənləşdirməsi üçün şərait yaratsın. Belə ki mətnin oxusundan sonra şagirdlər öz cavablarının düzgünlüyünü yoxlasınlar.

**2-ci addım.** Mətnin birinci hissəsinin səssiz oxudan istifadə edilməklə oxusu təşkil edilir. Şagirdlər mətni oxuyurlar. Oxu zamanı orfoqrafiya, orfoepiya və vurğu tapşırıqlarına diqqət yetirmələri tövsiyə olunur. Müəllim oxu üçün 10 dəq. müddət təyin edir və şagirdlərin bir-birinə mane olmamasına diqqət yetirir. Oxu üçün ayrılmış müddət bitdikdən sonra məzmunun şagirdlərin necə qavramasını yoxlamaq məqsədilə şagirdlərə mətn əsasında suallar verilir: *"Mətndə nədən danışılır?", "İnsanları hansı problem narahat edirdi?", "Xalqın bir cəbhədə birləşməsini nə zəruri etdi?", "Çətinlik insanlarda hansı xüsusiyyətləri formalaşdırmışdı?", "Bir-birini tanımayan insnaların doğmalaşmasının səbəbi nə idi?", ""İrəli" əmrinin verildiyi gün Vətən oğulları ... torpaqların müdafiəsinə qalxdı" cümləsində gün sözünün yerinə hansı tarix yazılsa, cümlənin məzmunu dəyişməz?", "Vətən oğullarının qələbəsinin sirri nədə idi?"* və s.

Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları ilə bağlı da şagirdlərin cavabları dinlənilir.

**3-cü addım.** Mətnin ikinci hissəsinin oxusu təşkil edilir. Bu hissə üçün proqnozlaşdırılmış oxudan istifadə etmək məqsədəmüvafiqdir. Lakin müəllim oxunun fərqli növlərindən də istifadə etməkdə sərbəstdir: *qeydlər götürməklə oxu, dərinləşdirilmiş oxu.*

II hissə şagirdlərə parçalara bölünərək oxutdurulur. *Artilleriya mərmilərinin atəşi altında* cümləsindən sonra şagirdlərə *"Sizcə, hadisələr necə davam edəcək?* sualı ilə müraciət edilir. Cavablar şifahi şəkildə kollektiv iş formasından istifadə edilməklə də həyata keçirilə bilər.

Yazılı şəkildə və kiçik qruplarla icrası daha uyğun hesab edilir. Qrup şəklində icra şagirdlərin əməkdaşlığına, bir-birinin fikirlərini dinləməsinə və hörmətlə yanaşmasına, müəyyən fikirlərlə bağlı qərar verməsinə şərait yaradacaqdır. Bunun üçün dərslikdə cədvəl də təqdim edilmişdir.

| Ehtimallarım | Əslində, faktlar |
|---|---|
| 1. | 1. |
| 2. | 2. |
| 3. | 3. |

Cədvəlin birinci xanasına qruplar öz fərziyyələrini yazırlar.

Müəllim mətnin ardını oxuyur *(müəllim mətni yalnız bir dəfə oxuyacağını və cədvəlin ikinci xanasını tamamlamaları üçün şagirdlərə diqqətli olmalarını tapşırır)*:

*Samir bir neçə igid döyüşçü ilə birlikdə yanan tankı söndürmək üçün irəli atılır. Düşünürlər ki, özləri şəhid olsalar da, silahdaşlarının, şəxsi heyətin digər üzvlərinin həyatını xilas etsinlər. Tez əl altında olan vasitələrdən istifadə etməklə qum yığırlar. Yaralı Samir yoldaşlarının köməyi ilə yanan tankın üstünə qalxır, qumu alovun üstünə boşaldır. Bir hissəsi sönsə də, alovun dilimləri digər tərəfdən yüksəlir. Tankın üzərindəki qalın rezin təbəqə alovu daha da gücləndirir.*

*Döyüşə getdikləri zaman özləri ilə apardıqları su da alovun qarşısını ala bilmir. Vəziyyət daha da gərginləşir. Heç bir çıxış yolunun qalmadığını düşündükləri zaman qəfil Samirin ağlına gəlir ki, su ilə qumu qarışdırıb palçıq şəklinə salsın və alovu bununla söndürsün. Belə də edir. Düzəltdiyi palçığı yalın əllə də odu palçığa bükürmüş kimi alovun üstünə tökür. Böyük itkinin baş verməsinin qarşısı alınır.*

Müəllimin oxusundan sonra şagirdlər cədvəlin ikinci xanasını doldururlar.

**4-cü addım.** Şagirdlər ehtimalları ilə faktları tutuşdurur, üst-üstə düşən məqamları bildirirlər. Cavabların yaxınlığı şagirdlərin tənqidi və məntiqi təfəkkürünün gösətricisidir. Müəllim dərslikdə QR kod vasitəsilə Samir Qasımzadə haqqında təqdim olunmuş videosüjeti nümayiş etdirir. Daha sonra dərsliyin 42-ci səhifəsindəki məlumat şagirdlərin diqqətinə çatdırılır.

**5-ci addım.** 1-8-ci tapşırıqlar qruplar arasında bölünməklə icra edilir. I qrupa 7,8; II qrupa 3,6; III qrupa 1,5; IV qrupa 2,4-cü tapşırıqlar verilir.

2-ci tapşırığın cavabı 2,3,5-ci bəndlər; 3-cü tapşırığın cavabı 3,4,5-ci bəndlərdir.
5-ci tapşırıqda əsas məqsəd süjet xəttinin müəyyən edilməsidir.

**Hadisələrin başlanğıcı:** *insanların işğal edilmiş torpaqların geri alınmasını səbirsizliklə gözləməsi; Ali Baş Komandanın "İrəli" əmri, könüllü cəbhəyə yollanış, qəlbi Vətən eşqi ilə vuranların bir yumruq ətrafında birləşməsi, çətinliyin formalaşdırdığı xüsusiyyətlər, çətin və gərgin anların birgə dəf edilməsi, insanların bir-birinə arxa-dayaq olması, qələbənin təmini*

**Hadisələrin gedişi:** *mühüm strateji yüksəkliyin alınmasına hazırlıq, çətin döyüşlər, Samir və şəxsi heyətinin fədakarlığı, tankın düşmən əlinə düşməməsi və şəxsi heyətin qorunması, itkilərə yol verilməməsi üçün ani qəbul edilən qərar, əldə edilən nəticə*

**Hadisələrin nəticəsi:** *təkrar cəbhə bölgəsi, qələbə əzmi*

9-12-ci tapşırıqlar mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün nəzərdə tutulmuşdur. Tapşırıqlar kollektiv şəkildə, yaxud digər tapşırıqlarla birlikdə qruplar arasında bölünməklə yerinə yetirilə bilər.

**6-cı addım.** Qrupların tapşırıqları yoxlanır, müzakirə edilir və fikirlər ümumiləşdirilir. Ümumiləşmə zamanı istər I Qarabağ savaşında, istərsə də Vətən müharibəsində fədakarlıq göstərən, qorxmadan döyüşə atılan qazilər, şəhidlər, əsgərlərimizin adının çəkilməsi, qəhrəmanlıqları barədə danışılması, həyatını itirənlərin bir dəqiqəlik sükutla xatirəsinin yad edilməsi mütləqdir!

**7-ci addım.** 19-cu tapşırıq evə verilir. Mətnin ardının yazılması üçün dərslikdə plan verilmişdir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

**Videonu burada QR ilə qoymaq.**
**https://gundelik-baku.com/cemiyyet/11246-yanan-tanki-elleri-ile-sonduren-qazimiz-vdeo.html video süjet**

# 13 | Ani qərar

**Standartlar:** 1.1.1., 1.1.2., 3.1.1., 3.1.3.

**Təlim nəticələri:**

Mətndəki hadisələri ardıcıl təqdim edir.
Mətndəki fakt və hadisələri ümumiləşdirir.
Sözlərin mübtəda və xəbər olduğunu bilir.
Müzakirələrdə deyilmiş fikirləri ümumiləşdirir.
Əsas fikri müəyyən edir.
Mətndəki hadisələrə münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə

**1-ci addım.** Dərs “Ani qərar” mətninin məzmununu yada salmaq üçün sual-cavabla başlaya bilər. Mətnin məzmununun danışılması da məqsədəmüvafiqdir. Sonra mətnin davamının yazılması ilə bağlı ev tapşırıqları seçmə yolla oxutdurulur. Şagirdlər müzakirəyə cəlb olunur, biri digərinin yazısına münasibət bildirir.

**2-ci addım.** Dinləmə mətnindən istifadə olunur. Mətni oxumazdan əvvəl tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, azərbaycanlı Həzi Aslanov haqqında məlumat verir. Şagirdlərə *“Həzi Aslanov kimdir?”, “Onun haqqında nə bilirsiniz?”* sualları ilə müraciət edir.

Dinləmə mətninin Həzi Aslanov haqqında olduğu barədə şagirdlərə məlumat verir. Dövr haqqında da bir-iki cümlə ilə məlumat vermək olar: hadisələr 1942–45-ci illərdə İkinci dünya müharibəsi ərəfəsində baş vermişdir. Alman faşistləri qəfildən keçmiş SSRİ-yə hücum edərək bir çox əraziləri işğal etmişdir. Bu müharibədə azərbaycanlılar da iştirak etmiş, qəhrəmanlıq və igidlik nümayiş etdirmişlər.

**3-cü addım.** Müəllim şagirdlərə mətni diqqətlə dinləməyi şagirdlərə tövsiyə edir və intonasiya ilə oxuyur.

**“General” romanından**

*Top atəşi ara vermirdi. Göz açmağa imkan tapmayan faşistlər səngərlərdə daş kimi donub qaldılar. Onlar heç bir yerdə, heç zaman belə şey görməmişdilər. Bu nə idi? Bu qədər topu haradan gətirmişdilər?*

*Hücumdan bir gün əvvəl Həzi Aslanovun tank alayı düşmənin müdafiə xəttinin qarşısında döyüş mövqeyi tutmuş, ertəsi gün isə səhər tezdən hücuma keçmişdi.*

*Hava çox pis idi. Çöllərə xeyli qar düşmüş, qatı duman çökmüşdü. Heç nə görünmürdü. Dumanın sıxlığından faşistlərin atəş nöqtələrini seçmək mümkün deyildi. Yaxşı ki, ordu kəşfiyyatı faşist toplarının yerini düzgün təyin edə bilmişdi. İlk zərbə faşistlərin atəş nöqtələrinə endirildi. Piyada hissələri yolu maneələrdən təmizləmiş, tankların müşayiəti ilə cəbhəni yarıb irəliləmişdi.*

*Komandanlığın tapşırığı ilə cənub istiqamətindən cəbhə yarılmalı, şimaldan hücuma keçən cəbhələrin hissələri ilə birləşməli idi. Bununla almanların böyük bir qoşun dəstəsi mühasirəyə düşəcəkdi.*

*Həzi Aslanov bu əməliyyatın bütün cəbhə üçün əhəmiyyətini yaxşı başa düşürdü. Onun tankı tələsmədən irəliləyirdi. Sürücü tankı yavaş sürür, Həzi Aslanov isə radio ilə rota komandirinə göstəriş verirdi. Ətraflarında partlayan mərmilərə məhəl qoymayıb irəli cuman piyadalar düşmən əsgərlərinə aman vermirdilər. Avtomatçıların, piyadaların “ura”sı topların və minaatanların səsinə qarışmışdı.*

*Öndə Həzi Aslanovun tankçıları gedirdi.*

*Həzi qarla örtülmüş düzənliyə, düşmənin müqavimətini qıraraq irəliləyən tanklara baxırdı. Keçən il dekabr ayındakı çətin döyüşləri xatırladı. Faşistlər bir atıcılıq hissəsini mühasirəyə almışdılar. Komandanlıq həmin hissəni mühasirədən çıxarmağı Həzi Aslanovun batalyonuna həvalə etdi. Həzi düşmənə gözləmədiyi yerdən tank zərbəsi endirib halqanı yardı və atıcıların köməyinə yetdi. Döyüşün qızğın çağında Həzinin tankının sürücüsü ağır yaralandı. O, ehmalca sürücünü kənara çəkib yerində əyləşdi. Döyüşün sonunacan heç kəs bilmədi ki, batalyon komandiri tankı özü sürür. Faşistlər Aslanovun yolunu kəsmək üçün inadla müqavimət göstərsələr də, bir nəticə vermədi, Əməliyyat uğurla başa çatdı.*

*Həzi bugünkü döyüşlə ondakı döyüş arasında bir oxşarlıq gördü. Döyüşlərin ikisi də mühasirə ilə bağlı idi. Əgər onda məqsəd düşmənin mühasirə halqasını qırmaq idisə, indi faşistlərin xeyli qoşun hissəsi olan ərazini mühasirəyə almaq idi. Həzi çox istəyirdi ki, bu əməliyyat da uğurlu olsun. Onda düşmənlə müqayisədə onun itkisi az olmuşdu. Vuruş meydanında faşistlərin əzilmiş, sıradan çıxmış tankı, avtomatı, topu və əsgərlərinin meyiti qalmışdı. Həzinin batalyonunun itkisi az idi.*

*Almanlar bir tankın atəş açmadan irəlilədiyini görüb onun komandirə aid olduğunu başa düşmüşdülər. Ona görə də həmin tankı nişan aldılar. Tankın dövrəsində mərmilər partladı. Düşmənin məqsədini başa düşən sürücü alay komandirinə xəbərdarlıq etdi:*

*– Bizi nişana götürüblər.*

*Həzi Aslanov soyuqqanlılıqla cavab verdi:*

*– Özünü itirmə, tez-tez istiqaməti dəyişdir, sürəti artır, azalt...*

*... Bu əməliyyat da uğurla başa çatdı.*

*Hüseyn Abbaszadə, Seçilmiş əsərləri, III cild*

**4-cü addım.** Şagirdlər dinləmə mətni əsasında dərsliyin 2-ci səhifəsində verilmiş tapşırıqları yerinə yetirirlər.

**5-ci addım.** 13-15-ci tapşırıqların kollektivlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

Müəllim mübtəda ilə xəbərin şəxsə görə uzlaşması qaydasını izah edir, mətndən götürülmüş nümunələr əsasında fikirlərini əsaslandırır. Şagirdlərin mövzunu mənimsəməsini yoxlamaq məqsədilə 16-18-ci tapşırıqlar fərdi qaydada icra edilir. Şagirdlər tapşırıqları işlədikcə müəllim onları yoxlayıb qiymətləndirə bilər.

**6-cı addım.** 20-ci tapşırıq evə verilir. Seçilmiş formadan (*divar qəzeti, təqdimat, inşa, buklet və s.)* asılı olaraq tapşırığın kiçik qruplar, cütlərlə və ya fərdi şəkildə icrası məqsədəmüvafiqdir. Yaxşı olar ki, bunu şagirdlər özləri müəyyən etsinlər. İfadə və iş formalarının şagirdlərin özləri tərəfindən müəyyən edilməsi onlarda əməkdaşlıq, fikirlərin şərh edilməsi, müstəqil qərar vermə, vahid rəyə gəlmək, komandada işləmə bacarıqlarının daha da möhkəmlənməsinə səbəb olacaqdır.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 14-15 Komiks əsasında mətnin tərtib edilməsi

**Standartlar:** 2.1.3., 2.1.4., 4.1.2.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Tərkib hissələri əlaqələndirir.
Müzakirələr əsasında mətn tərtib edir.

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** müzakirə, beyin həmləsi, klaster

**1-ci addım.** Müəllim dərsə klaster üsulundan istifadə etməklə başlayır, lövhədə "komiks" sözünü yazır və şagirdlərə sual verir: "*Komiks haqqında nə bilirsiniz?" (Yaxud "Komiks nədir?", "Komiks haqqında hansı məlumata maliksiniz?"* və s.)




Şagirdlərin cavabları *komiks* sözünün ətarfında yazılır. Bu sualın cavablandırılması şagirdlər üçün çətinlik törətməyəcəkdir. Çünki əvvəlki illərdən onun sadə şəkildə hazırlanması ıə tanış idilər.

Ola da bilər ki, şagirdlərin sualı cavablandırmasında müəyyən çətinlik yaransın. Bu, təbiidir. Müəllim yönləndirici suallardan istifadə edə bilər.

**2-ci addım.** Dərslikdə bələdçi obrazların komikslə bağlı verilmiş dialoqu oxunur. Əgər birinci mərhələdə şagirdlər müəyyən fikirlər söyləmişlərsə, onların fikirlərinin bələdçi obrazların fikirləri ilə müqaysəsi aparılır.

**3-cü addım.** Dərsliyin 46-cı səhifəsində komikslə bağlı verilmiş izahlar oxunur və şagirdlərə izah edilir. Lazım gələrsə, nümunələr göstərilir. İnternetdən istifadə etməklə şagirdlərə nümunələr təqdim etmək olar.

**4-cü addım.** Müəllim şagirdlərə komiks əsasında hekayə hazırlayacaqlarını bildirir, onları dərsliyin 47-ci səhifəsində verilmiş hekayə yazmaq üçün "addımlar"la tanış edir. Hər bir addım oxunur, müvafiq izahatlar verilir.

**5-ci addım.** Müəllim sinfi iki böyük qrupa bölür. Şəkillər əsasında hekayənin yazılmasının qruplar tərəfindən icra ediləcəyini bildirir. Sinifdə eyni mövzunun müxtəlif qruplar tərəfindən yazılması sağlam rəqabət yaradacaq, həm də şagirdləri daha məsuliyyətli olmağa sövq edəcəkdir. Müəllim qrupları bir daha komiksin nə olduğu, komiksə verilən tələblər, onun əsasında hekayə yazmaq üçün lazım olan ardıcıllıqla tanış edir.

**6-cı addım.** Daha sonra müəllim qruplara dərsliyin 48-51-ci səhifələrində verilmiş təsvirlərə və təsvirlərin üzərində olan söz, ifadə və cümlələrə diqqətlə baxmağı, müəyyən qeydlər götürməyi tövsiyə edir.

Müəllim tapşırığın icrası üçün sinfin səviyyəsini nəzərə almalı, lazım gələrsə, yönəldici suallardan (*"Sizcə, şəkillər vasitəsilə hansı hadisələr təqdim olunur?"*, *""Müharibədir", demək olarmı?"*, *İlin hansı fəslidir?"*, *"Müharibədə hansı hadisələr baş verir?"*,*"Müharibədə uşaqlar iştirak edə bilərmi?"* və s.) istifadə etməli, müvafiq sözlərin izahını verməlidir.

**7-ci addım.** Qruplar tapşırığın icrasına başlayırlar. Tapşırıq tamamlanmazsa, müəllim mətnin davamının növbəti dərsdə davam etdiriləcəyini elan edir. Tapşırığı evə də vermək mümkündür. Bu, müəllimin seçimindən asılıdır.

Növbəti dərsdə tapşırığın yoxlanması və qiymətləndirilməsi aparılır. Hekayələr oxunur və müzakirəsi təşkil edilir. Qrupların bir-brini qiymətlədirməsi, müzakirələrdə şagirdlərin fəal iştirak etməsi, mövzu ilə bağlı fikir bildirməsi, hadisələri şərh etməsi və s. diqqət mərkəzində saxlanmalıdır.

**QEYD.** Müəllimə kömək üçün tam mətni təqdim edirik. Şagirdlər çətinlik çəkərlərsə, müəllim müvafiq yerlərdə onlara istiqamət verə bilər. Şagirdin mətni olduğu kimi yazmasına ehtiyac yoxdur.

**Bülbül**

*Vuruşma qurtaranda kəndə bir dəstə faşist daxil oldu. Evlərin qapı və pəncərələri yanmışdı. Kənd boş idi. Səs-səmir gəlmirdi. Bülbülün cəh-cəhi yay gününün səssizliyini pozdu. Bir dəqiqəliyə cəh-cəh ara verdi. Sonra yenidən başladı.*

*Əsgərlərin və zabitin gözləri dörd oldu. Onlar ətrafdakı kolluqlara, aşağı sallanan ağcaqayın budaqlarının altına nəzər saldılar. Arxın kənarında oturmuş balaca bir oğlan gördülər. O, ağac parçasını döşünə basıb yonur, nəsə düzəldirdi.*

*Alman zabiti oğlanı səslədi:*

*– Ey oğlan, buraya gəl.*

*Oğlan bıçağı cəld cibinə qoydu, üstündəki yonqarları çırpdı və zabitin yanına gəldi.*

*Zabit dedi:*

*– Göstər görüm!*

*Oğlan ağzından kiçik bir şey çıxarıb zabitə uzatdı.*

*Zabit başını yırğaladı:*

*– Ustalıqla düzəldilmişdir, oğlan, ustalıqla. Belə fit verməyi sənə kim öyrətmişdir?*

*– Mən özüm öyrənmişəm. Hələ ququ quşu kimi oxumağı da bacarıram.*

*Zabit soruşdu:*

*– Sən kənddə tək qalmısan?*

*– Necə yəni tək? Burada sərçə də, qarğa da çoxdur. Bülbül isə təkcə mənəm.*

*– Ey avara, səndən söz soruşuram, burada adam var, ya yox?*

*– Adammı? Müharibə başlayandan burada adam yoxdur. Atışma başlayan və kənd yanan kimi hamı qaçdı.*

*Zabit oğlanın axmaq olduğunu düşündü və soruşdu:*

*– Sən sərhədə gedən yolu tanıyırsanmı?*

*– Tanıyıram.*

*– Bizi oraya apar. Düz aparsan, bu alışqanı sənə verəcəyəm. Ora aparmasan, başını üzəcəyəm. Anladınmı?*

*Dəstə yola düşdü. Oğlan gah bülbül, gah da ququ quşu kimi oxuyurdu. O, yeridikcə əlləri ilə yolun üstünə əyilən budaqları dartır, daşları ayağı ilə vururdu. Meşə getdikcə sıxlaşırdı. Əyri-üyrü yol sıx bitən cavan ağcaqayınların arası ilə burulurdu.*

*Zabit oğlandan soruşdu:*

*– Bəs partizanlar haqqında nə deyirlər? Onlar buralarda üzə çıxırlarmı?*

*Oğlan cavab verdi:*

*– Göbələkmi deyirsiniz? Yox, burada yalnız meşə göbələkləri çıxır.*

*Zabit uşaqdan söz ala bilməyəcəyini görüb susdu.*

*Meşənin uzaq bir yerində partizanlar tüfənglərini ağaca söykəyib uzanmışdılar. Partizanlardan biri başını qaldırdı, üzünü quşun səsi gələn tərəfə çevirib dedi:*

*– Eşidirsinizmi? Bülbül!*

*Bülbül cəh-cəhi getdikcə ucalırdı. Bülbül səsini eşidən əsgərlər cəh-cəh səslərini saymağa başladı:*

*– Otuz iki faşist!*

*O, bülbül cəh-cəhindən sonra iki dəfə ququ quşunun səsini eşidib əlavə etdi:*

*– İki də pulemyot.*

*Əsgərlərdən biri tüfəngini əlinə alıb dedi:*

*– Öhdələrindən gələrik, ayağa durun!*

*Bir neçə dəqiqədən sonra ağacların arxasından faşist dəstələri göründü. Bülbül yenə də eyni həvəslə oxuyurdu. Faşistlər açıq talaya çıxdılar. Birdən oğlanın fitinə qalın meşədən əks cavab gəldi. Oğlan tez dayandı, cəld dönüb meşəyə cumdu. Güllələrin səsi meşədəki sakitliyi pozdu. Zabit əlini heç tapancaya uzada bilmədi. Avtomatlardan atılan güllələr faşistləri yerə sərdi.*

*O biri gün həmin oğlan yenə yandırılmış kəndin kənarındakı arxın üstündə oturub nəsə yonurdu. O, hərdən yola baxır, elə bil kimi isə gözləyirdi.*

# 16 Kiçik Summativ Qiymətləndirmə

## SİMFONİYA

Gənc musiqiçi bir az utancaq bir ifadə ilə dahi bəstəkar Motsarta yaxınlaşdı

– Ustadım, sizdən bir şey soruşmaq olarmı

– Buyurun!

– Sizcə, bir simfoniyanı yazmaq üçün nə lazımdır?

– Hələ çox gəncsiniz, niyə daha kiçik əsərlərdən başlamırsınız?

– Ancaq, ustadım, siz öz simfoniyalarınızı 10 yaşınızda yazmamışsınızmı?

– Doğru deyirsiniz. Mən ..., ancaq mən o yaşımda "bir simfoniyanı yazmaq üçün nə lazımdır?" – deyə soruşmamışdım ki?

**1. Mətnə 3-5 cümlədən ibarət giriş hissə yazın.**

**2. Mətnə əsasən gənci xarakterizə edin.**

Gənc ______________________________________________________________

**3. Mətnə əsasən Motsart:**

A) səbirlidir. B) dözümsüzdür.
C) tündxasiyyətlidir. D) kəskindir. E) doğruculdur.

**4. Mətnə əsasən demək olar:**

A) Mətn yığcam olsa da, çətindir. B) Mətndə üç obraz var.
C) Mətn sual-cavab əsasında qurulmuşdur. D) Mətnə giriş hissə yazmaq olmaz.
E) Mətndə termin yoxdur.

**5. Mətnlə bağlı fikirlərdən hansı yanlışdır?**

A) Gənc istedadlı musiqiçidir.
B) Motsart dahi bəstəkardır.
C) Motsart kiçik yaşlarından irihəcmli musiqi əsərləri yazmışdır.
D) Gəncin sualı bəstəkarı düşünməyə vadar edir.
E) Bəstəkar Gəncə simfoniya yazmaq üçün yol göstərir.

**6. Bu fikirlərdən biri mətnin məzmununa uyğundur:**

A) Ağıl yaşda deyil, başdadır.
B) Düşünməmiş danışmaq utanc gətirər.
C) İstedad yaşa baxmır.
D) Cavanlıq gözəl nemətdir.
E) Susmaq qızıldır.

**7. Mətnin son abzasında nöqtələrin yerinə nə yazsanız, cümlə doğru olar?**

A) Mən 10 yaşında simfoniya yazmışam,
B) Mən 10 yaşında simfoniya yazmamışam,
C) Mən o yaşda musiqi məktəbində oxuyurdum,
D) Mən istedadlı olsam da,
E) Mən simfoniya yazmamışam,

**8. Bunlardan biri** *simfoniya* **sözünün ifadə etdiyi mənadır:**

A) orkestr üçün yazılmış böyük musiqi əsəri
B) müxtəlif alətlərdə çalan, musiqi əsərlərini birgə ifa edən musiqiçilər kollektivi
C) Musiqili səhnə əsərinin giriş hissəsi
D) musiqi və rəsqdən ibarət səhnə sənətinin bir növü
E) Söz və musiqinin vəhdətidir.

**9. Mətnin ilk cümləsinin sonunda hansı durğu işarəsindən istifadə olunmalıdır?**

______________________________________________________________

**10. Altından xətt çəkilmiş sözlərdən əvvəl və sonra vergül işarəsinin işlənmə səbəbini izah edin.**

**Giriş hissə üçün**

**1.** *Dahi bəstəkar Motsartın növbəti konsertlərindən biri idi. Zalı alqış səsləri bürümüşdü. Bəstəkarı təkrar-təkrar səhnəyə çağırır, sonsuz hörmət və sevgilərini əl çalmaqla bildirirdilər.*

*Konsertdən sonra səliqəli geyinmiş cavan bir oğlan bəstəkara yaxınlaşdı. Motsartın əsərlərini çox sevən bu gənc özü də musiqiçi idi.*

**2.** *Konsert bitmişdi. Ancaq alqış səsləri bitmirdi. Hamı ayaq üstə bəstəkarı alqışlayırdı. Motsart əllərini sinəsinə qoyaraq tamaşaçılarına baş əydi və zaldan çıxdı.*

*Pərəştişkarları onu görmək üçün bəstəkarın otağının qarşısında toplaşdılar. Onların arasından bir nəfər (gənc bir musiqiçi) imkan tapıb bəstəkara yaxınlaşdı.*

**9.** *Motsartın yaradıcılıq gecəsi keçirilirdi. Hamı bəstəkara suallar verir, onun cavablarını maraqla dinləyirdi. Tədbir bitsə də, heç kəs yerindən tərpənmir, bəstəkarla şəkil çəkdirmək istəyirdilər.*

Bu, təxmini cavablardır. Bu və buna bənzər cavablar düzgün hesab edilə bilər.

# 17 Bölmənin yekunu

**Standartlar:** 2.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Müzakirələr əsasında mətn tərtib edir (*təqdimat hazırlayır*).

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** müzakirə, beyin həmləsi, klaster

**1-ci addım.** Müəllim şagirdlərə I bölmə ilə bağlı fikrirlərin ümumiləşdirilməsini, ümumiləşdirmə əsasında təqdimat *(sinif və şagirdin səviyyəsi nəzərə alınmaqla digər təqdimetmə forması da seçmək olar)* hazırlamasını bildirir. İş formasının seçilməsi şagirdlərlə birlikdə müzakirə olunur.

**2-ci addım.** Təqdimat hazırlamaq üçün şagirdlərə mövzular təqdim edilir:

- *"Azərbaycan incəsənətində vətəndaşlıq"*
- *"Azərbaycan memarlığı"*

- *“Şanlı Zəfər tariximiz”*
- *“Şuşa – mədəniyyət beşiyi”*
- *“Azərbaycan qəhrəmanlar yurdudur”*
- *“Azərbaycan vətəndaşı: o kimdir?” və s.*

**QEYD.** Bu adlar nümunədir. Müəllim mövzu təqdim etməkdə sərbəstdir. Mövzular şagirdlərlə birlikdə də seçilə bilər. Təqdimatların sayı müəllimin seçdiyi iş formasından, yaxud qrupların sayından asılıdır.

**3-cü addım.** Şagirdlərə sxemi tamamlamaq və şərh etmək tapşırılır. Sxemi tamamlamaq üçün şagirdlərə plan təqdim edilir:

- *Mətnlərdə nədən danışıldığını xatırlayın.*
- *Mətnlərin məzmunu üçün ümumi olanı müəyyən edin.*
- *Mətnlərin ideyası üçün ümumi olanı müəyyən edin.*




**4-cü addım.** Təqdimatları hazırlamaq üçün dərsliyin ... səhifəsində verilmiş plandan istifadə etmək tövsiyə edilir. Təqdimatın 3-5 slayddan ibarət olması məqsədəmüvafiqdir.

**5-ci addım.** Qruplar tapşırıq üzərində işləyirlər və onu təqdim edirlər.

**6-cı addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*II bölmə*

# BİLİK VƏ *texnologiya*

1. LAYİHƏ: "BİLİK VƏ TEXNOLOGİYA"
2. SƏKKİZ HƏRF
3. KİTAB CƏMİYYƏTİ YÖNLƏNDİRƏN TƏRBİYƏÇİDİR
4. XƏYAL VƏ REALLIQ
5. NƏSİHƏT
6. TEXNOLOGİYA ÇAĞININ BƏLASI: TƏNBƏLLİK
7. ŞƏHİDLƏR UNUDULMUR

# 1 Layihə: “Bilik və texnologiya”

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi fikirlərə münasibət bildirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Oxuduqlarına münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** beyin həmləsi, sual-cavab

**1-ci addım.** Müəllim I bölmədə öyrənilənləri xatırlatmaq və yeni bölməyə keçid etməklə məqsədilə şagirdlərə müvafiq suallar verməklə dərsə başlaya bilər.

**2-ci addım.** Daha sonra müəllim diqqəti şagirdlərin üzərində işləyəcəkləri layihəyə (“Bilik və texnologiya” yönəldir. *“Sizcə, layihə nə üçün belə adlandırılmışdır?”, “Bölmədə nədən danışılacaq?” və s.* suallarla şagirdlərə müraciət edir. Cavablar ümumiləşdirilir.

Sualların yazılı şəkildə cavablandırılması da mümkündür. Müəllim şagirdlərə 2-3 cümlədən istifadə etməklə fikirlərini yazmağı tapşırır. Şagirdlərə aşağıdakı cədvəlin olduğu iş vərəqi də təqdim etmək olar:

| Bölmənin adı | Bölmənin belə adlandırılmasının səbəbi |
|---|---|
| | 1.<br>2.<br>3. |

Tapşırığın icrası üçün 5 dəq. kifayətdir. Ümumiyyətlə, dərs prosesində tapşırığın icrası üçün konkret vaxtın müəyyən edilməsi çevik yazı bacarıqlarının formalaşdırılması baxımından əhəmiyyətlidir.

**3-cü addım.** Şagirdlər bölmədə öyrənəcəkləri mətnlərin adları ilə tanış edilir. Layihəyə başlamaq üçün hazırlıq başlanır və şagirdlərə suallarla müraciət edilir: *“Bilik dedikdə nə başa düşürsünüz?”, “Texnologiya nədir?”, “Biliklə texnologiyanın nə kimi əlaqəsi vardır?”, “Biliyi necə əldə etmək olar?”, “Bilik əldə etmək üçün hansı vasitələrə üstünlük verirsiniz?”, “Oxumaq üçün hansı vasitələrə üstünlük verirsiniz?” və s.*

Şagirdlərin cavabları dinlənilir, lakin müzakirə və təhlil edilmir. Planlaşdırdığı dərsdən asılı olaraq müəllim BİBÖ cədvəlindən, yaxud karusel üsulundan da istifadə edə bilər.

**4-cü addım.** Kiçik qruplar yaradılır. Müəllim planlaşdırdığı dərsdən və şagirdlərin sayından asılı olaraq iki böyük qrup da yarada bilər. Qruplara üzərində işləyəcəkləri problem təqdim olunur: *“Ənənəvi, yoxsa elektron kitab oxumaq daha yaxşıdır? Nə üçün?”, “Hansı daha üstün keyfiyyətə malikdir?”, “Kitabxanada, yaxud evdə kitab oxumağın üstünlükləri varmı?”, “Nəyi oxumalı və necə oxumalı?”, “Fikirlərinizi necə əsaslandırarsınız?”*

Müzakirə aparmaq və problemin həlli yolları üzərində iş aparmaq üçün qruplara aşağıdakı cədvəl təqdim oluna bilər:

| Ənənəvi, yoxsa elektron kitab? | Seçimin səbəbi | Seçimin nəticəsi | Kitabı necə oxumaq lazımdır? | Elektron kitabdan necə istifadə etmək lazımdır? |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

**5-ci addım.** Qrupların təqdimatı dinlənilir və növbəti suallarla *(ardıcıl şəkildə)* şagirdlərə müraciət edilir və hər bir sualın yığcam müzakirəsi təşkil edilir: *"Əldə olunan informasiyalardan necə istifadə etmək olar?", "İnternet resurslarından səmərəli istifadə üçün nə etmək lazımdır?","Sizcə, internet resurslarından istifadə edərkən zərərli informasiyalardan necə qorunmaq olar?", "Zərərli informasiyalar dedikdə nə başa düşürsünüz?"*

**6-cı addım.** Şagirdlərin cavabları dinlənilir, sonra dərsliyin 55-ci səhifəsində verilmiş "Uşaqların zərərli informasiyalardan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun oxusu təşkil edilir. Hər bəndin bir şagird tərəfindən oxusu və kollektiv şəkildə müzakirəsinin təşkili məqsədəmüvafqdir.

**7-ci addım.** Evə müxtəlif tapşırıqlar verilə bilər.

- *"Uşaqların zərərli informasiyalardan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu oxuduqdan sonra anladım ki,* cümləsini 9-12 cümlədən istfadə eməklə tamamlamaq;
- *"Zərərli informasiyalar və onlardan qorunmağın yolları"* mövzusunda təqdimatın (klipin, divar qəzetinin, buklet və s.) hazırlanması
- Mövzu ilə bağlı essenin yazılması

1 və 3-cü tapşırıqların fərdi, 2-ci tapşırığın qruplarla icrası məqsədəmüvafiqdir.

**8-ci addım.** Dərsin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 2 | Səkkiz hərf

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi fikirlərə münasibət bildirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Məntiqi vurğudan istifadə etməklə əsas fikri çatdırır.
Oxuduqlarına münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** beyin həmləsi, proqnozlaşdırılmış oxu

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Ev tapşırıqlarının müzakirəsi şagirdlərin ixtiyarına buraxılır. Şagirdlərin özlərinin ən nümunəvi ev tapşırığını seçməsi və onu qiymətləndirməsi daha məqsədəmüvafiqdir. Şagirdlərə *“Nə üçün məhz bu esseni (divar qəzeti, buklet və s.) daha yüksək qiymətləndirdiniz?”, “Yazı hansı xüsusiyyətləri ilə diqqətinizi cəlb etdi?”* və s. suallarla müraciət etmək olar.

**2-ci addım.** Dərsliyin 56-cı səhifəsində verilmiş *“Kimsə riyaziyyatı yaxşı mənimsəyir, bir başqası xarici dilləri mükəmməl öyrənir. Biri yaxşı şeir yazır, biri idman sahəsində uğurlu nailiyyətlər əldə edir”* fikri əsasında yığcam müzakirə təşkil edilir, şagirdlərə *“Bu fikirlə razısınızmı?”, “Bir adam hər şeyi mükəmməl bilərmi?”, “Qabiliyyət nədir?”, “Bəs sən hansı qabiliyyətə maliksən?”, “Qabiliyyətini üzə çıxarmaqda kimsə sənə kömək edibmi?”* və s. suallarla müraciət edilir. Yığcam müzakirə aparılır, fikirlər ümumiləşdirilir.

**3-cü addım.** Qurduğu dərsdən asılı olaraq müəllim orfoqrafiya, orfoepiya və vurğu ilə bağlı tapşırıqları oxudan əvvəl və ya oxu zamanı icra edə bilər. Şagirdlər mətnin adı ilə tanış edilir, *“Sizcə, niyə mətn “Səkkiz hərf” adlandırılmışdır?”* sualı ilə onlara müraciət edilir. Cavablar yazılı şəkildə də ola bilər.

Şagirdlərə aşağıdakı cədvəli təqdim etmək olar *(İş forması seçməkdə müəllim sərbəstdir. Cütlərlə iş forması daha məqsədəuyğun hesab edilir.)*:

| Mətnin adı | Fərziyyələrim (iz) | Əsasım(ımız) |
|---|---|---|
| “Səkkiz hərf” | | |
| | | |

Cavablar iki üsulla yoxlana bilər:

1. Cavablandırma üçün verilmiş 5 dəq. müddət bitdikdən sonra şagirdlərin yazıları dinlənilir, lakin müzakirə olunmur.

2. Cavablandırma üçün verilmiş 5 dəq. müddət bitdikdən sonra şagirdlərin yazıları dinlənilmir, mətnin oxusundan sonra *“Kimin fərziyyələri düz oldu, yaxud daha uyğun oldu?”* sualı ilə onlara müraciət edilir.

Mətnin oxusu təşkil edilir. Oxu da müxtəlif üsullardan istifadə edilməklə təşkil edilə bilər. Səssiz oxu üsulundan itifadə etmək tövsiyə olunur. Şagirdlər *(yaxud qruplar, cütlər)* mətni oxuyur, fərziyyələrinin düzgün olub-olmadığını müəyyən edir və müəllimə məlumat verirlər. 1 və 2-ci tapşırıqlar kollektiv şəkildə icra edilir.

**4-cü addım.** Dinləmə mətni üzərində iş aparılır. Sualları cavablandırmaq üçün müəllim mətni diqqətlə dinləməyi tövsiyə edir.

**Dəyişməyi bacarmaq**

*Les beşinci sinifdə oxuyurdu. O, bir gün qonşu sinifdə oxuyan dostunun yanına getdi. Başı söhbətə o qədər qarışdı ki, zəngin vurulduğunu eşitmədi. Elə bu vaxt müəllim içəri girdi. Les düşündü ki, bu sinifdə oxumadığını desə, müəllim onu danlaya bilər. Ona görə də hiss etdirmədən boş partada əyləşdi.*

*Müəllim keçən mövzunu soruşub lövhəyə bir misal yazdı. Daha sonra qəfil sinfə çevrilib Lesi lövhəyə çağırdı. O özünü itirib: “Müəllim, mən bacarmaram”, – dedi.*

*– Niyə?*

*– Mən bu sinifdə oxumuram. İcazə verin, öz sinfimə gedim.*

*– Yox, getmə. Gəl lövhəyə, misalı həll elə.*

*Les bacarmayacağını təkrar etdi. Müəllim səbəbini soruşsa da, dinmədi. Çünki desə, uşaqlar ona güləcəkdilər. Ancaq müəllim cavab gözləyirdi. Les bir qədər susub danışmağa başladı:*

*– Sinifdə qalmışam. Hamı mənim götürmə qabiliyyətimin zəif olduğunu deyir. Mən bu misalı həll edə bilmərəm.*

*Uşaqlar gülməyə başladılar. Les çox utandı. Müəllim ona yaxınlaşdı:*

*– Bir daha belə sözlər demə. Kimlərinsə sənin haqqındakı fikirlərinə əhəmiyyət vermə. Sənin də istedadın var. Onları kəşf etməyə çalış.*

*Oğlan ümidləndi. Müəllimin sözləri elə bil onu ayıltdı. Demək, insanların onun haqqında düşündüklərinə əhəmiyyət verməməli idi.*

*Les bir gün konfrans zalının yanından keçəndə riyaziyyat müəlliminin səsini eşitdi. O, yuxarı sinif şagirdləri ilə söhbət edirdi:*

*– Sizin içinizdə cövhər yatır. O cövhərləri kəşf etsəniz, gələcəkdə böyük uğur qazanarsınız...*

*Les səhərisi gün müəllimə yaxınlaşıb soruşdu:*

*– Müəllim, siz yuxarı sinif şagirdlərinə dediniz ki, onların içində bir cövhər var. Sizcə, məndə də cövhər varmı?*

*– Əlbəttə.*

*– Axı qiymətlərim pisdir. Riyaziyyatı, tarixi yaxşı bilmirəm. Sinif yoldaşlarımın çoxundan geri qalıram.*

*– Vacib deyil. Bu, o deməkdir ki, daha çox çalışmalısan. Qiymətlər sənin istedadsız və bacarıqsız olduğunun göstəricisi deyil.*

*– Mən bacaracam, müəllim. Bundan sonra mən daha çox oxuyacam. Bir gün gələcək, mənimlə fəxr edəcəksiniz.*

*O gündən sonra həmin müəllim Leslə yaxından maraqlandı. Ötən il sinifdə qalmış və beşinci sinfi təkrar oxumalı olmuşdu. Müəllimin sözləri və dəstəyi onun həyatını dəyişdirdi. Sinifdən sinfə uğurla keçdi. İlk dəfə sinfin birincisi oldu. Yatsa, yuxusuna da girməzdi ki, nə vaxtsa sinif əlaçısı olacaq.*

*İllər bir-birini əvəz etdi. Les Braun məşhur yazıçı oldu. Yazdığı kitablar dünyanın hər tərəfində əldən-ələ gəzdi. Hətta bəzi əsərlərinə film də çəkildi. O, televiziya verilişlərində insanları çalışmağa, özlərinə inanmağa çağırır, dəyərli məsləhətlər verirdi. Uğur qazanmaq üçün maneələrə əhəmiyyət verməməyə səsləyirdi.*

*Bir gün ona zəng gəldi. Dəstəyi qaldıranda "Cənab Braunla danışa bilərəm?" sözlərini eşitdi. Braun səsi tanıdı. Bu, məktəb illərində ona yol göstərən, onu ümidləndirən müəllimi idi. Gülümsəyərək cavab verdi:*

*– Buyurun, mənəm.*

*– ...Bacardın, hə?*

*– ...Bəli, müəllim, bacardım. Buna görə sizə minnətdaram.*

**QEYD.** Sinfinin və şagirdinin səviyyəsini nəzərə almaqla müəllim mətn iki dəfə səsləndirə bilər.

**5-ci addım.** Dinləmə mətni üzərində iş aparmaq üçün dərsliyin 58-59-cu səhifəsində verilmiş 15 tapşırıqdan ibarət *(tapşırıqlar yanaşı səhifədə mavi çərçivədə verilmişdir)* test materialları üzərində iş aparılır. Tapşırıqların cavabları müxtəlif üsullarla yoxlana bilər:

- Müəllim cavabları səsləndirir, şagirdlər yoxlayır.
- Tapşırıqlar qrup şəklində yerinə yetirilibsə, cavablar dəyişdirilir, yəni 1 qrup öz cavabını digər qrupa ötürür, cavablar yoxlanır.
- Müəllim cavablandırılmış vərəqləri yığır, yoxlayır, nəticələri növbəti dərsdə təqdim edir.

**6-cı addım.** 3-6-cı tapşırıqlar (səh. 58) üzərində iş aparılır. Mövzu ilə bağlı şagirdlərin fikirləri ümumiləşdirilir, yekun fikir söylənir.

**7-ci addım.** Evə müxtəlif tapşırıqlar verilir:

- Dərsliyin 57-ci səhifəsində verilmiş şəkil əsasında mətn hazırlamaq;

- Dərsliyin 57-ci səhifəsində verilmiş şəkil əsasında mətn hazırlamaq, şəklin məzmununu “Səkkiz hərf” mətni ilə əlaqələndirmək *(tapşırıq müəllimin seçimi əsasında cütlərlə və fərdi qaydada icra edilə bilər)*;
- Dərsliyin 59-cu səhifəsində verilmiş 7-ci tapşırıq üzərində işləmək *(planlaşdırılan dərsdən asılı olaraq bu tapşırıq qrupla iş formasından istifadə edilməklə sinifdə də icra edilə bilər);*
- Dərsliyin 60-cı səhifəsində verilmiş 8-ci tapşırıq üzərində işləmək (*planlaşdırılan dərsdən asılı olaraq bu tapşırıq qrupla iş formasından istifadə edilməklə sinifdə də icra edilə bilər).*

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 3 Səkkiz hərf

**Standartlar:** 2.1.2., 2.1.3., 2.1.4., 3.1.1., 4.1.2.

**Təlim nəticələri:**

Məntiqi vurğudan istifadə etməklə əsas fikri çatdırır.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Mətnin məzmununu danışır.
Sözləri mübtəda və xəbər yerində işlədir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, karusel, cədvəl

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdləri dinləyən müəllim onların fikirlərini aydın və dəqiq ifadə etməsinə, məntiqi vurğuya, söz, söz birləşmələri və cümlələrin düzgün tələffüzünə, hazırladıqları yazıların tərkib hissələrinin düzgün əlaqələnməsinə diqqət yetirir. Yaxşı olar ki, bu diqqətyetirmə təkcə müəllimlərin deyil, çıxışları dinləyən dinləyici şagirdlər tərəfindən də icra edilsin. Bu halda bütün şagirdlər müzakirədə fəal iştirak edir, onlarda dinləmə, dinlədiklərini anlayıb təhlil etmə, müxtəlif fikirlərə münasibət bildirmə, fikirləri ümumiləşdirmə kimi bacarıqlar formalaşmış olur.

Şagirdlərin mövzu ilə bağlı fikirlərini ümumiləşdirmək üçün “Səkkiz hərf” mətninin məzmunu 1-2 şagird tərəfindən yığcam nəql edilir. Mətnlə şagirdlərin yazıları məzmun baxımından əlaqələndirilir, mövzu ilə bağlı fikirlər ümumiləşdirilir.

**2-ci addım.** Şagirdlərə “bacarıq”, “qabiliyyət”, “istedad” sözləri yazılmış iş vərəqləri *(hər vərəqdə sözlərdən biri yazılmaqla)* paylanır. Karusel üsulundan istifadə etməklə tapşırıq icra edilir. Tapşırıq kiik qruplarla iş formasından istifadə edilməklə yerinə yetirilir.

Tapşırıq cədvəl üsulundan istifadə edilməklə də icra edilə bilər.

| Sözlər | Bacarıq | Qabiliyyət | İstedad |
|---|---|---|---|
| İfadə etdiyi məna | | | |

Tapşırığın icrasına cütlərlə iş formasından istifadə edilməklə 6-7 dəq. vaxt verilir.

**3-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 9-12-ci tapşırıqlar üzərində iş aparılır.

9-10-cu tapşırıqlar kollektiv, 11-12-ci tapşırıqların cütlər, yaxud kiçik qruplarla iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

12-ci tapşırıqda sual işarəsinin yerində "müsbət" sözü olmalıdır.

**4-cü addım.** 13-15-ci tapşırıqlar üzərində iş aparılır. 13-cü tapşırığın cütlərlə, 14-cü tapşırığın kollektivlə, 15-ci tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiqdir. Seçilən forma müəllimin planlaşdırdığı dərsdən asılıdır.

**5-ci addım.** Dərsliyin 61-ci səhifəsində verilmiş 16-cı tapşırıq şifahi, yaxud yazılı şəkildə icra edilə bilər.

**6-cı addım.** 17-ci tapşırıq üzərində iş aparılır. Hər bir qrupun ayrılıqda işləməsi məqsədəmüvafiqdir.

Tapşırığın icrasından əvvəl şagirdlər dərslikdəki təlimatla tanış edilir. Tapşırıq icra edilir. Eyni tapşırığın müxtəlif qruplar tərəindən işlənməsi şagirdlər arasında rəqabət yaradar və daha yaxşı mətnlrin tərtib edilməsinə imkan vermiş olar.

**7-ci addım.** Tapşırıqlar yoxlanır. Hər qrupdan bir nəfər mətni oxuyur, digər qruplar yazıya münasibət bildirir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 4 Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir

**Standartlar:** 2.1.3., 3.1.1., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirə zamanı eşitdiyi müxtəlif fikirləri ümumiləşdirir.
Sözlərin mübtəda və xəbər olduğunu dəqiqləşdirir.
Məntiqi vurğudan istifadə etməklə əsas fikri diqqətə çatdırır.
Mətnin məzmununa münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi, cütlərlə

**İş üsulu:** fasiləli oxu, anlayışın çıxarılması, ikihissəli gündəlik

**1-ci addım.** Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

1. *Anlayışın çıxarılması* üsulundan istifadə etməklə;




2. Cədvəlin cavablandırılması ilə;

| Kitab nədir? |
|---|
| 1. |
| 2. |
| 3. |

3. *İdraki xəritə* üsulundan istifadə etməklə;

Şagirdlərə *“Kitab oxumağın faydaları nədir?”* sualı təqdim edilir. Şagirdlər dəlil, səbəb, nəticə və s. təqdim edirlər.

4. *İkihissəli gündəlik* üsulundan istifadə etməklə;

<table>
<tr><th>Nizami Gəncəvidən götürülmüş misralar</th><th>Nizami Gəncəvi nə üçün belə yazıb?</th></tr>
<tr><td rowspan="4">Dünyada nə qədər kitab var belə<br>Çalışıb əlləşib gətirdim ələ.<br>Oxudum, oxudum, sonra da vardım,<br>Hər gizli xəznədən bir dürr çıxardım.</td><td>1.</td></tr>
<tr><td>2.</td></tr>
<tr><td>3.</td></tr>
<tr><td>...</td></tr>
</table>

5. Cədvəlin cavablandırılması ilə;

| Nizami Gəncəvidən götürülmüş misralar | Nizaminin “Yeddi gözəl” poemasından götürülmüş bu misralarda şairin hansı fikirləri ifadə olunmuşdur? | Şair *“Hər gizli xəznədən bir dürr çıxardım”* dedikdə nəyi nəzərdə tutur? |
|---|---|---|
| Dünyada nə qədər kitab var belə<br>Çalışıb əlləşib gətirdim ələ.<br>Oxudum, oxudum, sonra da vardım,<br>Hər gizli xəznədən bir dürr çıxardım. | | |

https://www.youtube.com/watch?v=rpxshFS2KL4

https://www.youtube.com/watch?v=vKHsV9hlh_A linklərindən istifadə edərək “Bir qalanın sirri” filminin müvafiq hissələrini nümayiş etdirib müzakirə təşkil etməklə.

**2-ci addım.** Mətnin oxusu üzərində iş təşkil edilir. Fasiləli, sual verməklə oxu, yaxud qeydlər götürməklə oxudan istifadə etmək məqsədəmüvafiqdir. Oxu üsulunu seçməkdə müəllim sərbəstdir. Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları müəllimin planlaşdırdığı dərsdən asılı olaraq oxudan əvvəl və ya oxu zamanı icra edilir. Əvvəlcə mətnin 1-ci hissəsi oxunur. 63-cü səhifədəki mavi çərçivənin içindəki müdrik kəlam əsasında yığcam müzakirə təşkil edilir. Düzgün müzakirə *“çünki”* ifadəsi ilə başlayan cümləni tamamlamağa imkan verəcəkdir.

**3-cü addım.** Mətnin 2-ci hissəsinin oxusu təşkil edilir. Oxudan əvvəl klaster üslundan istifadə etməklə *“Mütaliə nədir?”* sualı üzərində iş aparılır.

Aşağıdakı cədvəldən də istifadə etmək olar:

| Mütaliə nədir? | Mütaliənin faydaları |
|---|---|
| | |
| | |




Sonra mətn oxunur, şagirdlər mütaliə ilə bağlı fikirlərini mətnlə tutuşdururlar.

**4-cü addım.** İnternet resurslarından istifadə etməklə kitabın necə hazırlanması ilə bağlı videosüjet nümayiş etdirilir.

**5-ci addım.** 1-4-cü tapşırıqlar üzərində iş aparılır. 1-ci tapşrıq şagirdlərin oxuduqları fikirləri nə dərəcədə anlaması və onu yığcam şəkildə, 1-2 cümlə ilə təqdimetmə bacarıqlarının formalaşdırılması baxımından əhəmiyyətlidir.

4-cü tapşırıq icra edilərkən şagirdlər mətnin dil xüsusiyyətləri ilə bağlı (*sadə/mürəkkəb, aydın/dolaşıq fikirlər, söz, söz birləşmələrinin mənasının anlaşıqlı olması/olmaması, tərkib hissələrinn əlaqələnməsi, cümlələr və abzaslararası əlaqələrin düzgün qurulması/qurulmaması və s.*) məsələlər diqqətdə saxlanır.

**6-cı addım.** Dərsliyin 66-cı səhifəsində verilmiş “Ailə və mütaliə” adlı sorğunun keçirilməsi evə tapşırıq kimi verilir.

Dərslikdə sorğunun keçirilməsi və nəticələrinin ümumiləşdirilməsi üçün plan və nümunə verilmişdir. Nəticələrin ümumiləşdirilməsi növbəti dərsdə sinifdə də mümkündür. Bu, müəllimin seçimindən və planlaşdırdığı dərsdən də asılıdır. Tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiqdir. Kiçik bir qrup (4-5 nəfərdən ibarət) yaradıb, həmin qrupa yaşadıqları ərazidə, yaxud oxuduqları məktəbdə *“Kitabı necə və nə üçün oxuyuruq?”* adlı sorğu keçirməyi tapşırmaq da yaxşı olardı. Şagirdlər növbəti dərsdə ailə və cəmiyyətdə kitaba, mütaliəyə olan fərqli, yaxud eyni münasibəti müzakirə etməklə hər hansı bir nəticəyə gələ bilərlər.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 5 Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir

**Standartlar:** 2.1.3., 2.1.4., 3.1.3.

**Təlim nəticələri:**

Müzakirə zamanı eşitdiyi müxtəlif fikirləri ümumiləşdirir.
Mətnin məzmununu danışır.
Müxtəlif fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, cütlərlə, qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, səsli oxu

**1-ci addım.** Dərs ev tapşırığının – sorğunun keçirilməsi və nəticələrinin ümumiləşdirilməsi ilə bağlı ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Sinifdəki bütün şagirdlərin hazırladığı ev tapşırıqlarının diqqətdə saxlanması məqsədəmüvafiqdir. Ev tapşırıqlarını müxəlif üsullarla yoxlamaq olar:

- Hər bir sual üzrə bütün şagirdlərin fikirləri öyrənilir, lazım gələrsə, alınan cavablara uyğun olaraq müvafiq suallar verilir (Məs: 1-ci sualla bağlı *"Nə üçün kitab nadir hallarda oxunur?","Kitabı birlikdə oxumağın hansı üstünlükləri və ya müsbət nəticələri vardır?", "Oxunan kitab (əsər) birlikdə müzakirə olunurmu?" və s. suallardan istifadə oluna bilər)* Üst-üstə düşən və çoxluq təşkil edən cavab lövhəyə qeyd olunur.

  Hər bir sual üzrə çoxluq təşkil edən cavablar lövhədə qeyd olunur, yekun nəticə çıxarılır.

- Əvvəlcə qrupun işi (əgər tapşırıq verilibsə), sonra şagirdlərdən bir neçəsinin işi dinlənilir, siniflə birlikdə müqayisəli təhlili aparılır və fikirlər ümumiləşdirilir.
- Bir neçə şagirdin ev tapşırığı yoxlanır, bütün siniflə birlikdə müzakirə olunur, müəllimin dərsdə qarşıya qoyduğu məqsəddən asılı olaraq lazımi istiqamətə yönəldilir.
- Bilik səviyyəsi müxtəlif olan üç şagirdin işi dinlənir, bütün sinif müzakirəyə cəlb olunur, fikirlər ümumiləşdirilir. Digər şagirdlərin ev işləri yığılır, yoxlanır və nəticələri növbəti dərsdə elan edilir.

**2-ci addım.** Əvvəli dərsdə oxusu təşkil edilmiş mətnin məzmununu yada salmaq üçün 1-2 şagirdin mətnin yığcam məzmununu danışması məqsədəmüvafiqdir. Bu, sual-cavab vasitəsilə də ola bilər. Dərsliyin 64-cü səhifəsindəki 5-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın cütlər, yaxud qruplarla *(kiçik, yaxud böyük qrupların olması müəllim tərəfindən müəyyənləşdirilə bilər),* hətta kollektivlə iş formasından istifadə etməklə icrası mümkündür. Böyük qruplarla icrası daha məqsədəmüvafiqdir. Bu tapşırığın daha tez icrasına, müqayisə və müxtəlif şərhlərə yol aça bilər. Seçilən iş formasından asılı olmayaraq, fikirlərin əsaslandırılması vacib və əhəmiyyətlidir. Əldə edilən nəticənin sorğunun nəticələri ilə müqayisəsi də diqqətdə saxlanmalıdır. Müzakirələrdə əsas məqsəd mütaliənin əhəmiyyətini ön plana çəkməkdir. Şagirdlərə izah edilməlidir ki, mütaliəsi çox olan insanın söz bazası, lüğət ehtiyatı və dünyagörüşü zəngin, nitqi aydın və səlis, fikirlərini ifadə etmək qabiliyyəti daha yüsək olur.

**3-cü addım.** 6-cı tapşırıq üzərində iş aparılır. Bu tapşırıq "Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir" mətni əsasında aparılır. Tapşırığın böyük qruplarla icrası məqsədəmüvafiqdir. Mətnin I hissəsi və

II hissəsi qruplar arasında bölüşdürülür və tapşırıq icra edilir. Tapşırığın icrası üçün 10 dəq. yetərlidir. Verilmiş müddət bitdikdən sonra tapşırığın müzakirəsi aparılır.

**4-cü addım.** Dərsliyin 65-ci səhifəsində verilmiş 7-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın icrasında məqsəd kitabı necə oxumaqla bağlı müzakirənin təşkil edilməsidir. Mətnin oxusunu bir neçə üsuldan istifadə etməklə təşkil etmək olar:

- Mətnlərin hər biri böyük qruplar tərəfindən oxunur. Müəllimin seçimi, yaxud püşkatma əsasında bir qrup digər qrupa oxuduğu mətnlə bağlı suallar verir. Şagirdlər tərəfndən verilən sualların məzmunlu və düşündürücü olmasına diqqət yetirmək, lazım gələrsə, onları istiqamətləndirmək lazımdır. *("Mütaliənin düzgün təşkili üçün nə etmək lazımdır?", "İnternet asılılığı necə və nə zaman yaranır?", "İnternet asılılığından necə xilas olmaq olar?", "Nə üçün mütaliə ən tərbiyəli təsir vasitəsi hesab edilir?", "Niyə çox kitab oxumaq tərbiyəvi xüsusiyyət hesab edilir?", İnternetdən, yoxsa kitabdan oxumaq daha yaxşıdır?" və s.)*

Hər iki mətnin məzmunu müqayisə edilir, əsas mətnlə, sorğuların nəticələri ilə əlaqələndirilir, mövzu ilə bağlı ümumiləşdirmə aparılır. Müəllim yönəldici suallardan istifadə edə bilər.

**5-ci addım.** 8-ci tapşırıq icra edilir, süjet əsasında müzakirə təşkil edilir.

**6-cı addım.** Mövzunun yekunlaşdırılması üçün şagirdə aşağıdakı cədvəli təqdim etmək olar. Şagirdlər müzakirə əsasında gəldikləri nəticəyə əsasən cədvəli tamamlayırlar.

| İstifadə etdiyiniz texnoloji vasitələr | Texnoloji vasitələrin müsbət cəhətləri | Texnoloji vasitələrin mənfi cəhətləri |
|---|---|---|
| | | |

**7-ci addım.** Evə 17-ci tapşırıq verilir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 6 Kitab cəmiyyəti yönləndirən tərbiyəçidir

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.1., 4.1.1.

**Təlim nəticələri:**

Söz birləmələrini düzgün tələffüz edir.
Müzakirə zamanı eşitdiyi müxtəlif fikirləri ümumiləşdirir.
İkinci dərəcəli üzvləri tanıyır.
Topladığı məlumatlar əsasında mətn tərtib edir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sual-cavab, yazı

**1-ci addım.** Dərs ev tapşırığının yoxlanması ilə başlaya bilər. Tapşırıqları dinləyən zaman şagirdlərin nitqinin səlis və aydın olması, fikirlərini ifadə edərkən fakt yaxud arqumentlərdən yerində istifadə etməsi, fikrini əsaslandırması, məntiqi vurğudan istifadə etməsi, söz və söz birləşmələrini düzgün tələffüzü diqqətdə saxlanır. Yaxı olar ki, bu yalnız müəllim deyil, şagirdlər tərəfindən də izlənilsin və yeri gəldikcə münasibət bildirilsin. Bu əməkdaşlığı yaratmaq üçün müəllim yeri gəldikcə sinfə *"Yoldaşınızın fikri ilə razısınızmı?", "Niyə ... (məsələn, Nigar) məhz bu faktdan(arqumentdən, məlumatdan, mənbədən) istifadə edib?", "Bu məlumatlar ilə tanı idinizmi?", "Təqdimatlardan nə öyrəndiniz?", "Yoldaşınızın fikirlərinə əlavə varmı?" və s. suallardan istifadə etməklə müracit edə bilər.*

Müəllim şagirdlərin yazılarını qiymətləndirərkən bir neçə üsuldan istifadə edə bilər:

**1-ci üsul.** Yazıları (inşa, təqdimat və s.) dinləyir, müsbət və mənfi cəhətləri bildirir, daha mükəmməl yazı üçün şagirdləri istiqamətləndirir.

**2-ci üsul.** Şagirdlərdən bir nəfər yazını oxuyur, dinləyənlər müəllimin təqdim etdiyi meyarlar əsasında yoldaşının işini qiymətləndirir. Müəllim qiymətləndirmənin düzgün aparılmasına nəzarət edir.

*Nümunə:*

**Meyarlar**

| Meyarlar | Məzmun dolğundur. | İnşanın *(essenin, təqdimatın)* tərkib hissələri əlaqəlidir/ əlaqəli deyil. | Abzaslararası əlaqə gözlənilmişdir. | Nitq aydın və səlisdir. | Jest və mimikalar nitqə və məzmuna uyğundur. |
|---|---|---|---|---|---|
| **Dinlədiyim yazı** | | | | | |
| "Miniatür Kitab Muzeyi" | | | | | |

**QEYD.** Bu cədvəl bir nümunədir, müəllim fərqli cədvəl və müxtəlif meyarlar hazırlamaqda sərbəstdir.

**3-cü üsul.** Şagirdlər biri digərinin yazısını oxuyur, müəllimin təqdim etdiyi meyarlar əsasında yoldaşının fəaliyyətni qiymətləndirir. Bu prosesin tənzimlənməsində əsas məqsəd şagirdlərdə düzgün yazı vərdişləri formalaşdırmaqdır.

Planlaşdırdığı dərsdən asılı olaraq müəllim dərsə giriş etmək üçün fərqli yanaşma da tətbiq edə bilər.

**2-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 9-12-ci tapşırıqlardan istifadə olunur. 9-11-ci tapşırıqların kollektiv, 12-ci tapşırığın cütlərlə iş formasından istifadə etməklə yerinə yetirilməsi məqsədəmüvafiqdir.

**QEYD.** Cütlər işləyərkən müəllim şagirdləri diqqətdə saxlamalı, hansı şagirdn daha fəal olduğunu, sualı daha tez cavabalandırdığını, yoldaşına kömək etdiyini, fikir mübadiləsi etdiyini bilməlidir. Bu, fəal şagirdləri daha düzgün qiymətləndirmək, qeyri-fəal şagirdləri isə prosesə cəlb etmək baxımından əhəmiyyətlidir.

**3-cü addım.** 13-cü tapşırıq kollektiv, yaxud fərdi iş formasından istifadə etməklə icrası məqsədəmüvafiqdir. Tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərə *"Mübtəda nədir, hansı suallara cavab verir?", "Xəbər nədir, hansı suallara cavab verir?", "Mübtəda xəbərlə necə uzlaşır?"* sualları ilə müraciət edə bilər. Bu həm tapşırığın yerinə yetirilməsinə kömək etmi olar, həm də şagirdlər əvvəlki biliklərini yada salarlar.

**4-cü addım.** 14-cü tapşırıq üzərində iş aparılır. Bu tapşırıq ikinci dərəcəli üzvlər haqqında ümumi məlumata malik olmaq üçün motivasiya xarakterlidir. Tapşırığın müstəqil işlənməsi də mümkündür. Bu, şagirdlərə yeni mövzunu müstəqil şəkildə mənimsəməyə kömək edər. Tapşırığın icrası üçün dərslikdə nümunə verilmişdir.

Tapşırığın cütlərlə, yaxud fərdi şəkildə icrası müəllimin planladırdığı dərsdən asılıdır.

**5-ci addım.** Müəllim ikinci dərəcəli üzvlər haqqında məlumat verir, izahlarını nümunələrlə əsaslandırır. 15-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın yazılı, yaxud şifahi şəkildə yerinə yetirilməsi müəllimin seçimindən asılıdır.

Müəllim sinifdəki cütlərin sayına uyğun əvvəlcədən hazırladığı kiçik mətnləri iş vərəqlərində müxtəlif tapşırıqlar təqdim edə bilər.

*Nümunə:*

**İş vərəqi N 1**

Bakıda geniş, işıqlı və gözəl bir prospekt var: Hüseyn Cavid prospekti. Bu prospektdə məktəb də, akademiya da, universitet də, metro da, iri mağazalar da, park da var. Ancaq bu **prospekti** bir abidə daha da möhtəşəm edir. Bu, Hüseyn Cavidin heykəlidir. Heykəl bürüncdəndir. Heykəl Hüseyn Cavid adına parkda yerləşir. Abidənin hündürlüyü 5,5 metrlikdir. Bu əzəmətli abidə 1993-cü ildə yaradılmışdır.

Hüseyn Cavid abidəsinin yaradılması ideyası ulu öndər Heydər Əliyevə məxsusdur. Heykəlin müəllifləri heykəltəraş Ömər Eldarov, memarlar Yusif Qədimov və Rasim Əliyevdir.

**Tapşırıqlar:**

- 1-ci cümlədə mübtədanı müəyyən edin.
- Altından xətt çəkilmiş cümlədə xəbəri tapın.
- Tünd şriftlə verilmiş sözə sual verin. Onun hansı cümlə üzvü olduğunu deyin.

**İş vərəqi N 2**

Verilmiş sözlərdən istifadə etməklə aşağıdakı şərtlərə uyğun cümlələr qurun.

- Hər bir sözü cümlədə işlədin ki, mübtəda, xəbər və tamamlıq rolunda çıxış etsin.

*cəmiyyət, nağıl, nəticə*

**QEYD.** *Hər bir sözlə bağlı 3 cümlə yazılmalıdır.*

**İş vərəqi N 3**

**Kitab** sözündən istifadə etməklə verilmiş cümlələri tamamlayın. Nöqtələrin yerinə artırdığınız sözlərə sual verin və onların hansı cümlə üzvü olduğunu qeyd edin.

- ... sənə fayda verər, səndən heç nə almaz.
- Ən böyük hədiyyə ... .
- Həyatımda qazandıqlarım üçün .... borcluyam.

Müəllim müxtəlif məzmunlu tapşırıqlar hazırlamaqda sərbəstdir.

**6-cı addım.** Müəllim şagirdlərə *“Kitab nə üçün lazımdır?”* mövzusunda 10-15 cümləlik mətn yazmağı tapşırır. Tapşırıq fərdi qaydada icra edilir. Müəllimin yazıları yığıb yoxlaması və növbəti dərsdə nəticələrini elan etməsi tövsiyə edilir.

**7-ci addım.** Evə şagirdlərin imkan və bacarıqları nəzərə alınmaqla müxtəlif tapşırıqlar verilə bilər.

- Dərsliyin 69-cu səhifəsindəki 16-cı tapşırıq
- Bədii ədəbiyyatdan tamamlıq olan 6-7 cümlə seçib yazmaq
- Cümlənin baş üzvləri haqqında təqdimat hazırlamaq

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

Müəllim **ksq**-ni keçirmək üçün müxtəlif üsullardan istifadə edə bilər:

- Mətn əsasında suallar tərtib etməklə
- İmla yazdırmaqla
- İfadə yazdırmaqla
- Şəkil əsasında mətn (inşa, esse) tərtib etməklə
- Hər hansı tarixi hadisə, yaxud məlum hadisə haqqında faktlar, yaxud bir-iki cümləlik məlumatlar təqdim edilir, şagirdlər məlumatlar, yaxud faktlar əsasında mətn tərtib edirlər.

***Nümunə:***

**1.** Tutaq ki, şagirdlərə “Kitab bilik mənbəyidir” cümləsi əsasında mətn tərtib etmək tapşırılmışdır. Tapşırığın icrası ilə bağlı şagirdlərə plan və təlimat verilir.

**PLAN**

- Kitab nədir?
- Kitab nə üçündür?
- Kitabı necə oxumaq lazmdır?
- Kitab nə üçün bilik mənbəyi hesab edilir?

**TƏLİMAT**

- Cümlələrarası əlaqələrin gözlənilməsi
- Abzaslararası əlaqələrin gözlənilməsi
- Tərkib hissələrin düzgün əlaqələndirilməsi
- Sözlərin düzgün yazılışına diqqət yetirilməsi
- Durğu işarələrindən düzgün istifadə edilməsi

**2.** Tutaq ki, şagirdə aşağıdakı faktlar təqdim edilir:

- Nizami Gəncəvi Azərbaycan şairidir.
- Nizami ilk “Xəmsə”nin müəllifidir.

Müvafiq olaraq şagirdlərə plan və təqdimat təqdim edilir.

**QEYD.** Yazının qiymətləndirmə meyarları müəllimin seçdiyi standartlar əsasında müəyyən edilir.

# 7 Kiçik summativ qiymətləndirmə

***İmla mətninə nümunə***

## Şvedaqon məbədi

Dünyada möhtəşəm tikililər çoxdur. Lakin onlardan yeddisi ən böyük sərvət hesab edilir. Bu tikililər “Dünyanın yeddi möcüzəsi” adı ilə tarixə düşmüşdür. Bu yeddi möcüzədən biri Birmadadır.

Birma məbədlər ölkəsi adlanır. Lakin bu məbədlərdən yalnız biri möcüzədir. Bu, Şvedaqon məbədi adlanır. Birmadakı bütün məbədlərin hamısından hündür olan Şvedaqon başdan-başa qızıldandır. O, təpənin zirvəsində ucaldılmışdır.

Şvedaqon məbədinin tarixi Birmanın tarixi qədər çox qədimdir. Onun kim tərəfindən və nə vaxt tikildiyi heç kəsə məlum deyil. O, dünyada ən uca məbəd və ən böyük bina hesab olunur. Təkcə bunu bilmək kifayətdir ki, onun təməlinin çevrəsi yarım kilometrə bərabərdir. Onu təzələmək üçün tez-tez binanın üzərinə qızıl təbəqələr çəkilir. Buna yüzlərlə kiloqram qızıl sərf olunur. Şvedaqon Birma dövlətinin rəmzi kimi məşhurdur. (96 söz.)

1. Meyarlar müəyyənləşdirməklə imla (*lüğət üzrə, öyrədici,* “özümü yoxlayıram” *imlası*, *yoxlama imla və s.*) və ifadə yazdırmaqla;
2. Mətn üzərində iş aparmaqla;
3. Dinləmə mətni üzrə;
4. İfadə yazdırmaqla.

*Lüğət üzrə imla.*

Müəllim bölmə ərzində hər mətnin əvvəlində **orfoqrafiya** qrafasında verilmiş sözləri şagirdlərə yazdırır. Sözlərin sayı 15–20 aralığında ola bilər. Texniki imkanlar varsa, yazı bitdikdən sonra həmin sözlərin düzgün yazılışının olduğu slayd şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər yazılarını yoxlayır və müəllimə nəticələri haqqında məlumat verirlər.

*Öyrədici imla.*

Əsasən, rabitəli və rabitəsiz mətnlərdən ibarət olur. Müəllim bu imlanın uyğun bildiyi növündən istifadə edə bilər.

Müəllim imla yazıları yoxladıqdan sonra səhvləri qruplaşdırır:

1. Orfoqrafik səhvlər
2. Durğu işarələri səhvi

**QEYD.** Kalliqrafiya qaydalarına diqqət yetirilməsi məqsədəmüvafiqdir.

İlk növbədə, yazıların müsbət tərəfləri (səliqəli, səhvsiz) sadalanır. Daha sonra imla yazılarda buraxılmış səhvlər şagirdlərin diqqətinə çatdırılır, müzakirələr aparılır.

İmla yazının aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi məqsədəmüvafiqdir:

*1. Sözdə saitləri düzgün yazır.*

1.1. e və ə hərflərini

1.2. u və ü hərflərini

1.3 ö və o hərflərini

*2. Sözdə samitləri düzgün yazır:*
2.1. x və h hərflərini
2.2. söz ortasında q, ğ, x hərflərini
2.3. söz sonunda q və k hərflərini
2.4. söz əvvəlində c və ç hərflərini

*3. Sözlərə şəkilçiləri düzgün artırır.*
3.1. Sözlərə şəkilçi artırarkən ahəng qanununun tələblərini nəzərə alır.
3.2. Sözləri əlaqələndirmək üçün şəkilçilərdən düzgün istifadə edir.

*4. Sözləri sətirdən sətrə düzgün keçirir.*

*5. Cümlə sonunda durğu işarələrindən düzgün istifadə edir.*
5.1. Sadalanan sözlərdə vergül işarəsindən istifadə edir.
5.2. Dırnaq işarəsindən istifadə edir.
5.3. Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir.

*6. Abzasların yerini müəyyən edir.*
6.1. Abzaslarda sözlərin düzgün işlənməsinə diqqət yetirir. *(Bəzən şagirdlər imla yazıda bu və ya digər sözü buraxırlar.)*
6.2. Abzaslarda cümlələrin ardıcıllığına riayət edir. *(Bəzən şagirdlər imla yazıda cümləni buraxırlar.)*
6.3. Cümlədə sözlərin ardıcıllığına riayət edir. *(Bəzən şagirdlər imla yazıda cümlədəki sözlərdən birini və ya ikisini buraxırlar.)*

Müəllim uyğun bildiyi meyarları əlavə edə bilər. Bu onun seçdiyi mətndən asılıdır.

Müəllim KSQ-ni keçirmək üçün ifadə yazı planlaşdırırsa, mətn 3 dəfə oxunur, şagirdlər mətni yazır və yazılar müəyyən edilmiş meyarlar əsasında yoxlanılır.
Müəllim başqa üsuldan da istifadə edə bilər. “Sədaqətli dostlar” mətninin bir hissəsi və mətnin ardını yazmaq üçün müvafiq plan iş vərəqlərində şagirdlərə təqdim olunur. Şagirdlər mətni tamamladıqdan sonra mətnin qalan hissəsi müəllim tərəfindən oxunur. Şagirdlər müəllimin oxuduğu hissə ilə öz yazılarını tutuşdururlar.
Müəllim mətnə əsasən suallar tərtib etməklə də onu şagirdlərə təqdim edə bilər və KSQ-ni keçirə bilər.

***İfadəyə nümunə***

Müəllim müqəddəsdir

Müəllim xalqın gələcəyi üçün çalışan bir memara bənzəyir. O, uşaqların təlim-tərbiyəsi ilə məşğul olur, öyrədir, bilik verir, şəxsiyyət formalaşdırır. Uşaqlar isə böyüyəndə xalqa xidmət göstərir, qurur, yaradırlar. Buna görə də xalqımız lap qədimdən müəllimi müqəddəs varlıq kimi qiymətləndirmişdir.
Bu təkcə Azərbaycanda deyil, bütün türk xalqlarında belə olub.
Deyilənə görə, Sultan Süleyman atlı dəstəsi ilə yol gedirmiş. Onun müəllimi də burada imiş. Müəllimin atının ayağı altından qopan palçıq Sultan Süleymanın əbasına yapışır.
Sultan əmr edir ki, əbanı aparıb muzeydə saxlasınlar. Çünki əbaya yapışmış palçıq müqəddəsdir, o, müəllimin adı ilə bağlıdır.
Deyilənə görə, əba indi də Türkiyənin məşhur muzeylərindən birində saxlanır.

Müəllim ifadə yazıları yoxladıqdan sonra onları qruplaşdırır:
Orfoqrafik səhvlər

Durğu işarələri səhvi
Üslub səhvləri
İlk növbədə, yazıların müsbət tərəfləri sadalanır. Daha sonra ifadə yazılarda buraxılmış səhvlər şagirdlərin diqqətinə çatdırılır, müzakirələr aparılır.
İfadə yazının aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi məqsədəmüvafiqdir:

1. Sözdə saitləri düzgün yazır.
   1.1. e və ə hərflərini
   1.2. u və ü hərflərini

2. Sözdə samitləri düzgün yazır:
   2.1. x və h hərflərini
   2.2. söz ortasında q, ğ, x hərflərini
   2.3. söz sonunda q və k hərflərini

3. Cümlə sonunda durğu işarələrindən düzgün istifadə edir.
   3.1. Dialoqlarda qoşa nöqtədən istifadə edir.
   3.2. Dialoqlarda tire işarəsindən istifadə edir.
   3.3. Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir.

4. Mətnin məzmununu yazır.
   4.1. Hadisələrin ardıcıllığına riayət edir.
   4.2. Abzaslar arasında əlaqəni qurur.
   4.3. Mətnin tərkib hissələrini əlaqələndirir.
   4.4. Mövzuya yaradıcı yanaşır.
   4.5. Yazıda cümlələr məna cəhətdən əlaqələnir.

5. Sözləri əlaqələndirmək üçün şəkilçilərdən düzgün istifadə edir.
6. Sözlərin mənasını bilir, onlardan düzgün və yerində istifadə edir.
7. İsimlərin yazılış qaydalarına əməl edir.
8. Sifətlərin yazılış qaydalarına əməl edir.
9. Sayların yazılış qaydalarına əməl edir.

Şagirdlərə aşğıdakı qaydada da tapşırıq vermək olar.

“Maraqlı ekskursiya” mətnini köçürün, uyğun gələn hərfləri artırın.

Gü..lü yağışdan sonra bulu..lar dağılmışdı. Günəşin ş..aları hər tərəfə səpələnmişdi. Z..if külək yaşıl otların, əlvan çiçək..lərin ətrini ətrafa yayırdı. Bülbüllər yenə öz şirin nəğmələri ilə təbi..tə x..susi gözəllik verirdi. Çinar, ağcaqayın ağa..larının yarpa..ları külək əsdikcə gümüş kimi parıl..ayırdı. Birdən şeypurun çağırış səsi ətrafa yayıldı. Uşa..lar düşərgənin meydançasına axışdılar.

Uşaqlar nəğmə oxuya-oxuya yola düşdülər. Onlar bu mara..lı ekskursiyanı dünəndən səbirsizliklə gözləyirdilər. Uşaqlar bir s..tdan sonra arıçıların yanına çatdılar. Arıçılar onları səmimi..ətlə qarşıladı və uşaqları öz işləri ilə ətraflı tanış etdilər.

# 8 Xəyal və reallıq

**Standartlar:** 2.1.3., 3.1.2., 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri yığcam təqdim edir.
Məntiqi vurğudan düzgün istifadə edir.
Oxuduğuna münasibət bildirir.
Mətnin sonluğunu yazır.

**İş forması:** cütlərlə, böyük qruplarla, fərdi

**İş üsulu:** müzakirə, beyin həmləsi, proqnozlaşdırılmış oxu

1-ci addım. Müəllim dərsə giriş etmək üçün bir neçə yanaşmadan istifadə edə bilər:

- Şagirdlərə *"Xəyal nədir?", "Reallıq nədir?", "Xəyal və reallıq arasında bir əlaqə varmı?"* və s. suallarla müraciət etməklə;
- Klaster üsulundan istifadə etməklə *xəyal* sözünün izahını vermək və yığcam müzakirə təşkil etməklə;
- Cədvəlin cavablandırılması ilə (*Xəyal nədir?", "Reallıq nədir?", "Xəyal və reallıq arasında bir əlaqə varmı?"* suallarının hər biri ayrı-ayrı cədvəldə yazılır və cütlərə paylanır)

**QEYD.** *Bu cədvəldən cütlərlə iş zamanı istifadə etmək daha uyğundur.*

| Xəyal nədir? |
|---|
| 1. |
| 2. |
| 3. |

- Verilmiş sxemdən istifadə etməklə (*şagirdlər verilmiş sözlər haqqında bildiklərini yazırlar*);




**QEYD.** Müəllim fərqli üsul seçməkdə sərbəstdir.

**2-ci addım.** Yığcam müzakirələrdən sonra "Xəyal və reallıq" mətninin oxusu üzərində iş təşkil edilir. Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları üzərində iş müəllimin seçimi əsasında oxudan əvvəl, yaxud oxu zamanı icra edilir. Oxu zamanı 1-ci tapşırıq yerinə yetirilir.

Proqnozlaşdırılmış oxu üsulundan istifadə etməklə mətn oxunur. Əvvəlcə mətnin giriş hissəsi *(Məncə, həyatda xəyala dalmaq zövqlü işdır. Kitablar xəyal gücünü və təxəyyülü inkişaf etdirmək üçün çox təsirli vasitədir. Kitab oxumaq xəyalları qidalandırır. Bəzən oxuyarkən özümüzü kitabdakı personajların yerinə qoyuruq. Qəhrəman əsgər, polis, sərhədçi olur, çətin vəziyyətdən çıxış yolu tapırıq. Bəzən də kəşf və ya fəth edirik. Bəzən isə oxuduqlarımız bizə yol göstərir.*

*Dostlar, sizə maraqlı bir hekayə danışmaq istəyirəm.)* oxunur. Oxu zamanı düzgün tələffüz və intonasiya diqqətdə saxlanır. Şagirdlərə *"Sizcə, mətndə hansı hadisələrdən danışılacaq?", "Hadisələr necə davam edəcək?", "Sizcə bu, reallıqdırmı, yoxsa xəyal?, Fikirlərinizi necə əsaslandırardınız?"* sualları verilir. Şagirdlərin fikirləri yazılı şəkildə də ola bilər.

**3-cü addım.** Mətnin ardının oxusu təşkil edilir. İlk abzasdan sonra şagirdlərə *"Sizcə, uşaqlar göy üzünə əsasən hazırda harada olduqlarını müəyyən edə biləcəklərmi?"* sualı ilə müraciət edilir.

**Müəllimin nəzərinə.**

Üfüqün cəhətlərini (şimal, cənub, şərq, qərb) bilməklə zəmti müəyyən etmək olar.

- Gecə qaranlıq səmada görünən qütb ulduzunun ön tərəfi şimal tərəfdir.
- Günəşə görə üfüqün cəhətlərini daha dəqiq müəyyən etmək üçün qol saatından istifadə olunur. Saat göstərən əqrəbi üfüqi vəziyyətdə günəşə istiqamətləndirmək lazımdır. Saat əqrəbi ilə saatın üzündəki 12 rəqəminin istiqaməti arasındakı bucağın tənböləni cənub istiqamətini göstərir.
- Günəşə görə cəhəti təyin etmək üçün onun çıxıb-batmasına diqqət yetirmək lazımdır. Günəş göy qübbəsinin cənub hissəsində olur, şərqdə çıxır, qərbdə batır.




Şagirdi istiqamətləndirmək üçün ona *"Cəhətlər hansılardır?", Sizcə cəhətləri müəyyən etmək üçün nədən istifadə etmək olar?", "Hansı göy cisimlərinə əsasən cəhəti müəyyən etmək olar?", Sizcə, göy cisimlərinə əsasən cəhəti necə müəyyən etmək olar?* suallarından istifadə etmək olar.

Mətnn ardı oxunur.

**QEYD.** Çərçivələrdə quşlar haqqında verilmiş məlumatlar da mətnə daxildir.

Mətnin axırıncı cümləsi ***qurtuluşumuz yolunda ilk addım ola bilər*** fikri ilə tamamlanır.

**4-cü addım.** 10-15 dəqiqəlik debat keçirilir. Debatın mövzusu dərsliyin 71-ci səhifəsində vardır. Debatın təşkili böyük qruplarla iş formasından istifadə edilməklə təşkil edilir. Yekun fikir mətnin məzmunu ilə əlaqələndirilir. Əlaqələndirmə üçün müvafiq suallar verilə bilər.

**5-ci addım.** 19-cu tapşırıq üzərində iş aparılır. Mətnin sonluğunu tamamlamaq üçün plan verilmişdir. Şagirdlərə izah edilməlidir ki, sonluq geniş deyil, yığcam olmalıdır. 10-15 cümlənin olması yetərlidir. Əsas şagirdlərin məzmunu düzgün mənimsəməsi, tərkib hissələr arasındakı əlaqəni düzgün qura bilmək, məntiqi sonluq düşünməkdir.

**6-cı addım.** Tapşırıqlar yoxlanır. Bir dərs ərzində bütün tapşırıqların hamısını yoxlamaq mümkün olmadığı üçün müəllim onları toplamalı, yoxlamalı, növbəti dərsdə nəticələrini elan etməlidir.

Yazıları yoxlamaq üçün meyarlar öncədən mmüəyyənləşdirilir.

Meyarlara nümunə:
- Sözləri düzgün yazır.
- Saitləri düzgün yazır.
- Samitləri düzgün yazır.
- Durğu işarələrindən düzgün istifadə edir.
- Məntiqli sonluq yazır.
- Cümlələrarası əlaqələri gözləyir.
- Nəticə hissəni əsas hissə ilə düzgün əlaqələndirir.
- Sonluğa yaradıcı yanaşır.
- Sözlərdən yerində və düzgün istifadə edir.

**7-ci addım.** Evə şagirdlərin bacarıq və imkanları nəzərə alınmaqla müxtəlif tapşırıqlar verilə bilər.
- 3-cü tapşırıq (səh.72)
- 20-ci tapşırıq
- Mətnin məzmunu ilə bağlı atalar sözü toplamaq
- Mətn əsasında rəsm çəkmək
- Cəsur və ya Mətin haqqında xasiyyətnamə yazmaq
- Cəsur və ya Mətin haqqında arayış yazmaq

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 9 Xəyal və reallıq

**Standartlar:** 1.1.2., 2.1.1., 2.1.4., 3.1.1., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə faktlara münasibət bildirir.
Cümlələri düzgün tələffüz edir.
Mətnin məzmununu danışır.
Sözlərin təyin olduğunu bilir.
Müxtəlif fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sorğu-sual, sxem

**1-ci addım.** Müəllim planlaşdırdığı dərsdən asılı olaraq, yeni dərsə müxtəlif yanaşmalardan istifadə edə bilər:
- ev tapşırıqlarının yoxlanması ilə;
- "Xəyal və reallıq" mətninin məzmununun şagirdlər tərəfindən nəql edilməsi ilə (*müəllimin seçimindən asılı olaraq, mətn hissələrlə nəql edilir, yaxud rollar üzrə təqdim edilir*);
- "Xəyal və reallıq" mətninin məzmununu xatırlatmaq üçün sual-cavab etməklə.

**2-ci addım.**
Seçdiyi yanaşma nəticəsində formalaşan fikirlər ümumiləşdirilir, 2-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın fərdi qaydada, yazılı şəkildə cavablandırılması daha məqsədəmüvafiqdir. İcra üçün 5-7 dəq. kifayətdir.

| Mətnin adı | Mətn niyə belə adlandırılmışdır? | Mənim təklif etdiyim ad | Təklifimin səbəbi |
|---|---|---|---|
| | | | |

**QEYD.** Tapşırığın cütlərlə icrası da mümkündür. Bu halda 3 və 4-cü xanada “mənim” əvəzinə “bizim”, “etdiyim” sözünün əvəzinə “etdiyimiz”, “təklifimin” sözünün əvəzinə “təklifimizin” sözlərindən istifadə edilir.

**3-cü addım.** Şagirdlərin cavabları dinlənildikdən sonra kollektiv iş formasından istifadə edilməklə 4-7-ci tapşırıqlar üzərində iş aparılır. 7-ci tapşırıq müəlimi seçimi əsasında cütlərlə də aparıla bilər.

Yığcam müzakirədən sonra 8-ci tapşırıq üzərində iş aparılır. Tapşırığı icra etmək üçün suallar oxunur, şagirdlərin fərziyyələri dinlənir, lakin müzakirə edilmir. QR kod vasitəsilə təqdim edilmiş süjetə baxış təşkil edilir. Şagirdlər öz fərziyyələri ilə süjetdə gördükləri ilə dinlədiklərinin müqayisəsini aparırlar. Mətnin məzmunu ilə bağlı müzakirələr yekunlaşdırılır. 21-ci tapşırıq üzərində iş aparılır.

**4-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 11-14-cü tapşırıqlar üzərində iş təşkil edilir. Tapşırıqlar kollektiv, yaxud cütlərlə iş formasından istifadə etməklə yerinə yetirilir.

12-ci tapşırığın cavabı

***mütaliə + bilik = bacarıq***

Bu tapşırığı icra etmək üçün müəllim şagirdlərinin səviyyəsinə uyğun olaraq aşağıdakı sualları vermək olar:

- *Sizcə, mətndən çıxış edərək sual işarələrinin yerinə hansı sözləri yazmaq olar?,*
- *Əgər birinci sual işarəsinin yerinə **mütaliə** sözü yazılsa, sxemi necə davam etdirmək olar?*
- *Əgər bərabər işarəsindən sonra **bacarıq** sözü yazılsa, sxemi necə davam etdirmək olar?*
- *Əgər sual işarələinin yerinə **mütaliə+bilik** yazılarsa, sxemi necə davam etdirmək olar?*

*Sxemdəki sözlərin izahını verməklə də onun üzərində iş təşkil etmək olar.*

oxunan məlumatın mənimsənməsi + insanı əhatə edən aləm haqqında məlumatlar = Bilik, vərdiş, təcrübə əsasında əldə edilmiş qabiliyyət

**5-ci addım.** 15-ci tapşırıq kollektivlə iş formasından istifadə edilməklə yerinə yetirilir. Bu tapşırıq təyinin öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırıq yerinə yetirildikdən sonra müəllim təyin haqqında izaht verir, fikrini nümunələrlə əsaslandırır. Təyin haqqında dərsliyin 74-cü səhifəsində məlumat verilmişdir.

**6-cı addım.** 16-18-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların icrası müxtəlif cür ola bilər:

- fərdi qaydada
- cütlərlə iş formasından istifadə etməklə
- şagirdlərin əyləşdiyi sıralara görə (yəni 1-ci sıraya 16, 2-ci sıraya 17, 3-cü sıraya 18-ci tapşırıq verilir.

Tapşırıqlar yoxlanır, səhvlər varsa, düzəliş edilir, müvafiq izahatlar verilir.

**7-ci addım.**

Ev tapşırığı şagirdlərin bacarıq və imkanları nəzərə alınmaqla verilir:

- 9-cu tapşırıq
- 10-cu tapşırıq
- 20-ci tapşırıq

**8-ci addım.**

Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 10 "Nəsihət"

**Standartlar:** 2.1.2., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Nitqində intonasiyann tələblərinə əməl edir.
Yoldaşlarının fikirlərini ümumiləşdirir.
Mətni oxuyarkən intonasiyanın tələblərinə əməl edir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, səsli oxu, əqli hücum

**1-ci addım.** Dərsə ev tapşırıqlarının yoxlanması ilə başlamaq olar. Tapşırıqların oxutdurulması zamanı şagirdlərə *"Niyə belə düşünürsən?", "Nə üçün bu nəticəyə gəldin?", "Bu faktı (yaxud məlumatı) necə əsaslandırarsan?, "Yoldaşının fikri ilə razısanmı?"* və s. suallarla müraciət etmək olar.

Ev tapşırıqlarını təkcə müəllim deyil, şagirdlər də bir-birini, həm də özlərini qiymətləndirə bilər. Bu, şagirdlərdə özünə və həmkarlarına tənqidi yanaşma, rəy bildirmə, fikir mübadiləsi aparma, fərqli fikirlərə dözümlü yanaşma və s. bacarıqların formalaşmasına istiqamət verəcəkdir.

**2-ci addım.** Müəllim növbəti mərhələyə keçid edir, mövzunun adını elan edir. *Nəsihət* sözünün mənasını şagirdlərdən soruşub mətnin oxusunu təşkil edir. Orfoqrafiya, orfoepiya, vurğu tapşırıqları oxudan əvvəl icra edilir. Mətnin oxusunu oxunun müxtəlif növlərindən istifadə etməklə təşkil etmək olar. Səsli, yaxud səssiz, suallar verməklə oxu, rollu oxu növlərindən istifadə etmək məqsədəmüvafiqdir. Oxunun seçilməsi müəllimin planlaşdırdığı dərsdən asılıdır. Dərslikdə verilmiş şəkil üzərində işin aparılması *(şifahi şəkildə fotonun təsviri)*, mətnin məzmunu ilə əlaqələndirilməsi də vacibdir.

**QEYD.** Dərslikdəki fotolar, sadəcə, dizayn məqsədilə verilməmişdir. Şəkillər üzərində iş aparılması, mətnlə, yaxud müvafiq tapşırıqla əlaqələndirilməsi, rəng seçimi, obrazlara münasibət həm müxtəlif fikirlərin bir araya gəlməsinə, həm də maraqlı müzakirələrə səbəb olar.

Mətnin oxusundan sonra şagirdlərə aşağıdakı cədvəli təqdim etmək və onu doldurmağı tapşırmaq olar:

| Giriş hissə | Əsas hissə | Nəticə hissə |
|---|---|---|
| | | |

Tapşırığın icrasına 5-6 dəq. yetərlidir.

**3-cü addım.** Şagirdlərin cavabları müzakirə olunmur. Mətnin strukruru üzərində iş aparmaq üçün 1-3-cü tapşırıqlar üzərində iş aparılır. Şagirdlər müzakirələr zamanı əldə edilən nəticələrlə öz cavablarını tutuşdururlar.

Kollektivlə iş formasından istifadə etmək məqsədəmüvafiqdir.

**4-cü addım.** Kiçik qruplarla iş forması seçilməklə 4-cü tapşırıq üzərində iş aparılır. Mətndəki əsas problem *( gənclərin bəzən çıxış yolu tapa bilməməsi, həyatı ilə, seçəcəyi yol ilə bağlı qərar verə bilməməsi və s.)* müəyyən edilir. Şagirdlər müəyyən etməkdə çətinlik çəkərlərsə, onlara *"Rüstəm nə üçün müəlliminin yanına gəlir?", "Onu narahat edən məsələlər nə idi?", "Mətndə hansı cümlələr Rüstəmin dilemma qarşısında qaldığını təsdiq edir?"* və s. bu kimi yardımçı suallardan istifadə edə bilər. Sualları cavablandırarkən müəllim şagirdlərin söylədiyi fikirlərin lakonik, aydın və sərbəstliyinə, yoldaşlarının fikirlərinə münasibət bildirməsinə, ilmi təsdiq və ya inkar edərkən fikirlərini əsaslandırılmasına diqqət yetirməlidir.

Şagirdlərin söz və cümlələri düzgün tələffüz etməsinə, jest və mimikaların nitqi müşayiət etməsinə, məntiqi vurğudan düzgün istifadə istifadə etməsinə müəllim diqqət yetirməlidir.

**5-ci addım.** Mətnin ideyası üzərində iş aparmaq üçün 5-9-cu tapşırıqların icrası kiçik qruplarla davam etdirilir. Tapşırıqların icrası üçün 10-12 dəq. yetərlidir. İcra müddəti bitdikdən sonra qrupların təqdiatı dinlənilir, müzakirələr təşkil edilir. Daha sonra 10-cu tapşırıq icra edilir, mətnin əsas ideyası müəyyən edilir. Müəllim yardımçı suallardan istifadə edə bilər.

**6-cı addım.** Şagirdlərə *"Hansı nəticəyə gəldiniz?", "İkili vəziyyət qarşısında qalmısınızmı?", "Bu vəziyyətdən çıxış yolu tapmısınızmı?", Çətinlik çəkəndə sizə çıxış yolu göstərən olubmu?", "Hekayədən nə öyrəndiniz?* və s. suallarla şagirdlərə müraciət edilir və mövzu yekunlaşdırılır.

**7-ci addım.** Evə 18-ci tapşırıq verilir. Müəllim mövzu ilə bağlı fərqli tapşırıqlar verməkdə sərbəstdir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 11 "Nəsihət"

**Standartlar:** 1.1.2., 2.1.2., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

Mətndəki hadisələrə münasibət bildirməklə ümumiləşdirir.
Nitqində məntiqi vurğudan düzgün istifadə edir.
Mətni danışarkən tərkib hissələri əlaqələndirir.
Mövzuya münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi, cütlərlə

**İş üsulu:** əqli hücum, sual-cavab

**1-ci addım.** Bu dərsdə psixoloqun iştirak etməsi məqsədəmüvafiqdir.

Müəllim dərsə müxtəlif yanaşmalardan istifadə etməklə başlaya bilər:

- ev tapşırıqlarını yoxlamaqla;
- "Nəsihət" mətninin məzmununun şagirdlər tərəfindən nəql edilməsi ilə;
- *"Sizcə, mütaliə vərdişdirmi?"* sualı ilə şagirdlərə müraciət edib müzakirə təşkil etməklə (*"Vərdiş nədir?", "Hansı vərdişləriniz var?", Bu vərdişlər sizdə necə formalaşıb?", "Vərdişlərin formalaşmasında kimin rolu olub?"* və s. istiqamətləndirici suallarından istifadə etməklə)
- Süleyman Rəhimovun "Mehman" povestindən aşağıdakı parçadan istifadə etməklə

**QEYD.** Göstərilən yanaşmaları müəyyən vaxt çərçivəsində ardıcıl şəkildə terinə yetirməklə də tədris prosesini qurmaq olar.

**2-ci addım.** Mətnin məzmunu şagirdlər tərəfindən yığcam şəkildə nəql edilir. Rollar üzrə təqdimetmə də mümkündür. Əgər ehtiyac yaranarsa, müəllim mətn əsasında şagirdlərə 1-2 sual verə bilər. Sonra dinləmə mətnindən istifadə edilir.

*Tədris hissə müdiri Məlikə xanım on illik məktəb vəsiqəsini Mehmana təqdim edib, ayrılıq əlaməti olaraq, onun boynunu bərk-bərk qucaqladı.*

*– Oğlum, – deyə müəllimənin gözləri doldu. – Düz on ildir ki, sən bizim bu məktəbdə oxuyursan. Düz on il əvvəl sən buraya balaca bir uşaq kimi, çantanı yerlə sürüyə-sürüya gəlib, indi cavan bir oğlan kimi gedirsən... Bu on ilin çox yarısını, mən özüm sənə dərs vermişəm... Sən mənim sevimli balam olmusan... Bu on ildə məktəbdə mən səni həm əxlaqda, ham də oxumaqda bütün uşaqlara nümunə göstərmişəm... Bu gün mən məktəbi bitirmək şəhadətnaməsini sənə təqdim edib yola salıram. Mənim sənə analıq tövsiyəm vardır. Hər nə sənəti ürəyin sevsə, onun dalınca da gedərsən. Bu sənin öz işindir!.. Ancaq mənim sənə çox mühüm bir tapşırığım vardır... Hər halda, hansı işdə olursan ol, daxilən-vicdanın pak-təmiz ol!.. Heç kəs bilməsə, tək bir sən özün bilsən belə, mənəviyyatını gün kimi saf, ay kimi parlaq saxla! Heç bir zaman bir balaca nöqtə qədər olsa belə, öz ürəyini ləkələmə!*

*Məlikə xanım qaynayan gözlərini silib əlavə etdi:*

*– Sənin bu dünyada iki anan var, biri səni doğan ana ki, sən ona həmişə hörmət etməlisən, ikincisi də sənə təlim verən anadır!.. Sən bil ki, bu sözləri sənə anan deyir!..*

*– Anama qəti söz verirəm, – deyə Mehman öz qarasaçlı başını müəllimənin qarşısında ehtiramla əydi, – söz verirəm!..*

*– Bəli, oğlum, daxili təmizlik, vicdani saflıq insan üçün böyük vüqardır!.. O, adamı cürətli, alnıaçıq, başıuca edər!.. Mənəvi təmizlik, insana məğlubedilməz qüdrət, vətən, xalq qarşısında hədsiz bir hörmət verər!.. Bu dünyada insan üçün, hər nə işdə olursa olsun, ürəyi ləkəli yaşamaqdan da ağır bir şey ola bilməz. Sən gəncsən, bizim dünyanın mənası məzmunlu, hikmətli və dərindir!..*

Müzakirələr zamanı müəllimin insan həyatında vacib və əhəmiyyətli rol oynadığı, müəllim zəhmətinə dəyər verilməsinin vacibliyi vurğulanır.

**3-cü addım.** Dinləmə mətni və "Nəsihət" mətninin əsasında şagirdlərə müqayisə xarakterli suallar verilir:

- *Tofiq müəllimin Rüstəmə verdiyi nəsihətlə Məlikə xanımın Mehmana verdiyi nəsihət arasında fərq varmı? Əgər varsa, bu fərq hansıdır?*
- *Tofiq müəllimin Rüstəmə verdiyi nəsihətlə Məlikə xanımın Mehmana verdiyi nəsihət arasında oxşarlıq varmı? Əgər varsa, bu oxşarlıq nədə özünü göstərir?*
- *Rüstəmlə Mehman arasında oxşarlq və ya fərq varmı? Əgər varsa, bu özünü nədə göstərir?*

Müqayisə aparmaq üçün aşağıdakı cədvəldən də istifadə etmək olar:

| Nəsihət və tövsiyələr | |
|---|---|
| “Nəsihət” əsərində | “Mehman”əsərində (dinləmə mətni) |
| | |
| | |
| | |

Şagirdlərin cavabları ümumiləşdirilir və növbəti mərhələyə keçid edilir.

4-cü addım. Sonra şagirdlərə *“Sizcə, Rüstəmin mütaliə vərdişi olsa idi, o, qərar verməkdə çətinlik çəkərdimi?”* sualı verilir və sual əsasında müzakirə təşkil edilir.

Daha sonra *“Sizcə, mütaliə vərdişdirmi?”* sualı əsasında müzakirə təşkil edilir və yuxarıda vərdişlə bağlı suallar ardıcıl olaraq şagirdlərə təqdim edilir.

Dərslikdə vərdişlə bağlı verilən məlumatların oxusu təşkil edilir və şagirdlər cədvəllər üzərində işləyirlər. Cədvəllərin fərdi qaydada və 6-7 dəqiqə vaxt verilməklə icrası məqsədəmüvafuqdir.

**Cədvəl 1.**

| Faydalı vərdişlər | Zərərli vərdişlər |
|---|---|
| 1. | 1. |
| 2. | 2. |
| 3. | 3. |

**Cədvəl 2.**

| Mənim vərdişlərim | Müsbətdir | Mənfidir |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

Tapşırıqlar seçmə yolla oxutdurulur. Digər şagirdlərin cavabları yığılıb yoxlanmalı, növbəti dərsdə nəticələr elan edilməli və şagird portfoliosunda saxlanmalıdır.

5-ci addım. “Nəsihət” mətninin lüğət tərkibi üzərində iş aparmaq üçün 11-15-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların müəllimin seçimi əsasında kollektiv, yaxud cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

6-cı addım. 19-cu tapşırıq üzərində iş aparılır. Şəkil dərsliyin 80-ci səhifəsində verilmişdir. Şagirdlərə şəkil əsasında mətn tərtib etmək üçün plan da vermək olar. Planı şagirdlərlə birlikdə də tərtib etmək olar.

**Plan** (nümunə)
- Şəkildə nə təsvir olunmuşdur?
- Şagirdlərin əməkdaşlığı

◆ Müəllim və şagird əməkdaşlığı

**Həcm:** 15-20 cümlə

**QEYD.** Tapşırıq sinifdə bitməzsə, evdə tamamlamaq tapşırıla bilər.

**7-ci addım.** 16, 17-ci tapşırıq evə verilir və icra zamanı şagirdlərin nə edəcəkləri izah edilir. 16-cı tapşırıq vasitəsilə şagirdlər cümlə üzvlərini təkrarlayır. 17-ci tapşırıq fonetika, leksikologiya və sintaksisi özündə ehtiva edir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 12 "Texnologiya çağının bəlası: tənbəllik"

**Standartlar:** 2.1.1., 2.1.3., 3.1.1.,3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Sözləri və cümlələri ədəbi normalara uyğun tələffüz edir.
Müxtəlif fikirləri ümumiləşdirir.
Sözlərin sintaktik vəzifəsini bilir.
Oxuduqlarına münasibət bildirir.
Mətnin sonluğunu tamamlayır.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, proqnozlaşdırılmış oxu, klaster, yaxud anlayışın çıxarılması

**1-ci addım.** Müəllim yeni dərsə ev tapşırıqlarının yoxlanması ilə başlanır. Tapşırıqları yoxlamaq üçün müəllim meyarlar da hazırlaya bilər.

**16-cı tapşırığı yoxlamaq üçün meyarlar:**
◆ Mübtədaları müəyyən edir.
◆ Xəbərləri müəyyən edir.
◆ Tamamlıqları müəyyən edir.
◆ Təyinləri müəyyən edir.
◆ ***O*** əvəzliyindən sonra vergülün düzgün işləndiyini əsaslandırır.
◆ Sözlərin hansı nitq hissəsinə aid olduğunu bilir. və s.

**17-ci tapşırığı yoxlamaq üçün meyarlar:**
◆ Söz sonunda ***d*** samitinin yazılışını bilir.
◆ Söz sonunda ***t*** samitinin yazılışını bilir.

- Söz sonunda ***q*** samitinin yazılışını bilir.
- Söz əvvəlində ***a*** ilə deyilən sözlərin ***o*** saiti ilə yazıldığını bilir.
- Söz ortasında ***h, yoxsa x*** samitinin yazılışını bilir.
- Söz sonunda ***e*** saitinin yazılışını bilir.
- Sözlərə sualı düzgün verir.
- Sözlərin ifadə etdiyi mənanı bilir.
- Sözləri mübtəda və xəbər vəzifəsində işlədir.
- Sözləri tamamlıq vəzifəsində işlədir.

Müəllim tapşırıqların yoxlanmasını aşağıdakı kimi təşkil edə bilər:
- Seçmə yolla tapşırıqlar meyarlar əsasında yoxlanır;
- Meyarlar elektron lövhə, müəllimin hazırladığı təqdimat, yaxud lövhədən asılmaqla şagirdlərə təqdim edilir. Şagirdlər öz yazılarını yoxlayırlar və nəyicələri elan edirlər.
- Hər bir şagird yazısını parta yoldaşı ilə dəyişir, müəllimin təqdim etdiyi meyarlar əsasında yoldaşının yazısını yoxlayır və nəticələri haqqında məlumat verir.

Şagirdlərin cavabları ümumiləşdirilir, xarakterik səhvlər müəyyən edilir, növbəti dərslərdə də onları aradan qaldırmaq üçün müvafiq işlər görülür.

**2-ci addım.** Müəllim yeni mövzunun adını və üzərində işləyəcəkləri *problemi (texnologiyanın müsbət və mənfi tərəfləri)* elan edir. Dərsə giriş etmək üçün müəllim klaster, yaxud anlayışın çıxarılması üsulundan istifadə edə bilər.

**Birinci üsul**




**İkinci üsul**




Seçilən üsuldan asılı olaraq müəllim müzakirə təşkil edir, lazım gələrsə, istiqamətləndirici suallardan istifadə edir.

**3-cü addım.** *“Texnologiya çağının bəlası: tənbəllik”* mətninin I hissəsinin oxusu üzərində iş aparılır. Orfoqrafiya, orfoepiya, vurğu tapşırıqları üzərində iş müəllimin planladırdığı dərsdən asılı olaraq, oxudan əvvəl və ya oxu zamanı icra edilir. Oxu növünü sinfinin və şagirdinin səviyyəsini nəzərə almaqla müəllim özü seçə bilər.

Müəllim mətnin adı ilə bağlı da müzakirə təkil edə bilər. *“Sizcə, mətn niyə belə adlandırılmışdır?”, “Texnologiya tənbəllik yarada bilərmi?”* suallarından istifadə edilə bilər.

Oxu zamanı planlaşdırdığı dərsə uyğun olaraq müəllim müxtəlif suallardan istifadə edə bilər: *“Sizcə, nə üçün uşaq körpə yaşlarından zəhmətə, əməyə hazır olmalıdır?”, “Xeyirli işlər görmək n deməkdir?”, “Keyfiyyətli fərd nə deməkdir?”* və s.

**4-cü addım.** Mətnin sonluğunu tamamlamaq üçün şagirdlərə 10 dəq. vaxt verilir. Şagirdlərin yazıları seçmə yolla oxutdurulur və qiymətləndirilir.

**5-ci addım.** Dərsliyin 83-cü səhifəsində verilmiş kriptoqram üzərində kiçik qruplarla iş formasından istifadə etməklə iş aparılır. Tapşırığın icrasına 8-10 dəq. vaxt verilir.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 **T** | 2 **ə** | 3 **n** | 4 **b** | 2 **ə** | 5 **l** | 5 **l** | 6 **i** | 7 **k** | |
| 8 **a** | 9 **n** | 10 **c** | 8 **a** | 11 **q** | | 6 **i** | 9 **n** | 12 **s** | 8 **a** |
| 9 **n** | 13 **ı** | 9 **n** | | 14 **ö** | 15 **z** | 16 **ü** | 9 **n** | 2 **ə** | |
| 15 **z** | 6 **i** | 17 **y** | 8 **a** | 9 **n** | | 18 **v** | 19 **u** | 20 **r** | 8 **a** |
| 20 **r** | | | | | | | | | |

1. Nöqtələrin yerinə hansı söz yazılmalıdır?

| | | | | | |
|---|---|---|---|---|---|
| 7 **k** | 6 **i** | 1 **t** | 8 **a** | 4 **b** | ... bilik mənbəyidir. |

2. Əlifbanın 13-cü hərfi

| |
|---|
| 13 **I** |

3. Misranı tamamlayın.

| | | | | | |
|---|---|---|---|---|---|
| 12 **s** | 14 **ö** | 15 **z** | 16 **ü** | 9 **n** | .. də su kimi lətafəti var,<br>Hər sözü az demək daha xoş olar.<br>*(Nizami Gəncəvi)* |

4. Quşun dimdiyinə görə ərazini müəyyənləşdirən obraz

| | | | | |
|---|---|---|---|---|
| 10 **C** | 2 **ə** | 12 **s** | 19 **u** | 20 **r** |

5. 9 Noyabr ... Günüdür.

| | | | | | |
|---|---|---|---|---|---|
| 4 **b** | 8 **a** | 17 **y** | 20 **r** | 8 **a** | 11 **q** |

6. Kitab, jurnal, qəzet və s. oxuma

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 16 **ü** | 1 **t** | 8 **a** | 5 **l** | 6 **i** | 2 **ə** | **M** |

7. Bu hərflə başlayan söz Azərbaycan Respublikasına bağlı olduğumuzu bildirir.

| |
|---|
| 18 **V** |

Kriptoqramın həllindən sonra alınan atalar sözü əsasında yığcam müzakirə təşkil edilir.

**6-cı addım.** *“Tənbəllik xəstəlikdir”* mövzusunda müzakirə keçirilir. Müzakirə zamanı müəllim şagirdlərin konkret fikirlər söyləməsinə, müvafiq nümunələrdən *(atalar sözləri, hikmətli fikirlər, aforizmlər və s)* istifadə etməklə fikirlərini əsaslandırmasına diqqət yetirməlidir. Müzakirənin nəticələri mətnin məzmunu ilə əlaqələndirilir. Danışan zaman şagirdlərin tələffüzü. məntiqi vurğuya, intonasiyaya riayət etməsi də diqqətdə saxlanmalı vacib və əhəmiyyətli məsələlərdəndir.

**QEYD.** Yaxşı olar ki, müəllim 44 günlük Vətən müharibəsində texnologiyanın, texnoloji vasitələrdən istifadənin qələbənin qazanılmasnda rolu haqqında məlumat versin, yaxud şagirdlərin bununla bağlı hansı məlumata malik olmaları sual- cavab vasitəsilə müəyyənləşdirilsin.

https://www.youtube.com/watch?v=K8rJiizZPHk linkindən istifadə etmək olar.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 13 "Texnologiya çağının bəlası: tənbəllik"

**Standartlar:** 2.1.2., 2.1.3., 2.1.4., 3.1.3.

**Təlim nəticələri:**

Məntiqi vurğulu sözlərdən yerində istifadə edir.
Müzakirələrdə eşitdiyi fikirləri ümumiləşdirir.
Mətnin məzmununu danışır.
Oxusuğu mətndəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, böyük qruplar

**İş üsulu:** söz assosiasiyası, sinkveyn

**1-ci addım.** Dərs "Texnologiya çağının bəlası: tənbəllik" mətninin məzmununun yada salınması ilə başlaya bilər. Bunun üçün müxtəlif suallardan istifadə edə bilər: *""Texnologiya çağının bəlası: tənbəllik" mətnində nədən danışılır?", "Texnologiya ilə tənbəlliyin nə kimi əlaqəsi vardır?", "Tənbəllik nələrə səbəb ola bilər?", "Uşaq yaşlarından əldə edilən bacarıq və vərdişlərin onlar üçün nə kimi əhəmiyyəti vardır?"* və s.

https://www.youtube.com/watch?v=P1PP99Nsy-s ("İnternet nədir?" ) linkindən də istifadə etmək olar.

**2-ci addım.** "Texnologiya çağının bəlası: tənbəllik" mətninin II hissəsinin oxusu təşkil edilir. I abzasdan sonra "Şəkillərin müqayisəsi" tapşırığı üzərində iş aparılır. Şəkillərdə məişət əşyalarının, internet şəbəkəsinin dünəndən bu günə inkişafı öz əksini tapmışdır. Müzakirədən sonra mətnin son abzasının oxusu təşkil edilir və söz assosiasiyası üsulundan istifadə etməklə "İnternet nədir?" sualı ilə şagirdlərə müraciət olunur.

**Sinkveyn** üsulundan da istifadə etmək olar. Mövzu ilə bağlı sinkveynin tərtib edilməsi hər iki qrup tərəfindən icra edilir. Bu, qrupların öz cavablarını müqayisə etməsinə, daha düzgün qərarın verilməsinə kömək edəcəkdir.

Sinkveyn tərtib etmək üçün aşağıdakı qaydalara əməl etmək lazımdır:

- *1-ci sətirdə mövzu ilə bağlı bir sözdən ibarət isim olur;*
- *2-ci sətirdə iki sifət olmalıdır;*
- *3-cü sətirdə üç feil olmalıdır;*
- *4-cü sətirdə dörd sözdən ibarət cümlə yazılır;*
- *5-ci sətirdə fikirləri bir sözlə ümumiləşdirmək lazımdır. Bu söz isim olmalıdır.*

Hazır sinkveyn təxmini bu qaydada olmalıdır:

| İsim (1) | sifət (2) | Feil (3) | cümlə (4 sözdən ibarət) | ümumiləşdirici söz (1) |
|---|---|---|---|---|
| şəbəkə | qlobal nəhəng | birləşdirir təmin edir qoşur | nəhəng ümumdünya elektron şəbəkəsidir. | internet |

**3-cü addım.** Qrupların cavabları yoxlanır və onlara növbəti tapşırıq verilir və "*Sizcə, internetin olmaması internet asılılığı olan insanlar üçün hansı problemləri yarada bilər?*", "*Ümumiyyətlə, internetin olmaması problem yarada bilərmi? Fikrinizi necə əsaslandırarsınız?*" sualları üzərində iş aparılır.

Sualların yazılı şəkildə böyük qruplarla iş formasından istifadə eməklə cavablandırılması da mümkündür. Bunun üçün şagirdlərə aşağıdakı cədvəlləri təqdim etmək olar.

Cədvəl 1

| Problem sualı: | Yaranacaq problemlər | Əsaslandırma |
|---|---|---|
| ***İnternetin olmaması internet asılılığı olan insanlar üçün hansı problemləri yarada bilər?*** | 1.<br>2.<br>3.<br>4.<br>5. | |

Cədvəl 2

| Problem sualı: | Yaranacaq problemlər | Əsaslandırma |
|---|---|---|
| İnternetin olmaması hansı problemlər yarada bilər? | 1.<br>2.<br>3. | |

Tapşırığın icrası üçün 10-15 dəqiqə yetərlidir.

**4-cü addım.** Qrupların cavabları müzakirə edilir. Verilən istiqamətləndirici və yardımçı suallar, müzakirənin nəticələnməsi qrupların cavablarından asılıdır.

85-ci səhifədəki 1-4-cü tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar qruplar arasında aşağıdakı kimi bölünə bilər:

- 1 və 4-cü tapşırıqlar I qrupa;
- 2 və 3-cü tapşırıqlar II qrupa verilir.

Tapşırıqların icrası üçün 10-12 dəqiqə yetərlidir.

**5-ci addım.** Cavablar yoxlanır və 6-cı tapşırıq üzərində iş aparılır. Mətnin əsas ideyası müəyyən edilir.

**6-cı addım.** 5-ci tapşırıq üzərində iş aparılır. Tapşırıq müəllimin seçimi əsasında kollektiv, yaxud böyük qruplarla iş formasından istifadə edilməklə aparıla bilər.

Mətn oxunur, ağ çərçivədə (səh.86) verilmiş tapşırıqlar üzərində iş aparılır.

**Müəllim üçün qeyd**

Mobil telefondan normadan çox istifadə etmək bir çox xəstəliklərin yaranmasına səbəb ola bilər. Onun qısamüddətli və uzunmüddətli zərərləri olur.

**Qisamüddətli zərərləri (24 saat):**

- danışıq əsnasında sıxılma
- stress və yorğunluq
- konsentrasiya və diqqətin pozulması
- qulaq cingildəməsi və qulaqlarda istiləşmə
- baş ağrıları və başgicəllənmə

**Uzunmüddətli zərərləri (10 il):**
•genetik quruluşun pozulması
•ağ qan hüceyrəsi (leykoz) xərçəngi
• qan-beyin baryerinin zədələnməsi
• ürək narahatlıqları
• yaddaş zəifləməsi və beyin şişi riski
• embrion inkişafının zərər çəkməsi
• qan hüceyrələrinin pozulması
• immun sisteminin pozulması
• yüksək təzyiq

Deməli, mobil telefon faydalı olmaqla bərabər, böyük xəstəliklərə də yol açır. Lakin bundan qismən də olsa, qorunmanın yolları vardır. Qorunmanın yolları ilə bağlı şagirdlərə sual verilir. Mövzu ilə bağlı ümumiləmələr aparılır və yekunlaşdırılır.

7-ci addım. Evə 7-ci tapşırıq verilir.
Sorğunun keçirilməsi üçün iki böyük qrup yaradılır. Hər qrupa bir mövzu təqdim edilir. Mövzular dərsliyin 87-ci səhifəsində verilmişdir. Mövzular qruplar arasında püşkatma yolu ilə də müəyyən edilə bilər.
Sorğunun keçirilməsi üçün dərslikdə plan, suallara nümunə, suallar əsasında diaqram hazırlanması və nəticənin təqdimi üçün sxem və cədvəllər verilmişdir.

8-ci addım. Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 14 "Texnologiya çağının bəlası: tənbəllik"

**Standartlar:** 2.1.3., 3.1.1., 4.1.1.

**Təlim nəticələri:**
Müxtəlif fikirləri ümumiləşdirir.
Sözlərin zərflik olduğunu bilir.
Topladığı məlumatları ümumiləşdirir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sorğu-sual

1-ci addım. Dərs ev tapşırıqlarının yoxlanması ilə başlayır. Əvvəlcə 7-ci tapşırıq yoxlanır.
**7-ci tapşırıq:**
1 c *( Əmək sevincdir, tənbəllik isə ağır bəla)*
2 d *(Tənbəllik bütün eyiblərin anasıdır)*

3 a *(İşləmək çörək, tənbəllik qıtlıq gətirər)*
4 e *(Cəhd eyləyən var qazanar, tənbəl isə kasıb qalar)*
5 b *(Tənbələ iş buyur, o sənə nağıl danışsın)*

Şagirdlərin cavabları dinlənilir, sonra onlara:

- *Hansı atalar sözləri daha şox xoşunuza gəldi? Nə üçün?*
- *Hansı atalar sözünün şəklini çəkmək olar? Əgər sizə belə bir tapşırıq verilsə, onu necə təqdim edərdiniz? Hansı fiqur və ya simvollardan istifadə edərdiniz?* sualları ilə müraciət edilir və yığcam müzakirə təşkil edilir.

Daha sonra qrupların sorğunun keçirilməsi ilə bağlı hazırladıqları təqdimat dinlənir, təhlillər aparılır. Müzakirələr zamanı qrupların bir-birlərini qiymətləndirməsi və rəy bildirməsi məqsədəmüvafiqdir. Bu, şagirdlərdə rəy bildirmə, yoldaşını dinləmə və onu qiymətləndirmə, əməkdaşlıq etmə, ətraflı müzakirələr aparma və s. bacarıqların formalamasına yardım edəcəkdir.

**2-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 8-12-ci tapşırıqlar üzərində iş aparılır.

8-ci tapşırıqda əvvəlkilərdən fərqlidir. Burada söz özü verilməmiş, izahlara əsasən onları müəyyənləşdirmək tapşırılmışdır.

1-ci izahda *tənbəllik etmək;* 2-ci izahda *tənbəl*; 3-cü izahda *tənbəllik* olmalıdır.

10-cu tapşırıq nisbətən mürəkkəb tapşırıqdır. Nümunə əsasında - *böyül-iri-kiçik (sinonim, antonim)* – digər sxemlər tamamlanır. Şagirdlər sxemləri tamamlamaq üçün, ilk növbədə, birinci sxemi şərh etməli, sözlərin sinonim və antonimini müəyyən etməli olduqlarını bilməlidirlər.

11-ci tapşırığı hazırlamaq üçün şagirdlərə Azərbaycan dilinin izahlı lüğəti təqdim edilə bilər. Bu onlarda lüğətlə işləmək vərdişlərinin formalaşmasına yardım edəcəkdir.

12-ci tapşırığın modeli ilə şagirdlər aşağı siniflərdən tanışdırlar. Şəklə əsasən söz – **internet** müəyyən edilir və tapşırığın şərti ardıcıllıqla yerinə yetirilir.

Tapşırıqların cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

**3-cü addım.** 13-cü tapşırıq zərfliyin öyrədilməsi üçün motivasiya xarakterlidir. Tapşırıq kollektivlə icra edilir. Daha sonra 14-cü tapşırıq icra edilir.

**4-cü addım.** Müəllim zərflik, onun cümlədə rolu haqqında məlumat verir, izahlarını nümunələrlə əsaslandırır. Yaxşı olar ki, şagirdlərin təyin və tərzi-hərəkət zərfliyini fərqləndirməsi üçün nümunələr də verilsin, şagirdlər müvafiq sözlərə əlaqədə olduğu sözdən asılı olaraq suallar verməklə müqayisə aparır, sözlərin sintaktik vəzifəsini müəyyən edirlər.

Məsələn:
**Yaxşı** əməl unudulmur.
O, **yaxşı** danışdı.

Şagirdlərə *““Yaxşı” sözü hansı suala cavab verir?”, “Bu sözlər arasında fərq varmı?”, “Fərq özünü nədə göstərir?”* və s. sualları verilir.

Şagirdlər *yaxşı* sözünün aid olduğu sözdən asılı olaraq sintaktik səhətdən fərqləndiyini müəyyən edirlər.

**5-ci addım.** 15-ci tapşırıq şifahi şəkildə, 16-cı tapşırıq fərdi qaydada icra edilir.

**6-cı addım.** 17-ci tapırıq evə verilir. Tapşırığı icra etmək üçün dərslikdə şagirdlərə plan və təlimat verilmişdir.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 15 Şəhidlər unudulmur

**Standartlar:** 1.1.2., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Faktlar əsasında ümumiləşmə aparılır.
Müxtəlif fikirləri ümumiləşdirir.
Oxuduqlarına münasibət bildirir.
Topladığı məlumat və faktlara münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə

Bu dərs təkcə 20 Yanvar deyil, bütün şəhidlərə həsr olunmalı, *“Şəhid kimdir?”, “Şəhidlik zirvəsinə ucalmaq nə deməkdir?”, “Hansı şəhidləri tanıyırsınız?”* və s. sualları üzərində iş aparılır.

Dərs müəllimin seçimi əsasında müxtəlif yanaşmalardan istifadə etməklə qurula bilər:

- Mövzu ilə bağlı hər hansı bir kinofilmin, yaxud sənədli filmin baxışın və daha sonra müzakirəsinin təşkili ilə;
- 20 Yanvar hadisələri və şəhidləri haqqında müzakirə təşkil etməklə;
- Dərsliyin 92-93-cü səhifəsində verilmiş mətnlər üzərində iş təşkil etməklə;
- Şəhidlər xiyabanını ziyarət edib dərsi orada qurmaqla;
- Hərbi Qənimətlər parkını ziyarət edib dərsi orada qurmaqla;
- Şəhid ailələri ilə görüş təşkil edib müzakirələr təşkil etməklə və s.

Bəxtiyar Vahabzadənin “ŞƏHİDLƏR” poemasından dinləmə mətni kimi istifadə etmək olar. https://www.youtube.com/watch?v=ekz_4DphmLo linkindən istifadə etməklə səsli dinləmək mümkündür.

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər...

O şənbə gecəsi, o qətl günü, –
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü Şəhidlər...

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi Şəhidlər...

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi Şəhidlər...

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu Ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi Şəhidlər...

Dözdü hər zillətə, dözdü hər şeyə,
“Dünyada mənim də haqqım var”, – deyə
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi Şəhidlər...

İnsan insan olur öz hünəriylə.
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.

**QEYD.** Müəllim öz seçimi əsasında başqa şeirlərdən də istifadə edə bilər.

- Dərsin qurulmasında müxtəlif formalardan istifadə edə bilər.

Dərslikdə verilmiş mətnlər üzərində iş aparılarsa, aşağıdakı ardıcıllıqdan istifadə etmək olar.

**1-ci addım.** Diqqət mövzunun adına yönəldilir, şagirdlərə *""Şəhidlər unudulmur" dedikdə nə başa düşürsünüz?"* sualı ilə müraciət edilir. Şagirdlərin cavabları dinlənilir, lövhədə qeyd olunur.

**2-ci addım.** 92-ci səhifədə Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Elzamin Təhməzov haqqındakı mətn oxunur. Mətn oxunmamışdan əvvəl şagirdlərə Elzamin Təhməzov haqqında nə bildikləri soruşulur.

**3-cü addım.** Mətn əsasında verilmiş suallar üzərində iş aparılır. Müəllim əlavə suallar da verə bilər.

**4-cü addım.** "Şəhid anası" şeirinin oxusu təşkil edilir. Oxu zamanı intonasiya və onun tələbləri, düzgün tələffüz diqqətdə saxlanır.

**5-ci addım.** Mətnlərin müqayisəsi, əsas ideyanın müəyyənləşdirilməsi üçün müzakirələr təşkil edilir. Vətən müharibəsində qazanılan qələbə haqqında müəllim şagirdlərin bildiklərini öyrənir. Fikirlər ümumiləşdirilir və nəticə çıxarılır. 20 Yanvar hadisələrinin xatırladılması, bu faciənin 2020-ci ildə tarixi qələbəmizinn qazanılmasında ilk addım olduğunu, torpaqlarımızın işğal edilməsinə qarşı etiraz əlaməti olaraq 1988-ci ildən başlayaraq milli azadlıq hərəkatınınn başlanması, bu yolda canını fəda edən, şəhidlik zirvəsinə ucalan oğullarımızın xatırlanması mütləqdir.

**6-cı addım.** Evə "Şəhidlər unudulmur" mövzusunda təqdimat hazırlamaq tapşırılır. İstəyən şagirdlər inşa, yaxud esse yaza bilər, klip, divar qəzeti, bülleten və s. hazırlaya bilər.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 16 Kiçik summativ qiymətləndirmə

**Kitab böyük hikmətdir**

Fateh babasının ona danışdığı nağıllarnan böyümüşdü. Amma bir hekayə onun yatdaşında dərin iz buraxmışdı. Bu hekayədə bir xəzinədən bəhs edilirdi. Xəzinəni tapmaq o qədər də asan olmayacaqdı. O, maraqlı bir yol izləməli idi: ____________

Fateh uzun-uzadı düşünmədən dəfinəni axtarmaq qərarına gəldi. Üç il yaxşılıq etdi: xeyli ağac əkdi, yaşıllıq saldı, paltarsız uşaqları geyindirdi, xəsdələrə qulluq etdi, qocalara köməklik etdi. Hər kəs tərəfindən sevildi, hər kəs tərəfindən hörmətlə qarşılandı.

Otuz doqquz yaxşılıq edən Fateh qırxıncı yaxşılığı etməli idi. Amma bu, fərqli bir yaxşılıq olmalı idi. Gedib-gələn insanlardan yaxşılıq barədə soruşdu, lakin yeni fikir qazana bilmədi. O, çox məyus oldu. Yolun kənarındakı daşın üstündə oturub fikrə daldı. Birdən yaşlı bir kişinin ona tərəf gəldiyini gördü. Onun belində ağır bir kisə vardı.

– Ay oğul, mənə kömək edərsənmi? – deyə qoca Fatehə müraciət etdi.

— Gəlirəm, baba.

— Oğul, orada oturub nə fikirləşirdin?

Fateh olanları və düşüncələrini qocaya anlatdı.

Qoca gülümsündü:

— Əgər sabaha qədər mənimlə qalsan, sənə kömək edərəm.

Fateh təklifi sevinclə qəbul etdi. Onlar dolu kisəni də götürüb kəndə yollandılar. Ev-ev gəzib kisədəki bağlamaları bir-bir qapılara qoydular. **Sonuncu bağlamanı axırıncı qapıya qoyan kimi Fateh dedi:**

— Bağlamalardakı nə idi, baba?

— Kitablar. Bax bu evdə yaşayan insan qəlbiqaradır. Ona görə də ona xeyirxahlıqla bağlı kitab verdim. O evdə namərd bir adam yaşayır, ona mərdliklə bağlı kitab verdim. İnsanları yaxşılıq yoluna gətirmək də yaxşılıqdır. Sən artıq istədiyin xəzinəyə çata bilərsən. Al bu açarı, qarşıdakı daxmada qızıllla dolu sandıq səni gözləyir. Ancaq səndən bir xahişim var: bir ildən sonra burada görüşək.

Fateh daxmaya tərəf getdi, qızılla dolu sandığı tapdı. **Arzularını, istəklərini həyata keçirdi, varlandı.** Lakin o hiss edirdi ki, xoşbəxt ola bilmir.

Bir il keçdi. Fateh şərtləşdikləri kimi, qoca ilə görüşəcəyi yerə gəldi.

— Nə oldu, oğlum, xoşbəxtsənmi?- deyə qoca soruşdu.

— Əslində, xeyr. İstədiklərimi əldə etsəm də, özümü xoşbəxt hiss edə bilmirəm.

...

1. Mətnə əsasən cədvəli tamamlayın.

| Giriş hissədə danışılır: | Əsas hissədə danışılır: | Nəticə hissədə danışılır: |
|---|---|---|
| •<br>• | •<br>• | •<br>• |

2. Mətnlə bağlı fikirlərdən hansı səhvdir?
   A) Mətn, əsasən, dialoqlardan ibarətdir.
   B) Mətnin dili sadədir.
   C) Mətndə terminlərdən istifadə olunmuşdur.
   D) Nəqli cümlələrdən daha çox istifadə olunmuşdur.
   E) Sual cümləları də vardır.

3. Cədvəli tamamlayın.

| Mətnin adı | Mətn niyə belə adlandırılmışdır? | Mənim təklif etdiyim ad | Təklifimin səbəbi |
|---|---|---|---|
| | | | |

4. Mətndə xətt çəkilmiş yerdə hansı cümlə olsa, ardıcıllıq düzgün olar?
   A) Xeyli kitab oxumalı idi.
   **B) Qırx canlıya qırx yaxşılıq etməli idi.**
   C) Planlı hərəkət etməli idi.
   D) Oxuduğu kitabları paylamalı idi.
   E) Dostlarının sayını artırmalı idi.

**5.** Mətnə əsasən Fatehi və qocanı xarakterizə edin.

Qoca — ... / ...

Fateh — ... / ...

**6.** Mətn vasitəsilə çatdırılan əsas fikri müəyyən edin.

**7.** Nəticəyə əsasən səbəbləri yazın.

| Səbəb | Nəticə |
|---|---|
| | Fateh əsil xəzinənin nə olduğunu başa düşür. |
| | |
| | |

**8.** Sxemi tamamlayın.




**9.** Hansı sözlər səhv yazılmışdır?
1. 1-ci abzasın 1-ci cümləsində
2. 1-ci abzasın 2-ci cümləsində
3. 2-ci abzasın 2-ci cümləsində

**10.** Sözlərin düzgün tələffüzünü yazın.

hörmətlə – [...] insanlar – [...] yaxşılıq – [...]

**11.** Sözlərin vurğusu hansı hecadadır?
*sevinclə, xoşbəxt, kitablar, gəlirəm*

**12.** Cümlələrdəki işarələnmiş sözləri hansı ifadələrlə əvəz etsəniz, məzmun dəyişməz?
- Fateh **uzun-uzadı** (______) düşünmədən dəfinəni axtarmaq qərarına gəldi.
- **Hər kəs** (______) tərəfindən sevildi.
- O, çox **məyus oldu** (______).

**13.** Tünd şriftlə verilmiş cümlələrdə hansı sözlər bir-birini əvəz edə bilər?

**14.** İfadələri bur sözlə əvəz edin.

*fikrə dalmaq* — ?

*məyus olmaq* — ?

**15.** Uyğunluğu müəyyən edin.

1. Xəzinə — a. sözündə, işində etibarlı
2. Hikmət — b. qiymətli şeylər saxlanılan yer
3. Mərdlik — c. müdrik söz

**16.** *Gedib-gələn insanlardan yaxşılıq barədə soruşdu, lakin yeni fikir qazana bilmədi* cümləsində hansı sözü dəyişsəniz, fikir daha dəqiq olar? Həmin ifadəni seçib yazın.

| Verilmişdir | Olmalıdır |
|---|---|
| ... | ... |

**17.** Mətndə çərçivəyə alınmış sözlərdən əvvəl və sonra vergülün işlənmə səbəbini yazın və cümlələri tamamlayın.

*Ay oğul* sözündən sonra vergül qoyulmuşdur,
*Baba* sözündən əvvəl vergül qoyulmuşdur, → çünki ....
*Oğlum* sözü hər iki tərəfdən vergüllə ayrılmışdır,

**18.** *Fateh təklifi sevinclə qəbul etdi* cümləsində işlənmiş sözlərin hansı cümlə üzvü olduğunu yazın.

Fateh ____________ təklifi ____________________

sevinclə ______________ qəbul etdi _________________

**19.** Cümlələrdə ***o*** əvəzliyindən sonra vergülün düzgün işlənib-işlənmədiyini deyin və fikrinizi əsaslandırın.

*O, maraqlı bir yol izləməli idi.*
*O evdə namərd bir adam yaşayır.*

- 1-ci cümlədə vergül işarəsi düzgün qoyulub/qoyulmayıb, çünki ...
- 2-ci cümlədə vergül işarəsi düzgün qoyulub/qoyulmayıb, çünki ...

**20.** Verilmiş cümlələrdən istifadə etməklə mətni tamamlayın.

- Qocanın Fatehə məsləhəti
- Fatehin bu vaxta qədər etdiklərini xatırlaması
- Fatehin qocaya təşəkkür etməsi

**QEYD.** Müəllim aşağıda verilmiş sonluğa əsasən fərqli plan da tərtib edə bilər.

**Müəllimlərin nəzərinə.**
Mətnin sonluğu belədir:

*Qoca gülümsünərək dedi:*

*– Keçən ilə qədər etdiklərini yadına sal! Etdiyin axşılıqları xatırla! Ağlayan üzlər güldükdə, köməksiz insanların ehtiyaclarını qarşılayanda qəlbində yaranan duyğular, səncə, nə idi?*

*Fateh həyəcanla: – Xatırlayıram, – dedi. Etdiyim hər yaxşılıqdan sonra özümü xoşbəxt hiss edirdim.*

*– Babanın dediyi xəzinənin mənası da bu deyilmi? İnsan yaxşılıq edəndə xoşbəxt olur, ətrafdakılara faydan toxunanda bəxtiyar olursan!*

*Fateh dedi:*

*– Siz mənə həqiqi xəzinənin yerini göstərdiniz. Xoşbəxt olmağın yolunu göstərdiniz!*

Mətnin sonluğunu şagirdlərə olduğu kimi təqdim etməyə ehtiyac yoxdur. Qoy şagirdlər xəyal güclərini işə salıb, sonluğu tamamlasınlar. Bu yazılar şagirdlərin xarakterini, fikirlərini, düşüncə tərzini, yaradıcılıq qabiliyyətini üzə çıxarmaqda müəllimə yardımçı olacaqdır.

Lazım gələrsə, psixoloqun köməyindən istifadə etmək olar.

Şagirdlərin yazılarının nəticələri növbəti dərsdə onlara deyilməli və münasibət bildirilməlidir.

Mətnin sonluğunu qiymətləndirmək üçün aşağıdakı meyarlardan istifadə etmək olar:

- Abzaslararası əlaqəni gözləyir.
- Əsas hissə ilə nəticə hissəni əlaqələndirə bilir.
- Nəticə hissəyə yaradıcı yanaşır.
- Nəticə hissə məzmunlu və yığcamdır.
- Az sözlə böyük fikir ifadə edə bilir.
- Sözlərdən yerində və düzgün istifadə edir.
- Cümlələr sadədir.
- Fikirlər aydındır.
- Durğu iaşrələrindən düzgün istifadə edir.
- Dialoqlarda durğu işarələrindən düzgün istifadə edir.
- Əsas fikri çatdırmaq üçün məntiqi vurğulu sözləri düzgün seçir.
- Saitləri düzgün yazır.
- Samitləri düzgün yazır.

# 17 Bölmənin yekunu

**Standartlar:** 2.1.3., 4.1.1., 4.1.2.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Fakt və məlumatlara münasibət bildirir.
Müzakirələr əsasında mətn tərtib edir (təqdimat hazırlayır).

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** müzakirə, beyin həmləsi, klaster

**1-ci addım.** Müəllim şagirdlərə II bölmə ilə bağlı fikrirlərin ümumiləşdirilməsini, ümumiləşdirmə əsasında təqdimat *(sinif və şagirdin səviyyəsi nəzərə alınmaqla digər təqdimetmə forması da seçmək olar)* hazırlamasını bildirir. İş formasının seçilməsi şagirdlərlə birlikdə müzakirə olunur. Bölmədə öyrənənləri yada salmaq və şagirdləri istiqamətləndirmək üçün müəllim yardımçı suallardan istfadə edə bilər:

- *II bölmədə hansı mövzualr üzərində iş aparıldı?*
- *Bölmədən öyrənilənlər sizə nə öyrətdi?*

- *Kitabın insan həyatında rolu nədir?*
- *Texnologiyaların insan həyatında rolu nədir?*
- *Kitabların ziyanı ola bilərmi?*
- *Texnologiyaların fayda və zərərləri haqqında nə öyrəndiniz?*
- *Bilik əldə etmək üçün nə lazımdır? və s.*

**2-ci addım.** Təqdimat hazırlamaq üçün şagirdlərə mövzular təqdim edilir:
- *“Kitab hikmət xəzinəsidir”*
- *“Necə və nəyi oxumalı”*
- *“Kitab mənəviyyatı zənginləşdirir”*
- *“Texnoloji vasitələrin insan həyatında rolu”*
- *“Kitab və texnologiya”*
- *“Qələbənin qazanılmasında texnoloji vasitələrin rolu” və s.*

**QEYD.** Bu adlar nümunədir. Müəllim mövzu təqdim etməkdə sərbəstdir. Mövzular şagirdlərlə birlikdə də seçilə bilər. Təqdimatların sayı müəllimin seçdiyi iş formasından, yaxud qrupların sayından asılıdır.

**3-cü addım.** Şagirdlərə sxemi tamamlamaq və şərh etmək tapşırılır. Sxemi tamamlamaq üçün şagirdlərə plan təqdim edilir:
- *Mətnlərdə nədən danışıldığını xatırlayın.*
- *Mətnlərin məzmunu üçün ümumi olanı müəyyən edin.*
- *Mətnlərin ideyası üçün ümumi olanı müəyyən edin.*




**4-cü addım.** Təqdimatları hazırlamaq üçün dərsliyin ... səhifəsində verilmiş plandan istifadə etmək tövsiyə edilir. Təqdimatın 3-5 slayddan ibarət olması məqsədəmüvafiqdir.

**5-ci addım.** Qruplar tapşırıq üzərində işləyirlər və onu təqdim edirlər.

**6-cı addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

*III bölmə*

# MİLLİ-MƏNƏVİ *dünyamız*

1. LAYİHƏ: “MULTİKULTURAL DƏYƏRLƏR”
2. ARAŞDIRMA
3. TOLERANTLIĞIN ÜNVANI AZƏRBAYCAN
4. İSKƏNDƏRİN ŞİMAL SƏFƏRİ
5. BAYATI-İSFAHAN
6. QARDAŞLAR
7. BAYRAM AXŞAMI

# 1 Multikultural dəyərlər

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi fikirlərə münasibət bildirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Oxuduqlarına münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, klaster, sual-cavab

**1-ci addım.** Müəllim şagirdlərin diqqətini bölmənin adına *(“Milli-mənəvi dünyamız”)* yönəldir. Daha sonra suallarla *“Sizcə, milli-mənəvi dünyamız dedikdə hansı amillər nəzərdə tutulur?”, “Mənəvi zənginlik, milli adət-ənənə, milli sərvət dedikdə nə başa düşürsünüz?”, “Sizcə, insan bu milli-mənəvi dünyasını necə zənginləşdirə bilər?”* müraciət edir. Şagirdlərin cavabları dinlənilir. Səslənən fikirlərə arqumentlərin gətirilməsi daha məqsədəuyğundur.

**2-ci addım.** Daha sonra şagirdlərə bölmədəki “Layihə”yənin başlığına münasibət bildirmək tapşırılır. Müəllim klaster üsulundan istifadə edərək lövhədə “Multikultural dəyərlər” ifadəsini yazır. Şagirdlər bu ifadənin mənasına aid düşündükləri, bildikləri sözləri səsləndirirlər. Səslənən fikirlər lövhədə qeyd edilir.

**3-cü addım.** Müəllim dərslikdə verilmiş Ümummilli lider Heydər Əliyevin kəlamına şagirdlərin diqqətini yönəldir. Şagirdlərə suallarla *“Sizcə, Ulu öndər nə üçün Azərbaycanı bütün millətlərin vətəni adlandırır?”, “Onun Azərbaycanı ümumi vətən adlandırmaqda məqsədi nə idi?”* müraciət edir. Daha sonra *“Ümumi evimiz- Azərbaycan”* və *“Azərbaycan ailəsi”* ifadələrinin nə kəsb etdiyini müəllim şagirdlərdən soruşur. Şagirdlərin cavabları əsaslandırılmış olmalı, yeri gəldikdə faktlar da səsləndiriməlidir.

**4-cü addım.** Dərslikdə verilmiş (səh.97) Azərbaycan Respublikasının Konstitusiyasından maddə 25 və maddə 44 oxunur. Oxunduqdan sonra şagirdlərin əvvəlcə səsləndirdikləri fikirlər, cümlələr əlaqələndirilir. *“Sizcə, niyə Konstitusiyamızda bu maddələr öz əksini tapmışdır?”* sualı müzakirə olunur. Şagirdlərin cavabları dinlənilir və ümumiləşdirilir.

**5-ci addım.** Müəllim daha sonra “Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu” mövzusunda müzakirə təşkil edə bilər. Müzakirə Vətən müharibəsində birlik və həmrəylik nümayiş etdirərək “Dəmir yumruq” kimi birləşən müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək işğala son qoyduğu, müdrik xalqımızın həmişə dövlətçiliyimizi, milli birliyimizi, milli ruhumuzu, vətənpərvərlik hisslərimizi qoruyub saxladığı və bu amillərin sonda bizi ali məqsədimiz olan şanlı qələbəmizə gətirib çıxardığı nəticəsinə gətirilməlidir.

**6-cı addım.** Dərslikdə verilmiş "*Azərbaycanı tolerant ölkə kimi necə tanıdardınız?*" sualı şagirdlərə yönəlir. Bu sualın cavablandırılması və "Multikultralizm və tolerantlıq" başlıqlı araşdırmanın ev tapşırığı kimi verilməsi məqsədəuyğundur. Araşdırma cütlərlə və ya qrup işi şəklində verilə bilər. Şagirdlər qruplar yaradaraq araşdırmanın istiqamətini, vəzifə bölgüsünü aparmaqda sərbəstdirlər.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 2 Multikulturalizm və tolerantlıq

**Standartlar:** 2.1.3., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.
Oxuduqlarına münasibət bildirir.
Topladığı fakt və məlumatlara münasibətini bildirir.

**İş forması:** kiçik qruplarla, kollektiv

**İş üsulu:** müzakirə, sual-cavab, təqdimat

**1-ci addım.** Müəllim dərsə ev tapşırığının müzakirəsi ilə başlaya bilər. Şagirdlərin kiçik qruplara bölünərək topladıqları məlumatlar əsasında təqdimat hazırlamaları və təqdim etmələri tapşırılmalıdır.

**2-ci addım.** Qruplara təqdimatın hazırlanması üçün müəllimin plan verməsi məqsədəuyğundur. Planı şagirdlərlə birlikdə hazırlamaq da olar.

Plana nümunə:

**Plan:**
1. İlk növbədə mövzunu adlandırın.
2. Topladığınız məlumatları məzmun baxımından başlıqlara ayırın.
3. Ayırdığınız başlıqların məlumatlarını təqdimat üçün yerləşdirin.
4. Təqdimatınızın maraqlı və zəngin olması üçün fotolardan, şəkillərdən istifadə edin.

**3-cü addım.** Müəllim təqdimatların hazırlanması və təqdim edilməsi üçün vaxtı şagirdlərə elan etməli və prosesə nəzarət etməlidir. Qrupların təqdimatları dinləndikdən sonra qiymətləndirmə qrup işinin meyarlarına uyğun aparıla bilər.

**4-cü addım.** Daha sonra müəllim şagirdlərin diqqətini dərslikdəki şəklə (səh.98) yönəldərək *"Sizcə, abidə niyə belə hazırlanmışdır?", "Abidə vasitəsilə bizə hansı fikir çatdırılır?", "Abidənin hazırlanmasında hansı elementlərdən istifadə olunub?", "Bu elementlər nəyi simvolizə edir?", "Siz hansı elementləri əlavə edərdiniz?"* kimi suallarla müraciət edir. Şagirdlərin fikirləri dinlənilir.

**5-ci addım.** Şagirdlərə dərslikdə verilmiş (səh. 98) araşdırma sualları da təqdim olunur və cavablar dinlənilir.

*Multikulturalizm dedikdə nə başa düşürsünüz? Tolerantlıq nədir? Ayrı-ayrı mədəniyyətlərin bir-birini inkar etməməsi nə deməkdir? Müxtəlif xalqların vahid cəmiyyətdə birgəyaşayış və həmrəyliyini necə izah edərsiniz? Ölkəmizdə insanların qarşılıqlı anlaşma şəraitində yaşayışını, mədəniyyətə, adət-ənənələrə qarşılıqlı hörmətini, tolerantlığını necə qiymətləndirirsiniz?*

Daha sonra (səh.99) tapşırıq 1 yerinə yetirilir. Şagirdlər bu tapşırığı kiçik qruplarda da həyata keçirə bilərlər.




**6-cı addım.** Müəllim şagirdlərin hazırladığı təqdimatların, müzakirə zamanı səslənən fikirlərin ümumiləşməsini aparmaq üçün Dəyirmi masa təşkil etməlidir. Dəyirmi masanın təşkili və hansı məsələlərin diqqətdə saxlanılması üçün dərslikdə (səd.99) istiqamət verilmişdir. Şagirdlər istiqamətdən istifadə edərək Mövqe, Əsaslandırma, Faktlar və Nəticə xanalarındakı ifadələrdən yararlana bilərlər.

**7-ci addım.** Daha sonra müəllim "Multikulturalizm humanist dəyərlərə sevgidir" mövzusunda mətn tərtib etməyi ev tapşırığı kimi verə bilər. Mətnin tərtib olunması üçün dərslikdə plan verilmişdir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 3 Tolerantlığın ünvanı Azərbaycan

**Standartlar:** 2.1.4., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Mətnin hissələri arasında əlaqələri yaradır.
Mətndəki fikirlərə münasibət bildirir.
Topladığı fakt və məlumatlara münasibətini bildirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, səsli oxu, sual-cavab, Venn diaqramı

**1-ci addım.** Müəllim ev tapşırığının yoxlanılması ilə dərsə başlamalıdır. Ev tapşırığı seçmə yolla həyata keçirilə, müzakirə oluna və ümumiləşdirilə bilər. Sonra müəllim şagirdlərin diqqətini dərslikdəki (səh. 100) şəklə yönəldərək aşağıdakı suallarla müraciət edir:

*Şəkildə nə təsvir olunmuşdur?*
*Sizcə, şəkil vaitəsilə bizə hansı fikir çatdırılır?*
*Fərqli olmaq cəmiyyətdən təcrid olunmaqdırmı?*
*Fərqli düşünmək, fərqli anlayışa malik olmaq, fərqli inanca, fərqli adət-ənənələrə sahib olmaq insanları bir-birindən uzaqlaşdırırmı, yoxsa cəmiyyəti gözəlləşdirir? (Məs: Ağacların müxtəlifliyi ilə meşənin mənzərəsinin gözəlləşməsi kimi)*
Şagirdlərin fikirləri dinlənilir.

**2-ci addım.** Daha sonra dərslikdə verilmiş Ulu öndər Heydər Əliyevin tolerantlıq haqqında dediyi hikmətli kəlam oxunur və müzakirə edilir. Tolerantlığın nə olduğu aydınlaşdırılmış olur.

**3-cü addım.** Səhifə 101-də verilmiş mətnin oxusu təşkil edilir. Oxudan əvvəl mətnin adına münasibət bildirilir. Oxu zamanı orfoepiya qaydalarına düzgün əməl olunması şagirdlərin diqqətinə çatdırılır. Birinci abzasın oxusundan sonra dərslikdə verilmiş şəkil müzakirə edilir və oxunan abzasla əlaqələndirilərək əsaslandırılır.

**4-cü addım.** Mətnin oxusundan sonra Ulu öndərin kəlamı ilə mətnin məzmununun əlaqələndirilməsi şagirdlərə tapşırılır. Şagirdlərin oxudan əvvəl səsləndirdikləri fikirlərlə oxudan sonrakı fikirlər müqayisə edilir. Tolerantlıq və multikulturalizm haqqında hansı düşüncələrinin dəyişdiyi müzakirə olunur.

**5-ci addım.** Səhifə 102-də verilmiş kiçik mətn oxunur və şəkil üzərində iş aparılır. Şagirdlərin fikirləri dinlənilir. Səslənən fikirlər əsaslandırılmış olmalıdır. Daha sonra səhifə 103-də verilmiş tapşırıqların (1, 2, 3, 4, 5, 6) yerinə yetirilməsi şagirdlərə tapşırılır. 1, 2 və 5-ci tapşırıqlar şifahi, 3, 4 və 6-cı tapşırıqların yazılı olaraq reallaşdırılması məqsədəuyğundur. Bu tapşırıqlar fərdi və cütlərlə də həyata keçirilə bilər.

**6-cı addım.** Tapşırıqların müzakirəsi təşkil edilir və səhvlər üzərində iş aparılır.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 4 Tolerantlığın ünvanı Azərbaycan

**Standartlar:** 1.1.1., 3.1.1., 3.1.3.

**Təlim nəticələri:**
Dinlədiyi mətndə məntiqi ardıcıllığını müəyyənləşdirir.
Söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.
Mətndəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sual-cavab, klaster

**1-ci addım.** Müəllim dərsə dərslikdə verilmiş (səh.104) QR koddan istifadə edərək video süjeti şagirdlərə təqdim etməklə başlayır. Video süjet izlənildikdən sonra müəllim şagirdlərə “*Hansı bayram və ya festifalı bəyəndiniz?”, “Nə üçün?”, “Hansı bayramı bəyənmədiniz?”, “Nə üçün?”, “Hansı bayramı yaşadığınız yerdə keçirmək istərdiniz?”, “Sizcə, buna münasibət necə olardı?”* suallarla müraciət edir. Şagirdlərin cavabları dinlənilir. Cavablar əsaslandırılmış olmalıdır.

**2-ci addım.** Daha sonra səhifə 104-də verilmiş 8-ci tapşırıq yerinə yetirilir. Bu tapşırıq kollektiv şəkildə həyata keçirilə bilər. Tapşırığın şərti oxunduqdan sonra suallar şifahi olaraq cavablandırılır və ilk fikri verilmiş sxemi klaster üsulundan istifadə edərək lövhədə həll etmək lazımdır. Şagirdlərin cavabları lövhədə qeyd olunur və ümumiləşdirilir.




**3-cü addım.** Müəllim *şagirdlərə ““Dözümlülük – müdriklərə xas olan xüsusiyyətdir” ifadəsini necə başa düşürsünüz?”, “Sizcə, çoxlu və fərqli mədəniyyətlərin cəmləşdiyi bir ölkədə milli-mənəvi dəyərlərin tolerant dəyərlərin yaranmasına birbaşa təsiri vardırmı?”* sualları ilə müraciət edir. Cavablar əsaslandırılmış olmalıdır. Fikirlər dinlənilir və ümumiləşdirilir.

**4-cü addım.** Sonra müəllim dərslikdəki 9, 10, 11, 12, 13, 14-cü tapşırıqların yerinə yetirilməsini şagirdlərə tapşırır. Tapşırıqlar cütlərlə və ya fərdi şəkildə reallaşdırıla bilər. 10, 12 və 14-cü tapşırıqlar yazılı olaraq da yerinə yetirilə bilər. 10, 11, 13-cü tapşırıqların yerinə yetirilməsi zamanı izahlı lüğətdən istifadə olunmalıdır.

**5-ci addım.** Tapşırıqların müzakirəsi təşkil olunur və səhvlər üzərində iş aparılır.

**6-cı addım.** Müəllim ev tapşırığı olaraq tolerant dəyərləri əks etdirən “Mən və digəri” başlıqlı esse yazmağı tapşıra bilər.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 5 Tolerantlığın ünvanı Azərbaycan

**Standartlar:** 1.1.2., 2.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.
Müxtəlif mövqeli fikirləri ümumiləşdirərək təqdim edir.
Seçdiyi nümunələrlə yazısını zənginləşdirir.

**İş forması:** kollektiv, kiçik qruplarla, fərdi

**İş üsulu:** müzakirə, söz assosiasiyası, sual-cavab

**1-ci addım.** Müəllim dərsə ev tapşırığının seçmə yolla yolanılması ilə başlaya bilər. Ev tapşırıqları müzakirə olunur və ümumiləşdirilir. Müəllim lövhədə "birlik", "bərabərlik", "vətənpərvərlik" kimi ifadələri yazır. Şagirdlərdən bu sözlərin nə ifadə etdiyini soruşur. Səslənən fikirlər bu sözlərin ətrafında qeyd olunur.

**2-ci addım.** Daha sonra müəllim dinləmə mətninin oxusunu təşkil edir. Mətni müəllim özü və ya seçdiyi şagirdlərdən biri səsləndirə bilər. Oxu zamanı düzgün oxu qaydalarına əməl olunmalı və intonasiyaya diqqət yetirilməlidir.

Müəllim aşağıdakı linkdən də istifadə edə bilər.

*Linkdəki videonu dinləyin. Videodakı dialoq haqqında fikirlərinizi söyləyin. Siz suallara necə cavab verərdiniz? Niyə?*

https://femida.az/en/news/79772/yehudi-esilli-milli-qehremanimiz-albert-aqarunov-video

***Dinləmə mətni:***

*Birinci və İkinci Qarabağ müharibələrində azərbaycanlılarla yanaşı, əsrlər boyu birgə dostluq və qardaşlıq şəraitində yaşayan digər xalqların da nümayəndələri qəhrəmanlıqla döyüşüblər. Həmin qəhrəmanlardan biri də yəhudi xalqının nümayəndəsi, adı dillərdə əzbər olan Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovdur.*

*Tank komandiri Albert Aqarunoviç Aqarunov 25 aprel 1969-cu il Bakı şəhərində anadan olub. Suraxanı rayonundakı 154 saylı məktəbin 8-ci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik peşəsinə yiyələnib. 1987-ci ildə hərbi xidmətə çağırılan Albert, xidməti vəzifəsini Gürcüstanda yerinə yetirir və tank komandiri olur. Daha sonra Bakıya dönərək Suraxanıda Maşınqayırma zavodunda işləyir. Qarabağ müharibəsi başlayarkən, 1992-ci ildə Albert Aqarunov könüllü olaraq cəbhəyə gedir. Albert tank komandiri təyin edilir və Şuşa cəbhəsinə yollanır. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edir. O, mürəkkəb olan "T-72" tanklarını idarə edirdi. Albert öz əsgər yoldaşlarına da bu tankdan istifadə üsullarını öyrədirdi. Özünəməxsus metoddan istifadə edərək bir top mərmisi ilə iki texnikanı darmadağın edirdi. Yoldaşları onun bu metoduna "yəhudi buterbrodu" deyirdilər. Şuşaya hücum edilən vaxt, 9 tank, 7 BMP və bir çox texnikanı məhv etdi. Ermənilər onun başına pul mükafatı qoymuşdu-*

*lar. Albertin sonuncu döyüşü 8 may 1992-cu ildə Şuşa uğrunda oldu. O gün Azərbaycan tərəfi çox sayda yaralı və şəhid verir. Albert mövqeyini dəyişərkən öz tankının düz önündə qalmış şəhid əsgər yoldaşlarının cəsədini kənara çəkmək üçün hərbi maşından çıxır. Əvvəlcə tankı düzgün istiqamətə yönəltməsi üçün mexanikinə göstəriş verir. Daha sonra öldürülmüş şəhidlərə tərəf qaçır və cəsədləri kənara çəkən zaman erməni snayperinin gülləsinə tuş gəlir.*

*Birinci Qarabağ müharibəsində Şuşa uğrunda döyüşlərdə canından keçərək şəhidlik zirvəsinə ucalan Albert Aqarunovun xatirəsini Azərbaycan xalqı hər zaman əziz tutur, onun adını əbədiləşdirir.*

**3-cü addım.** Oxu bitdikdən sonra müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edə bilər:

*1. Video və ya səslənən mətn sizdə hansı hisslər yaratdı?*

*2. Sizcə, fərqli dinə, mədəniyyətə, adət-ənənələrə mənsub olaraq yaşadığın torpağı sevmək, onu qorumaq, Vətənin uğrunda savaşmaq, canından keçmək üçün maneə yaradırmı?*

*3. Mətnə əsasən Albert Aqarunovun hansı üç xüsusiyyətini sadalayardınız?*




*4. Sizcə, mətndə əsas fikir nədir?*

*5. Multikultural dəyərlər mətndə əks olunubmu? Bunlar hansılardır?*

**4-cü addım.** Daha sonra müəllim “Tolerantlığın ünvanı Azərbaycan” mətninin bu mətnlə əlaqəsini, oxşar cəhətlərini və fərqliliyini şagirdlərlə müzakirə edir. Şagirdlərin fikirləri dinlənilir. Səslənən fikirlər əsaslandırılmalı və lazım gəldikdə mətndən fikri təsdiq edən cümlə fakt olaraq göstərilməlidir.

**5-ci addım.** Şagirdlərə dərslikdə verilmiş (səh.106) tapşırıqların yerinə yetirilməsi tapşırılır. 15, 16, 17, 18 nömrəli tapşırıqlar yazılı şəkildə həyata keçirilir. Bu tapşırıqlar fərdi iş formasından istifadə edərək reallaşdırılır.

**6-cı addım.** Sonra həll olunmuş tapşırıqların müzakirəsi həyata keçirilir, səhvlər üzərində iş aparılır.

**7-ci addım.** Səhifə 107-də 19-cu tapşırıq üzərində iş aparılır. Tapşırığın icrası üçün müəllim şagirdlərə istiqamət verir. Dərslikdəki plan və təqdimat da şagirdlərin diqqətinə çatdırılır. İnşanın həcmi 25-30 sözdən ibarət olsa, yetərlidir.

Müəllim bu tapşırığı qrup şəklində də icra etdirə bilər. Vatman, A3, yaxud A4 kağızları şagirdlərə paylanılır. Şagirdlər şəkil əsasında mətni tərtib edirlər.

Əgər sinifdə tamamlanmazsa, tamamlamaq üçün evə verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 5 İskəndərin şimal səfəri

**Standartlar:** 2.1.3., 2.1.4., 3.1.3.

**Təlim nəticələri:**

Fərqli fikirləri ümumiləşdirərək təqdim edir.
Mətnin hissələri arasında əlaqələri gözləməklə danışır.
Mətndəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** beyin həmləsi, müzakirə, praqnozlaşdırılmış oxu

**1-ci addım.** Müəllim şagirdlərə dərslikdə (səh.108) verilmiş şəklə baxmağı tapşırır. Sonra şəkil haqqında fikirlərini söyləmələrini, şəkil üzərində verilmiş kiçik məlumata münasibət bildirmələrini istəyir. Fikirlər dinlənildikdən sonra müəllim aşağıdakı misraları oxumağa başlayır:

*...Bir şəhər gördülər onlar uzaqdan.*
*Gəlib darvazaya çatdı İsgəndər,*
*Gördü ki, qapıdan yoxdur bir əsər.*
*Müdrik qocalarla girdi şəhərə,*
*Baş vurdu onlarla burda bir yerə,*
*Gördü çox bəzəkli, dolu dükanlar,*
*Ancaq nə qapısı, nə qıfılı var.*
*Nəcib şəhər əhli onu görəntək*
*Gətirdilər qəsrə bir mehman kimi,*
*Süfrə bəzədilər, büsat qurdular,*
*Özləri xidmətdə hazır durdular.*
*Əhsən qonaqsevən bu insanlara!*

**2-ci addım.** Misralar oxunduqdan sonra müəllim şagirdlərə *"Sizcə, İsgəndəri təəccübləndirən hadisələrə şəhər ağsaqqaları necə cavab verəcək?", "Sizcə, qapıların, mağazaların qapıları niyə açıq idi?"* sualları ilə müraciət edir. Şagirdlər öz fikirlərini bildirirlər. Lakin fikirlər hələ müzakirə olunmur.

**3-cü addım.** Daha sonra müəllim İskəndəri maraqlandıran suallar olan bəndi şagirdlərə oxudur və dərslikdə verilmiş sualın *("Sizcə, ağsaqqallar nə cavab verəcək?")* müzakirəsi təşkil olunur. Şagirdlərin fikirləri dinlənilir.

**4-cü addım.** Şeirin tam oxusu təşkil olunur. Oxu zamanı düzgün oxu qaydalarına əməl olunmalı və intonasiyaya diqqət yetirilməlidir. Tam oxudan sonra əvvəl səslənən fikirlər müzakirə olunur və üst-üstə düşən cavablar ümumiləşdirilir. Daha sonra səhifə 109-da verilmiş şəkillə şeirin məzmunu arasındakı uyğunsuzluq müəyyən edilir.

**Cavab:** Məzmunda ağsaqqaldan danışılır, lakin şəkildə cavanlar verilmişdir.

**5-ci addım.** Şeirin sonunda verilmiş pazlların ardıcıl düzülərək İskəndərin söylədiyi fikrin tapılması şagirdlərə tapşırılır.

**Cavab:**
*Arifsən əgər,*
*Qoy, sənə bir ibrət olsun bu sirlər.*

Sonra səhifə 110-111-də verilmiş 2 ,3, 4, 6 və 12-ci tapşırıqlar yerinə yetirilir. Bu tapşırıqlar kollekriv şəkildə həyata keçirilə bilər. Cavablandırılmış tapşırıqlar müzakirə edilir və səhvlər üzərində iş aparılır.

**6-cı addım.** Müəllim evə (səh. 113) 25-ci tapşırığı verə bilər. Tapşırıqdakı mövzu seçimi sərbəstdir və tapşırığın reallaşdırılması üçün dərslikdə təlimat verilmişdir.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 7 İskəndərin şimal səfəri

**Standartlar:** 2.1.3., 3.1.2., 4.1.1.

**Təlim nəticələri:**
Fərqli fikirləri ümumiləşdirərək təqdim edir.
Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.
Topladığı fakt və məlumatlara münasibətini bildirir.

**İş forması:** kollektiv, kiçik qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, təqdimat

**1-ci addım.** Müəllim ev tapşırığının seçmə yolla yoxlanılmasını təşkil edir. Yoxlanılan ev tapşırıqları müzakirə edilir və ümumiləşdirilir. Daha sonra müəllim 11-ci tapşırığın kollektiv şəkildə həyata keçirilməsini şagirdlərə tapşırır. Şagirdlər mətn üçün açar sözlər seçməli və fikirlərini əsaslandırmalıdırlar.

**2-ci addım.** Müəllim kiçik qruplar təşkil etməli və təqdimatın hazırlanması üçün şagirdləri məlumatlandırmalıdır. Qruplar dərslikdə verilmiş 1, 5, 7, 8 və 9-cu tapşırıqları yerinə yetirməlidirlər. Tapşırıqlar təqdimat şəklində hazırlanmalı və təqdim edilməlidir.

**3-cü addım.** Təqdimatlar dinlənildikdən sonra ümumiləşdirilmə aparılmalı və qrupar meyarlara uyğun qiymətləndirilməlidirlər.

*Qrup işinin qiymətləndirilməsinə nümunə:*

| Qrup / Meyar | I | II | III | IV |
|---|---|---|---|---|
| Məsuliyyət bölüşdürülür | | | | |
| Tapşırıqlar yerinə yetirilir | | | | |
| Fikirlər əsaslandırılır | | | | |
| Vaxtdan səmərəli istifadə olunur | | | | |

**4-cü addım.** Daha sonra müəllim səhifə 111-də verilmiş 10-cu tapşırığın həyata keçirilməsi üçün müzakirə təşkil edir. Şagirdlər natamam cümləni mətndən çıxardıqları nəticəyə uyğun cavablandırırlar. Cavablar əsaslandırılmış olmalıdır.

**5-ci addım.** Səhifə 113-də 26-cı ev tapşırığı olaraq verilir.

**6-cı addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 8 İskəndərin şimal səfəri

**Standartlar:** 2.1.3., 2.1.1., 4.1.3.

**Təlim nəticələri:**

Fərqli fikirləri ümumiləşdirərək təqdim edir.
Söz birləşmələrini qrammatik normalara uyğun tələffüz edir.
Həmcins üzvləri tanıyır.

**İş forması:** kollektiv, fərdi

**İş üsulu:** müzakirə, yazı

**1-ci addım.** Müəllim dərsə ev tapşırığının təhlili ilə başlaya bilər. Ev tapşırığı yoxlanılır, müzakirə edilir və qiymətləndirilir. Daha sonra müəllim şagirdləri "İsgəndərin şimal səfəri" mətninin ideyasından yararlanaraq "Düzlük, birlik və bərabərlik insanları xoşbəxtliyə aparan yoldur" başlıqlı müzakirəyə cəlb edir. Müzakirə zamanı səslənən fikirlər mətndəki sətirlərə istinad edilərək əsaslandırılmalıdır.

**2-ci addım.** Müzakirə bitdikdən sonra müəllim dərslikdəki (səh.112) 13, 14, 15, 16, 17, 18, 19, 20 və 21-ci tapşırıqların yerinə yetirilməsini şagirdlərə tapşırır. Bu tapşırıqlar həm şifahi, həm də yazılı şəkildə həyata keçirilə bilər. Yerinə yetirilmiş tapşırıqlar təhlil edilir və səhvlər üzərində iş aparılır.

**3-cü addım.** Daha sonra müəllim həmcins üzvlər haqqında şagirdləri məlumatlandırır. Həmcins üzvlərə aid dərslikdəki qayda müzakirə olunur. Müəllim əlavə olaraq da həmcins üzvlər haqqında məlumat verə, uyğun mətn üzərində iş apara bilər.

### HƏMCİNS ÜZVLƏR

Cümlədə eyni suala cavab verib, eyni cümlə üzvü olan sözlərə **həmcins üzvlər** deyilir. Həmcins üzvlər arasında vergül işarəsindən istifadə olunur. *Məsələn:*

İsmayıllı havası, meşələri və bulaqları ilə məşhurdur.

Sualı: *nə ilə?* Cümlə üzvü: *tamamlıq*

Odlar içində də yanıb qaralmaz
Məhəbbət, sədaqət, həqiqət, kamal. *(S.Vurğun)*

Sualı: *nə?* Cümlə üzvü: *mübtəda*

Nümunələrdən göründüyü kimi, həmcins üzvlər eyni suala cavab verib, eyni cümlə üzvü olur. Bütün cümlə üzvləri həmcins ola bilər.

**4-cü addım.** Qayda izah olunduqdan sonra dərslikdəki (səh. 113) 22, 23, 24 və 27-ci tapşırıqlar fərdi şəkildə həyata keçirilir. Tapşırıqlar müzakirə olunur və mənimsənilməsi çətin olduğu halda bir daha izah edilir. Şagirdlər tapşırıqların həllinə əsasən də qiymətləndirilə bilərlər.

**5-ci addım.** Müəllim üç dərs boyu “İskəndərin şimal səfəri” mövzusu ətrafında aparılan müzakirələrdə səslənən fikirlərin ümumiləşdirilməsini apararaq Nizami Gəncəvi poeziyasında multikulturalizm, tolerantlıq, birlik, bərabərlik, inam, etibar və s. kimi dəyərlərin yüksək səviyyədə yer alması, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrinin olması nəticəsinə gəlindi.

**6-cı addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 9 Kiçik summativ qiymətləndirmə

Qiymətləndirməni müəllim müxtəlif yanaşmalardan istifadə etməklə təşkil edə bilər.
- İfadə yazdırmaqla;
- Mövzuya uyğun şəkil üzərində inşa, yaxud esse yazdırmaqla;
- Müəyyən bir ideya təqdim edib həmin ideya əsasında yığcam hekayə tərtib etməklə.
- Hər hansı bir mətn üzərində suallar tərtib etməklə;

İlk üç üsul seçilərsə, şagirdə plan təqdim edilməli, qiymətləndirmə üçün müvafiq meyarlar tərtib edilməli və şagirdlər meyarlarla tanış edilməlidir.

Qiymətləndirmə meyarları seçilən standartlara və əvvəlki illərdə qazanılan biliklərə əsasən tərtib edilməlidir.

***1. İfadə yazının planı seçilən mətn əsasında şagirdlərlə birlikdə tərtib edilməlidir.***

Müəllim ifadə yazıları yoxladıqdan sonra müəyyən etdiyi səhvləri qruplaşdırır:
- Orfoqrafik səhvlər
- Durğu işarələri səhvi
- Üslub səhvləri

İlk növbədə, yazıların müsbət tərəfləri sadalanır. Daha sonra ifadə yazılarda buraxılmış səhvlər şagirdlərin diqqətinə çatdırılır, müzakirələr aparılır.

İfadə yazının aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi məqsədəmüvafiqdir:

**1.** Sözdə saitləri düzgün yazır.
1.1. e və ə hərflərini
1.2. u və ü hərflərini
1.3. a və o hərflərini

**2.** Sözdə samitləri düzgün yazır:
2.1. x və h hərflərini
2.2. söz ortasında q, ğ, x hərflərini
2.3. söz sonunda q və k hərflərini
2.4 söz sonunda k və y hərflərini

**3.** Cümlə sonunda durğu işarələrindən düzgün istifadə edir.
3.1. Dialoqlarda qoşa nöqtədən istifadə edir.
3.2. Dialoqlarda tire işarəsindən istifadə edir.
3.3. Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir.
3.4. vergül işarəsindən mqamına uyğun istifadə edir.

**4.** Mətnin məzmununu yazır.
4.1. Hadisələrin ardıcıllığına riayət edir.
4.2. Abzaslar arasında əlaqəni qurur.
4.3. Mətnin tərkib hissələrini əlaqələndirir.
4.4. Mövzuya yaradıcı yanaşır.
4.5. Yazıda cümlələr məna və qrammatik cəhətdən əlaqələnir.

**5.** Sözləri əlaqələndirmək üçün şəkilçilərdən düzgün istifadə edir.

6. Sözlərin mənasını bilir, onlardan düzgün və yerində istifadə edir.

7. İsimlərin yazılış qaydalarına əməl edir.

8. Sifətlərin yazılış qaydalarına əməl edir.

9. Sayların yazılış qaydalarına əməl edir.

10. Feillərin yazılış qaydalarına əməl edir.

11. Köməkçi nitq hissələrinin yazılış qaydalarına əməl edir.

***2. İnşa, yaxud esse yazı növü seçilərsə, yuxarıdakı meyarlardan istifadə edilə bilər. plan şagirdlərin özləri tərəfindən hazırlanır.***

İnşanın (essenin) həcmi müəllim tərəfindən müəyyənləşdirilir. Bu səhifə, yaxud söz sayı ola bilər. Məsələn: 1, 5 səhifə sayı, yaxud 80-100 söz

**QEYD.** Həcm müəyyənləşdirilərkən sinfin və şagirdlərin səviyyəsi nəzərə alınmalıdır.

***3. Şəkil üzərində iş təşkil edilərsə, şagirdlərə iş vərəqlərində bölmədə tədris olunan mətnlərin məzmununa uyğun rəsm işi, yaxud foto, plan və həcm təqdim edilir.***

Aşağıdakı şəkillərdən istifadə olunan bilər *(Müəllim mövzuya yaxın fərqli şəkillər də seçə bilər. Eyni şəklin bütün sinfə paylanması məqsədəmüvafiq hesab edilmir).*





Şagirdlərə aşağıdakı plan təqdim edilə bilər.

**Plan.**

1. Şəkildə nə təsvir edimişdir?
2. Şəkil hansı mövzuya həsr olunmuşdur?
3. Şəkil vasitəsilə hansı fikir təqdim olunur?
4. Fikri təqdim etmək üçün hansı elementlərdən istifadə edilmişdir? Niyə məhz həmin elementlər?
5. Şəklə münasibətiniz?

Həcm: 1 səhifə, yaxud 70-90 söz
İfadə yazıya verilən meyarlardan istifadə etmək olar.

***4. Hekayə yazmağı şagirdlər aşağı siniflərdən bilirlər. Eynu qaydada onlara plan, hekayə vasitəsilə müəyyən ediləcək ideya verilir.***

Məsələn;

**İdeya:** *Güc birlikdədir.*

# 10 Bayatı-İsfahan

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.3., 4.1.1.

**Təlim nəticələri:**

Mətndəki faktlara münasibət bildirir.
Dinlədiyinə münasibət bildirir.
Yoldaşlarının fikirlərini ümumiləşdirir.
Mətndəki fikirləri təhlil edir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** səssiz oxu, qeydlər götürməklə oxu, müzakirə

**1-ci addım.** Müəllim dərsə müxtəlf yanaşmalardan istifadə etməklə başlaya bilər:

✓ *"Muğam nədir?", "Muğam barədə hansı məlumata maliksiniz?", "Muğam dinləmisinizmi?"* sualları ilə şagirdlərə müraciət etməklə;

✓ *"Sizcə, Bayatı-İsfahan" mətnində nədən danışılacaq?"* sualı ilə şagirdlərə müraciət edib onalrın fərziyyələrini dinləməklə *(bu, yazılı şəkildə də mümkündür);*

✓ Dinləmə mətnindən istifadə etməklə;




*"İsfahan şəhərinin tarixi uzaq keçmişə, yəni yonma daş dövrünə gedib çıxır. Qədimdə İsfahan Sasani imperiyasının mərkəzi şəhərlərindən biri hesab edilirdi. XI yüzilliyin ortalarında, Səlcuk-türk imperatorluğu dövründə də İsfahan mərkəzi şəhər kimi qorunub saxlanırdı.*

*Alp Arslanın oğlu Məlik şah İsfahanı daha da abadlaşdırmışdı. Tarixin sonrakı çağlarında İsfahan şəhəri monqolların və Teymurilərin hücumlarına məruz qalmışdı.Səfəvilər dövründə şəhər I Şah Abbas tərəfindən yenidən paytaxt elan edilmişdir. Nizaminin "Xosrov və Şirin" poemasında bu muğamın adı çəkilir.*

*İsfahan şəhərində Dərviş Həsən adlı bir kişi varmış ki qədim dərvişlər kimi çox vaxt səfərdə olarmış. Teztez də Şiraza gedər, tez də İsfahana qayıdarmış. Dərviş Həsən, Şiraz şəhərində İsfahan muğamından bir avazı mükəmməl öyrənir. Vaxt olur ki, yenə İsfahana qayıdır və bu avazı öyrəndiyi kimi oxuyur. Dərviş Həsənin ifası camaat tərəfindən rəğbətlə qarşılanır. O gündən bəri bu ifaya "Bayatı Dərviş Həsən" deyirlər. 1786-cı ildə, Tehran İranın paytaxtı olandan sonar İsfahan musiqiçiləri Tehrana köçdülər və orada "Bayatı Dərviş Həsən" adını qəbul etmədiklərindən "Bayatı Dərviş Həsən" muğamının adını "Bayatı-İsfahan"a dəyişdirdilər". Onu da əlavə edək ki, Dərviş Həsən Bayat türklərinin bir qolu olan Qacarlar sülaləsi dövründə yaşamış tanınmış bir musiqiçiydi. Elə bu baxımdan da ona el arasında "Bayatı Dərviş Həsən" deyərmişlər.*

*"Bayatı-Şirazın ilkin adı barədə"*

*Məşədi Məlik Mansurovun (1845-1909) qeydləri əsasında Ruslan Tağıyev*

✓ Dərsliyin 114-cü səhifəsində Ü.Hacıbəyli və S.Vurğunun muğamala bağlı aforzmlərinin müqayisəsini təşkil etməklə.

Seçilən üsullardan asılı olaraq şagirdlərə müvafiq suallar verilir və müzakirə təşkil edilir. Dərsin növbəti mərhələlərinin müəyyənləşdirilməsi də seçilən üsuldan asılıdır.

**2-ci addım.** Mətnin oxusu təşkil edilir. Oxunun növünü seçməkdə müəllim sərbəstdir. Rollar üzrə oxu, yaxud səssiz oxu ilə qeydlər götürməklə oxu modellərindən istifadə etmək olar.

Şagirdlər müəllimin verdiyi vaxt ərzində mətni səssiz oxuyur, oxuduqları mətndə əhəmiyyətli hesab etdikləri məqamları qeyd edirlər. Oxu bitdikdən sonra şagirdlərin qeydləri müzakirə olunur, yeri gəldikcə müəllim *"Niyə bu abzas (cümlə, ifadə) ilə bağlı qeydləriniz vardır?", "Diqqətinizi çəkən nə idi?", "Qeyd sizdə hansı təəssürat yaratdı?"* suallarından istifadə edir.

Orfoqrafiya, orfoepiya və vurğu ilə bağlı tapşırıqlar müəllimin planlaşdırdığı dərsdən asılı olaraq oxudan əvvəl və ya sonra icra edilir.

**3-cü addım.** Dərsliyin 116-cı səhifəsində verilmiş tapşırıqlar üzərində iş aparılır.

"Bayatı-İsfahan" muğamını şagirdlərə (https://www.youtube.com/watch?v=b2m_1F7e_NA ) dinlətdirib *"Musiqini dinləyərkən hansı hissləri keçirdiniz?"* sualı ilə müraciət edilir. Şagirdlərin hisslərini yazılı şəkildə ifadə etməsi onların yazılı nitqini və musiqi dilini anlama səviyyəsini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Tapşırığın icrası üçün 10 dəq. yetərlidir. Bir neçə şagirdə yazıları oxutdurulur, sinfin və müəllimin münasibəti bildirilir.

Yazıların hamısının bir dərsdə oxunması mümkün olmadığı üçün müəllim onları toplamalı, yoxlamalı, müvafiq qeydlərlə növbəti dərsdə şagirdlərə təqdim etməlidir.

**4-cü addım.** Daha sonra Bəxtiyar Vahabzadənin muğamla bağlı misraları oxudulur, müzakirə təşkil edilir. Müzakirəni davam etdirərək "Azərbaycanda muğam sənətinin inkişafı, muğam ustalarının yetişdirilməsi, dünyada Azərbaycan muğamına münasibətlə bağlı şagirdlərin malik olduqları məlumatla bağlı sorğu-sual keçirilir.

**5-ci addım.** 1-5-ci tapşırıqlar üzərində iş aparılır.

- 1-ci tapşırıq kollektiv iş formasından istifadə edilməklə yerinə yetirilir. Müzakirə zamanı şagirdlərin fikirləri müxtəlif ola bilər. Müəllim müzakirələrin nəticəsi olaraq şagirdlərdə *"Musiqi yalnız əyləncə deyil, həm də xəyalları coşduran, fikirlərə qanad verən, insanın qəlbini fəth edən incəsənətin bir növüdür. Musiqi vasitəsilə bəşəri hisslər, böyük ideyaları tərənnüm edilir"* fikrinin formalaşmasına çalışmalıdır.
- Mətni diqqətlə oxuyan şagird 2-ci tapşırığın cavabını tapmaqda çətinlik çəkməyəcəkdir. 3 və 5 cavabdır. Tapşırıq kollektiv iş formasından istifadə edilməklə yerinə yetirilir.
- 3-cü tapşırıq cütlərlə iş formasından istifadə edilməklə icra edilir. Cütlərdən biri cədvəlin 1-ci qrafasını, digəri 2-ci xanasını tamamlayır. Bütün sinif tapşırığın icrasına cəlb edilir. Tapşırığı icra etmək üçün şagirdlər təkrar mətnlə işləməlidirlər. 10 dəq. kifayətdir.
- 4 və 5-ci tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə yerinə yetirilir. 4-cü tapşırığın cavabı B bəndidir.
- 6-10-cu tapşırıqlar üzərində iş aparılır. 7,8 və 10-cu tapşırıqlar kollektiv, 6-cı tapşırıq cütlərlə, 9-cu tapşrıq fərdi iş formasından istiadə etməklə icra edilməsi tövsiyə edilir.

Planlaşdırılan dərsdən asılı olaraq 9-cu tapşırıq evə də verilə bilər.

**6-cı addım.** Şagirdlərin imkan və bacarıqları nəzərə alınmaqla müxtəlif tapşırıqlar verilə bilər:
- "Bayatı-İsfahan" mətnində multikultural dəyərlər" mövzusunda mətn hazırlamaq:
- "Bayatı-İsfahan" mətninə illüstrasiya çəkmək *(bacarığı olan varsa)*
- "Azərbaycan muğamları" mövzusunda təqdimat hazırlamaq (22-ci tapşrıq)

Tapşırıqların cütlər, yaxud qruplarla icrası daha məqsədəuyğun hesab edilir.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 11 Bayatı-İsfahan

**Standartlar:** 2.1.1., 2.1.4, 4.1.3.

**Təlim nəticələri:**

Cümlələri düzgün tələffüz edir.
Mətnin məzmununu danışır.
Durğu işarələrindən düzgün istifadə edir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, yazı

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Tapşırıqların yoxlanmasına və dəyərləndirilməsinə 15 dəq. sərf etmək tövsiyə edilir.

Qiymətləndirmə meyarlarını hazırlamaqda müəllim sərbəstdir.

**2-ci addım.** Şagirdlər "Bayatı-İsfahan" mətninin məzmunu şagirdlər tərəfindən nəql edilir. Mətnin tərkib hissələrinə görə təqdim edilməsi məqsədəmüvafiqdir. Yəni giriş hissə bir, əsas və nəticə hissələr ardıcıl olaraq müəllimin seçimi əsasında digər şagirdlər tərəfindən nəql edilsin.

Şagirdlər məzmunu danışarkən müəllim tərkib hissələrin arasında əlaqələrin izlənilməsinə diqqət yetirməlidir.

Məzmunun yada salınması üçün müəllim mətn əsasında suallardan da istifadə edə bilər.

Müəllim aşağıdakı yanaşmadan da istifadə eə bilər:

Mətnlə bağlı fakt, yaxud hadisələri səsləndirir, şagirdlərdən bunun mətnin hansı tərkib hissəsinə aid olduğunu soruşur.

Məs; *"Mətnin hansı tərkib hissəsində "Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının adı çəkilir?", "Muğamın Azərbaycan xalqına məxsus olduğu mətnin hansı tərkib hissəsində məlum olur?" və s.*

**3-cü addım.** Dinləmə mətni səsləndirilir *(Ehtiyac yaranarsa,müəllim mətni ki dəfə də səsləndirə bilər.).*

**Bayatı-Şiraz**

*Mirzə Kazım bəy öz xatirələrində yazır ki, atam mənə qəribə bir əhvalatlar danışmışdı:*

*Keçmiş zamanlarda (XVIII əsrdə) Almaniyadan İohann adlı dir tacir ticarət məqsədilə Qubaya gəlmişdi. O, kənd-kənd gəzər, gözəl xalçaları seçib alar, Almaniyaya göndərərdi. İohann Azərbaycan xalçaları kimi Azərbaycan musiqisini də çox sevirdi. Elə şənlik , toy olmazdı ki, İohann orada iştirak etməsin, musiqiyə qulaq asmasın.*

*Qubada Gəray adlı bir oğlan yaşayırdı. O, gözəl tütək çalarmış. Onun çaldığı havalar İohannı valeh edərmiş. Bir gün İohann Gərayı özü ilə Almaniyaya aparır.*

*Gəray Almaniyanı şəhərbəşəhər gəzir, öz tütəyi ilə almanları heyrətə salırmış. Məclislərin birində Gəraya bir alman bəstəkarı qulaq asır. Gəray çaldıqca o nə isə yazırmış. Sən demə, alman bəstəkarı "Bayatı-Şiraz"ı yazıya alırmış.*

*Sonralar İohann danışıb ki, indi Almaniyada da heç bir məclis "Bayatı-Şiraz"sız keçmir. Onu hər yerdə çalırlar: toyda da, yasda da. Hətta Almaniyanın ən yüksək məclislərində də "Bayatı-Şiraz" səslənir.*

*6-cı tapşrığın cavabı:* İstəyir ki, Gərayın tütəkdə çaldığı musiqinin sehrli səsini almanlar da eşitsin.

Mətni dinlədikdən sonra şagirdlər dərsliyin 118-119-cu səhifələrindəki tapşırıqları (8 tapşırıq) icra edirlər. Tapşırıqların cavabları müxtəlif üsullarla yoxlana bilər:

- ✓ Müəllim cavabları səsləndirir, şagirdlər yoxlayır.
- ✓ Şagirdlər növbə ilə bir testin cavabını oxuyur, müəllim düz, yaxud səhv olduğunu bildirmədən digərlərinə *“Kim hansı cavabı yazıb?”* sualı ilə müraciət edir. Ümumi mənzərə haqqında təsəvvürü olduqdan sonra cavabın düz, yaxud səhv olduğunu bildirir.
- ✓ Məllim tapşırıqları yığır, yoxlayır, növbəti dərsdə nəticələrini elan edir.

**4-cü addım.** 9-cu tapşırığı icra etmək üçün müəllim şagirdlərə “Mədəniyyət haqqında” Azərbaycan Respubliksaının Qanununu oxudur. Şagirdlər Qanunu diqqətlə oxuyurlar. Sonra şagirdlərə *“Sizcə, “Bayatı-Şiraz” mətnində “Mədəniyyət haqqında” Azərbaycan Respubliksaının Qanununun hansı maddədi pozulmuşdur?*” sualı ilə müraciət edilir.

42.2 və 43.0.4 maddələrinin tələbləri pozulmuş hesab edilir.

**5-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 11-15-ci tapşırıqlar üzərində iş aparılır.Tapşırıqlar şifahi şəkildə icra edilir.

**6-cı addım.** 17, 18,19, 20 nömrəli tapşırıqlar icra edilir. Tapşırıqların yazılı , yaxud şifahi şəkildə icrası müəllimin planlaşdırdığı dərsdən asılıdır.

**7-ci addım.** 16 və 21-ci tapşırıqlar evə verilir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 12 Bayatı-İsfahan

**Standartlar:** 3.1.3. 4.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Fikirlərə münasibət bildirir.
Durğu iaşrələrindən düzgün istifadə edir.
Protokol yazır.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, klaster, yazı

**1-ci addım.** Müəllim dərsə əməli yazılar haqqında ümumi məlumat verməklə giriş edə bilər. Əvvəlki illərdə şagirdlərin öyrəndikləri əməli yazılarla bağlı (*ərizə, tərcümeyi-hal, izahat, xasiyyətnamə və s.)* onlara müvafiq suallarla müraciət edə bilər.

Klaster üsulundan istifadə etməklə əməli yazılar haqqında hansı məlumatlara malik olduqları soruşula bilər.

Şagirdlərin fikirləri ümumiləşdirilir, onlara yeni məlumat verilir: “Əməli yazının növlərindən biri də protokoldur. Biz bu dərsdə protokol, onan verilən tələblər, istifadə məqamları ilə bağlı məlumat alacağıq” və s.




**2-ci addım.** Şagirdlərə situativ tapşırıq verilir: *“Təsəvvür edin ki, siz müəyyən məsələ ilə bağlı sinif iclası keçirmisiniz. İclasda gedən söhbətlər, müzakirələr, çıxışlar, iclasda alınan qərarlar barədə məlumatı necə və hansı üsullarla təqdim edə bilərsiniz?. İslasın həqiqətən keçirildiyini necə sübut edə bilərsiniz?”*

Şagirdlərin cavabları dinlənilir, mövzuya daha yaxın cavablar lövhədə qeyd olunan bilər.

Daha sonra şagirdlərə sualla müraciət edilə bilər: *“Protokolun nə olduğunu bilirsinizmi?”, “Bu sözü eşitmisinizmi?”* və s.

**3-cü addım.** Dərsliyin 122-ci səhifədə yuxarıda ağ çərçivədə verilmiş yığcam mətn oxunur. Yığcam müzakirə təşkil edilir və fikirlər ümumiləşdirilir.

**4-cü addım.** *Protokol* sözünün ifadə etdiyi məna və protokola verilən tələblər şagirdlərə oxudulur, ehtiyac yaranarsa, izahat verilir. Şagirdlər dərsliyin 123-cü səhifəsində verilmiş protokol nümunəsi ilə tanış edilirlər.

**5-ci addım.** Kiçik qruplar yaradılır. Qruplara protokol hazırlamaq tapşırılır. Protokolun mövzusunu müəyyən etmək qruplara həvalə edilir. Tapşırığın icrası üçün 15 dəq. yetərlidir.

**6-cı addım.** Qrupların tapşırıqları yoxlanır və qiymətləndirmə aparılır.

# 11 Qardaşlar

**Standartlar:** 1.1.2., 2.1.1., 3.1.3.

**Təlim nəticələri:**

Söz birləşmələri və cümlələri düzgün tələffüz edir.
Videosüjetdə gördüklərinə münasibət bildirir.
Oxuduğu mətndəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** proqnozlaşdırılmış oxu, müzakirə

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlayır. Yoxlama zamanı daha çox şagirdin prosesə cəlb edilməsinə və fikirlərini əsaslandırılmasına diqqət yetirilməlidir. Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları oxudan əvvəl icra edilir. Orfoqrafiya tapşırıqları vasitəsilə şagirdlər bitişik yazılan mürəkkəb sözlər haqqında biliklərin təkrarlanması üçündür. Vurğu tapşırıqları da düzgün yazılışı müəyyənləşən sözlərlə bağlıdır. Vurğu bu sözlərin sonuncu hecasına düşür.

Tapşırıqlar yazılı şəkildə də icra edilə bilər. Tapşırıqların cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir. İcra üçün şagirdlərə 5 dəq. vaxt verilir.

**2-ci addım.** Şagirdlərin cavabları yoxlandıqdan sonra "Qardaşlar" mətninin oxusu təşkil edilir. oxu üçün proqnozlaşdırma, yaxud fasiləli oxudan istifadə etmək olar.

**3-cü addım.** https://www.youtube.com/watch?v=Q30Ec6mfEkw linkindən istifadə etməklə süjetə baxış keçirilir və tapşırıqlar üzərində iş aparılır.

Süjetə baxın, sualları cavablandırın:

✓ *Süjetdə nədən danışılır?*
✓ *Süjet əsasında cədvəli tamamlayın:*

| ÇƏRŞƏNBƏLƏR | ADƏTLƏR | ADƏTİN SƏBƏBİ |
|---|---|---|
|  *Su çərşənbəsi* | | |
|  *Od çərşənbəsi* | | |
|  *Yel (hava) çərşənbəsi* | | |
|  *Torpaq çərşənbəsi* | | |

Texniki imkanlar yoxdursa, aşağıdakı mətndən istifadə etmək olar:

*"Novruz" sözünün mənası "təzə gün", "yeni ruzi" deməkdir. Şərq xalqları, xüsusən də azərbaycanlılar Novruzu yeni ilin başlanğıcı, bolluq, bərəkət və firavanlığın əzəli hesab edirlər.*

*İnsanlar hər il mart ayının ikinci yarısında bu gözəl bayramı baharın gəlişi kimi sevinclə qarşılayıblar və indi də bu ənənə davam etdirilir. Təbiətin oyanması, fəsillərin yerdəyişməsi, torpağın oyanması, günlərin bərabərləşməsi məhz bu dövrə təsadüf edir.*

*Xalqımızın ən qədim inamlarına görə, elə-obaya fayda verməyən hər bir şey "ölü" hesab olunurdu. Qışda torpağın nemətlərdən məhrum olması - məhsul verməsini "dayandırması" insanın ən zəruri tələbatlarının əlindən çıxması kimi başa düşülürdü. Yay-payız mövsümündə əldə edilən azuqə ehtiyatı tükəndikcə qədim insanda torpağı oyatmaq, əkib-becərmək istəyi artırdı. Tarlaların, bağ-bağçaların, yerin oyanmasından ötrü isə su, hərarət (istilik, od, Günəş) və yel (hava) gərək idi.*

*Məhz bu arzu-istək ilə bağlı xalqımız lap qədimdən həmin dörd ünsürlə əlaqədar özünün zəngin adət-ənənə, etiqad və ayinlərini yaratmışdır. Təzə ilin başlanmasına dörd həftə qalmış ellikcə bu ayin və etiqadların icra olunmasına qol qoyulurdu...*

***İlaxır çərşənbələr***

*Novruza qədərki hər bir çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilirdi. Ayrı-ayrılıqda "Su çərşənbəsi", "Od çərşənbəsi", "Yel çərşənbəsi" və "Torpaq çərşənbəsi" adlandırılan "İlaxır çərşənbələr" insanları məhsul bolluğu yaratmağa, birlik və firavanlığa, halallığa, dostluğun, qardaşlığın sarsılmaz gücünün qüdrətinə inanmağa çağırırdı.*

*Novruz ayin və etiqadlarında ədalətə, mərhəmətə, rəhmə, sevgiyə böyük ehtiram var.*

***Su çərşənbəsi***

*Boz ayın dörd müqəddəs çərşənbəsinin birincisi "Əzəl çərşənbə" kimi tanınırdı. Xalq arasında ona təzə "doğulan", yeni gələn, "Əvvəl çərşənbə", "Su çərşənbəsi", "Gül çərşənbəsi" də deyirlər. Qədim inamlara görə, əzəl çərşənbədə təzə ilin gəlişi münasibətilə ən əvvəl su təzələnir. Elə buna görə də bu çərşənbə su ilə, suyun təmizlənməsi ilə əlaqələndirilir. Əzəl çərşənbədə bütün insanlar hələ gün doğmamışdan çay, arx, bulaq, yaxud çeşmə üstünə getməli, axar suda əl-üzünü yumalı, bir-birinin üzünə su çiləməli, su üstündən atdanmalı, yaralıların, xəstələrin üstünə su səpməlidirlər ki, il boyu sağlam olsunlar. Çünki əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu bütün dərdlərin dərmanı hesab olunur. Bu vaxt buğdadan səməni qoymaq da vacib sayılır.*

***Od çərşənbəsi***

*İlaxır çərşənbələrdən ikincisi olan bu çərşənbəyə bəzən "Üsgü çərşənbə", "Üsgü axşamı" da deyilir. Çox-çox əvvəllər də insanlar inanırdılar ki, odu, günəşi əzizləsələr, oxşasalar, təbiət tez isinər, adamlara xoşbəxtlik gətirər.*

*Bu çərşənbədə oda sitayiş edilir, onun şərəfinə şənliklər təşkil olunurdu. Yazın istisini arzulayan ulu babalarımız od çərşənbəsində böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər.*

***Yel çərşənbəsi***

*El içində Yel çərşənbəsini "küləyi oyadan", "yelli" çərşənbə də adlandırırlar. Etiqada görə, bu çərşənbədə oyanan yel və külək ərzi gəzir, oyanmış suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində əsən isti və soyuq küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində bir neçə dəfə dəyişən külək yelin özünün təzələnməsi kimi qəbul edilir. O, lazım gələndə, insanları əzizləyir, onlara kömək edir, qəzəblənəndə isə adamları cəzalandırır. Odur ki külək və yelin şərəfinə üçüncü çərşənbədə böyük mərasim keçirirlər.*

***Torpaq çərşənbəsi***

*Novruz bayramı ərəfəsindəki çərşənbələrin sonuncusu hesab olunur və xalq arasında "İlaxır çərşənbə", "Yer çərşənbəsi", "Torpaq çərşənbəsi" kimi də tanınır. Bu çərşənbədə yer oyanır, torpaqda su, istilik və hava normallaşır. Beləliklə, yaz əkininə artıq başlamaq olar.*

*Axır çərşənbə ilaxır çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənliklərlə ən zəngin olanıdır. Bu axşam üzərlik yandırılır, tonqallar alovlanır, tonqallar üstündən tullanır, bacalardan torbalar sallanır, qurşaq atılır, qulaq falları qurulur. Subaylar qonşu evlərin qapısının arxasında gizlənərək ilk eşitdikləri sözlərə uyğun təzə ildə onları gözləyən hadisələri öncədən bilməyə çalışırlar.*

*Bəzi bölgələrdə axır çərşənbədə süfrəyə ət və toyuq əvəzinə, ancaq balıq verirlər. Bütün ilaxır çərşənbələrdə əsasən yeniyetmə və gənclərdən ibarət xüsusi musiqiçilər dəstəsi axşam qaranlıq düşəndən sonra ev-ev, oba-oba gəzir, çalıb-oxuyurlar. Bir çox hallarda oğlan uşağına qadın paltarı geyindirir, keçəl və kosayla birgə evləri gəzərək çalıb-oynayır, insanların əhval-ruhiyyələrini yüksəldirdilər. Bəxşiş, hədiyyə yığmaq, qurşaq atmaq indi də dəbdən düşməyib*

*Axır çərşənbədə birinci çərşənbədə qoyulan buğdadan göyərmiş səməni döyülür, suyu çıxarılır və ondan səməni həlimi ilə səməni halvası bişirilir. Bir çox yerlərdə səməni həlimi çərşənbə günü yeddi qapıya paylanılır. Səməni suyundan bişirilən bayram halvası isə çox dadlı və xeyirli hesab edilir. Bunların hər ikisi axır çərşənbənin ən ləziz təamları sayılır.*

Cavablar yoxlanır və qiymətləndirilir.

**QEYD.** Mətn həcmli olduğuna görə, həm də vaxta qənaət etmək baxımından su və od çərşənbəsi haqqında məlumatı qruplardan birinə, yel və torpaq çərşənbəsi haqqında məlumatı qruplardan digərinə vermək olar.

**4-cü addım.** Böyük qruplardan birinə 1, 2, 4; ikincisinə 3, 6, 8-ci tapşırıqlar verilir və 10 dəq vaxt verilir.

2-ci tapşırıq: *"Hamının sevimlisi olan bu oğlan – Vaqif IV sinifdə oxuyur"* cümləsi *"Vaqif bizim binada yaşayır"* cümləsindən sonra olmalıdır.

3-cü tapşırıq: *"Bu qardaşların dostluğu mənim də xoşuma gəlir"* cümləsi yeni abzasdan başlamalıdır.

Qrupların təqdimatı dinlənir və növbəti mərhələyə keçid edilir.

**5-ci addım.** 5 və 7-ci tapşrııqlar şifahi şəkildə icra edilir.

**6-cı addım.** Evə şagirdlərin imkan və bacarıqları nəzərə alınmaqla aşağıdakı tapşırıqlar verilir:
- 9-cu tapşırıq;
- 21-ci tapşırıq.

Müəllim fərqli tapşırıqlar da verə bilər.

**7-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 14 Qardaşlar

**Standartlar:** 2.1.1., 2.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Cümlələri düzgün tələffüz edir.
Müxtəlif fikirləri ümumiləşdirib təqdim edir.
Həmcins üzvlərdə durğu içarələrinə əməl edir.

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** müzakirə, yazı

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlayır. Dəyərləndirmədə müəllim və şagirdlər birgə iştirak edir.

**2-ci addım.** 10 və 11-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar qruplar arasında bölünür. tapşrığın icrası üçün 10-12 dəq. vaxt verilir. Şagirdlər fikirlərini izah edərkən "Qardaşlar" mətninə istinad etməli, fikirlərini əsaslandırmalıdırlar.

**3-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 12-14-cü tapşırıqlar üzərində iş aparılır.

**4-cü addım.** 15-16-cı tapşırıqlar həmcins üzvlərdə ümumiləşdirici sözlərin öyrədilməsi üçündür. Dərslikdə bu mövzunu tədris etmək üçün yığcam nəzəri məlumat verilmişdir. Bu qaydanın öyrədilməsində məqsəd durğu işarələrindən düzgün istifadə etməyi öyrətməkdir.

**5-ci addım.** Nəzəri məlumat şagirdlərə izah edilir, nümunələrlə əsaslandırılır. 17, 18-ci tapşırıqlar icra edilir.

**6-cı addım.** Şagirdlərə lüğət üzrə imla yazdırılır. (tapşırıq 20) Yoxlama müxtəlid üsullarla ola bilər. Əvvəlki dərslərdə yoxlama üçün üsullar təqdim edilmişdir.

**7-ci addım.** Evə aşağıdakı tapşırıqlar verilir:
- 19-cu tapşırıq
- Novruz bayramı ilə bağlı müsahibənin götürülməsi. Bu tapşırığın icrası üçün müəllim kiçik, yaxud böyük qruplar yarada və şagirdlərə müvafiq istiqamətlər verə bilər. Dərsliyin 130-cu səhifəsində müsahibə götürmək üçün suallar verilmişdir.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 15 Bayram axşamı

**Standartlar:** 2.1.3., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Şeiri ifadəli oxuyur.
Şeirdəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, qruplarla

**İş üsulu:** təqdimat

**1-ci addım.** Dərs şagird təqdimatlarının dinlənməsi ilə başlaya bilər. Dinlənilən təqdimatlar əsasında müzakirə təşkil edir. Müəllim diqqət yetirməlidir:
- Şagirdlərin müsahibə götürdüyü yaş qruplarına;
- Alınan cavablara:
- Cavabların ümumiləşdirilməsinə;
- Şagirdlərin nəticələri yığcam şəkildə təqdim etmək bacarığına;
- Şagirdlərin nitqinə: düzgün tələffüzə, intonasiyaya, fikri diqqətə çatdırmaq üçün lazım olan sözləri məntiqi vurğu ilə təqdim etməsinə

15 dəq. vaxt ayırmaq kifayətdir. Müzakirələrin yığcamlığı şagirdlərdə fikirlərini yığcam şəkildə təqdim etmək bacarığının formalaşmasına imkan yaradar.

**2-ci addım.** “Bayram axşamı” şeirinin ifadəli oxusu təşkil edilir. Oxu zamanı orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları icra edilir.

**3-cü addım.** 131-ci səhifədə mavi çərçivədə verilmiş tapşırıqlar icra olunur.
https://www.youtube.com/watch?v=alf49zw5p10 linkindən istifadə etmək olar.

**4-cü addım.** Şeirin məzmunu üzərində iş aparmaq üçün 1-7-ci tapşırıqlar icra olunur.

**5-ci addım.** Şeron lüğət tərkibi üzərində iş aparmaq üçün 8-13-cü tapşırıqlar icra olunur.
13-cü tapşırığın cavabı: birlik + həmrəylik= Novruz

**QEYD.** Məzmun və lüğət tapşırıqları icra üçün kiçik qruplar arasında bərabər şəkildə də paylana bilər. Bu vaxta qənaət etmək baxımından da əhəmiyyətlidir.

**6-cı addım.** 14-cü tapşırıq icra edilir. Tapşırığın yazılı və ya şifahi şəkildə icrası müəllimin seçimindən və planlaşdırdıöı dərsdən asılıdır.

**7-ci addım.** Şagirdlərin blik və bacarıqları nəzərə alınaraq aşağıdakı tapşırıqlar evə verilir:
- 15-ci tapşırıq;
- 16-cı tapşırıq

Hər iki tapşırıq həm əvvəlki illərdə, həm də əvvəlki dərslərdə icra edildiyindən şagirdlər üçün çətinlik törətməyəcəkdir.

Tapşırıqların cütlər, yaxud qruplarla icrası müəllimin, yaxud şagirdlərin seçimindən asılıdır. Fərdi qaydada da icrası mümkündür.

**8-ci addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

**16-cı dərs**
**Kiçik summativ qiymətləndirmə**

**17-ci dərs**
Bölmənin yekunu
Bölməni yekunlaşdırmaq üçün əvvəlki bölmələrdə verilmiş nümunələrdən istifadə etmək olar.

*IV bölmə*

# MƏKTƏB
## *ekologiya uğrunda*

1. LAYİHƏ: “KAİNAT VƏ TƏBİƏT”
2. KİBRİT ÇÖPÜ
3. TƏMİZ HAVA – SAĞLAM İNSAN
4. ÇÖRƏK
5. DAYANIQLI İNKİŞAF
6. TƏBİƏT İLHAMA ÇAĞIRIR MƏNİ

# 1 Kainat və təbiət

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Dinlədiyi fikirlərə münasibət bildirir.
Müzakirə zamanı eşitdiyi fikirləri ümumiləşdirir.
Oxuduqlarına münasibət bildirir.

**İş forması:** kollektiv, fərdi, kiçik qruplar

**İş üsulu:** beyin həmləsi, proqnozlaşdırma, BİBÖ, sual-cavab

**1-ci addım.** Müəllim planlaşdırdığı dərsdən asılı olaraq müxtəlif üsullardan istifadə etməklə başlaya bilər:

- BİBÖ üsulundan
- Müxtəlif sxemlərdən

Şagirdlərin diqqəti bölmənin adına yönəldilir və şagirdlərə suallarla müraciət edir:

- *Sizcə, bölmədə nədən danışılacaq?*
- *Ekologiya nədir?*
- *Ekoloji problemlər dedikdə nə başa düşürsünüz?*
- *Məktəb və ekologiyanın əlaqəsini necə görürsünüz?*
- *Məktəb ekoloji problemlərin həllində hansı rolu oynaya bilər?*

Şagirdlərin ilkin cavabları yazılı şəkildə də ola bilər, şagird portfoliosunda saxlanıla bilər. Müəllim şagirdlərə 2-3 cümlədən istifadə etməklə fikirlərini yazmağı tapşırır. Tapşırıq fərdi qaydada icra olunur.

Aşağıdakı cədvəllərdən müvafiq olandan istifadə etmək olar:

**Cədvəl 1**

| Bölmənin adı | Bölmənin belə adlandırılmasının səbəbi |
|---|---|
| Məktəb ekologiya uğrunda | 1.<br>2.<br>3. |

**Cədvəl 2**

| Bölmə ilə bağlı fikirlərim | |
|---|---|
| Bölmənin əvvəlində | Bölmənin sonunda |
| | |

Bu cədvəlin birinci hissəsi bölmnin əvvəlində, ikincisi bölmənin sonunda tamamlanmalıdır.

Bölmənin sonunda bölmədə öyrənilən materiallarla bağlı şagirdlərə təkrar sual verməklə onların fikri və düşüncələrinin inkişaf etmə səviyyəsini yoxlamaq və dəyərləndirmək olar.

Tapşırığın icrası üçün 5 dəq. kifayətdir. Ümumiyyətlə, dərs prosesində tapşırığın icrası üçün konkret vaxtın müəyyən edilməsi çevik yazı bacarıqlarının formalaşdırılması baxımından əhəmiyyətlidir.

**2-ci addım.** Cavabları ümumiləşdirdikdən sonra şagirdləri bölmənin tədrisi zamanı öyrəniləcək mətnlərlə tanış edir. Mətnlərin adlarına münasibət bildirmək üçün də şagirdlərə suallarla müraciət etmək olar:

- *Mətnlərin adlarına əsasən onlarda nədən danışılacağı barədə fikir yürüdün.*
- *Sizcə, mətnlər məzmun baxımından necə əlaqələnə bilər?*

Bu sualları cavablandırmaq üçün aşağıdakı sxemdən istifadə etmək olar:




Müəllim fərqli sxemdən istifadə edə bilər, yaxud şagirdlərin şifahi cavablarını dinləməklə yığcam müzakirə təşkil edə bilər.

Yazılı cavablandırmanın üstünlüyü şagirdlərin ilk fərziyyələrini və gəldikləri son nəticlərini özlərinin əyani şəkildə görməsi, müqayisə etməsi, düşüncələrindəki fərqi müşahidə etməsi baxımından əhəmiyyətlidir.

**3-cü addım.** Daha sonra müəllim şagirdlərin diqqətini üzərində işləyəcəkləri “Kainat və təbiət” adlı layihəyə yönəldir. Layihəyə başlamaq üçün hazırlıq başlanır və şagirdlərə *“Sizcə, layihə nə üçün belə adlandırılmışdır?”* sualı ilə müarciət edilir. Cavablar ümumiləşdirilir.

https://www.youtube.com/watch?v=W6P9NX4UP5Y (Kainatın sirləri: Kainatın sərhədlərinin axtarışında (sənədli film)

https://www.youtube.com/watch?v=sHKrEHbbD8U (Kainat və təbiətlə bağlı tapmacalar)

https://www.youtube.com/watch?v=hQEA5itw9P0 (“Kainat haqqında 7 heyrətamiz bilgi”)

https://www.youtube.com/watch?v=GzDHAVX3LSI (“Kainata səyahət”)

https://www.youtube.com/watch?v=uSIXC28p3b8 (“Kainatın sirləri”)

https://www.youtube.com/watch?v=ZDvg4aPl_28 linklərindən planlaşdırılan dərsə uyğun olanı seçilir, film nümayiş etdirilməklə müzakirə təşkil edə bilər.

Yaxşı olar ki, baxışdan əvvəl kiçik qruplar yaradılsın, seçilən videoya baxış əsasında hər qrupa maraqlı və düşündürücü sual hazırlamaq və digər qrupa vermək tapşırılsın.




Bu üsul şagirdlərin diqqətli olmasını tələb etməklə yanaşı, müəllimə şagirdlərin diqqətini, mövzunu mənimsəmə səviyyəsini, sual hazırlama qabiliyyətini, sualı cavablandırma və fikrini əsaslandırma bacarıqlarını yoxlamağa imkan verər.

**4-cü addım.** Dərsliyin 138-ci səhifəsində verilmiş *"Gecələr aydın havada göyün üzünü müşahidə etsəniz, çoxlu ulduz görərsiniz. Yaqin, göy üzünə baxarkən sizi bir sual düşündürür: görəsən, göydə nə qədər ulduz var?", "Göyün sonu varmı?", "Əgər varsa, harada qurtarır?"* sualları ilə şagirdlərə müraciət edilir və şagirdlərin fikirləri öyrənilir.

Sonra həmin səhifədə göy çərçivədə bəldçi obrazın təqdimatında verilmiş *"Dünya sonsuzdur və biz onun kiçik bir hissəsini görə bilirik. Bu sonu olmayan dünya kainat adlanır. Kainatın Yerə yaxın hissəsi kosmos adlanır. Ulduzlar, planetlər və başqa cisimlər kainatın hissələridir"* fikri oxunur və fikrə münasibət bildirmək üçün şagirdlərə müraciət edilir. Şagirdlər cavablarını əsaslnadırılmalıdır. Müəllim şagirdlərin nümunə gətirməklə, yaxud bildikləri faktlardan, hadisələrdən istifadə etməklə onların fikirlərini əsaslandırmasına nail olmalıdır.

**QEYD.** Dərsdə fizika, yaxud coğrafiya fənnini tədris edən müəllimin iştirakı əhəmiyyətli olardı. Şagirdlərin cavbalrının düzgünlüyü, iki fənni tədris edən müəllimin mövzu ilə bağlı dialoqu mövzunun mənimsənilməsinə əlverişli şərait yaratmış olar.

**5-ci addım.** Müəllim şagirdlərə "Planetlərin "fəaliyyətini" öyrənmək nə üçün lazımdır?" sualı ilə şagirdlərə müraciət edir. Cavablar ümumiləşdirilir və *"Planetin "fəaliyyətini" öyrənməklə biz təbii hadisələri: zəlzələ, vulkan, tufan və qasırğalar nə zaman baş verəcəyini proqnozlaşdırmağı və onların təsirlərini minimuma endirməyi öyrənirik"* fikri oxunur, şagirdlər öz cavabları ilə dərslikdəki fikri tutuşdururlar.

**6-cı addım.** Daha sonra şagirdlərə aşağıdakı suallarla müraciət edilir:
- *"Kosmosu bilmək insan üçün niyə vacibdir?"*
- *"Yerin və kainatın öyrənilməsinin əhəmiyyəti nədir?"*
- *"Görəsən, kainatın harasındayıq?", "Kainatdakı ünvanımız nədir?"*
- *"Planetə qayğı ilə yanaşmaq nə deməkdir?"*

Suallar əsasında müzakirə təşkil edilir və şagirdlərin mövzu ilə bağlı fikirləri ümumiləşdirilir.

**7-ci addım.** Daha sonra şagirdlərə *"Kainat bizimlə danışmaq istəsə idi, görəsən, nə deyərdi?"* sualı ilə müraciət edir. Şagirdlərin fikirlərini ekologiyanın qorunması və təmizliyi mövzusuna yönəltmək məqsədəmüvafiqdir.

**8-ci addım.** Evə mövzu ilə bağlı müxtəlif tapşırıqlar verilə bilər:

- *"Kainat bizimlə danışmaq istəsə idi, görəsən, nə deyərdi?"* sualına 10-15 cümlədən istifadə etməklə cavab yazmaq;
- *Kainata məktub yazmaq;*
- *Kainatın insanlara məktubunu hazırlamaq;*
- *Kainat və insanlar" adlı hekayə yazmaq;*
- *"Kainat və təbiət" mövzusunda təqdimat hazırlamaq;*
- *"Kainat və təbiət" mövzusunda videoçarx hazırlamaq və s.*

Şagirdlərə izah olunur ki, onlar təqdimat hazırlayarkən mövzu ilə bağlı ətraflı məlumat toplamalı, məlumatlar içərisində ən zəruri olanlardan istifadə etməklə təqdimat, yaxud məlumata uyğun təqdimetmə forması müəyyən etməlidirlər.

**Qeyd.** Təqdimat, yaxud videoçarx hazırlanacaqsa, müəllim bu işi fərdlərə deyil, kiçik, yaxud böyük qruplara da tapşıra bilər. Bu, müəllimin seçimindən, sinfin və şagirdlərin səviyyəsindən asılıdır.

Hekayə hazırlamaq üçün şagirdlərə plan təqdim etmək olar.

Plan (nümunə)

- Kainatın düşüncələri
- Ekoloji problemlərə kainatın münasibəti
- Kainatın insanlara müraciəti
- İnsanlarla dialoq (bir neçə obraz seçməklə onları adlandırmaq olar)
- Nəticə

Sinfinin səviyyəsini nəzərə almaqla müxtəlif tapşırıqlar verə bilər.

**9-cu addım.** Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

# 2 Kibrit çöpü

**Standartlar:** 1.1.1.,1.1.2., 2.1.2., 2.1.3.

**Təlim nəticələri:**

Hadisələrin ardıcıllığını müəyyən edir.
Hekayədəki hadisələri ümumiləşdirir.
Danışan zaman əsas fikri çatdırmaq üçün məntiqi vurğudan düzgün istifadə edir.
Eşitdiyi fikirləri ümumiləşdirir.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** müzakirə, proqnozlaşdırma, əqli hücum

**1-ci addım.**

Dərs ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Tapşırıqlar dinlənilir, müzakirə edilir və qiymətləndirilir. Qiymətləndirmənin şagirdlər tərəfindən aparılması mqsədəmüvafiqdir. Ev tapşırıqlarının formasından asılı olaraq, müxtəlif qiymətləndirmə üsullarından istifadə etmək olar.

✓ Əgər hekayə qiymətləndirilirsə, aşağıdakı qiymətləndirmə üsulundan istifadə etmək olar. Qiymətləndirmə 5 ballıq sistemlə aparılır.

Qiymətləndirmənin obyektiv aparılması üçün şagirdlərə təlimat vermək lazımdır.

*Nümunə:*

| Qiymətləndirilən yazı forması | Qiymətləndirmə meyarları | Qiymətləndirmə balları |
|---|---|---|
| "Kainat və insan" hekayəsi | Hekayə vasitəsilə problem təqdim edilə bilir. | |
| | Problemin həlli yolu göstərilir. | |
| | Tərkib hissələr əlaqəlidir. | |
| | Dialoq maraqlıdır. | |
| | Hekayənin dili sadə və aydındır. | |
| | Hadisələrin ardıcıllığı gözlənilmişdir. | |

Müəllim meyarları dəyişməkdə və sayını artırıb-azaltmaqda sərbəstdir.

✓ Əgər məktub qiymətləndirilirsə, aşağıdakı qiymətləndirmə nümunsindən istifadə etmək olar:

| Yazının forması və adı | Qiymətləndirmə meyarları | Ballar |
|---|---|---|
| | Yazı məktuba verilən tələblərə uyğundur. | |
| | Məzmun maraqlıdır. | |
| | Məktub vasitəsilə problem diqqətə çatdırılır. | |
| | Problemə münasibət bildirilir. | |
| | Problemin həlli yolu göstərilir. | |
| | Sadə cümlələrdən istifadə edilmişdir. | |
| | Məzmun maraqlı və düşündürücüdür. | |

Eyni meyarlar üzrə müəllimin də qiymətləndirmə aparması, sonra özünün və şagirdlərinin qiymətləndirmə nəticələrini tutuşdurması yaxşı olardı.

**2-ci addım.** Şagirdlərin diqqəti mətnin adına yönəldilir, şagirdlərə *"Sizcə, mətndə nədən danışılacaq?"* sualı ilə müraciət edilir. Şagirdlərin fərziyələri lövhədə yazılır. Daha sonra dərsliyin 140-cı səhifəsindəki sxem üzərində iş aparılır.




Şagirdlərə ardıcıl olaraq *“Sxemdə nə təsvir edilmişdir?”, Sxem vasitəsilə hansı fikirlər çatdırılır?”, “Sizcə, kibrit çöpü nələr edə bilər?”* sualları ilə müraciət edilir. Cavablar yazılı şəkildə də ola bilər.

| **Sxem əsasında şərhlərim** | | **Hekayədə təqdim olunan fikirlər** | | **Üst-üstə düşən fikirlər** |
|---|---|---|---|---|
| Sxemdə nə təsvir edilmişdir? | ... | | | |
| Sxem vasitəsilə hansı fikirlər çatdırılır? | .... | | | |
| “Sizcə, kibrit çöpü nələr edə bilər?” | .... | | | |

Cədvəlin birinci hissəsi sxemi şərh edərkən doldurulur. İkinci hissəsi *(Hekayədə təqdim olunan fikirlər)* onu dinlədikdən sonra tamamlanır. Şagird şərhləri ilə hekayədə verilən fikirləri tutuşdurur və nəticələr təqdim edilir. Üst-üstə düşən fikirlər şagirdlərdə proqnozlaşdırma bacarığının göstəricisidir. Üçüncü qrafada üst-üstə düşən məqamlar istənilən işarə ilə ( +, ✓, •, = və s.) göstərilə bilər.

Şagirdlər bu fikrə gəlirlər ki, kibrit çöpü hər şeyi yandırıb məhv edə bilər, eyni zamanda bir otağı işıqlandıra bilər, bir ocağı yandırıb insanların qızınmasına və s. səbəb ola bilər. Deməli, kibrit çöpünün həm xeyri, həm də ziyanı vardır. Şagirdlərə *“Kibrit çöpünün necə hazırlandığını bilirsinizmi?”* sualı ilə müraciət etmək və https://www.youtube.com/watch?v=mmz2qExhaRA linkindən istifadə etməklə “Kibrit necə hazırlanır” sənədli filminə baxış keçirmək olar.

https://www.youtube.com/watch?v=_u261428Kn4 ("Kibrit çöplərini sənət əsərinə çevirir") linkindən də istifadə etmək olar.

YouTube kanalında mövzu ilə bağlı kifayət qədər videosüjet vardır. Planlaşdırdığı dərsdən asılı olaraq müəllim istənilən süjetdən istifadə edə və seçdiyi süjetlə bağlı müxtəlif suallar verə bilər.

**3-cü addım.** Dərsliyin 141-ci səhifəsində verilmiş suallar əsasında *("Yanğın nədir?", "Yanğın necə baş verə bilər?", "Onun fəsadları hansılardır?", "Yanğının baş verməməsi üçün nə etmək lazımdır?", "Tüstü nə edə bilər?")* müzakirə təşkil edilir. Müzakirənin nəticələri onların şərh etdiyi sxemin əsasında əldə etdiyi nəticələrlə əlaqələndirilir.

**4-cü addım.** Gülarə Munisin "Kibrit çöpü" mətni əsasında hazırlanmış animasiyaya baxı keçirilir. Texniki imkanlar olmazsa, müəllim mətni özü səsləndirə bilər.

**Kibrit çöpü**

*Adi bir kibrit çöpü...*

*İlk baxışda adi görünən bu çöp bir kağızı, bir kağız isə ətrafda yana bilən nə varsa, onların hamısını yandırar...*

*Bir çöp dəhşətlər yaradar, evlər, imarətlər yandırar, çox yerləri viran qoyar...*

*Bir kibrit çöpü məktəbləri, mədəniyyət ocaqlarını, kitabxanaları yandıra bilər. Yanan kitablarla birlikdə müəlliflərin yuxusuz gecələri, gözlərinin nuru yana bilər.*

*Bu kibrit çöpü meşələri yandırar, heyvanları yurdundan-yuvasından didərgin salar...*

*Bir kibrit çöpü...*

*Amma bu çöp ağıllı bir adamın əlində olarsa, ondan bir evin ocağı alışar, bir həyətdə təndir qalanar, bir məşəl yanar, bu məşəl qaranlıqlara işıq saçar, gələcəyə gedən yola nur çiləyər...*

*Adi bir çöp...*

*Baxır o çöp kimin əlindədir.*

**5-ci addım.** Mətnin dinlənilməsindən sonra şagirdlərə *"Hekayəni bəyəndinizmi?", "Nə üçün?", "Dqqətinizi çəkən nə oldu?"* sualları ilə müraciət edilir. Şagirdlər yuxarıda verilmiş cədvəlin ikinci və üçüncü xanasını tamamlayırlar.

**6-cı addım.** "Kibrit çöpü" mətninin məzmunu üzərində iş aparmaq üçün 1-9-cu tapşırıqlar üzərində iş aparılır. 1-5-ci tapşırıqlar kollektiv; 6-9-cu tapşırıqlar cütlərlə iş formasından istifadə edilməklə yerinə yetirilir. 9-cu tapşırığın "Səbəb" hissəsinin birinci xanasında *"Əgər yanan kibrit çöpü xeyirxah bir adamın əlində olarsa ..."* , ikinci xanasında *"Əgər kibrit çöpü zalım və düçüncəsiz insanların əlində olarsa ..."* cümləsi olmalıdır.

**7-ci addım.** Mövzu ilə bağlı şagirdlərin fikirləri ümumiləşdirilir və evə tapşırıq verilir.

1. Nizami Gəncəvinin aşağıda verilmiş aforizmi əsasında esse yazmaq

*Məslək, inam, dəyanət gərək hər bir insana,*
*Sədaqəti töhfətək verək hər bir insana.*

Şagirdlərə aşağıdakı plan təqdim edilə bilər.

**Plan**

- Məslək, inam və dəyanət sözünün ifadə etdiyi mənanın izah edilməsi
- Bu anlayışların insan həyatı ilə bağlılığına münasibətin bildirilməsi
- Sədaqətin töhfə hesab edilməsinin səbəbi
- Misrada ifadə edilən fikrə münasibət bildirilməsi

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 3 Kibrit çöpü

**Standartlar:** 2.1.1., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

Sadə cümlələri düzgün tələffüz edir.
Mətnin məzmununu danışır.
Müzakirə zamanı öyrəndiklərinə münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə

**İş üsulu:** müzakirə, dəyirmi masa

**1-ci addım.** Müəllim dərsə ev tapşırıqlarının yoxlanması ilə başlayır, seçmə yolla şagirdlərin yazıları dinlənilir və qiymətləndirilir. Digər yazıların da yığılaraq yoxlanması, növbəti dərsdə nəticələrinin elan edilməsi məqsədəmüvafiq sayılır.

Qiymətləndirmə üçün əvvəlki dərslərdə müxtəlif nümunələr verilmişdir. Müəllim bu nümunələrdən istifadə etməklə yanaşı, müxtəlif sxem və cədvəllər hazırlaya bilər.

**2-ci addım.** 10-cu tapşırıq üzərində iş aparılır. Tapşırırğın kiçik qruplarla iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir. İcra üçün şagirdlərə 15 dəq. vaxt verilir.

Qruplara aşağıdakı formada iş vərəqi təqdim edilir.

**İş vərəqi N°1**

| Nizaminin aforizmi | Aforizmin ifadə etdiyi məna | “Kibrit çöpü” mətninin məzmun və ideyası ilə uyğun olub-olmaması | Fikrin əsaslandırılması |
|---|---|---|---|
| *Çalış öz xalqının işinə yara, Geysin əməlindn dünya zərxara.* | | | |

**İş vərəqi N°2**

| Nizaminin aforizmi | Aforizmin ifadə etdiyi məna | “Kibrit çöpü” mətninin məzmun və ideyası ilə uyğun olub-olmaması | Fikrin əsaslandırılması |
|---|---|---|---|
| *Yaxşılığı əzəldən adət etsən özünə, Yaxşılın hər yanda qapı açar üzünə* | | | |

**İş vərəqi N° 3**

| Nizaminin aforizmi | Aforizmin ifadə etdiyi məna | “Kibrit çöpü” mətninin məzmun və ideyası ilə uyğun olub-olmaması | Fikrin əsaslandırılması |
|---|---|---|---|
| *Həmişə dünyada yaxşılıq axtar, Yaxşı ad almaqda əbədiyyət var.* | | | |

**İş vərəqi N° 4**

| Nizaminin aforizmi | Aforizmin ifadə etdiyi məna | "Kibrit çöpü" mətninin məzmun və ideyası ilə uyğun olub-olmaması | Fikrin əsaslandırılması |
|---|---|---|---|
| *Ağıllı adamla dost olsan əgər, Elmi, mərifəti sənə də keçər.* | | | |

**3-cü addım.** Tapşırığın icrasına ayrılan müddət bitdikdən sonra qrupların təqdimatı dinlənilir. Təşkil edilən müzakirələrdə qrupların təqdimatına, fikirlərini ifadə etməsinə, nitqinin səlisliyinə, söz və cümlələrin düzgün tələffüzünə, əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğulu sözlərdən yerində və düzgün istifadəyə və s. diqqət yetirilir. Qrupların bir-birinin fəaliyyətini və təqdimatını qiymətləndirməsi də məqsədəmüvafiqdir. Bunun üçün vəsaitin giriş hissəsində müxtəlif nümunələr verilmişdir.

**4-cü addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 11-14-cü tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların icrası üçün iş formasının seçilməsində müəllim sərbəstdir.

**5-ci addım.** 15-ci tapşırığın cütlərlə iş formasından istifadə edilməklə icrası məqsədəmüvafiqdir.

**6-cı addım.** 17-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın iki böyük qrupla aparılması məqsədəmüvafiqdir. Tapşırığın yazılı, yaxud şifahi şəkildə icrası müəllimin planlaşdırdığı dərsdən asılıdır.

Mövzu ilə bağlı dəyirmi masa da təşkil etmək olar. Dəyirmi masada olan müzakirələr nəticəsində şagirdlərə evdə inşa yazmaq da tapşırıla bilər. Dərsliyin 145-ci səhifəsində dəyirmi masanın keçirilməsi, müzakirələr əsasında yazının yazılması üçün tövsiyələr verilmişdir.

**7-ci addım.** 16-cı tapşırıq evə verilir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 4 Təmiz hava – sağlam insan

**Standartlar:** 2.1.3., 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Oxuduğu mətndəki fikirlərə münasibət bildirir.
Sem əsasında mətn tərtib edir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** kublaşdırma, müzakirə

**1-ci addım.** Müəllim dərsə müxtəlif üsullardan istifadə etməklə başlaya bilər.

- Ev tapşırığının yoxlanması ilə;

https://www.youtube.com/watch?v=_DvZ-0OojZw (Planetimizin taleyi necə olacaq? | 1000 il sonra dünya (sənədli film)),

https://www.youtube.com/watch?v=fRzpe8Bpt40 (Atmosfer nədir?)

https://www.youtube.com/watch?v=UPJ5F2Tr8HI (Ozon təbəqəsi) linklərindəki materialdan planlaşdırılan dərsə uyğun olanını seçməklə;

- BİBÖ, kublaşdırma üsullarından uyğun olanını seçmklə:;
- üsulundan istifadə etməklə;
- Proqnozlaşdırılmış oxudan istifadə etməklə və s.

Təklif edilən üsulladan hr hansı birindən, yaxud digər üsuldan istifadə etmək müəllimin planlaşdırdığı dərsdən asılıdır.

Kublaşdırma mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradır. Bu üsul vasitəsilə şagird mövzunu təsvir və müqayisə edir, əlaqələndirir, təhlil və tətbiq edir, lehinə, yaxud əleyhinə mübahisəyə edir. Şagirdin tənqidi və məntiqi təfəkkürü inkişaf etdirən bu üsul onun mövzuya hərtərəfli baxışını, qiymətləndirmə bacarığını, əməkdaşlıq vərdişlərini formalaşdırır. Üsulu tətbiq etmək üçün müəllim, ilk növbədə, mövzunu elan edir: *hava, təmiz hava.* Sonra üzərində müvafiq tapşırıqlar olan kubdan istifadə edir *(kağızdan kub düzəldə bilər, yaxud hazır kub varsa, onun üzərinə müvafiq yazılar yazmaqla ondan istifadə edə bilər) və şağirdləri təlimatlandırır*.

Şagirdlər 6 qrupa bölünür və hər qrupa bir tapşırıq verilir:

1. Havanı təsvir edin (*rəngi, xüsusiyyətləri, əhəmiyyəti*)
2. Təmiz və çirkli havanı müqayisə edin.
3. Çirkli hava nədir? (*Şagirdlər cavablarını müasir dövrlə əlaqələndirir və faktlarla əsaslandırır.)*
4. Hava nə üçün və necə çirklənə bilər? (*Şagirdlər fərziyyələr irəli sürür və təhlil edirlər.)*
5. Havanın təmizliyini necə təmin etmək olar? (*Şagirdlər öz fərziyyələrini söyləyir və sübut etməyə çalşırlar.)*
6. Səslənən fikirlər təsdiq, yaxud inkar olunur.

Qruplar təqdimatlarını edirlər, nəticə çıxarılır.

**2-ci addım.** Diqqət dərslikdəki "Təmiz hava –sağlam insan" mətninə yönəldilir. Əvvəlcə 1-ci tapşırıq icra edilir. Şagirdlər dərsin birinci mərhələsində əldə etdikləri nəticələri mətnin adı ilə bağlı fərziyyələri ilə əlaqələndirirlər.

**3-cü addım.** Mətnin oxusu təşkil edilir. 2-ci tapşırıq icra edilir. Cümlələrin ardıcıllığı: 3,4, 6,1,2,5,7

Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları üzərində iş oxu zamanı icra edilir.

**4-cü addım.** Dərsliyin 147-ci səhifəsində verilmiş sxem əsasında mətn tərtib edilir. Şagirdlərə 10 dəq. vaxt verilir. Mətn 6-10 cümlədən ibarət ola bilər. Mətn tərtib edilərkən abzaslararası əlaqəyə diqqət yetirilməlidir.

Mətn tərtib etmək üçün müəllim iki yanaşmadan istifadə edə bilər:

1. İki böyük qrup təşkil edilir, hər bir qrup mətn tərtib və təqdim edir. Daha uyğun gələn variant seçilir.
2. Müəllim dərsin əvvəlindən 3-5 nəfərdən ibarət kiçik qrup yaradır və bu qrup sxem əsasında mətn tərtib edir. Bu qrupa tapşırıq verilir: qrup əvvəlcə mətni diqqətlə oxuyur və ardıcıllığı təmin etmək üçün sxem əsasında mətn tərtib edir.

**QEYD.** Seçilən yanaşma sinfin və şagirdin səviyyəsi nəzərə alınmaqla tətbiq edilməlidir. Müəllim fərqli üsuldan da istifadə edə bilər.

**5-ci addım.** Mətnin ardı oxunur. 4-8-ci tapşırıqlar üzərində iş aparılır. 4-6-cı tapşırıqlar kollektiv, 3,7,8,9-cu tapşırıqlar hər biri bir qrupa təqdim edilir, icrası üçün 7-9 dəq.vaxt verilir.

**6-cı addım.** Tapşırıqlar yoxlanır, 11-ci tapşırıq kollektiv iş formasından istifadə edilməklə icra edilir, mövzu ilə bağlı fikirlər ümumiləşdirilir.

**7-ci addım.** Evə 10 və 12-ci tapşırıqlar verilir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 5 Təmiz hava – sağlam insan

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

Fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.
Mətndəki hadisələri ümumiləşdirir.
Tərkib hissələrin ardıcıllığını gözləməklə mətnin məzmununu danışır.
Yazısını zənginləşdirir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sorğu-sual

**1-ci addım.** Müəllim dərsə dinləmə mətnindən istifadə etməklə başlaya bilər. Mətn oxunur. Sinfinin səviyyəsinə nəzərə almaqla müəllim mətni iki dəfə səsləndirə bilər. Sualları cavablandırmaq üçün müəllim mətni diqqətlə dinləməyi tövsiyə edir.

**Dinləmə mətni**

***Elmcan babadan nəsihətlər***

*Günlər keçdikcə yayın qızmar istisi yerini sərin havaya verir. Süfrəni bəzəyən qarpız-yemişin yerinə də yavaş-yavaş payız meyvələri keçir. Elmcan baba üçün bunun fərqi yoxdur. Hansı mövsümdə getsən, onun süfrəsində mütləq yeməli meyvə olur. O deyir ki, sağlam həyat üçün təbii qidalanmaq və torpağın yetirdiyi bol vitaminli meyvələrdən çoxlu-çoxlu yemək lazımdır. Xüsusilə də hər meyvənin öz mövsümündə yeyilməsi Elmcan babanın xoşuna gəlir. Buna görə də həyətində cürbəcür meyvə ağacları əkib: alça, albalı, gilas, əncir, ərik, şaftalı, gavalı, alma, armud, qoz, fındıq, heyva, nar...*

*Elmcan baba əvvəlcə uşaqlara "Bağa baxsan, bağ olar, baxmazsan, dağ olar" atalar sözünün mənasını izah etdi. Ağaclara qaydasında qulluq etməyin əhəmiyyətindən, dibini belləməkdən, budamaqdan, gübrə verməkdən və vaxtlı-vaxtında suvarmaqdan danışdı. Çünki ağaca düzgün qulluq ediləndə həm məhsuldarlığı artır, həm də ömrü uzanır.*

*Bir qədər öyüd-nəsihət verdikdən sonra Elmcan baba əlini qar kimi ağappaq saqqalına apardı, gözlərini göyə qaldırıb azca fikrə getdi. Sonra axtardığını tapmış adamlar kimi başını tərpətdi, sevincdən gözləri parıldadı. Uşaqlara belə bir sual verdi:*

*– Gül balalar, kim deyər, həyətdə nar dərmək üçün nə etmək lazımdır?*

*Fındıq bir öz boyuna baxdı, bir də nar ağacına. Həyəcanla ilk cavabı verən o oldu:*

*– Ağacın yanına nərdivan aparmaq lazımdır.*

*Məntiq nisbətən boyda ondan uzun olduğuna görə bunu əhəmiyyətsiz saydı:*

*– Məncə, narı yığmaq üçün böyük bir yeşik, yaxud vedrə aparmaq lazımdır.*

*Güllü zərif əllərini və nar ağacının gül tikanı qədər ucu şiş tikanlarını göstərərək dedi:*

*– Mənə görə, ən yaxşısı, əlimizə qalın əlcək taxmaqdır.*

*Kamil bir az başını qaşıdı, sonra ağlına yaxşı bir fikir gəlmiş adamlar kimi şəhadət barmağını göyə tutub dilləndi:*

*– Mənim bununla bağlı xüsusi təklifim var. Uzaqdan idarə olunan robot qol düzəltmək lazımdır ki, həm nərdivanı əvəz etsin, həm də dərdiyi meyvəni yanındakı qutuya yığsın. Tikanlardan da əziyyət çəkmərik. Beləliklə, rahatca oturub nar yeyərik!*

*– Hə, niyə də olmasın, – deyərək Elmcan baba da uşaqlarla birlikdə gülməyə başladı. Sonra uşaqlara verdiyi suala belə cavab verdi:*

*– Bütün bunlar gözəl fikirlərdir. Amma, məncə, hər şeydən əvvəl, öz həyətində nar dərə bilmək üçün həyətə nar ağacı əkmək lazımdır.*

*Bu səfər əvvəlkindən də gur gülüşlər hündürdən düşüb parçalanan nar dənələri kimi ətrafa səpələndi. Elmcan babanın meyvəli həyətinin hər bir küncündə uşaqların şən səsləri eşidildi.*

“Təbəssüm” 10-11, 2022

**QEYD.** Müəllim dinləmə mətni əsasında şagirdlərə əlavə suallar verməkdə sərbəstdir. Bu suallar mətnin tərkib hissələrinin necə əlaqələnməsi ilə, tərkib hissələri əlaqələndirən cümlələrlə bağlı, hadisələrin məntiqi ardıcıllığı və s. ilə bağlı ola bilər.

**2-ci addım.** Şagirdlərə dərsliyin 148-149-cu səhifələrindəki tapşırıqları icra etmək tapşırılır. Tapşırıqlar iş vərəqlərində verilsə, yaxşı olar. Tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiqdir. Tapşırıqları icra etmək üçün şagirdlərə 10-15 dəq. vaxt verilir.

Cavablar aşağıdakı üsullardan istifadə edilməklə yoxlana bilər:

- Müəllim cavabları səsləndirir, şagirdlər yoxlayır və nəticələri deyirlər.
- Müəllim tapşırıqları yığıb yoxlaya, növbəti dərsdə nəticələrini elan edə bilər.
- Şagirdlər yazılarını öz yoldaşları ilə dəyişir, müəllim cavabları səsləndirir, şagirdlər cavablarının düzgün olub-olmadığını məyyən edirlər.
- Şagirdlərdən bir-iki nəfər seçilir. Hər şagird 5 cavabı deyir, digər şagirdlər yoxlayır, müəllim düzgün olub-olmadığını söyləyir.
- Müəllimin seçimi əsasında bir şagird oxuyur. müəllim düzgün olub-olmadığını söyləyir, digərləri cavabları qeyd edirlər.

**3-cü addım.** Müəllim şagirdlərə *“Ətraf mühitin mühafizəsi dedikdə nə başa düşürsünüz?”, “Ətraf mühitin mühafizəsi n üçün vacibdir?”, “Ətraf mühiti necə qorumaq olar?”, “Bunun üçün nə etmək lazımdır?”* sualları ilə müraciət edilir. Şagirdlərin cavabları dinlənilir, dərsliyin 149-cu səhifəsindəki material oxunur.

**4-cü addım.** “Təmiz hava-sağlam insan” mətninin məzmunu yada salınır. Müəllim bunun üçün iki yanaşmadan istifadə edə bilər:

- Sual-cavab vasitəsilə mətnin məzmunu yada salınır.
- Şagirdlərdən bir neçəsi mətnin məzmununu danışır.

Oxu və dinləmə mətninin məzmunlarının müqayisəsi ilə bağlı şagirdlərə suallar verə bilər.

**5-ci addım.** 13 tapşırıq üzərində kollektiv iş formasından istifadə edilməklə iş aparılır. Şəkillər vasitəsilə şagirdlər *“Yaşıllığı qorumaq, onun sayını artırmaq lazımdır”* qənaətinə gəlirlər.

**6-cı addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 14-18-ci tapşırıqlar üzərində iş aparılır. Tapşırıqların vaxta qənaət etmək üçün cütlərlə iş formasından istifadə edilməklə aparılması tövsiyə edilir.

Şagirdlər təqdimat edərkən, sualları cavablandırarkən onların nitqinə, fikirlərini aydın ifadə etmək bacarığına, söz birləşmələrini və cümlələri düzgün tələffüz etməsinə, əsas fikri diqqətə çatdırmaq üçün məntiqi vurğudan düzgün və yerində istifadə etməsinə müəllim tərəfindən diqqət yetirilir, ehtiyac yarandıqda səhvlər düzəldilir və şagirdlər təlimatlandırılır.

**7-ci addım.** Evə 24-cü tapşırıq verilir. Sorğunun keirilməsi, nəticələrinin təhlili üçün dərslikdə (səh.155) şagirdlərə nümunə və təlimat verilmişdir.

Tapşırığın icrası üçün kiçik qrupların yaradılması məqsədəmüvafuqdir. Dərslikdə təqdimat hazırlamaq üçün müxtəlif adlar verilmişdir. Hər qrup birini seçməklə təqdimat, videoçarx, divar qəzeti, bülleten, buklet və s. hazırlaya bilər. Təqdimar formasını seçmək üçün qruplara sərbəstlik vermək tövsiyə edilir.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 6 Təmiz hava – sağlam insan

**Standartlar:** 2.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.
Ara sözlərdə durğu işarələrindən düzgün istifadə edir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, sorğu-sual

**1-ci addım.** Dərs ev tapşırığının yoxlanması ilə başlayır. Hər bir qrupun təqdimatı dinlənilir, müzakirəsi aparılır, qruplar biri digərinin təqdimatını qiymətləndirir.

| Qiymətləndirilən təqdimat forması | Qiymətləndirmə meyarları | Qiymətləndirmə balları |
|---|---|---|
| "Çirklənmənin qarşısını necə almaq olar?" | Təqdimat vasitəsilə problem təqdim edilə bilir. | |
| | Problemin həlli yolu göstərilir. | |
| | Təqdimatın tərkib hissələri əlaqəlidir. | |
| | Təqdimatın dili sadə və aydındır. | |
| | Hadisələrin ardıcıllığı gözlənilmişdir. | |

| | | |
|---|---|---|
| | Diaqramlar aydındır. | |
| | Təqdimatlar diaqramlar əsasında düzgün tərtib edilmişdir. | |

Müzakirə zamanı şagirdlərin öz mövqelərini əsaslandırmasına, fikirlərini müdafiə etməsinə, bu zaman *mənсə, mən belə hesab edirəm, zənnimcə, şübhəsiz və s.*bu kimi ifadələrdən istfadə etməsinə şərait yaratmaq, bunun üçün yeri gəldikcə *"Siz necə hesab edirsiniz?", "Sizcə, yoldaşınız niyə belə hesab edir?" və s. bu tipli suallardan istifadə edir.*

**2-ci addım.** 19 və 20-ci tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə icra edilir.

**3-cü addım.** Əvvəlki illərdə öyrənilənləri təkrarlamaq üçün aşağıdakı tapşırıq modellərindən istifadə etmək olar.

**Cədvəl 1**

◆ Verilmiş sözləri cədvələ düzgün yerləşdirin. *(Sözlərin sayını artırmaq olar)*

*üçün, amma, hə, yəqin, axı, nəhayət, yox, və, əlbəttə, bəlkə, lakin, üçün,mənсə, deməli,bəli, xeyir*

| Qoşma | Ədat | Bağlayıcı | Modal sözlər |
|---|---|---|---|
| | | | |

**Sxem 1**

◆ Nöqtələrin yerinə sağ sütundakı ifadələrdən uyğun olanını yazmaqla sxemi tamamlayın.

| | |
|---|---|
| ... , gözlədiyimiz gün gəlib çatdı. | Lakin |
| ... mən bunu niyə bilmirəm? | üçün |
| ... yaralı olduğunu gizlətmiş, daha iki gün döyüşmüşdü. | Nəhayət |
| Kitablarımı yığmaq ... rəflər düzəltdim. | Bəs |

Tapşırıqların icrasından sonra müəllim şagirdlərə həmin sözlərin ifadə etdiyi məna ilə bağlı suallar verə bilər. Məs: *"Üçün sözü hansə məna şaları bildirir?", "Sizcə, hansı söz ikrə münasibət bildirir?" və s.*

**4-cü addım.** 21-ci tapşırıq üzərində iş aparılır. Tapşırıq ara sözləri öyrətmək üçün motivasiya xarakterlidir.

**5-ci addım.** Müəllim ara sözlər haqqında məlumat verir, izahını müxtəlif nümunələrlə əsaslandırır. Şagirdlərə ara sözlərin məna növlərinin öyrədilməsinə ehtiyac yoxdur. Sadəcə, onlar bu sözləri tanımalı,

işlənmə yerinə görə *(sözün əvvəlində, ortasında və axırında)* durğu işarələrindən düzgün istifadə etməyi bacarmalıdırlar. Dərsliyin 154-cü səhifəsində ara sözlərlə bağlı məlumat verilmişdir.

**6-cı addım.** 22 və 23-cü tapşırıqlar üzərində iş aparılır. 23-cü tapşırıqda ara sözlərlə əsas nitq hissələrini fərqləndirmək üçün şagirdlərə həmin sözlərə sual verməsi tövsiyə edilir.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 7 Kiçik summativ qiymətləndirmə

**Standartlar:** 2.1.3., 4.1.3.

**Təlim nəticələri:**

Müxtəlif fikirləri ümumiləşdirir.

Ara sözlərdə durğu işarələrindən düzgün istifadə edir.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, sorğu-sual

### Bir damla su

Mən bir damla suyam. Qardaşlarımla birlikdə Nil çayında yaşayıram. Bir gün səyahətə çıxdıq. Şəhərlərdən, meşələrdən, səhralardan ötüb keçdik.

Bir gün milyonlarla sakini, saysız-hesabsız zavodları, evləri və mağazaları olan böyük bir şəhərdən keçirdik. Şəhərin kənarından keçən çayın sahilində bir gənc oturub həyat yoldaşı ilə söhbət edirdi. O, həyat yoldaşından soruşdu:

– Görəsən, bu çayın suyu övladlarımıza, nəvələrimizə içmək, sənayedə və əkinçilikdə işlətmək üçün kifayət edər? İnsanların sayı çoxalıb, sular isə artmayıb.

Yoldaşı dedi:

– Bəs nə etmək lazımdır?

Gənc cavab verdi:

– Biz nizam-intizama ailəmizdən başlamalıyıq.

Eşitdiklərimə sevindim. Öz-özümə dedim: "Kaş bütün insanlar belə fikirləşəydi".

Səyahətə davam etdik. Çayda üzəndə gördüm ki, balıqlar hirsli-hirsli, boğula-boğula ora-bura vurnuxur. Qardaşımdan bunun səbəbini soruşanda o, sahildəki zavodu göstərib dedi: – Zavod çaya zəhər və parçalanan maddələrlə dolu qara su axıdır. Zəhərli tullantılardır. Bu tullantılar bizim rəngimiz çirkləndirəcək, insanlar da bizi içməkdən, bizdən istifadə etməkdən imtina edəcək.[1]

Tələsik o yerdən uzaqlaşdıq.

Əkin sahələrin suvarmaq fikri ilə torpağa düşdük. Ancaq əkinçinin səpdiyi gübrələri, dərmanları özümüzlə torpağın altına apardıq və qardaşlarımla birlikdə yenidən çirkləndik. İndi insanlardan tələb etməliyik ki, bizi gündəlik həyatlarında istifadə etdikdən sonra təmizləsinlər. Biz də onların sağlamlıqlarını qoruyaq.

Çaşbaş qalmışdım... “**Görəsən,** qardaşlarımla birlikdə haraya gedək ki, çirklənmədən xilas olaq?”

**Nəhayət,** tullantıları çaya axıdan insanlardan uzağa, yerin dibinə qaçmaq fikrinə gəldim. Torpağın qatlarına endim.[2]

Yerin altında saf su damcılarından olan qardaşlarımla xoşbəxt idim. Ancaq görürdüm ki, yerin təbəqələrini çirkləndirirəm.[3] Axtarışa çıxdıq.

Biz su nasosu olan su quyusuna çatdıq. Bir qadın içmək və pal-paltar yumaqdan ötrü vedrə ilə bizi yuxarı qaldırmağa başladı. Lakin xeyli duz, gübrə və dərman həll etdiyimizə görə o qadın bizi içmədi və yalnız yuma işlərində istifadə etdi.

Mən insanların hər yerdə, hər zaman suya atdıqları zəhərli və zərərli maddələrin təsirinin qarşısını almaq üçün bir iş görmək istədim. Qərara gəldim ki, qardaşlarımla birlikdə süzüldüyüm sutəmizləmə stansiyasına gedim. Burada çalışanlarla birlikdə qərara gəldik: – Çayı, kanalı, gölləri çirkləndirən insanlar tullantıları bizim yanımıza atmamışdan öncə təmizləməlidirlər! Belə etsələr, biz təmiz qalarıq.

Çox xoşbəxt idim. Düşündüm: “Bundan sonra təmiz olacağam və insanlar, heyvanlar mənə görə təhlükəli xəstəliyə tutulmayacaqlar. Mən yenidən həyat mənbəyi olacağam”.

*“Uşaq bilik portalından”*

**1.** Mətndə danışılır:
A) suyun təmizlənməsindən
B) suyun təmizliyindən
C) suyun tədricən azalmasından
D) çirklənmiş suyun törətdiyi problemlərdən
E) suyun çirklənməsindən

**2.** Aşağıdakı suallardan birini mətnə aid etmək olar:
A) Su necə təmizlənir?
B) Su necə çirklənir?
C) Su başlanğıcını haradan götürür?
D) Su Yer səthinin neçə faizini təşkil edir?
E) Suyun həcmi nə qədərdir?

**3.** Mətnə əsasən tərkib hissələri müəyyən edin:




**4.** Mətnə əsasən sxemi tamamlayın.




**5.** *“Yolboyu yerin təbəqələrində olan duzları əritdim və bitkilərin kökünə bu duzlardan bir qədər verdim. Qalan hissəsi isə yerin təbəqələrində bir su məcrasına çatanadək mənimlə qaldı”* cümlələrini nömrələnmiş hansı abzasa əlavə etmək olar? ____________________________________________

**6.** Mətndə gənc oğlanın dediyi *"Biz nizam-intizama ailəmizdən başlamalıyıq"* dedikdə nələri nəzərdə tuturdu?

1. ______________________________________________
2. ______________________________________________
3. ______________________________________________

**7.** Mətnə əsasən su damlasının, ən azı, iki xüsusiyyətini yazmaqla cümləni tamamlayın.

*Su damlası* ______________________________________________

**8.** Mətndə fakt varmı? Əgər faktın olduğunu hesab edirsinizsə, onları yazın.

1. ______________________ 2. ______________________

**9.** Cədvəli tamamlayın.

| Səbəb | Nəticə |
|---|---|
| Su təmizdir. | 1.<br>2.<br>3. |
| Su çirklidir. | 1.<br>2.<br>3. |

**10.** Mətndəki əsas fikri müəyyən edin.

**11.** Mətn üçün açar söz müəyyən edin.

**12.** Sözlərin əks mənasını müəyyən edin.

*çoxalmaq* → ?
*xəstəlik* → ?
*şad* → ?
*uzaq* → ?

**13.** Bunlardan biri *səhra* sözünün izahıdır:
- ağaclardan ibarət quru sahə
- bitki və heyvanların az olduğu çox isti sahə
- əsasən, düzənlik və alçaq təpəliklərdən ibarət sahə

**14.** Sözlərin leksik mənasını izah edin.

*zəhərli* → 
*zərərli* → 

**15.** *Düşmək* sözünü aşağıdakı mənalarda cümlədə işlədin.
- harasa enmək
- nədənsə xoşu gəlmək

**16.** *Gənc* və *cavan* sözlərinin yaxınmənalı olduğunu nümunələrlə əsaslandırın.

**17.** Cümləni tamamlayın.
*Tünd şriftlə verilmiş sözlər* ____________________ *adlanır.*

**18.** Mətndə altından xətt çəkilmiş cümlədə vergüllərin işlənmə səbəbini yazın.

**19.** Birinci abzasın birinci cümləsində işlənmiş *mən* sözü hansı cümlə üzvüdür?

**20.** Cümləni tamamlayın.
*Mənə görə, su ......*

# 8 Çörək

**Standartlar:** 3.1.3., 4.1.2.

**Təlim nəticələri:**
Oxuduğu mətnə münasibət bildirir.
Şəkli təsvir edərək mətnə əlavələr edir.

**İş forması:** kollektiv, cütlərlə

**İş üsulu:** debat, müzakirə, fasiləli oxu

**1-ci addım.** Müəllim dərsə debat üsulundan istifadə etməklə başlaya bilər. Debatın *("Dəyişiklik evdən başlayır")* mövzusu dərslikdə verilmişdir. Əvvəlki illərdə şagirdlər tərbiyənin əsasının ailədə qoyulduğu, sonrakı mərhələdə ailə və məktəbin birgə əməkdaşlığı ilə tərbiyəvi işlərin davam etdirilməsi ilə bağlı mətnlərlə tanış olmuş, sorğular keçirmiş, müzakirələr aparmışlar. Şagirdlər bu debatla əvəlki illərdə öyrəndiklərinə nəzər salmaqla yanaşı, qənaət və israf məsələlərinə diqqət yetirəcək, qənaət etməyin də ailədə öyrənildiyi ilə bağlı müzakirə aparacaqlar. Qənaət məsələləri ilə yanaşı, təbiətin və ətraf mühitin tullantılarla çirklənməməsi üçün atılacaq addımlar da müzakirə mövzusu olmalıdır.

Debata istiqamət vermək üçün müəllim müvafiq suallardan da istifadə edə bilər: *"Qənaət nə deməkdir?", "Qənaət üçün nə etmək lazımdır?", "Qənaət etmək nəyi dəyişə bilər?", Tullantılarla çirklənmə nə deməkdir?", "Tullantılardan necə səmərəli istifadə etmək olar?" və s.*

Müzakirənin sonunda şagirdlərə *"Sizin ailədə qənaət necə təşkil edilir?", "Nəyə daha çox qənaət olunur?", "Kim daha çox qənaət edir?", "Qənaət ailənizdə nəyə səbəb olur?", "Qənaət edərək nəsə əldə etmisinizmi?"* və s. suallar verilir. Debat yekunlaşdırılır.

**2-ci addım.** Daha sonra "Çörək" mətninin oxusu təşkil edilir. Müəllim planlaşdırdığı dərsdən asılı olaraq oxunun uyğun növündən istifadə edə bilər. Proqnozlaşdırılmış, yaxud fasiləli oxudan istifadə et-

mək olar. Şagirdlərə suallarla müracitə edilir: *"Sizcə, mətndə nədən danışılacaq?", "Çörəyə qənaət etmək nə deməkdir?", "Çörəyə nə üçün qənaət etmək lazımdır?" və s.*

Orfoqrafiya, orfoepiya, vurğu tapşırıqları oxudan əvvəl yerinə yetirilir. Mətnin bir hissəsi oxunur, 156-cı səhifədəki tapşırıq yerinə yetirilir. Mətnin ardını *"Ayaq altında bir qırıq çörək də yoxdur"* cümləsi ilə tamamlamaq olar.

**3-cü addım.** Mətnin ardı oxunur. Lazım gələrsə, müəllim müəyyən abzaslardan sonra suallar verə bilər:

- *"Gedin əlinizi tərtəmiz yuyun, mən də evdə süfrə salım, gəlin oturun, çörəyi orda yeyin"* cümləsindən sonra *"Sizcə, ana düzgünmü hərəkət edir?", "O nə üçün belə hərəkət edir?";*
- *"Ölkədə heç kəs təndir çörəyi bişirməsin. Hamı yalnız yuxa, nazik lavaş, sac çörəyi bişirib yesin"* cümləsindən sonra *"Padşahın belə qərar verməkdə məqsədi nə idi?*

**4-cü addım.** Dərsliyin 157-ci səhifəsində verilmiş şəkil üzərində iş aparılır. Müəllim seçimi əsasında şəklin təsvirini şifahi, yaxud yazılı şəkildə apara bilər. Kiçik qruplarla iş formasından istifadə etmək olar. 6-9 cümlə yetərlidir.

**5-ci addım.** Kollektiv iş üsulundan istifadə edilməklə 1-4-cü tapşırıqlar üzərində iş aparılır.

1-ci tapşırıq aşağıdakı kimi tamamlanır: *1-ci xanaya giriş, 2-ci xanaya əsas, 3-cü xanaya nəticə hissə ifadəsi yazılır.*

5-ci tapşırığın 1-ci, tam hissəsi oxunur, müzakirə təşkil edilir. 2-ci hissəsini tamamlamaq evə tapşırılır.

**6-cı addım.** 6-cı tapşrıq cütlərlə iş formasından istifadə edilmələ tamamlanır. 7-ci tapşırıq üzərində iş aparılır və mövzu yekunlaşdırılır.

**7-ci addım.** Evə şagirdlərin bilik və bacarıqları nəzərə alınmaqla müxtəlif tapşırıqlar verilə bilər;

- *"Qənaət və israf"* mövzusunda təqdimat hazırlamaq;
- 15-ci tapşırıq
- "İlk çörək. O necə hazırlanmışdır?" mövzusunda təqdimat hazırlamaq;
- "Çörək mətni əsasında şəkil çəkmək
- "Bütün dünya bir aləmdir" mövzusunda inşa yazmaq, buklet hazırlamaq və s.

Tapşırıqlar cütlərlə və ya kiçik qruplarla icra edilə bilər.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 9 Çörək

**Standartlar:** 2.1.1., 2.1.4., 3.1.1.

**Təlim nəticələri:**

Söz birləşmələrini düzgün tələffüz edir.
Tərkib hissələr arasındakı əlaqəni gözləməklə məzmunu danışır.
Mətndəki ifadələrin mənasını izah edir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** müzakirə, sual-cavab

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Şagirdlərin təqdimatı dinlənilir, münasibət bildirilir. Təşkil edilən müzakirələrdə qrupların *(fərd və ya cütlərin)* təqdimatına, fikrilərini ifadə etməsinə, nitqinin səlisliyinə, söz və cümlələrin düzgün tələffüzünə, əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğulu sözlərdən yerində və düzgün istifadəyə və s. diqqət yetirilir. Qrupların bir-birinin fəaliyyətini və təqdimatını qiymətləndirməsi də məqsədəmüvafiqdir. Bunun üçün vəsaitin giriş hissəsində və əvvəlki dərslərdə müxtəlif nümunələr verilmişdir.

**2-ci addım.** "Çörək" mətninin məzmunu şagirdlər tərəfindən nəql edilir. Müəllim bunun üçün iki yanaşmadan istifadə edə bilər:

- Sual-cavab vasitəsilə mətnin məzmunu yada salınır.
- Şagirdlərdən bir neçəsi mətnin məzmununu danışır.

Şagirdlərə *""Çörək, hekayəsini bəyəndinizmi?", "Nə üçün?", "Dqqətinizi çəkən nə oldu?"* sualları ilə müraciət edilir.

**3-cü addım.** Cavablar ümumiləşdiriləndən sonra mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 8-9-cu tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar cütlərlə iş formasından istifadə edilməklə aparılması tövsiyə edilir. Lazım gələrsə, müəllim əlavə tapşırıqlar hazırlaya bilər.

**4-cü addım.** 10-11-ci tapşırıqlar üzərində iş aparılır. 10-cu tapşırıq əvvəlki illərdə mürəkkəb sözlərin yazılışı ilə bağlı öyrənilmiş qaydaları təkrarlamaq üçündür. Tapşırığın cütlərlə iş formasından istifadə edilməklə aparılması məqsədəmüvafiqdir. 11-ci tapşırıq ara sözlərdə durğu işarələrinin işlənməsini öyrənmək üçün motivasiya xarakterlidir. Bu tapşırıq vasitəsilə şagirdlər həm ara sözlər haqqında öyrəndiklərini xatırlayır, həm də bu sözlərdən əvvəl və sonra durğu işarələrinin işlənməsi ilə bağlı ilkin biliklərə malik olurlar.

**5-ci addım.** Müəllim ara sözlərdə durğu işarələrinin işlənməsi ilə bağlı şagirdlərə məlumat verir, fikirlərini nümunələrlə əsaslandırır. Şagirdlərə ara sözlərin işləndiyi müxtəlif cümlələr verməklə vergül işarəsinin düzgün qoyulmasını tapşıra bilər.

**6-cı addım.** 12-ci tapşırıq kollektiv, 13-14-cü tapşırıqlar isə fərdi iş formasından istifadə etməklə yerinə yetirilir. Tapşırıqlar yoxlanır. Cavablar aşağıdakı üsullardan istifadə edilməklə yoxlana bilər:

- Müəllim cavabları səsləndirir, şagirdlər yoxlayır və nəticələri deyirlər.
- Müəllim tapşırıqları yığıb yoxlaya, növbəti dərsdə nəticələrini elan edə bilər.
- Şagirdlər yazılarını öz yoldaşları ilə dəyişir, müəllim cavabları səsləndirir, şagirdlər cavablarının düzgün olub-olmadığını məyyən edirlər.
- Şagirdlərdən bir-iki nəfər seçilir. Hər şagird 5 cavabı deyir, digər şagirdlər yoxlayır, müəllim düzgün olub-olmadığını söyləyir.
- Müəllimin seçimi əsasında bir şagird oxuyur. müəllim düzgün olub-olmadığını söyləyir, digərləri cavabları qeyd edirlər.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 10 Dayanıqlı inkişaf

**Standartlar:** 1.1.2., 2.1.1., 2.1.3., 3.1.3.

**Təlim nəticələri:**

Videosüjetdəki faktları ümumiləşdirir.
Cümlələri düzgün tələffüz edir.
Müxtəlif fikirləri ümumiləşdirir.
Oxuduğu mətndəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** söz assosiasiyası (klaster, yaxud anlayışın çıxarılması), qeydlər götürməklə oxu, fasiləli oxu

**1-ci addım.** Dərs müxtəlif üsullardan istifadə edilməklə başlaya bilər:

- Mətnin adına münasibət bildirmək, "Dayanıqlı inkişaf nədir?", "Sizcə, bu mətn niyə belə adlandırılmışdır?" suallarından istifadə etmək və yığcam müzakirə təşkil etməklə;
- Söz assosiasiyası üsulundan istifadə etməklə "Dayanıqlı inkişaf haqqında hansı məlumata maliksiniz?", "Dayanıqlı inkişaf dedikdə nə başa düşürsünüz?" sualları ilə şagirdlərə müraciət edib yığcam müzakirə təşkil etməklə;
- Mövzu ilə bağlı sxem əsasında müzakirə təşkil etməklə;




Əgər sinifdə "ağıllı lövhə", mimio qurğu və s. varsa, bu sxemdən istifadə etmək daha məqsədəmüvafiqdir. Bu halda sxem şagirdlərin diqqətinə çatdırılır, şagirdlər fərziyyələrini söylədikcə müəllim sual işarələrinin yerində qeydlər edir, yaxud şagirdlərin fərziyyələrindən sonra sual işarələrinin yerində yazılmış cavablar nümayiş etdirilir.

Sual işarələrinin yerində *suyun çirklənməsi, havanın zəhərli qazlarla çirkləndirilməsi, torpağın tullantılarla "zənginləşdirilməsi", içməli su ehtiyatının tükənməsi, təbii ehtiyatların tükənməsi, ekoloji böhran, dəniz canlılarının tullantılar nəticəsində sürətlə azalması* və s. ifadələrin olması məqsədəmüvafiqdir.

Daha sonra şagirdlərə *"Sizcə, bu problemləri necə aradan qaldırmaq olar?", "Bunun üçün nə etmək lazımdır?"* suallarla və müzakirə nəticəsində yaranan və verilməsi zəruri hesab edilən suallarla müarciət etmək olar.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin *"Bizim siyasətimiz uzunömürlü siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişafı haqqında düşünürük"* fikrinin müzakirəsini təşkil etməklə. Bunun üçün şagirdlərə *"Uzunömürlü siyasət dedikdə nə başa düşürsünüz?", Prezident diqqəti nə üçün ölkənin gələcəyinə çəkir?", "Dayanıqlı inkişaf nədir?", "Nə üçün dayanıqlı inkişaf haqqında düşünmək lazım gəlir?"* suallarından istifadə etmək olar.
- Dərsliyin 162-ci səhifəsində bələdçi obrazların dialoqunu oxumaq və müzakirə təşkil etməklə;

**Qeyd.** Üsul seçilərkən imkanlar və şagirdlərin səviyyəsi nəzərə alınmalıdır.

**2-ci addım.**

Mətnin oxusu təşkil edilir. Oxu növünü seçməkdə müəllim sərbəstdir. Qeydlər götürməklə oxu və fasiləli oxudan istifadə etmək olar. *"Biz problemin öhdəmizə düşən hissəsini yerinə yetirməliyik"* cümləsindən sonra şagirdlərə dərsliyin 163-cü səhifəsində verilmiş sualla şagirdlərə müraciət edilir. Şagirdlərin fərziyyələri dinlənilir.

Sualın yazılı şəkildə cavablandırılması da mümkündür. Aşağıdakı sxem və ya cədvəldən istifadə etmək olar.

**Sxem 1** *(Sual işarələrinin yerində şagirdlər öz fərziyyələrii yazırlar)*




**Cədvəl 1**

| Dayanıqlı inkişafı təmin etmək üçün üzərimizə düşən vəzifələr | Nəticəsi |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

**3-cü addım.** Mətnin oxusu davam etdirilir. Müəllim oxunan mətnlə bağlı şagirdlərə suallarla müraciət edə bilər. Yaxud bir neçə şagirdə öz yoldaşlarına mətnlə bağlı suallarla müraciət etməyi tapşıra bilər. B, yəni verilən suallar və alınan cavablar mətnin şagirdlər tərəfindən nə qədər diqqətli oxunmasını müşahidə etməklə yanaşı, onların anlam səviyyəsini də müəyyən etməyə imkan verər.

**4-cü addım.** Dərsliyin 163-cü səhifəsində verilmiş şəkillər üzərində iş aparılır. İlk növbədə, şagirdlərdən şəklə diqqətlə baxmaları, şəkil əsasında qeydlər apamağı, onun mətnlə əlaqəsini müəyyən etmək tapşırılır. Tapşırığın müəllimn seçimi əsasında cütlər, yaxud qruplarla *(kiçik, yaxud böyük)* aparılması məqsədəmüvafiqdir. Daha sonra şagirdlərə *"Siz hansı dünyada yaşamaq istəyirsiniz?", "Fikrinizi necə əsaslandırarsınız?", "Seçdiyiniz dünyanın özəllikləri nədir?"* və s. suallarla müraciət edilir.

**QEYD.** Əgər sinifdə fərqli düşüncəyə, dünyagörüşünə malik olan, yaxud fikirlərini şifahi şəkildə bildirməyə çətinlik çəkən şagirdlər varsa, onlara fikirlərini fərdi qaydada yazılı şəkildə təqdim etmək tapşırıla bilər.

**5-ci addım.** https://www.youtube.com/watch?v=0acNoI1SFww *("Dayanıqlı inkişaf nədir?")*; https://www.youtube.com/watch?v=6qJ_KGqZpkw *("Dayanıqlı inkişaf məqsədləri")* linklərinin hər hansı birindən istifadə edərək yığcam müzakirə təşkil edilir.

**QEYD.** Müəllim planlaşdırdığı dərsdən asılı olaraq təqdim olunan linklərdən hər hansı birindən dərsin müxtəlif mərhələlərində istifadə edə bilər.

**6-cı addım.** 166-cı səhifədəki 1-4-cü tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə aparıla bilər.

**7-ci addım.** Evə 168-ci səhifədə verilmiş şəkil üzərində iş aparmaq tapşırılır.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 11 Dayanıqlı inkişaf

**Standartlar:** 2.1.3., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

- Müxtəlif fikirləri ümumiləşdirir.
- Mətnin məzmununu danışır.
- Müzakirələr əsasında əldə etdiyi məlumatlara münasibt bildirir.

**İş forması:** kollektiv, böyük qruplarla

**İş üsulu:** müzakirə, sual-cavab, BİBÖ

**1-ci addım.** Dərs ev tapşırığını yoxlanması ilə başlaya bilər. Seçmə yolla bir neçə şagird yazısını oxuyur, müəllim və sinif yoldaşlarının oxunmuş yazıya münasibəti bildirilir. Şufahi nitq zamanı şagirdlərin oyektiv fikirlər səsləndiriməsinə, məntiqi vurğuya, söz və cümlələrin düzgün tələffüzünə diqqət yetirilir. Müəllim *"Yoldaşınızın yazısında diqqəti çəkən məqamlar hansılar idi?", "Fikirlər sizi qane edirmi?", "Tapşırıqda qoyulan tələblər (həmcins üzvlü cümlələrdən və ara sözlərdən istifadə) öz əksini tapıbmı?"* və s. suallardan istifadə edə bilər.

Digər şagirdlərin yazıları isə yığılır, yoxlanır və növbəti dərsdə nəticələri elan olunur.

**2-ci addım.** "Dayanıqlı inkişaf" mətninin məzmunu bir neçə şagird tərəfindən danışılır. Müəllim məzmunun şagirdlər tərəfindən tərkib hissələri düzgün əlaqələndirmək şərtilə yığcam şəkildə danışmasına diqqət yetirməlidir. Yaxşı olar ki, mətnin məzmunu öz yazısını oxumayan şagirdlər tərəfindən nəql edilsin. Belə olan halda, daha çox şagird tədris prosesinə cəlb edilmiş olur.

**3-cü addım.** 164-165-ci səhifələrdə verilmiş sxem üzərində iş aparılır. Şagirdlərə *"Sxemə diqqət yetirin, orada verilmiş fikirləri oxuyun"* tapşırığı verilir. Hər bir prinsiplə bağlı şagirdlərə suallar (Məsələn; *"Aclığa son dedikdə nə başa düşürsünüz?"*, *"Gender bərabərliyi nə deməkdir?"*, *"Suyun təmizliyi üçün nə lazımdır?"*, *"Siz bu fikirlərlə azısınızmı?"* və s.) ünvanlanır və onların fikirləri öyrənilir. Planlaşdırılan dərsdən asılı olaraq sxem üzərində iş böyük qruplarla da aparıla bilər. Qruplar sxem üzərində işləyir, qeydlərini aparır və növbə ilə sxemlə bağlı fikirlərini şərh edirlər. Prinsiplərin şərti işarələrinə diqqət yetirilir. Qrupların təqdimatı bitdikdən sonra onlara *"Əlavə etmək istədiyiniz hər hansı bir fikir, təklif varmı?"* sualı verilir və müzakirə aparılır.

Bu mərhələdə BİBÖ üsulundan istifadə etmək olar. Müəllim müzakirələrə başlamazdan əvvəl şagirdlərə "Dayanıqlı inkişafın prinsipləri haqqında hansı məlumata maliksiniz?" sualı ilə müraciət edir, onların fikirləri cədvəlin birinci xanasında qeyd olunur. Qrupların təqdimatı birdikdən sonra 3-cü xana doldurulur.

**4-cü addım.** Daha sonra şagirdlərə *(qruplara)* 164-cü səhifədə, göy çərçivənin içindəki tapşırıqlar verilir və müzakirə təşkil edilir.

**5-ci addım.** 166-cı səhifədə verilmiş araşdırma xarakterli tapşırıq üzərində iş aparılır. Tapşırıq böyük qruplarla iş formasından istifadə edilməklə və 15 dəqiqə vaxt verilməklə icra edilir. Şagirdlər işlərini təqdim edirlər.

**6-cı addım.** 5-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın şifahi şəkildə də aparılması mümkündür. Hər qrup öz fikrini söyləyir, mövzu ilə bağlı fikirlər ümumiləşdirilir.

**7-ci addım.** 15-ci tapşırıq evə verilir. Sinifdə müzakirə, mövzu ilə bağlı ümumiləşmə, nəticənin çıxarılması əhatəli və dolğun olarsa, şagirdlər tapşırığı icra etməkdə çətinlik çəkməyəcəkər.

Evə mövzu ilə bağlı rəsm çəkilməsi, hər hansı bir prinsipı seçməklə divar qəzeti, bklet, bülleten və s. hazırlamaq tapşırıla bilər.

**QEYD.** 165-ci səhifədə "Təbiət üçün" adlı aksiyanın keçirilməsi ilə bağlı istiqamət verilmişdir. Yaxşı olar ki, bu aksiyanın müəllimin əvvəlcədən planlaşdırdığı bir vaxtda keçirilməsi üçün hazırlıq işləri əvvəlcədən görülsün. Yaxşı olar ki, aksiya məktəbin 8-11-ci sinif şagirdlərinin iştirakı ilə birgə keçirilsin.

**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 12 Dayanıqlı inkişaf

**Standartlar:** 3.1.3.,4.1.3., 4.1.4.

**Təlim nəticələri:**

Sözləri sintaktik vəzifəsinə görə fərqləndirir.
Ara sözlərdə vergül işarəsindən düzgün istifadə edir.
Protokol yazır.

**İş forması:** kollektiv, böyük, yaxud kiçik qruplar

**İş üsulu:** müzakirə, sual-cavab

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlaya bilər. Tapşırıqlar yoxlanır, müzakirə edilir, lazım gələrsə, yaxud ehtiyac yaranarsa, müvafiq istiqamət verilir, əlavələr edilir, şagirdlər qiymətləndirilir. Qiymətləndirmə cədvəlini hazırlamaqda müəllim sərbəstdir. Cədvəln və meyarların hazırlanması evə verilən tapşırıqlardan, onların formasından asılıdır.

**2-ci addım.** Mətnin lüğət tərkibi üzərində iş aparmaq üçün 6-9-cu tapşırıqlar üzərində iş aparılır. Tapşırıqlar müəllimin seçimi əsasında istəilən iş formasından istifadə edilməklə aparıla bilər. Bu tapşırıqları yerinə yetirəndə şagirdlərə izahl lüğətin təqdim edilməsi məqsədəmüvafiq hesab edilir. Bu, tapşırıqların daha sürətli və çevik yerinə yetirilməsini təmin etməklə yanaşı, onlarda izahlı lüğətlə işləmək, lazımi sözlərin izahının daha tez tapılmasını təmin edən bacarıqların formalaşdırılmasına imkan yaradar.

**3-cü addım.** Şagirdlərə aşağıdakı məzmunda tapşırıq verilir:

*Təsəvvür edin ki, müvafiq sahədə (Məsələn; Yaşıllaşdırma idarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və s.) çalışırsınız . Hər hansı bir ərazidə bir neçə ağacın kəsildiyini görürsünüz. Bu məsələ ilə əlaqədər ptotokol tərtib etməlisiniz.*

Həmin protokolu tərtib edin.

Bu tapşırığın böyük, yaxud kiçik qruplarla icrası müəllimin planlaşdırdığı dərsdən asılıdır. Tapşırığı icra edə bilmələri üçün protokolla bağlı biliklər xatırlanır, şagirdlərə müvafi suallar verilir: *"Protokol nədir?", "Prototokola verilən tələblər hansılardır?", "Protokolda hansı məsələlər öz əksini tapa bilər?"*

**4-cü addım.** Şagirdlərə tapşırığı icra etmək üçün 15 dəq vaxt verilir. Verilmiş müddət bitdikdən sonra tapşırıqlar yoxlanır, qiymətləndirilir. Aşağıdakı qiymətləndirmə cədvəlindən istifadə etmək olar:

*Nümunə:*

| Qiymətləndirilən yazı forması | Qiymətləndirmə meyarları | Qiymətləndirmə balları |
|---|---|---|
| Protokol | Protokol vasitəsilə problem təqdim edilə bilir. | |
| | Protokol düzgün tərtib edilmişdir. | |

| | | |
|---|---|---|
| | Protokola verilən tələblər gözlənilmişdir. | |
| | Cümlələr sadə, fikir aydındır. | |

**5-ci addım.** 10-13-cü tapşırıqlar üzərində iş aparılır.10-12-ci tapşırıqların kollektiv, 13-cü tapşırığın fərdi qaydada icrası tövsiyə olunur.

**6-cı addım.** 168-ci səhifədə verilmiş şəkil əsasında mətn hazırlamaq ev tapşırığı kimi verilə bilər.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 13 Təbiət ilhama çağırır məni

**Standartlar:** 1.1.2., 2.1.1., 3.1.2., 3.1.3.

**Təlim nəticələri:**

Videosüjetdə faktları ümumiləşdirir.
Cümlələri düzgün tələffüz edir.
Məntiqi vurğudan istifadə etməklə əsas fikri nəzərə çarpdırır.
Oxuduğu şeirdəki fikirlərə münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplar, fərdi

**İş üsulu:** proqnozlaşdırma, ifadəli oxu

**1-ci addım.** Müəllim dərsə müxtəlif yanaşmalardan istifadə etməklə başlaya bilər:

- Ev tapşırığının yoxlanması ilə;
- Siseronun "Təbiətin yaratdıqları sənətin yaratdıqlarından daha mükəmməldir" aforizmindən istifadə edib müzakirə təşkil etməklə;
- Şeirin adına münasibət bildirməklə;
- Proqnozlaşdırmadan istifadə etməklə (*"Sizcə, mətndə nədən danışılacaq?", "Nə üçün belə hesab edirsiniz?, Fikrinizi necə əsaslandırarsınız?" suallarından istifadə etmək olar.)*

https://www.youtube.com/watch?v=XELdGXrZRTY (Ana təbiətin uşaqlara məktubu) linkindən istifadə etməklə.

**2-ci addım.** Orfoqrafiya, orfoepiya və vurğu tapşırıqları üzərində iş icra edilir. Müəllim tapşırığı oxu zamanı da icra etdirə bilər.

**3-cü addım.** *"Təbiətdən yaxşı dizayner yoxdur"* epiqrafı oxunur, əsasında müzakirə təşkil edilir. Şagirdlərə "Nə üçün təbiət dizayner hesab edilir?" sualı ilə müraciət edilir. Sualın cavablandırılması iki yolla təşkil edilə bilər:

- Kollektiv iş formasından istifadə etməklə şagirdlərin cavabları ümumiləşdirilir və şeirin oxusuna keçid edilir.

• Şagirdlərə iş vərəqində aşağıdakı cədvəl təqdim edilir, Şagirdlər fərdi qaydada suala əsasən cədvəlin 1-ci xanasını doldururlar. Lakin cavablar müzakirə edilmir.

Tapşırığın icrası üçün 5 dəq. vaxt yetərlidir.

| **Təbiət nə üçün dizayner hesab edilir?** | |
|---|---|
| *Şeirin oxusundan əvvəl* | *Şeirin oxusundan sonra* |
| 1. | 1. |
| 2. | 2. |
| 3. | 3. |

**4-cü addım.** Şeirin ifadəli oxusu təşkil edilir. Hər bəndin bir şagirdə oxutdurulması məqsədəmüvafiqdir. Oxu zamanı düzgün tələffüz intonasiya, fasilə diqqətdə saxlanır. Ehtiyac yaranarsa, şagirdlərə müvafiq istiqamət verilir.

Şeirin oxusundan sonra dərslikdəki 1, 2 və 4-cü tapşırıq kollektiv iş formasından istifadə edilməklə yerinə yetirilir.

**5-ci addım.** Şagirdlər tərəfindən cədvəlin 2-ci xanası doldurulur. Onlar üst-üstə düşən fikirləri qeyd edir və sualı *( "Nə üçün təbiət dizayner hesab edilir?")* cavablandırırlar. Həm sinif, həm də şagirdlər tərəfindən üst-üstə düşən, yaxud oxşar və ya yaxın fikirlər çox olarsa, sual düzgün cavablandırılmış hesab edilir.

**6-cı addım.** 3-cü tapşırıq müəllimin planlaşdırdığı dərsdən asılı olaraq kiçik qruplar, yaxud cütlərlə icra edilir. Tapşırığın icrası üçün 10 dəq. yetərlidir. Tapşırığı icra etmək üçün şagirdlər "Təbiət ilhamam çağırır məni" şeirinin müvafiq bəndlərinə istinad etməlidirlər.

Verilmiş vaxt bitdikdən sonra şagirdlərin təqdimatı dinlənir, 5-ci tapşırıq icra edilir və mövzu ilə bağlı fikirlər ümumiləşdirilir.

**7-ci addım.** Evə tapşırıq şagirdlərin imkan və bacarıları nəzərə alınmaqla verilir:

• 6-cı tapşırıq

• 7-ci tapşırıq

• 8-ci tapşırıq *(Bu tapşırıq xüsusi istedadı olan şagirdlərə verilə bilər. Tapşırıq cütlər, yaxud qruplar vasitəsilə də icra edilə bilər.)*

• 16-cı tapşırıq *(Tapşırığın icrası üçün dərslikdə nümunə və plan təqdim edilmişdir)*

• Şəkil əsasında inşa yazmaq *(Şəkli şagird özü də seçə bilər)*



**8-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

# 14 Təbiət ilhama çağırır məni

**Standartlar:** 2.1.2., 2.1.3., 2.1.4., 4.1.1.

**Təlim nəticələri:**

Danışarkən məntiqi vurğuya əməl edir.
Mövzu ilə bağlı müxtəlif fikirləri ümumiləşdirir.
Şeirin məzmununu yığcam şəkildə danışır.
Mövzuya münasibətini yazır.

**İş forması:** kollektiv, cütlərlə, fərdi

**İş üsulu:** təqdimat, müzakirə, yazı

**1-ci addım.** Dərs ev tapşırıqlarının yoxlanması ilə başlayır. Şagirdlərin yazıları dinlənilir, müəllim tərəfindən münasibət bildirilir və qiymətləndirilir. Qiymətləndirmə meyarlarını müəllim özü müəyyən edə bilər.

Təqdimat zamanı şagirdlərə situasiyadan asılı olaraq *“Niyə belə hesab edirisiniz?”, “Fikirlərinizi necə əsaslandırarınız?”, “Yoldaşınızın cavabı sizi qane edirmi?, Nə üçün qane edir/ qane etmir?”, “Hansı məsləhəti verərdiniz?”* suallarını verə bilərsiniz. Bu və buna bənzər suallar şagirdləri bir-birinin cavablarını dinləməyə və müxtəlif fikirlərə münasibət bildirməyə kömək edər.

**2-ci addım.** Şeirin lüğət tərkibi üzərində iş aparmaq üçün 9-13 nömrəli tapşırıqlar üzərində iş aparılır. 9-11-ci tapşırıqlar kollektiv iş formasından istifadə edilməklə icra edilir. Şagirdlərin lüğətdən istifadə etməsi diqqətdə saxlanır. Cavablar dinlənir.

**3-cü addım.** 12-13-cü tapşırıqlar cütlərlə iş formasından istifadə edilməklə icra edilir. Tutaq ki, sinifdə 6, yaxud 7 cüt var. 12-ci tapşırıq 3, yaxud 4 cütə, 13-cü tapşırıq digər cütlərə tapşırılır. Cütlər biri digərinə yaxın olmamalıdır.

12-ci tapşırığın icrası üçün dərslikdə nümunə vardır. Tapşırığın icrasına 15 dəq. yetərlidir. Verilən müddət bitdikdən sonra cavablar dinlənir, şagirdlər fikirlərini əaslandırırlar. Eyni tapşırığın müxtəlif cütlər tərəfindən icrası müəllimə şagirdlərin qavrama səviyyəsini, mövzunu dərketmə səviyyəsini, təqdimetmə bacarıqlarını müşahidə və müqayisə etməyə imkan yaradır.

Daha sonra 14-cü tapşırıq şifahi şəkildə yerinə yetirilir. Evə də verilə bilər.

**4-cü addım.** 15-ci tapşırıq üzərində iş aparılır. Tapşırığın fərdi qaydada icrası məqsədəmüvafiqdir. Şagirdlərə istədikləri bəndi, yaxud bəndləri seçməyə icazə verilir. Diqqət yetirmək lazımdır ki, şagirdlər eyni bəndi deyil, müxtəlif bəndləri seçsinlər və məsələyə yaradıcı yanaşsınlar.

Tapşırığın icrası üçün 15 dəq yetərlidir. Əgər məzmun üzərində iş düzgün qurulmuşsa, müzakirələr ətraflı aparılmışa, şagird şifahi nitqini yazıya çevirməkdə çətinlik çəkməyəcəkdir.

**5-ci addım.** Şagirdlər yazılarını təqdim edirlər. Yazılara müəllim və şagirdlər tərəfindən münasibət bildirilir. Münasibət bildirərkən şagirdlərin *“Mən belə hesab edirəm ki, ...”, “Mənə görə, ..”, “... yazısı və fikirləri daha çox xoşuma gəldi, çünki ...”, “Düşünürəm ki, ..”* və s. bu kimi söz və ifadələrdən istifadə etsinlər.

**6-cı addım.** Evə “Təbiəti daha da gözəlləşdirək” adlı televeriliş hazırlamaq tapşırığı verilir.

Müsahibələrin keçirilməsi, televerilişin hazırlanması üçün

Bunun üçün müəllim aşağıdakıları edir:

- Şagirləri qruplara bölur;
  - Qruplardan biri müsahibə götürür, nəticələri ümumiləşdirir.
  - İkncі qrup ümumiləşdirilmiş nəticələr əsasında mətn tərtib edir.
  - Üçüncü qrup televerilişi keçirmək üçün aparıcı, sualları cavablandıracaq şəxsləri *(Şagird, müəllim, valideyn ola bilər. Hər üçünün olması daha yaxşı olardı),* verilişin ardıcıllığını hazırlayır;
- Şagirdlərə tapşırığın icrası üçün istiqamət və tövsiyələr verir;
- Qrupların formalaşdırılmasında iştirak edir;
- Tapşırığın icrasına nəzarət edir.

Müəllim gedişatdan asılı olaraq qarşıya çıxan problemlərin həllində şagirdlərə istiqamət verməli, köməyini əsirgəməməlidir.

Televerilişin keçirilməsi üçün sinif daxilində “studiya” yaratmaq olar. İmkan olarsa, bu dərsə şair, yazıçı, jurnalist, müxbir, yaxud hər hansı bir teleaparıcını dəvət etmək olar.

Bacarığı olan şagird *(yaxud şagirdlər)* televerilişi kamera ilə çəkə bilər. İlin sonunda isə şagirdlərin birillik fəaliyyəti haqqında klip, yaxud videosüjet hazırlaya bilər. Bu, artıq kiçik yaşlarından şagirdlərin müxtəlif peşələrə yiyələnməsinin əsasını qoya bilər.

**7-ci addım.** Şagirdlərin qiymətləndirilməsi təlim nəticələrinə uyğun aparılır.

**15-ci dərs “Təbiəti daha da gözəlləşdirək ”**

Bu dərs televerilişin keçirilməsi ilə şərtlənir.

Tədbir hazırlanma ardıcıllığı ilə keçirilir.

**16-cı dərs**

**Kiçik summativ qiymətləndirmə**